İRADƏ ƏLİYEVA



TARİXİ OÇERK

BƏŞİR BƏY AŞURBƏYOV

və zəmanəsi

İRADƏ ƏLİYEVA

BƏŞİR BƏY AŞURBƏYOV VƏ ZƏMANƏSİ

BAKI – 2021



Əməkdar jurnalist İradə Əliyeva 44 ildir ki, Azərbaycan mətbuatındadır. 1977-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirib. İlk iş yeri Azərbaycan KP MK-nın "Təşviqatçı" jurnalı olub. 1978-ci ildən "Azərbaycan müəllimi" qəzetində ədəbi işçi, tərcüməçi-müxbir, baş müxbir vəzifələrində çalışıb.

1993-cü ildən rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində işləyir. Humanitar siyasət şöbəsinin redaktorudur. "Qızıl qələm", "Həsən bəy Zərdabi" mükafatları laureatıdır.

2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Əməkdar jurnalist fəxri adına layiq görülüb.

2019-cu il may ayının 27-də dövlət başçısının sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

İradə Əliyeva

TARİXİ OÇERK



Б–б. АШУРБЕКОВЪ

BƏŞİR BƏY AŞURBƏYOV VƏ ZƏMANƏSİ

Redaktor: Sani Hacıyev,
tarix üzrə elmlər doktoru, professor

Elmi məsləhətçi: Kamil İbrahimov,
tarix üzrə elmlər doktoru

Rəyçi: Aslan Kənan,
Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin direktoru

Buraxılışa məsul: Günəş Əliyeva

Əliyeva İradə. Bəşir bəy Aşurbəyov və zəmanəsi
Bakı, 2021, 288 səh.

Tarixi oçerk janrında qələmə alınmış kitab XIX əsrin sonu, XX əsrin əvvəllərində yenicə formalaşmaqda olan Azərbaycan milli burjuaziyasının fəal nümayəndəsi, xeyriyyəçi, maarif və mədəniyyət hamisi Bəşir bəy Aşurbəyova həsr edilib.

Bəşir bəyin həyat və fəaliyyətinə kitabda müxtəlif istiqamətlərdən nəzər salınır. Bakının nüfuzlu neft sahibkarlarından biri, mesenat, maarifçi, ictimai-siyasi xadim kimi onun tarixi obrazı yaradılır. Bolşevik repressiyasının qurbanlarından olmuş bu parlaq şəxsiyyət öz zəmanəsinin mürəkkəb ictimai-siyasi mühiti ilə birgə təqdim edilir. Onun ömür yolunu vərəqlədikcə XX əsr Bakısının qaynar mənzərəsi, tarixi həqiqətləri, insan talelərindən keçən çətin sınaqları göz önündə canlanır.

Burada Bəşir bəy Aşurbəyovun qayınatası – görkəmli ictimai-siyasi xadim, zadəgan Allahyar bəy Zülqədərova da geniş yer verilib. Müxtəlif mənbələrdən əldə edilmiş faktlarla zəngin olan bu kitab xalqımızın keçmişi, ayrı-ayrı tarixi şəxsiyyətlərimizin həyatı və mühiti ilə maraqlanan hər kəs üçün faydalı mənbədir.

Əsər tarixçilər, XX əsr Azərbaycan tarixi ilə maraqlananlar, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitab nəşrə hazırlanarkən bizə yaxından köməklik göstərən Dövlət Tarix Arxivinin rəhbərliyinə və əməkdaşlarına dərin təşəkkürümüzü bildiririk.

MÜƏLLİFDƏN

Bəşir bəy Aşurbəyov haqqında çox söhbətlərimiz olmuşdu. Hər dəfə də belə söhbətlərdən sonra bu millətsevər insanın zəngin həyat və fəaliyyətinin üzə çıxan məqamları diqqətimi cəlb edirdi. Əvvəlcə yaddaşımda qeydlər aparırdım. Düzü, bu, sadəcə, bir jurnalist marağı idi. Mövzu dərinləşdikcə, faktlar çoxaldıqca məşhur nəslin nümayəndəsi olan Bəşir bəy Aşurbəyovun arzuları, niyyətləri, gördüyü işlər məndə heyranlıq doğururdu. Bundan sonra qeydlər artıq yazıya köçürülməyə başlandı. Günlərin birində isə daha geniş bir məclisdə Bəşir bəy haqqında ətraflı söhbət açıldı: neft sahibkarı və mesenat kimi, xeyirxah, nəcib və humanist əməllər sahibi kimi, maarifçi ziyalı, nəhayət, millətini sevən fədakar siyasi xadim kimi... Və həmin qeydlər 2019-cu ilin avqustunda bu şəxsiyyət haqqında ilk dəfə geniş bir qəzet məqaləsinə çevrildi. Məqalə çap olundu və böyük oxucu marağı doğurdu.

Elini, yurdunu sonsuz məhəbbətlə sevən bu insan haqqında araşdırmalar aparmaq üçün mənim bir başqa səbəbim – qəhrəmanımın Azərbaycanın tanınmış pedaqoqu, ziyalı xanımlarından biri, eyni zamanda yaxın qohum kimi mənə çox doğma olan Nəzakət xanım Aşurbəyova-Ələkbərovanın babası olmasıdır. Əslində, hər zaman hiss edirdim ki, Nəzakət xanım babası haqqında gözəl bir kitabın ərsəyə gəlməsini çox arzulayır. Və artıq millət sevdalısı Bəşir bəy Aşurbəyovun şəxsiyyəti haqqında yazmaq, bəlkə də ən çox mənim marağımda idi.

Faktları toplamaq, ümumiləşdirmək, bu böyük insanın ömür yolunu oxucuya çatdırmaq, yaşadığı dövrün, zamanın ağırlığını, çətinliyini əks etdirmək və nəhayət, qəhrəmanımı sevdirmək, doğru-dürüst tanıtmaq üçün neçə-neçə alimin tədqiqatlarına müraciət etdim, kitabları nəzərdən keçirdim, arxiv materiallarından istifadə etdim,

əzizləri, doğmaları ilə tez-tez görüşdüm. Amma nə yoruldum, nə də usandım... Əksinə, bütün bu axtarışlar, araşdırmalar və tapıntılar mənə xüsusi zövq, rahatlıq və dinclik verirdi... Bəşir bəy ötən əsrin 30-cu illərinin minlərlə repressiya qurbanlarından biridir. Jurnalist taleyim elə gətirib ki, repressiya olunanlar haqqında xeyli yazılar yazmışam. Bu insanların ömür yollarını çox vərəqləmişəm. Barələrində olan sənədli materiallarla çox işləmişəm. Yazı masamın üzərindən neçə-neçə repressiya qurbanının fotoları, istintaq işləri gəlib keçib... Hər dəfə də o şəkillərə, cinayət işi ilə bağlı materiallara baxanda təəccübləndiyim bir məqam var idi: onların taleləri kimi simalarındakı üzgünlük, məsumluq da bir-birinə bənzəyirdi. Çöhrələrindəki ölüm kölgəsi, əzab və iztirab izləri, baxışlarındakı kədər, ağrılar, acılar bir-birinin eyni idi. Bu insanların gözlərindən bircə şey oxunurdu: biz günahsızıq. Günahsızların fərqli zaman və məkanlardan başlayıb, həyatın ən müxtəlif dolanbaclarından, acılı-şirinli günlərindən keçən ömür yolları bu şəkillərdə sonlanırdı, buradakı ortaq taledə donub qalırdı.

Və bu fotolardan sonra onların ölüm yolçulugu başlayırdı...



Bəşir bəyin nəvəsi Nəzakət xanım Aşurbəyova-Ələkbərova

REDAKTORDAN

Azərbaycan Respublikasının Əməkdar jurnalisti İradə xanım Əliyevanın oxucuların diqqətinə təqdim etdiyi "Bəşir bəy Aşurbəyov və zəmanəsi" adlı kitabı XX əsrin əvvəllərində Azərbaycanın neft sahibkarlarından və məşhur xeyriyyəçilərindən biri, ictimai-siyasi xadim, elm və təhsil himayədarı, bolşevik repressiyasının qurbanı olmuş Bəşir bəy Aşurbəyovun (1875-1930) həyatına həsr edilmişdir. Öz xeyirxah əməlləri, səxavəti və mərdliyi ilə millətinin böyük sevgisini qazanmış, eyni zamanda özü də millət sevdalısı olaraq Bəşir bəy Aşurbəyovun həyatı, şəxsiyyəti, gözəl əməlləri gələcək nəsillər üçün bir örnəyə çevrilmişdir. Sovet ideologiyasının bütün cəhdlərinə, qadağalarına, adının unutdurulması üçün görülmüş tədbirlərə baxmayaraq, o, xalqının hafizəsinə həkk olunmuş, özü isə edamından uzun illər keçdikdən sonra bəraət almış və Azərbaycanın tarixi yaddaşında layiqli yerini qazanmışdır.

Aşurbəyovlar Azərbaycanın məşhur soylarındandır. Onlar haqqında mənbələrin verdiyi məlumatlar orta əsrlərə qədər gedib çıxır. Bu soyun kökü Aşur xan Əfşara dayanır; yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın məşhur sərkərdəsi, Əfşar dövlətinin qurucusu Nadir şah Əfşar da bu tayfadan olmuşdur. Nadir şahın hakimiyyəti dövründə bu tayfanın nümayəndələri yüksək mövqelər tutmuş, bir qismi Azərbaycanın şimalında yerləşmişdir.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra çarizmin millətlər üzərindəki təzyiqi və assimilyasiya siyasətinin nəticəsi olaraq Şimali Azərbaycandakı Əfşarların nümayəndələri XIX əsrin ikinci rübündən sonra Aşurbəyov kimi tanınmağa başlamışlar. Xeyriyyəçilik fəaliyyəti və böyük səxavəti ilə tanınan bu ailənin məşhur nümayəndələri içərisində Nabat xanım Aşurbəyova, Hacı Əjdər bəy Aşurbə-

yov, Teymur bəy Aşurbəyov, Balabəy Aşurbəyov və onun qızı Sara xanım Aşurbəyovanın adları hər bir azərbaycanlıya məlumdur.

İradə xanım Əliyevanın kitabının qəhrəmanı – Bəşir bəy Aşurbəyov da bu məşhur nəslin nümayəndələrindən biri olmuş və 1875-ci ildə Bakının Sabunçu kəndində, tacir və mülkədar Hacı Məhəmmədhəsən bəyin ailəsində doğulmuşdur. Atasından ona geniş torpaq sahələri, neft mədənləri və Bakının müxtəlif yerlərində xeyli mülk qaldığı üçün Bəşir bəy Aşurbəyov gənc yaşlarından böyük sərvət sahibi olmuşdur. Aşurbəyovların digər nümayəndələri kimi, Bəşir bəy də sərvətini daha çox millət yolunda xərcləmiş, elmə və maarifə böyük əhəmiyyət verdiyi üçün bir çox gəncin təhsil haqqını ödəmiş, zülmə və ədalətsizliyə uğrayan məzlumlara daim yardım etmişdir.

Bəşir bəy Aşurbəyovun maarifə verdiyi böyük dəstəyin bariz nümunələrindən biri – 1901-ci ildə Sabunçuda açdırdığı "Həmşəri məktəbi" idi (şagirdləri Cənubi Azərbaycandan olan fəhlələrin uşaqları olduqları üçün məktəb belə adlanırdı). Bəşir bəy şagirdlərin kitabla, geyimlə təmin edilməsinə ciddi nəzarət edirdi. Eyni zamanda Aşurbəyovlar ailəsinin digər nümayəndələrinin xeyriyyəçilik fəaliyyətlərinə də dəstək verirdi. Onun hamisi olduğu məşhur mütəfəkkirlər arasında C.Cabbarlı, Y.V.Çəmənzəminli və M.S.Ordubadi də olmuşdur.

XX əsrin əvvəllərində çar Rusiyasında, o cümlədən müstəmləkələrində baş verən ictimai-siyasi hadisələr hər bir azərbaycanlı kimi, Bəşir bəy Aşurbəyovu da narahat etməyə bilməzdi. Bir əsrə yaxın rus işğalı altında olan Azərbaycanın, nəhayət ki, müstəmləkəçilikdən azad olaraq müstəqillik əldə etmək imkanı yaranmışdı. Azərbaycanın milli düşüncəli ziyalıları, mütəfəkkirləri və ictimai-siyasi xadimləri ölkənin gələcəyi üçün narahat idilər. Bu gələcəyin təmini naminə bir məfkurənin mövcud olmasının zəruriliyini anlayırdılar. Bəşir bəy Aşurbəyov da bu mütəfəkkirlərdən biri kimi İslam ideologiyasını əsas məfkurə olaraq qəbul edirdi. Bu məramla o, 1917-1920-ci illərdə fəaliyyət göstərmiş Qafqaz İttihad Firqəsinin yaradıcılarından olmuşdur. İttihadi-islam, islam modernizmi və islam reformizmi qurumun əsas qayəsi sayılırdı. Qeyd edək ki, Azərbaycan Cümhuriyyəti parlamentində Qafqaz İttihad Firqəsi böyük fraksiyalardan biri idi.

Bəşir bəy Aşurbəyovun Azərbaycan naminə fəaliyyətində erməni daşnakları və terrorçuları ilə mübarizə də xüsusi yer tuturdu.

Bildiyimiz kimi, istər 1905-1906-cı illərdə, istərsə də 1918-1919-cu illərdə erməni daşnaklarının və "bolşevizm" pərdəsi altında fəaliyyət göstərən erməni terrorçularının Azərbaycanda türk-müsəlman əhalisinə qarşı törətdikləri qətliamlar XX əsrin ən qanlı səhifələrindəndir. Bu zülmün qarşısını almaq, Azərbaycan türklərinin qətllərinə mane olmaq üçün canını verməyə hazır yüzlərlə mütəfəkkir və xeyriyyəçilərimizdən biri kimi, Bəşir bəy Aşurbəyov da bu illərdə böyük qəhrəmanlıqlar göstərmiş, minlərlə müsəlmanın qətlinin qarşısını ala bilmişdir.

Azərbaycan sovetlər tərəfindən işğal edildikdən sonra bir çox neft sahibkarı və mülkədar kimi, Bəşir bəy Aşurbəyov və bu nəslin digər nümayəndələri də sərvət və mülklərindən məhrum edildilər. Əksəriyyəti SSRİ-nin apardığı dövlət terroruna qurban getdi. Beşillik həbs cəzasından sonra, 1930-cu ildə güllələnən Bəşir bəy Aşurbəyov da Stalin repressiyasının erkən qurbanlarından biri olmuşdu. Edam edilən bu böyük şəxsiyyətin ailə üzvləri də pərən-pərən düşmüş, onlara sovet dövləti tərəfindən "ikinci dərəcəli" vətəndaş münasibəti göstərilmişdi. Lakin aradan uzun illər keçməsinə baxmayaraq, Bəşir bəy Aşurbəyovun adı və xeyirxah əməlləri nə ailəsinin, nə də xalqının hafizəsindən silinmişdir. Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının müvafiq qurumları tərəfindən isə ona bəraət verilmişdir.

Həyat və fəaliyyəti böyük bir salnamə olan Bəşir bəy Aşurbəyov haqqında kitab yazılması nəcib bir əməl olmaqla yanaşı, bugünkü və gələcək nəsillərimiz üçün də çox zəruri bir işdir. İradə xanım Əliyevanın bu mövzuya müraciət etməsi, illərin araşdırmasının nəticəsi olan bu kitabı ərsəyə gətirməsi təqdirəlayiqdir.

Etiraf edim ki, kitabı birnəfəsə oxudum. Bəşir bəyin cümlələrə tökülən, tarixi oçerkə çevrilən həyatını bu qədər içdən, bu qədər könüldən, böyük bir sevgi ilə yazmaq üçün kitabın müəllifinin özünün də bu həyatı onun qəhrəmanı ilə xəyalən birgə yaşadığının şahidi oldum. İradə xanım oxucusunu da bu salnamənin içərisinə qatıb, Bəşir bəy Aşurbəyov və sevdiklərinin hekayəsinə, dərdinə, çəkdiklərinə şərik olmağa vadar edir. Fikrimcə, bu, bir müəllifin böyük ustalığıdır

ki, oxucusunu özü ilə bərabər zaman səyahətinə götürməyi bacarır. Bir insanın taleyi onun ailəsinin, xalqının taleyinə qarışır və gözlərinin önündən Azərbaycanın o qanlı-qadalı illəri, həyəcanı, əzabı gəlib keçir. Sən də onlarla birgə o anları, günləri, illəri yaşayırsan...

Tarixi tədqiqat materialları və şahidlərin xatirələri əsasında yazılmış "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabı XX əsrin əvvəlləri Azərbaycan tarixinin həm də kiçik bir retrospektividir. Bu kitab bir xeyirsevərin, bir Azərbaycan oğlunun simasında, həm də qəhrəmanlıq və qeyrət salnaməsi, gələcək nəsillərə millət sevgisinin vərəsəsidir.

Sani Hacıyev,
tarix üzə elmlər doktoru, professor



Bəşir bəy Aşurbəyov

"QIRMIZI TERROR"UN QURBANLARINDAN BİRİ

"Həyat çətin bir imtahandır."
Corc Santayana,
Amerikan filosofu

Millət fədaisi Bəşir bəy Aşurbəyovun müxtəlif illərdə çəkilmiş şəkillərinə baxdıqca, onun haqqında qeydlərimi nəzərdən keçirdikcə xəyal məni ötən əsrin 90-cı illərinin əvvəllərinə aparırdı. Tarixşünaslıq elmimizin parlaq nümayəndələrindən olan akademik Ziya Bünyadovla "Qırmızı terror" kitabı üzərində birgə çalışdığımız günləri xatırlayırdım.

1980-ci illərin sonlarından etibarən bütün sovetlər məkanında baş verən dəyişikliklər, əsən ruzigarlar bu zamana qədər düşüncələrdə həbs edilmiş bəzi mövzular üzərindən qadağaları götürmüşdü. Uzun illər qapalı qalan arxivlərin qapıları alimlərin üzünə azacıq da olsa açılmışdı.

Akademik Ziya Bünyadovun şəxsi nüfuzu ona keçmiş Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərindəki müəyyən qovluqlara qədər gedib çıxmaq imkanı verirdi. O, 1930-cu illərdə Stalin repressiyasının qurbanı olmuş bir çox görkəmli şəxsiyyətimiz haqqında istintaq materialları əsasında məqalələr yazır, arxiv sənədlərinin, onların verdikləri ifadələrin surətini çıxarıb gətirirdi. Həmin məqalə və sənədlərin tərcüməsi və çapa hazırlanması işi mənə tapşırılmışdı. O zaman "Azərbaycan müəllimi" qəzetində çalışırdım. 1993-cü il idi. Tələtümlü, ziddiyyətli, çətin bir dövr... Ölkənin ictimai-siyasi həyatında fəal işti-

rak edən Ziya müəllimlə jurnalist kimi necə bir ciddi, məsuliyyətli iş üzərində çalışdığımın fərqində idim. Həmin dövrün doğru-düzgün qələmə alınmasında bu məqalələr böyük əhəmiyyət kəsb edirdi. Yazılar "Azərbaycan müəllimi" qəzetində çap olunmağa başladı.

Görkəmli şəxsiyyətlərin saxta ittihamlar və dəlillər əsasında ölümə məhkum edildiyi arxiv materialları o zaman ictimaiyyət arasında böyük əks-səda doğururdu. Yazılar əldən-ələ gəzirdi. Nəhayət, bu mövzuda ucadan söz demək, danışmaq mümkün olmuşdu. İllərin qadağaları altında donub qalmış hadisələr, faktlar, rəqəmlər, erməni cəlladlarının törətdikləri əməllər açılıb göstərilirdi. Daxilən hiss edirdim ki, geniş oxucu kütləsi bu yazıların toplu halında kitab kimi çapına daha çox ehtiyac duyur.

Günlərin birində Ziya müəllimə bu materiallardan ibarət kitab nəşr etmək niyyətində olduğumu dedim. Məmnun oldu. Akademik belə bir kitaba necə həssaslıqla yanaşdığımı, ortaya keyfiyyətli bir işin çıxmasına çalışdığımı görürdü.



Ziya Bünyadovun müxtəlif vaxtlarda Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə, Abbasmirzə Şərifzadə, Hənəfi Zeynallı, Məmməd Cuvarlinski, Tağı Şahbazi və başqa yaradıcı ziyalılarımız haqqında istintaq materialları əsasında qələmə aldığı sənədli tarixi oçerklər üzərində aylarla birgə çalışdıq. Bu oçerklərdə ayrı-ayrı elm xadimlərimizin, böyük şəxsiyyətlərimizin bolşevizmin saxta dəlilləri əsasında məhkum olunduğu sübuta yetirildi. Kitab 1993-cü ildə "Azərnəşr"də 10.000 tirajla nəşr olundu və ölkənin hər yerinə yayıldı.

İndi o dəyərli alimimizin ictimai düşüncə tariximizə çox qiymətli yadigarlarından olan "Qırmızı terror" kitabını hər dəfə vərəqlədikcə, dəfələrlə oxuyub sistemləşdirməyə çalışdığım, təkrar-təkrar redaktə etdiyim ayrı-ayrı hissələrini bir də oxucu marağı ilə nəzərdən keçirdikcə daxilən sevinirəm ki, nə yaxşı o zaman bu işin çətinliyindən, məsuliyyətindən çəkinib boyun qaçırmamışam. "Qırmızı terror" kitabının tərtibçisi və əksər məqalələrin tərcüməçisi kimi bu işdə imzam var.

Həmin kitab məni çox həqiqətlərdən agah etdi. Oxucum yəqin təəccüb edir ki, bu kitabı niyə məhz "Qırmızı terror"un nəşri tarixi ilə başladım. Çünki elə Bəşir bəy Aşurbəyov adına da ilk dəfə həmin kitabın əlyazmalarında rast gəlmişdim. Kitabın xeyli hissəsi Azərbaycanda bolşevik hakimiyyəti qurulandan sonra İttihad Partiyası üzvlərinin başına gətirilən oyunlardan, istintaq prosesində onlara verilən əzab-əziyyətlərdən, NKVD-nin cəllad xislətli müstəntiqlərinin, xalqımızın qanına susamış erməni cəlladlarının işgəncə altında onlardan aldıqları ifadələrdən bəhs edirdi.

Bəşir bəy Aşurbəyov da İttihad Partiyasının parlaq liderlərindən idi. O, ötən əsrin əvvəllərində yenicə formalaşan milli burjuaziyanın nümayəndəsi kimi bu partiyanın, onun mətbu nəşrlərinin fəaliyyətinə maliyyə dəstəyi göstərən şəxslərdən olmuşdur. Amma Bəşir bəyin ictimai fəaliyyəti təkcə bu partiya ilə məhdudlaşmamışdı. O, zəmanəsinin alicənab, xeyriyyəçi, yeniliklərə meyilli, qabaqcıl düşüncəli imkan sahiblərindən biri kimi tanınmışdı, nə qədər gəncin təhsil almasına yardım etmiş, nə qədər insana əl tutub köməklik göstərmişdi. Doğulub boya-başa çatdığı Sabunçuda və ətraf ərazilərdə məktəblər, yoxsul ailələr üçün evlər tikdirmişdi. Maarifə, mədəniyyətə dəstək vermişdi. Haqqı pozulanın hər zaman yanında olmuşdu. Və tarixin ziddiyyətinə bax ki, öz proqramlarında, məramnamələrində insanlara, guya, bu cür dəyərləri təlqin edən bolşevik hakimiyyəti Bəşir bəy Aşurbəyov kimi millət xadimlərinin axırına çıxmışdı.



Nəriman Nərimanov

"Qırmızı terror" kitabında onun adı epizodik keçir. Bu məlumatlardan aydın olmuşdu ki, "İttihadçıların işi" gedişində Bəşir bəy Aşurbəyov da həbs edilib. Bir müddət həbsdə saxlanılıb, sonra isə yaxın dostu olan Nəriman Nərimanov Bəşir bəyin bolşevik hakimiyyəti üçün heç bir təhlükə törətməyən, başqalarına yalnız faydalı olmağa çalışan bir insan olduğuna inandıra bilib və beləliklə, onun zaminə buraxılmasına nail olub. AKP MK-nın Siyasi Bürosunun 23 yanvar 1921-ci il tarixli

iclasının protokolundan çıxarışda yazılırdı: *"Bəşir bəy Aşurbəyov azad edilsin, belə ki, yoldaş Nərimanov onun bizə sadiq olduğunu bildirir və zaminə götürür"*.[1] Amma bu "humanizm"in ömrü yalnız Nəriman Nərimanovun 1925-ci ilin 19 martında Moskvada müəmmalı ölümünə qədər çəkdi. O, dünyasını dəyişəndən qısa müddət sonra Bəşir bəy Aşurbəyov yenidən istintaq orqanlarının yadına düşdü və "antisovet baxışlar" ittihamı ilə həbs edildi. Bu dəfə onu bolşevizmin qanlı caynaqlarından qurtarmaq mümkün olmadı.

Açığını deyim ki, Bəşir bəy Aşurbəyovun qız nəvəsi Nəzakət xanımla yaxın qohumluq əlaqəsinə qədər bu insan haqqında bildiklərim bundan çox deyildi. Amma həmin ailə ilə doğma münasibətlərin qurulması, hər görüşümüzdə Nəzakət xanımla, övladları ilə, Aşurbəyovlar nəslinə əziz olan insanlarla etdiyimiz söhbətlər, Bəşir bəy haqqında ibrətamiz xatirələr bu şəxsiyyətin həyat və taleyini gözlərim önündə maraqlı bir kitab kimi açırdı. Onun haqqında daha çox öyrənməyə başlamışdım. Az-çox öyrəndikcə də anlayırdım ki, Azərbaycanda bolşevik hakimiyyəti qurulana qədərki tariximiz hələ də bizim üçün bağlı bir qapıdır. Hələ də bir çox tarixi şəxsiyyətlərimizi lazımi qədər, həm də düzgün araşdırıb öyrənə, onların layiqli qiymətini verə bilməmişik.

Sovet ideologiyası tarixi həqiqətləri o qədər saxtalaşdırıb, özünə lazım olmayan adları, ömürləri, taleləri o qədər amansızlıqla yoxa çıxarıb ki, keçmişin həqiqətlərini tarixin aynasında aydın görməkdən ötrü hələ bundan sonra da uzun illər yüzlərlə tədqiqatçının gərgin zəhmətinə ehtiyac var.

O tarixi həqiqətləri gün işığına çıxarmaqdan ötrü Bəşir bəy Aşurbəyov kimi insanların ömürlüyünü mütləq öyrənmək lazımdır. Çünki tarixi yaradanlar həmin qanlı proseslərdə iştirak edən insanlardır.

---

[1] Bünyadov Z. Qırmızı terror. Bakı, "Azərnəşr", 1993, səh.18.

KEÇMİŞ GƏLƏCƏYƏ İŞIQ SALIR

"Şəxsiyyətlərin doğru-dürüst yazıya alınması daha aydın, daha rəvan bir gələcəyin yaradılmasına töhfə verir".
Heydər Əliyev,
Ümummilli Lider

Hər insan – əlbəttə, söhbət Bəşir bəy Aşurbəyov kimi fəal vətəndaş mövqeyinə, ictimai fəaliyyətə malik insanlardan gedir – tarixin böyük bir səhifəsinə bələdçidir. Onların həyat və fəaliyyətini öyrəndikcə o həyatın yaşandığı, o fəaliyyətin aid olduğu dövrü öyrənmiş olursan. Həmin tarixi irsin yazıya alınmasına, gələcək nəsillərə düzgün ötürülməsinə, keçmişin yanlışlarından nəticə çıxarılmasına və daha aydın, daha rəvan bir gələcəyin yaradılmasına töhfə verirsən.

Müasir həyatımız çox böyük dəyişikliklər prosesindən keçir. Elmi-texniki yeniliklər, bir-birini əvəz edən innovasiyalar dünyanı gözlərimiz önündə büsbütün dəyişir. İnsanlar yenilikləri, müasir meyilləri tez bir zamanda mənimsəməyə çalışırlar. Amma buna rəğmən, keçmişə, tarixi şəxsiyyətlərə, tarixdə olub-keçənlərə marağın da getdikcə artdığını görürük. Bu təbiidir...

İnsanlar onun da fərqindədirlər ki, inkişafın aramsız axınında səndirləməmək, itib-batmamaq üçün qeyri-maddi irsə, keçmişdən gələn müstəsna mənəvi dəyərlərə çox böyük ehtiyac var. Keçmiş gələcəyə doğru aparan yola işıq salır. Yeni nəsillərin öz hədəflərinə tez, əziy-

yətsiz çatmalarına yardım göstərir. Keçmişi zənginləşdirənlər, dünən, bu gün və sabah üçün gərəkli edənlər isə bu xalqın tarixini öz həyat və fəalliyyətləri, nəcib əməlləri ilə mənalandıran Bəşir bəy Aşurbəyov kimi şəxsiyyətlərimizdir.

Ona görə də Nəzakət xanımla belə bir kitabla bağlı ilk söhbətimizin əvvəlindəki tərəddüdlərimi dərhal kənara qoydum. Hiss etdim ki, əldə materiallar az olsa da, Bəşir bəy Aşurbəyov haqqında ayrı-ayrı mənbələrdə öz əksini tapmış məqamları üzə çıxarmaqla, onları sistemləşdirməklə, doğmalarının bir-birinə ötürdükləri maraqlı xatirələri yazıya almaqla onun bitkin portretini yarada biləcək bir kitab ərsəyə gətirmək olar.

Və ilk cümlələri yazmağa başladım...

Kitab boyu, əvvəldə də qeyd etdiyim kimi, bir çox tarixçi alimlərimizin böyük fədakarlıqla apardıqları tədqiqatlardan geniş bir şəkildə faydalandım. Onların zəhmətini qədirşünaslıqla xüsusi vurğulamağı özümə mənəvi borc bilirəm. Məhz bu alimlərin fədakar əməyi sayəsində Bəşir bəy Aşurbəyov kimi şəxsiyyətlərimizin tarixi irsi gün işığına çıxır.

Eyni zamanda qeyd etməyi vacib bilirəm ki, bu kitab tədqiqat əsərindən daha çox tarixi oçerk janrında qələmə alınmışdır və mən öz qəhrəmanım haqqında əldə olan bütün yazılı, şifahi bilgiləri əhatə etməyə çalışmışam. Bəşir bəy Aşurbəyov haqqında bu kitabı keçmişimiz barədə xatirə kimi də oxumaq olar, bu gün haqqında salnamə kimi də, gələcək nəsillərə bir məktub, xitab kimi də...

Bir neçə onillik bundan əvvəl belə bir kitabın yazılmasına kimsə cürət edə bilməzdi. Kitab və ya qəzet məqaləsi bir tərəfə, hətta ictimai çevrədə belə Bəşir bəy Aşurbəyov adının çəkilməsi böyük cəsarət istəyirdi. Sovet rejiminin "xalq düşməni" elan etdiyi adamın adının xatırlanmasına görə onu dilə gətirənlərin başı çox bəlalar çəkə bilərdi və çəkirdi də...

Sovet ideologiyasına həqiqət lazım deyildi. Bu ideologiya özünün bütün varlığını saxta miflər üzərində qurmuşdu. Mifləri həqiqət kimi qələmə verməkdən ötrü isə bu ideologiya tarixi gerçəklərin izini itirirdi. Ona görə də sovet dövründə yazılmış kitablarda Bəşir bəy Aşurbəyovun adını heç axtarmağa dəyməzdi. Hətta bu cəhdlər müəyyən

səmərə versə də, hansısa kitabda Bəşir bəy Aşurbəyov adına təsadüf edilsə belə, həmin ad altında təqdim olunmuş məzmun obyektivlikdən çox-çox uzaq olacaqdı. Bəşir bəy Aşurbəyov və onun kimi alicənab, vətənpərvər millət xadimləri fəhlə-kəndli hökumətinə və demək olar ki, sovet ideologiyasına görə xalqa düşmən kəsilən zümrənin nümayəndələri kimi təqdim olunacaqdı. Onların ictimai obrazı, həyat və şəxsiyyəti mümkün qədər təhrif ediləcəkdi. Sovet ideologiyasının mahiyyəti bu idi: fiziki olaraq yox etdikləri böyük mütəfəkkirləri, ziyalıları insanların düşüncələrindən, hafizələrindən də silib atmaq ...

Amma şükürlər olsun ki, o dövrlər artıq çoxdan geridə qalıb. Müstəqilliyini bərpa etmiş Azərbaycan dövləti tariximizə, şəxsiyyətlərimizə, dəyərlərimizə yenidən nəzər salmaq, onlardan əxz etdiyimiz mənəvi sərvətləri bu günümüzə və gələcəyimizə çatdırmaq imkanı yaratmışdır. Bu, taleyin xalqımıza xoş bir lütfüdür. İndi qalır yaranmış şəraitin qədrini bilmək, imkanları düzgün qiymətləndirərək tarixi həqiqətləri olduğu kimi öyrənmək və yazıya almaq...

Bəşir bəy Aşurbəyov haqqında qələmə alınmış bu nəşr də belə bir zamanın, belə bir məqsədin kitabıdır. Bu, yaşadığı dövrdə Azərbaycanın tərəqqisi, xalqın inkişaf etmiş toplumlar cərgəsinə çıxması üçün böyük zəhmət sərf edən bir millət xadimi haqqında qələmə alınmış ilk kitabdır. Onu da yaxşı bilirəm ki, Bəşir bəy Aşurbəyov şəxsiyyəti gələcək tədqiqatçıların da diqqətini mütləq cəlb edəcək. Və onlar bu kitabdan ilkin yol bələdçisi kimi bəhrələnərək onun işığında daha sanballı əsərlər ortaya qoyacaqlar. Təbii ki, hələlik mübhəm qalan bir çox suallara cavab tapılması missiyası da onların üzərinə düşəcək.

İndi isə əlimizdə olan bu ilk kitabın səhifələrini çevirməyə başlayaq.

P.S. *Bakı kəndlərinin tarixini gözəl bilən, Bəşir bəy Aşurbəyov haqqında geniş məlumata malik olan, əslən sabunçulu şərqşünas ziyalımız Pərviz Ebenə təşəkkürümüzü bildiririk. O, kitab yazılan ərəfədə bizə böyüklərindən, xüsusilə babalarından, atasından, bu qədim kəndin yaşlı insanlarından, ağsaqqallarından, ağbirçəklərindən eşitdiklərini, bildiklərini, özünün təşəbbüsü ilə bu məşhur nəsillə bağlı araşdırmaları barədə, maraqlı hadisələr, faktlar haqqında materiallar təqdim etmişdir.*

ZƏMANƏ ADAMI

"Bolşevik repressiyasının qanlı caynaqlarına keçmiş yüzlərlə günahsız insan taleyinə kəsilmiş ölüm fərmanını gözləyirdi".
Ziya Bünyadov

Əlindəki bağlamadan bərk-bərk yapışmış ortayaşlı qadın asta addımlarla həbsxana qapısına doğru irəliləyirdi. Yayın Bakının neft qoxulu daş-torpağını yandırıb-yaxan ən isti vədələri idi. Amma o, iyul günəşinin ətrafı yandıran od-alovunu hiss etmirdi. İçindəki əzablar bu cəhənnəm atəşini unutdurmuşdu ona, elə bil. Artıq neçənci dəfə idi ki, gəlirdi bura. Bolşevik repressiyasının qanlı caynaqlarına keçmiş yüzlərlə günahsız insan kimi, həbsxana divarları arasında taleyinə kəsilmiş ölüm fərmanını gözləyən ömür-gün yoldaşına yemək, təmiz paltar, dava-dərman gətirirdi. Onunla hər görüşdən, bir neçə dəqiqəlik ünsiyyətdən, kəsdiyi hər kəlmədən evə, doğma ocağına bir aləm təsəlli aparırdı.

Artıq bu yollar da, bayır suvağı uçub-tökülmüş bozumtul, cansıxıcı divarlar da ona doğmalaşmışdı. Çünki bu yollarda ötən günlərin xatirələri vardı. Nəzakət xanım başında çarşab, əlində yemək bağlaması həbsxana qapısına doğru irəlilədikcə bolşevik işğalının zəhərli nəfəsi bu torpaqlara gəlib çıxana qədər yaşadıqları xoşbəxt günlər, aylar, illər gözlərinin önündən ötüb keçirdi.

...Giriş qapısına gəlib çatmışdı. Qapıdakı ahıl həbsxana mühafizəçisini görəndə yaşmansa da, kişi onu tanıyıb tutuldu, bir anlıq sanki nə deyəcəyini kəsdirə bilmədi. Handan-hana özünü toplayıb, gözlərini yerə zillədi: "Daha bura gəlmə, xanım", – astadan söylədi. O isə

mühafizəçinin bununla nə demək istədiyini əvvəlcə anlamadı. "Necə yəni daha gəlmə?..."

Qarovulçu başını qaldırdı, çiynindəki tüfəngin qayışını düzəldib bir qadının əlindəki bağlamaya, bir də sual və təlaş dolu gözlərinə baxdı: "Ərini gecə Nargin adasında güllələdilər...",- dedi. Kişinin səsi boğuldu və son kəlməsini zorla dilə gətirə bildi.

O isə bu kəlməni eşitmədi...

Elə Nargin adası sözünü duyunca qadının gözləri alacalanmış, bəti-bənizi ağarmış, huşunu itirmişdi. Gözünü açanda özünü bütün var-dövlətləri əllərindən alınandan sonra sığındıqları köhnə evdə görmüşdü. Övladları ona sarılıb ağlaşırdılar... Bu kədər mənzərəsi üzərində o gecə Nargin adasında kor güllə ilə cismindən qoparılmış narahat bir ruh dolaşırdı...

BİR MƏKTUBUN İZİ İLƏ...

"Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən".
Cəlil Məmmədquluzadə

XIX əsrin sonu və XX əsrin əvvəllərində yaşanmış Vətən tarixi ayrı-ayrı insan ömürləri və bu şəxsiyyətlərin nəcib əməlləri ilə o qədər zəngindir ki, milli elmimiz bu mənəvi xəzinənin hələlik çox cüzi bir hissəsinə yaxın düşə bilib. Bir çox adlar, ömürlər, fakt və hadisələr isə yaddaşlarda, xatirələrdə, toz basmış arxiv sənədlərində hələ də öz tədqiqatçısının yolunu gözləyir.

Bəzən heç gözləmədiyimiz halda çox qısaca bir soraqdan, kiçicik bir işıq zərrəsindən bu tarixə doğru geniş cığır açılır. O sorağın izinə düşüb irəlilədikcə xalqımızın nə qədər maraqlı tarixi keçmişə, böyük şəxsiyyətlərə malik olduğunu bir daha dərk edirsən. Eyni zamanda gənc nəslin indiyə qədər bu tarixdən, şəxsiyyətlərdən xəbərsiz qalmasına da təəssüflənməyə bilmirsən və onları bacardığın qədər tanıtmağa çalışırsan.

Böyük ədibimiz Cəfər Cabbarlının əsərlərindən birində – 1996-cı ildə çapdan çıxan "Ədirnə fəthi" kitabında təqdim olunan təşəkkür məktubları bölməsi çox maraqlı bir mətnlə başlayır. Mətnin bölmənin əvvəlində verilməsi əsla təsadüfi deyildi. Çünki bu, Cəfər Cabbarlının – gələcəyin yazıçı-dramaturqunun ictimai məzmun kəsb edən ilk məktubu idi. Üstəlik, bir neçə ildən sonra həyat və yaradıcılığı ilə ictimai fikir tariximizin ən yüksək zirvələrindən birində qərar tutacaq, əsərləri on min tirajlarla dünyanın müxtəlif dillərində nəşr ediləcək

ədibimizin mətbuatda ilk çıxışı idi. O zaman hələ cəmi 8 yaşı olan gələcək dramaturq bu məktubu Bakı şəhərindəki 7-ci Müsəlman-rus məktəbinin – o dövrün dili ilə desək, rus-tatar məktəbinin 2-ci sinfindəki bir qrup şagird yoldaşı ilə yazaraq imzalayıb. Onu da qeyd edək ki, məktub mükəmməl ifadə tərzi, dil-üslub xüsusiyyətlərinin bitkinliyinə görə tamamilə fərqlənirdi. Bəzi tədqiqatçıların fikrincə, məktubun yazılmasında onlara müəllimləri köməklik göstərib.



Cəfər Cabbarlı

Məktub "Tazə həyat" qəzetinin 8 aprel 1907-ci il tarixli 7-ci nömrəsində dərc edilib. Təşəkkür məzmunlu məktubun ünvanlandığı şəxsin adı və soyadı məktubun məzmunu qədər böyük maraq doğurur: Bəşir bəy Aşurbəyov.

Məktubda yazılırdı:

"Qeydkeş və millətpərəstlərimiz cümləsindən cənab Bəşir bəy Aşurbəyov həzrətləri!

Biz, imzaları aşağıda qeyd olunan Bakı şəhərinin 7-minci Müsəlmani və rusi məktəbinin fəqir və təvanasız şagirdləri və elm və məarifə təhris və təğrib qılmaq niyyətilə hər ayda 30 manat verməgi də röhd qılıb iki aykı həman pulu məktəb naziri, möhtərəm Süleyman bəy Axundov vasitəsilə ata buyururlar.

... Bəşir bəy cənabları! Əmin olunuz ki, elm və məarif kəsb edib səadət və xoşbəxtliyə nail olmaq məqsədilə ciddən səy edəcəyiz.

Bakı şəhərinin 7-minci Müsəlmani və rusi məktəbinin ianə alan şagirdləri: Əsgər Hüseynzadə, Mirzə Qasım Cabbarzadə, Ağaməli Hüseynzadə, Cəfər Cabbarzadə və Məhərrəm Mollazadə".[1]

Məktubu imzalayanlar "millət qayğısına qalan... böyük neft milyonçusu Bəşir bəy Aşurbəyov cənablarına" təşəkkürlərini çatdırır və söz verib vəd edirlər ki, elm və maarif qazanmaq yolunda daim səy göstərəcəklər. Bu beş nəfər şagirdin birgə bəyanatı, millət qarşısında öz üzərlərinə öhdəlik götürmələri onların hələ bu yaşdan məsuliy-

[1] "Tazə həyat" qəzeti, 8 aprel 1907, №7.

yətlərini dərk etmək səviyyəsində olduqlarını aşkara çıxarır. Məktub eyni zamanda Bəşir bəy Aşurbəyov kimi şəxsiyyətlərin millət və gələcək qarşısında dərk edilmiş ictimai məsuliyyət hissinə bir işarədir, imkanlı maarifçi cəfakeşlərin xeyirxah niyyətini, nəcib məqsədlərini, alicənablıqlarını əks etdirir.

Professor Asif Rüstəmli görkəmli maarifçi-pedaqoqlarımızdan olan Haşım bəy Vəzirova istinadən yazır ki, 7-minci Müsəlmani-rusi məktəbi bir sıra müsbət keyfiyyət göstəriciləri ilə o dövrün digər ibtidai məktəblərindən əsaslı surətdə fərqlənirdi. Əvvəla, burada oğlanlarla qızlar bir yerdə oxuyurdular. Digər tərəfdən, məktəbin şagirdləri, əsasən, kasıb uşaqları olduqlarına görə, təlim haqqı ödənilərkən onların ailə vəziyyəti və çalışqanlıqları nəzərə alınırdı. S.S.Axundovun təşəbbüsü ilə ən yaxşı oxuyan şagirdlər təhsil pulundan azad edilir, hətta ianə almaq imkanlarına da malik olurdular. Məktəb naziri bu yazılmamış qanunu həyata keçirərkən, əlbəttə, ilk növbədə maarifpərvər varlıların səxavətinə ümid bəsləyirdi.[1]

Cəfər Cabbarlı və sinif yoldaşlarının təşəkkür məktubundan da göründüyü kimi, bu təşəbbüs özünə tərəfdarlar tapırdı. Bəşir bəy Aşurbəyov adlı maarifçi-xeyriyyəçiyə ünvanlanmış məktubun məzmunu onun kimi imkanlı millət xadimlərinin xeyirxah niyyətini, xalqın və ölkənin gələcəyi ilə bağlı nəcib məqsədlərini, alicənablıqlarını göstərir. Eyni zamanda XX əsrin əvvəllərindəki ictimai-siyasi ovqatın təsiri ilə milli şüurun oyanışını təsdiqləyir.

Bəs haqqında söhbət gedən həmin Bəşir bəy Aşurbəyov kim idi?

[1] Rüstəmli A. Cəfər Cabbarlı və milli istiqlal hərəkatı. Bakı, "Gənclik", 2018, səh. 6-7.



Bəşir bəy Aşurbəyov

MƏŞHUR AŞURBƏYOVLARDAN BİRİ

"Tarixə düşmək uğur hesab edilir: ən böyük uğur isə tarixin qatarında bu günə gəlib çatmaq və gələcəyə yol almaqdır".
Əbu Turxan

Bu suala cavab tapmaqdan ötrü ilk etibarlı bələdçimiz Bəşir bəyin soyadıdır. Məlum olduğu kimi, Aşurbəyovlar Azərbaycan xalqının məşhur soylarındandır. Bu soy "Oğuz Xaqan dastanı"nda, Mahmud Kaşğarinin "Divani lüğat-it türk" əsərində oğuz boylarından biri kimi göstərilmiş məşhur Əfşarlardan gəlir.

Əfşarlar, əsasən, Orta Asiyada, "Kitabi-Dədə Qorqud" dastanlarında Oğuz Eli deyilən Sır-Dərya bölgəsində məskunlaşmışdılar. Böyük köç nəticəsində bir qismi Xuzistan və Xorasan tərəflərdən, bir qismi isə İraq, Suriya yolu ilə Anadoluya gəlmiş, İrana, İraq Suriyasına, Azərbaycana, həmçinin Əfqanıstana yayılmışdılar. Əfşarlar Oğuzun digər nəvələri kimi dövlət qurmuş, böyük hökmdarlar və sülalələr yetişdirmişdilər. Hərbi nailiyyətlərinə, dövlətçilik təfəkkürünə görə bəzi tarixçilərin "Şərqin Napoleonu" və "İkinci Makedoniyalı İsgəndər" ləqəbi verdikləri Nadir şah Əfşar da məlum olduğu kimi bu soydandır.[1]

Aşurbəyovlar soyadı isə Aşur xan Avşardan başlanır. Yəni nəslin kökündə Aşur xan Əfşar dayanırdı. O, Nadir şahın dövründə Cənubi Azərbay-

[1] Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi, 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd cilddə. Birinci cild, Bakı, 2009, səh. 177.



Nadir şah Əfşar

canın Təbriz şəhərinin hakimi və Azərbaycanın sərdarı təyin edilmişdi. Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərində Aşur xan haqqında məlumat verərək yazır ki, Azərbaycan sərdarı Aşur xan özünü Hüseyn şahın oğlu kimi qələmə verən fırıldaqçı Sam Mirzə ilə mübarizə aparmaq üçün Fətəli xan Əfşarla (Nadir şahın əmisi oğlu) birgə qoşunu çəkib İrəvandan gedir. 1743-cü il dekabrın 24-də Qazıqumuxlu Surxay xanın oğlu Məhəmməd Ləzgi qeyri-nizami qoşun dəstələri ilə Aşur xanı və Fətəli xanı Ağsu şəhəri yaxınlığındakı Şah bağının yanında qarşılayır. Burada döyüş başlanır. Fətəli xan və Aşur xan düşmənə qalib gəlirlər. Məhəmməd Ləzgi min nəfərə yaxın itki və əsir verərək yaralı halda Dağıstana qaçır. Yalançı Sam Mirzə isə Gürcüstana çəkilir. Bu qələbədən sonra Aşur xan və Fətəli xan azsaylı ləzginin sığındığı Ağsu şəhərini mühasirəyə alaraq buranı ələ keçirirlər.[1]

Nadir şah 1736-cı ildə indiki Sabirabad rayonu ərazisindəki Suqovuşan adlanan yerdə böyük xalq qurultayı (Muğan qurultayı, yaxud Suqovuşan qurultayı) çağırıb şah kimi taxta çıxır. Sonra Bakı və ətraf kəndlərdə özünə dayaqlar yaratmaq üçün əfşar tayfasının nümayəndələrindən bir çoxunu Sabunçu, Zabrat, Keşlə və digər kəndlərdə yerləşdirir. Onların arasında Aşur xanın yaxın qohumları da vardı. Aşur xan nəslinin 1743-cü ilə aid xronikasında Nadir şahın adıçəkilən bu kəndləri Aşur xana bağışladığı yazılır. Beləliklə, rus çarizmi Azərbaycanı işğal etdikdən sonra da həmin neftverən torpaqlar Aşur xanın nəslinin mülkiyyəti kimi təsbit olunmuşdur. Yeganə dəyişiklik o idi ki, bu zadəgan nəslin soyadı rus inzibati orqanları tərəfindən sənədlərdə Aşurbəyovlar kimi göstərilirdi. Sonradan da bu soyun davamçıları XIX - XX əsr Bakısının məşhur əsilzadələri kimi tanınırlar. Bu şəcərənin təmsilçisi olan görkəmli tarixçi-alim Sara xanım Aşurbəylinin əsərlərində, eləcə də digər mənbələrdə həmin nəslin ayrı-ayrı təmsilçiləri haqqında müfəssəl məlumatlar verilsə də, tədqiqatlarda Bəşir bəy Aşurbəyovun həyat və fəaliyyətinə, təəssüf ki, çox az yer ayrılmışdır.

[1] A.Bakıxanov. "Gülüstani-İrəm". Bakı, 2010, səh. 176-178.

AŞUR XAN


HACI İMAMVERDİ BƏY
ALLAHVERDİ BƏY
MUSTAFA BƏY
SULTAN BƏY
NƏCƏFQULU BƏY, ƏLİSGƏNDƏR BƏY, MEHDİQULU BƏY, HADİ BƏY
ALLAHVERDİ BƏY, ABDULLAH BƏY, NƏCƏFQULU BƏY, TEYMUR BƏY
MUSTAFA BƏY
TƏLƏT BƏY
ƏNVƏR BƏY
AŞUR BƏY
MƏHƏMMƏDQASIM BƏY
İBRAHİM BƏY
ƏHMƏD BƏY
HACI BƏY
MİRZƏ BƏY
HACI RZAQULU BƏY, HACI MEHDİQULU BƏY
AĞA BƏY
ƏHMƏD BƏY, NƏSRULLA BƏY
İSA BƏY, MUSA BƏY
MİRZƏ AĞA, AĞASI BƏY, AĞAŞƏRİF BƏY
SÜLEYMAN BƏY, DAVUD BƏY
MİRZƏ BƏY
İMAMVERDİ (HACI BƏY)
RAMİZ BƏY
RAUF BƏY
SÜLEYMAN BƏY
İQOR BƏY
RUSLAN BƏY
AŞUR BƏY, İSGƏNDƏR BƏY, MƏHƏMMƏD BƏY, DANYAL BƏY, ƏBDÜLHƏMİD BƏY
ƏHMƏD BƏY
DANYAL BƏY, FƏRİD BƏY
HACI MƏHƏMMƏD HƏSƏN BƏY
HACI MUSAXAN BƏY
BƏŞİR BƏY
HACI İBRAHİM, ƏJDƏR BƏY, MEHDİXAN BƏY, ƏLİ ABBAS BƏY
HACI İSMAYIL BƏY
CAHANGİR BƏY
BƏHRAM BƏY
ƏLƏKBƏR BƏY
ƏLƏSGƏR BƏY
FUAD BƏY, RƏŞİD BƏY
MEHDİXAN BƏY
TAHİR BƏY, ƏJDƏR BƏY, VAQİF BƏY
RÜBABƏ XANIM
NAĞI BƏY
MƏHƏMMƏD HƏSƏN BƏY
MİDHƏD BƏY
RƏBİYYƏ XANIM
KAZIM BƏY
CƏMİL BƏY
TOFİQ BƏY
RAMİZ BƏY
NAMİQ BƏY
RASİM BƏY
RAUF BƏY
BƏŞİR BƏY, ZAHİD BƏY
NƏZAKƏT XANIM
NİYAZİ BƏY, ÜZEYİR BƏY
KAMAL BƏY, CAHANGİR BƏY

AVŞAR


ABDULLAH BƏY
DANYAL BƏY
ƏLİYAR BƏY
ŞIXƏLİ BƏY
ADIGÖZƏL BƏY
ƏZİM
LAZIM
AĞADADAŞ BƏY
XAN MİRZƏ, HACIAĞA MİRZƏ, MƏHƏMMƏD MİRZƏ
ZÜLFÜQAR, ƏBDÜLHÜSEYN, AĞAHÜSEYN
QOCA BƏY
AĞASI BƏY
QARA BƏY
ƏSƏD BƏY, HACIPAŞA BƏY, NABAT XANIM
BAXIŞ BƏY, AĞADADAŞ BƏY
XANBUTAY BƏY, TEYMUR BƏY, ASLAN BƏY
HACI SƏTTAR BƏY
HACI AĞALAR BƏY
HACI ABBASQULU
ƏLİ BƏY, BALA BƏY
KƏRİM BƏY
HÜSEYN BƏY, CAVAD BƏY, ƏSƏD BƏY (MƏŞƏDİAĞA)
RƏŞAD BƏY, SARA XANIM
QASIM BƏY
BALA BƏY
SULTAN BƏY
İLDIRIM BƏY
VAQİF BƏY
QASIM BƏY


AĞAHÜSEYN BƏY
HACI CƏBİ BƏY
ƏLİ NAĞI BƏY
HACI NƏCƏFQULU BƏY, HACI NƏSRULLA BƏY
XƏLİL BƏY, YÜZBAŞI BƏY, ƏZİZ BƏY, GƏRAY BƏY
SADIQ BƏY
FƏRHAD BƏY
NƏCƏFQULU BƏY
RÜSTƏM BƏY, ABDULLA BƏY, HÜSEYN BƏY, HƏSƏN BƏY, ƏLİAĞA BƏY
İSRAFİL BƏY, ÜZEYİR BƏY, KAMİL BƏY, MƏHƏMMƏD BƏY, CƏBRAYIL BƏY
İSRAFİL BƏY, CƏBRAYIL BƏY
ƏZİZ AĞA
FARİZ BƏY
İLQAR BƏY, MƏHƏMMƏD BƏY, KAMRAN BƏY
AZAD BƏY, FUAD BƏY

SABUNÇULU BƏY OĞLU

"Sakit görünən dənizin tələtümü dərin qatdadır".
Əbu Turxan

Deyirlər ki, oxunan ən böyük kitab insandır...
Bəşir bəy Aşurbəyovun adı, taleyi Bakının Sabunçu kəndi ilə sıx bağlıdır. Çünki onun özü də, babaları da burada doğulublar. Sabunçu Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Elə ərazinin qədim Sabunçu adı da bu torpaqların zəngin tarixi keçmişindən soraq verir.

"Sabunçu" toponiminin mənşəyi barədə maraqlı fikirlər var. Əfsuslar olsun ki, bir çoxları "Sabunçu" deyərkən, burada vaxtilə sabun bişirən şəxslərin yaşadığını güman edirlər. Əslində isə, adın yayılma arealı bu toponimin tayfa adı olmasına dəlalət edir. Belə ki, Bakıdan savayı, Zaqatalada da Sabunçu adlı kənd və çay, Şəkidə Sabunçu məhəlləsi, Göygöl rayonunda Sabunçu dərəsi, Tatarıstan ərazisində Sabançe, Krımda Sapun dağı, Qars vilayətində Sabunçu qışlağı, türk etnosunun bir qolu olan qaraqalpaqlarda isə Sapun adlı tayfa var.

Səfəvi hökmdarı Sultan Hüseynin 1694, 1704 və 1722-ci illərə aid fərmanlarından belə aydın olur ki, sabunçulular Azərbaycanda və indiki Ermənistan ərazisində yaşayan türkdilli tayfa olublar. Bu tayfanın nümayəndələri Abşeron ərazisində məskunlaşaraq "Sabunçu" toponiminin formalaşmasında mühüm rol oynayıblar. Ad ilkin variantında "Sabançı" olub. Zaman keçdikcə dəyişikliyə uğrayaraq "Sabunçu" formasına düşüb. "Sabunçu" toponimini "üç təpə" məzmunu ilə əlaqələndirənlər də var. Deyilənə görə, vaxtilə bu kənddə 3 təpə mövcud olub. Amma fikrimizcə, Sabunçu to-



Sabunçu XIX əsrin sonlarında

poniminin qədim türk tayfasının adından gəlməsi fikri daha mötəbərdir.[1]

Sabunçu XIX əsrin sonlarına doğru Bakının əsas sənaye mərkəzlərindən birinə çevrilmişdi. Bakı ilə Suraxanı arasında hələ 1880-ci ildən dəmir yolu xətti var idi və kəndin ətrafında neft mədənləri uzanıb gedirdi.

Bəşir bəy Aşurbəyov da Sabunçunun Bakıdakı neft bumunun əsas mərkəzlərindən birinə çevrilməyə başladığı dövrlərdə – 1875-ci ildə kəndin varlı tacirlərindən və əsas torpaq sahiblərindən biri olan Hacı Məhəmmədhəsən bəyin ailəsində doğulmuşdu. O, bəyin yeganə oğlu idi. Hacı Məhəmmədhəsən bəyin ömür-gün yoldaşı Cəvahir xanımla Bəşir bəydən başqa 5 qız övladı da vardı: Qönçəxanım, Şahbacı, Sitarə, Törə, Qüdrət.

O dövrün müsəlman-Şərq adət-ənənələrinə görə, ailədə əsas varis oğlan övladı sayıldığından Hacı Məhəmmədhəsən bəyin bütün varidatı da Bəşir bəyə keçmişdi. XIX əsrin sonu və XX əsrin əvvəllə-

[1] Hüseynzadə Ə.A. Sabunçu toponiminin mənşəyi // Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri", tarix və fəlsəfə ser., sayı 7, 1975, səh. 45.



Bəşir bəy Aşurbəyov



Bəşir bəyin indiki Mehdi Hüseyn küçəsindəki mülkü

rində Bakıda neft bumu ən yüksək həddə çatdığı dövrdə Bəşir bəy böyük neft mədənlərinə sahib idi. Bu mədənləri təkbaşına idarə etmək mümkün olmadığı üçün o, bu işə öz əmisi oğlanlarını da cəlb etmişdi. Onlara yeni mədənlər yaratmaları məqsədilə torpaq sahələri ayırmışdı.

Bəşir bəy ortaboylu, qarayanız, xoşsimalı, şux görkəmli olub, əsl müsəlman kişisinə xas davranışı, oturuşu-duruşu vardı. Qapqara gözləri, qalın qaşları, o dövrün dəbinə uyğun şəvə bığları üzünə xüsusi yaraşıq verirdi. Zəhmi də vardı, amma ziyalılığı uzaqdan bəlli olurdu. Sakit danışardı, acılı-şirinli, sərt sözlərini də ahəstə-ahəstə söyləyərdi. Onun haqqında "vurub-tutan", "dəli-dolu" adam olduğunu deyənlər də vardı. Əsəbiləşərdi, amma çox nadir hallarda özündən çıxardı.

Bəşir bəyin birinci həyat yoldaşı elə öz əmisi qızı Balaxanım idi. Onların izdivacından Rübabə və Nağı adlı iki övladı dünyaya gəlmişdi. Amma bu, Bəşir bəyin yeganə evliliyi olmamışdı.

Bakıda yaşasa da, onun Azərbaycanın digər bölgələrində olan adlı-sanlı məşhur əsilzadələrlə sıx dostluq əlaqələri vardı. Onlardan biri də Gədəbəyin Xınna dərəsi adlanan obada yaşayan və Yelizavetpol (Gəncə) quberniyasında böyük torpaq sahələri olan Allahyar bəy Zülqədərov idi. Allahyar bəylə dostluq münasibətlərindən başqa, Bəşir bəy Aşurbəyovu bu ocaqla əfşarlar soyundan gələn tarixi qohumluq əlaqələri də bağlayırdı.

Bəşir bəy Aşurbəyov Allahyar bəyin evində qonaq olarkən onun Nəzakət adlı qızını görüb bəyənir, elçi göndərir və onunla ailə qurur. Bəşir bəy Aşurbəyov Nəzakət xanımla ailə qurandan sonra 1901-ci ildə birinci ailəsi üçün Sabunçu kəndində çox gözəl, möhtəşəm bir imarət tikdirir. Anası Cəvahir xanım, həyat yoldaşı Balaxanım və iki övladı bu imarətdə yaşayırlar. Bəşir bəy özü isə Nəzakət xanımla Bakının keçmiş Kladbişenski – 89 (indiki Mehdi Hüseyn küçəsi) ünvanında tikilmiş ikimərtəbəli evə köçür. Onların bu evliliyindən dörd övladı – üç oğlu və bir qızı dünyaya gəlir: Məhəmmədhəsən, Midhət, Rəbiyyə və Kazım.



Bəşir bəyin həyat yoldaşı Nəzakət xanım Aşurbəyova

XEYİR ƏMƏLLƏR SAHİBİ

"Amal yüksək olduqca insan da yüksəlir".
Fridrix Şiller

Atasından qalmış geniş torpaq sahələri, böyük neft mədənləri, Bakının müxtəlif yerlərindəki 10-a yaxın mülkü Bəşir bəy Aşurbəyova böyük sərvət qazandırır, o isə qazancının müəyyən hissəsini xeyriyyə işlərinə xərcləyirdi. Ona görə də Bəşir bəy zəmanəsinin səxavətli xeyriyyəçilərindən biri kimi tanınmışdı. Bunu elə Cəfər Cabbarlı və sinif yoldaşlarının onların təhsilinə maliyyə köməyi edən bu millət xadiminə təşəkkür məktubunda da görürük.



Yusif Vəzir Çəmənzəminli

Qarşımızda 5 noyabr 1910-cu ildə Təhsil Komissiyasına müraciət etmiş Xarkov Universitetinin Tibb fakültəsinin tələbəsi Hüseyn Vəliyev adlı gəncin ərizəsi də var. Bu ərizə onun, sonralar Azərbaycan Xalq Cümhuriyyətinin aparıcı simalarından olan Məhəmməd Həsən bəy Hacınskinin və Həbib bəy Mahmudbəyovun qayğısı sayəsində, Bəşir bəy Aşurbəyovun ayırdığı təqaüdlə 1907-ci ildən Xarkov Universitetində təhsil aldığını göstərir.

Bəşir bəy Aşurbəyov görkəmli Azərbaycan yazıçısı və ictimai xadimi Yusif Vəzir Çəmənzəminlinin də taleyində çox böyük rol oynamışdır. Kifayət qədər çətin sınaqlarla dolu ömür yolu keçən Yusif Vəzir Çəmənzəminlinin həyatındakı maraqlı məqamlardan biri onun Bakı

Realnı Məktəbində oxuduğu vaxt baş vermişdi. Gələcəyin böyük yazıçısı maddi sıxıntı ucbatından təhsilini yarımçıq qoymaq məcburiyyətində qalmışdı, məktəbi qurtara bilməyəcəyindən qorxurdu. O zamanlar Yusif Vəzir Çəmənzəminli Bəşir bəy Aşurbəyovla yenicə tanış olmuşdu. Bakı milyonçusunun xeyriyyəçilik fəaliyyəti, mütərəqqi, maarifpərvər fikirləri gələcəyin ədəbiyyat xadimində də böyük rəğbət oyatmışdı. Yusif Vəzir başqa bir Bakı milyonçusu Hacı İsrafil Aydəmirovdan təhsili üçün təqaüd ala biləcəyinə ümidli idi. Amma əfsus ki, həmin adam kömək etməkdən imtina edir. Bundan xəbər tutan Bəşir bəy Aşurbəyov ona hər ay təqaüd verməyə hazır olduğunu bildirir. Yusif Vəzir Çəmənzəminlinin həyat və fəaliyyətini tədqiq etmiş professor Tofiq Hüseynoğlu yazır ki, həmin vaxtlar Yusif Vəzir dərs verib aldığı 20 manatla özünü dolandırırdı, kömək üçün başqa birisinə üz tutmağı qürurunu sığışdırmırdı. Amma təhsil haqqına görə imtahanının təxirə salındığını görəndə anlamışdı ki, bu problemi kiminsə xeyriyyə dəstəyi olmadan aradan qaldıra bilməyəcək. Belə bir vaxtda Bəşir bəy Aşurbəyovun ona təyin etdiyi aylıq 25 manat təqaüd Yusif Vəzir Çəmənzəminlini çətin vəziyyətdən, bir növ dardan qurtarır və o, təhsilini davam etdirə bilir.[1]

Yazıçı Bəşir bəyin bu yaxşılığını unutmur. Yusif Vəzirin həm görkəmli alim, yazıçı, dramaturq, həm də həssas, incə qəlbli, qədirşünas bir adam olduğu çəmənzəminlişünaslıqda faktlarla təsdiq edilib diqqətə çatdırılmışdır. Bu insanın həyatında baş verən, taleyində iz buraxan bir çox hadisələr ədibin gündəliklərində, ayrı-ayrı qeyd, məqalə və bədii əsərlərində öz əksini tapmışdır. Gündəliyindəki 8 may 1908-ci il tarixli qeydlərində Bəşir bəyin xeyirxahlığını "Ümid işığı" başlığı altında yazdığı təşəkkürnaməsində böyük minnətdarlıq hissi ilə xatırlayır. Gənc çəmənzəminlişünas alim, filologiya üzrə fəlsəfə doktoru Leyla Məcidqızı Y.V.Çəmənzəminlinin gündəliklərini tərtib və rus dilindən tərcümə etdiyi, ön söz, qeyd və izahlarla çap etdirdiyi kitabına daxil etmişdir.[2] Həmin kitabda yer alan "Ümid işığı" başlıqlı qeydlərin ibrətamizliyi bu xeyirxahlığın bir gəncin həyat və taleyində nə boyda ümid işığına çevrildiyini, müsbət dəyişiklik yaratdığını əks etdirir:

---

[1] Hüseynoğlu T. Ədəbiyyatla yaşayıram. Bakı, "Azərnəşr", 1993, səh. 76.

[2] İmaməliyev L. Məcidqızı. Yusif Vəzir Çəmənzəminli. Gündəliklər, Özüm üçün dəqiqələr... Bakı, "Azərnəşr", 2001.

"Artıq iki gündür ki, buraxılmışıq, imtahanlar avqusta keçirilib. İmtahanların vaxtının uzadılması mənim üçün böyük zərbə oldu. Fikirləşirəm: "Hara gedim ki, vaxtımı yalnız dərslərə sərf edim? Bu sualıma heç bir yerdə qənaətbəxş cavab tapa bilmirəm. Doğrudan, axı hara gedim? Aşqabadda hava istidir, həm də bir dəstə bekarın arasında həyat da azad deyil. Bağa getmək yaxşı olardı...

Necə olsun? Ümid işığı görünür: mənə kömək etmək istəyən bir insan tapmışam. Bu dahi şəxsiyyət mənim kimi ümidsiz bir gəncə öz xilaskar əlini uzadan Bəşir bəy Aşurbəyovdur. Mən bu cavan xeyriyyəçi ilə keçən ildən tanışam, ancaq bu il keçirilən görüşlərdən birində onunla daha yaxından tanış olduq. Aydəmirov tərəfindən mənim təqaüdümün kəsildiyini biləndə o, mənə bir neçə dəfə kömək üçün təklifini bildirmişdi. Ancaq mən bu təklifdən istifadə etməmişdim. Axı vicdana yaraşan iş deyil, mən dediyim dərslərdən 20 manat alıb günümü keçirirdim. Ancaq bu gün kömək üçün müraciət etməyi məndən şərait tələb edir. O da tərəddüd etmədən mənə hər ay 25 manat təqaüd verəcəyini bildirdi.

Məni çətin vəziyyətdən çıxaran və təhsilimə böyük təkan vermiş bir insanı mən necə unuda bilərəm. Yox! Çəkinmədən deyə bilərəm. Yusifin xasiyyəti elədir ki, o, ölənə qədər yaxşılığı və pisliyi unuda bilməz...". [1]

O, "bu gün müraciət etməyi məndən şərait tələb edir" deyərkən, görünür, həm Aydəmirovun ona verdiyi təqaüdün kəsildiyini, qarşıdan gələn yayda xərclərin artacağını, üstəlik də, imtahana hazırlaşdığı, həm də tətil olduğu üçün dediyi dərslərin müqabilində aldığı 20 manat zəhmət haqqının kəsiləcəyini nəzərdə tutmuşdur. Belə olan halda gələcək yazıçını qarşıda kifayət qədər ağır maddi sıxıntıların gözlədiyi şübhə doğurmur. Çəmənzəminlişünaslıqda həmin faktdan söhbət açılanda, bir qayda olaraq, Yusif Vəzirin gündəliyinə istinadən Bəşir bəyin ona təqaüd kəsdiyi göstərilir. Çünki istinad etməli başqa bir fakt, sənəd və ya material əldə yox idi. Ancaq bu qeydlərin yazıldığı 8 may 1908-ci il günündə Bəşir bəy Aşurbəyov hələ Yusif Vəzirova ona 25 manat təqaüd verəcəyini vəd etmişdi. Verilən vəd isə hələ reallığa çevrilməmişdi. Bəşir bəy hansısa səbəbdən bu vədə əməl etməyə də bilərdi.

[1] Yenə orada, səh. 127-128.

Xoşbəxtlikdən, bu baş vermir. Bəşir bəy Aşurbəyov öz vədinə əməl etdiyi kimi, Yusif Vəzir də imtahanlarını uğurla başa vurur. Əldə etdiyi uğurlarda rolu böyük olan Bəşir bəyə minnətdarlığını bu dəfə mətbuat vasitəsilə bildirmək qərarına gəlir. Bu məqsədlə "Tərəqqi" qəzetinə məktub göndərir. Onun məktubu qəzetin 29 sentyabr 1908-ci il tarixli 64-cü sayında "Təşəkkür" başlığı altında çap edilir. Məktubda oxuyuruq:

"Müdiri möhtərəm!

Təvəqqeye-acizanə edirəm, ruznaməniz vasitəsilə mənim zeyldə izhari-təşəkkürümü Bəşir bəy Aşurbəyov cənablarına yetirəsiniz. Bu cənabi nər mənim ehtiyacda olduğumu və oxumaq üçün istaətim olmadığını nəzərə alıb mənə hər ayda iyirmi beş manat pul öz kiseyemərhəmətlərindən məaş təyin etdilər.

İndi neçə aylardır ki, müəyyən vaxtlar alıram. Allah bu növ millət balalarının qeydinə qalıb və ehtiyaclarını rəf etmək fikrinə düşən mətmullarımızın əmsalın artıq etsin və bizləri eylə müvəffəq etsin ki, elm-təhsil edib yetdikdə biz də onların müqəddəs məsləkilə gedib sair ehtiyacda olan qardaşlarımıza kömək edə bilək".

Yusif Vəzir Çəmənzəminlinin "Təşəkkür" məktubu bu imza ilə çap edilmişdir: "Bakı realnı şkolasının yeddinci sinfinin şagirdi Miryusif Vəzirov".[1]

Bu təşəkkür məktubu Yusif Vəzir Çəmənzəminlinin qədirşünaslığının daha bir nümunəsi olmaqdan əlavə, bir neçə cəhətdən də diqqəti cəlb edir: əvvəla, Bəşir bəy Aşurbəyovun ziyalılığını, maddi cəhətlə yanaşı, mənəvi zənginliyini və sözübütövlüyünü özündən sonrakı nəsillərə örnək kimi təqdim edir. İkincisi, Yusif Vəzir Çəmənzəminli ona və onun kimi istedadlı uşaqlara arxa, dayaq olan vətən oğullarının etimadına layiq olmaq əzmini "Allah... bizləri də eylə müvəffəq etsin ki, elm-təhsil edib yetdikdə biz də onların müqəddəs məsləkilə gedib sair ehtiyacda olan qardaşlarımıza kömək edə bilək" sözləri ilə ifadə etməsidir. Bundan başqa, yeniyetmə bir gənc olan Yusif Vəzirin necə böyük amallarla yaşadığı bu məktubdan da aydın görünür.

Yusif Vəzir Çəmənzəminli gələcək fəaliyyətində bu sözlərinə layiqincə əməl etdi: o, görkəmli yazıçı, ictimai xadim, diplomat, publisist,

[1] "Tərəqqi" qəzeti, 29 sentyabr 1908, sayı 64.

folklorşünas, ədəbiyyat tarixçisi, sözün əsl mənasında, bir vətəndaş kimi milli mədəniyyət və dövlətçilik tariximizdə müstəsna xidmətləri ilə yaddaşlara və milli-mədəni sərvət xəzinəmizə köçdü. Və həyatının heç bir məqamında Bəşir bəy Aşurbəyovun ona etdiyi yaxşılığı unutmadı. Bu xeyirxahlığın əvəzini özünün yaxşı əməlləri ilə, ictimai fikir tariximizə verdiyi zəngin töhfələrlə, yaratdığı söz xəzinələri ilə verməyə çalışdı.

Bütün bu faktlar Bəşir bəyin təhsilə, maarifə, Azərbaycan övladlarının oxuyub sənət sahibi olmasına dəstəyinin nə qədər miqyaslı xarakter daşıdığını əks etdirir.

SABUNÇU KƏNDİNDƏ MÜQƏDDƏS OCAQ

"Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə iman gətirən, namaz qılıb, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırarlar".
Qurani-Kərim, "Tövbə" surəsi, 18.
"Məscid tikdirənə Allah cənnətdə saray bəxş edər".
Hədis-i Şərif

Sabunçu kəndində 1897-ci ildə möminlərin istifadəsinə verilmiş məscidi də Bəşir bəy Aşurbəyov tikdirmişdi. Bu məscidin inşası, əslində, atası Hacı Məhəmmədhəsən bəyin arzusu olmuşdur. O, Məkkə ziyarətinə gedərkən Sabunçu kəndindən özü ilə 10 zəvvarı da ziyarətə aparır və onların bütün xərclərini ödəyir. Yolboyu keçdikləri şəhərlərdəki müqəddəs yerləri, böyük məscidləri görən Sabunçu ağsaqqallarından biri Hacı Məhəmmədhəsən bəyə üz tutub arzusunu dilə gətirir:

– Deyirəm, ay Hacı, kaş bizim Sabunçu kəndində də belə bir məscid olaydı. İndiki məscidimiz yaman kiçikdir. Məscidə gələnlərin sayı çoxalır, hamıya yer çatmır.

O biri zəvvarlar da ağsaqqalın fikrini təsdiq edirlər. Hacı Məhəmmədhəsən bəy elə oradaca qərar verir:

– Narahat olmayın, inşallah, sağ-salamat kəndə qayıdaq, bu arzunuzu yerinə yetirəcəyəm. Sabunçuda yeni məscid tikdirəcəyəm. Özü də indi kənddə olandan iki-üç dəfə böyük...

Bu niyyət, həqiqətən, səbəbsiz sayılmazdı: Sabunçudakı Cümə məscidini vaxtilə Hacı Məhəmmədhəsən bəyin babası, sərdar Aşur



Bəşir bəy Aşurbəyovun Sabunçuda tikdirdiyi məscid

xan Əfşar inşa etdirmişdi. O zaman məscidin sahəsi yerli əhali üçün yetərli idi. Amma neft bumundan sonra burada müsəlman sakinlərin sayı getdikcə artmağa başlamışdı. Məscidə ibadətə gələnlər çoxalırdı. Məscid isə bunun müqabilində çox kiçik idi. Hacı Məhəmmədhəsən bəy istəyirdi ki, kənddə illər əvvəl babasının inşa etdirdiyindən iki dəfə böyük bir məscid binası ucaltsın.

O, ziyarətdən qayıdan kimi sözünə əməl etmək istəyir. Amma məscidin tikintisinə icazə almaq bir qədər müşkülə çevrilir. Hacı Məhəmmədhəsən bəy məscidi indiki 3 saylı Sabunçu Şəhər Xəstəxanasının yaxınlığında tikintisi aparılan xristian kilsəsi ilə üzbəüz inşa etmək istəyir, amma şəhər rəhbərliyi həmin ərazidə məscid tikintisinə icazə vermir. Belə olduqda kənd ağsaqqalları, hörmətli, nüfuzlu insanlar, qohumlar məsləhət görürlər ki, Hacı Məhəmmədhəsən bəy bu müqəddəs ocağı Sabunçu kəndindəki qədim tarixi abidələrdən olan "Göynüz məbədi"nin qalıqları üzərində tikdirsin.

1895-ci ildə həmin yerdə məscidin təməli qoyulur. Amma arzusunun həyata keçməsini görmək Hacı Məhəmmədhəsən bəyə qis-



Bəşir bəyin nəvələri Nəzakət xanım və Aidə xanım Sabunçu sakini Pərviz Ebenlə məscidi ziyarət edərkən

mət olmur. Məscid hazır olmamış ağır xəstəlik onu haqlayır, ölüm yatağına düşür. Ömrünün son saatlarında oğlunu yanına çağırıb deyir:

– Bəşir, oğlum, hiss edirəm ki, daha sayılı dəqiqələrim qalıb. Mənimki də bura qədərmiş. Neyləmək olar, bir gün dünyaya gələn bir gün də gedəcək. Vəsiyyət yüngüllükdür. Mən də vəsiyyətimi eləmişəm, hamınız bilirsiniz. Səni isə indi ona görə çağırmışam ki, bir vəsiyyətimə də mütləq əməl edəsən. Məscid əmanəti. Kənd camaatına söz vermişəm. Onu tez bir zamanda tikdirib başa çatdır. Onda ruhum şad olacaq. Peyğəmbərimiz (s.ə.) də deyib ki, məscid tikdirənə Allah cənnətdə saray bəxş edər.

Bəşir bəyi qəhər tutur, göz yaşlarını saxlaya bilmir. Handan-hana atasının əllərindən tutub ona təskinlik verir:

– Xatircəm ol, ata. Arzunu yerinə yetirəcəyəm. Tezliklə məscidin tikintisi başa çatacaq. Amma sən də hələ vəsiyyətə tələsmə. İnşallah, tezliklə sağalıb ayağa duracaqsan. Həkimlər deyirlər ki, sağalmağına ümid kəsilməyib. Məscidi özün də görəcəksən, orada camaatla birgə namaz da qılacaqsan...

Amma Bəşir bəy də bilirdi ki, bu ümidlər boşunadır, atası ömrünün son anlarına gəlib çatıb.

Bir müddət sonra Hacı Məhəmmədhəsən bəy ömrünü doğmalarına bağışlayıb dünyadan köçür. Təziyə mərasimlərini yola verəndən sonra Bəşir bəy atasının bütün işlərinə nəzarəti üzərinə götürür. Məscidin inşasına da xüsusi diqqət edir və tikintini tamamlayır. 1897-ci ildə Bakı kəndlərindəki tanınmış din xadimlərinin, nüfuzlu insanların iştirakı və xeyir-duası ilə bu müqəddəs ocağın açılışı olur.

Məsciddə azan verəcək müəzzin hər gün ayaqqabı ilə minarəyə çıxmasın deyə Bəşir bəy maraqlı bir addım da atır. O, məscidin qonşuluğundakı ikimərtəbəli evi satın alır. Cənubi Azərbaycandan olan və çox gözəl səsə malik Turabaxış adlı müəzzini orada yerləşdirir. Özünə də tapşırır ki, minarəyə çıxmadan gündə üç vaxt azanı elə bu evin damından səsləndirsin.

Bir müddət sonra 12-13 yaşlarında Qasım və Əkbər adında iki yoxsul yeniyetmə mədənlərdən birində fəhləlik etmək xahişi ilə Bəşir bəyə müraciət edir. O isə əvvəlcə bu çəlimsiz, aclıqdan ovurdları batmış yeniyetmələrin qarınlarını doyurur. Sonra mədəndə ağır iş altında əziyyət çəkəcəklərini bilib, onları məsciddə xidmətçi təyin edir. Allah evinə ibadətə gələn imkanlı möminlərdən də xahiş edir ki, hər dəfə imkanları çatan qədər bu gənclərə yardım göstərsinlər. O iki gənc 1930-cu illərə – bolşeviklər məscidi bağlayana qədər burada onlara verilən ianələr hesabına dolanırlar.

AĞLIN ÇIRAĞI

"Təhsil bir nur, cəhl zülmətdir".
Mahmud Şəbüstəri

Bəşir bəyin xeyriyyəçilik fəaliyyətinin mühüm bir qismini də təhsilə, maarifə ayırdığı dəstək təşkil edirdi. Ayrı-ayrı məktəblərdə təhsil alan şagirdlərə davamlı ianələrindən başqa, o, 1901-ci ildə Sabunçuda Cənubi Azərbaycandan olan fəhlə balaları üçün məktəb açır. El arasında "Həmşəri məktəbi" kimi tanınan bu təhsil ocağının fəaliyyətinə Bəşir bəy uzun illər dəstək verir, burada təhsil alan uşaqları yeməklə, dərsliklərlə, geyimlə təmin edir. Bəşir bəy hər zaman elm və təhsilin ağlın çırağı olduğunu söyləyirdi. Bəşir bəyin özü də neft mütəxəssisi idi, idarəçiliyi gözəl bilirdi. Üç xarici dildə - rus, fars və ərəb dillərində danışır, hətta şeirlər yazırdı. "Oğluma nəsihətlər"ini fars dilində qələmə almışdı.

Bəşir bəyin Sabunçuda anası və birinci ailəsi üçün italyan memarlarına tikdirdiyi imarətdə indi Xocalıdan olan məcburi köçkün ailələrinin övladları təhsil alırlar. Bu da, görünür, taleyin qəribə bir qanunauyğunluğu və nəcib missiyanın davamıdır.





Bəşir bəyin Sabunçudakı mülkü

BİTMƏYƏN KİTAB: MƏDƏNİYYƏT İNKİŞAFDIR

"Bütün yollar qaranlıqdan işığa doğrudur".
Əbu Turxan

Bu missiya isə təkcə təhsillə, maariflə tamamlanmırdı. Ədəbiyyatı, incəsənəti çox sevən, özü də gözəl şeirlər yazan Bəşir bəy Aşurbəyov mədəniyyət adamlarının da hamisi idi. Bunu mədəniyyət tariximizin keşməkeşli məqamları ilə bağlı çox maraqlı faktlar da təsdiqləyir. Bu faktlardan biri Azərbaycanın görkəmli musiqi və ictimai xadimi, bəstəkar Müslüm Maqomayevlə bağlıdır.

Bu hekayəti nəql etmək üçün Azərbaycanın teatr tarixindən başlamalıyıq. Məlum olduğu kimi, Azərbaycanda teatrın təməli Həsən bəy Zərdabinin təşəbbüsü, Əsgər ağa Adıgözəlov (Gorani) və Nəcəf bəy Vəzirovun yaxından iştirakı ilə 1873-cü ildə qoyulmuşdur. Həmin ilin mart və aprel aylarında Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" tamaşaları səhnəyə qoyuldu. Rollarda Bakı Realnı Məktəbinin şagirdləri oynayırdılar. Bu ilk həvəskar tamaşalar milli teatrımızın yaranmasına böyük təkan verdi. Qabaqcıl Azərbaycan ziyalıları, sonralar Qori Seminariyasını bitirən müəllimlər də Şuşa, Naxçıvan və başqa şəhərlərdə teatr tamaşaları düzəldirdilər. Özləri də bu tamaşalarda aktyor kimi çıxış edirdilər.

1890-cı illərdən başlayaraq, xüsusilə Nəriman Nərimanov Azərbaycan teatrının ideyaca sağlam bir yöndə inkişaf etməsində bö-

yük rol oynamağa başladı. O, ziyalı gəncləri aktyor truppasına toplayırdı. Eyni zamanda özü də bir çox tamaşalarda baş rolları ifa edirdi. 1896-cı ildə Həsən bəy Zərdabi Bakıda Birinci Müsəlman Dram Truppası adlı ilk professional teatr kollektivini formalaşdırdı. 1897-ci ildə Bakıda ilk dəfə Artistlər İttifaqı yaradıldı.

1908-ci il yanvarın 25-də Bakıda ilk milli operanın, yəni Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" əsərinin tamaşası ilə Azərbaycan professional musiqili teatrının əsası qoyuldu. Musiqili teatrın yarandığı ilk illərdə onun repertuarını Üzeyir bəyin 1908-1913-cü illərdə yaratdığı "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşidbanu", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları təşkil edirdi.



Müslüm Maqomayev

Həmin illərdə Azərbaycanın qabaqcıl ziyalılarından biri kimi Müslüm Maqomayev də bu prosesdə xüsusi fəallıq göstərirdi. Qori Seminariyasında musiqi sahəsində də mükəmməl bilik və bacarıqlara yiyələnmiş bəstəkar seminariyanı başa vurduqdan sonra təyinatı üzrə Şimali Qafqaza işə göndərilir. 1905-ci ildən etibarən isə o, Lənkəranda müəllimlik edir. Orada məktəbdə dərs deməklə yanaşı, nəfəsli alətlər orkestri, xor, eləcə də balalayka çalanlar ansamblı yaradır. Onun yaratdığı Lənkəran Teatr Qrupunun çıxışları "Bakı" qəzetinin "Müsəlman həyatı" məqaləsində də qeyd olunmuşdu. 1911-ci ildə isə Müslüm Maqomayev Bakıya köçür, Sabunçu şəhər məktəbinə müəllim təyin edilir.

Bütün varlığı ilə sənətə bağlı olan və klassik, akademik musiqinin, teatrın xalq üçün önəmini yaxşı dərk edən bu böyük insan Sabunçuda da teatr yaratmaq qərarına gəlir. Amma kəndin söz sahibləri, nüfuzlu, varlı-karlı adamları ona mane olmağa başlayırlar. Bir tərəfdən, o vaxt "mütrüfxana" adlandırdıqları teatrı Sabunçuya yaraşdırmırlar, digər tərəfdən də fikirləşirlər ki, kənddə teatr olsa, mədənlərdə çalışan fəhlələr işdən yayınıb gedəcəklər tamaşalara baxmağa, iş-güc

tökülüb qalacaq. Ona görə də kənddə teatr istəyinin baş tutmaması üçün Müslüm Maqomayevə hər vəchlə əngəl törədirlər. Gələcəyin böyük musiqi xadiminə hədə-qorxu gəlir, təzyiqlər göstərirlər. Kənddən çıxıb getməsini istəyirlər, əks halda "teatr çıxarmağ"ın ona baha başa gələcəyini deyirlər. Xüsusilə Sabunçu qoçularının təhdidləri onu lap təngə gətirir. Belə olunca Müslüm Maqomayev Bəşir bəy Aşurbəyovun yanına gəlir və deyir:

– Bəşir bəy, mənim sizdən bir ricam var.

Sabunçuya yenicə təyin olunmuş gənc müəllim haqqında Bəşir bəy artıq eşitmişdi. O, xahiş üçün yanına gəlmiş şəxsə ehtiram göstərir:

– Buyurun, sizi dinləyirəm. Haqqınızda eşitmişəm. Bildiyim qədər müəllimsiniz, buna qədər Lənkəranda işləmisiniz, indi isə Sabunçu məktəbində tədrisə başlamısınız. Çox pakizə. Sizin kimi müəllimlərə böyük ehtiyacımız var. Uşaqların təhsil alması lazımdır. İndiki zəmanədə xalq savadsız irəli gedə bilməz. Odur ki, nəcib bir işlə məşğulsunuz, uğur olsun sizə. Nə köməyə də ehtiyacınız olsa, qapım həmişə üzünüzə açıqdır. Hətta deyilənə görə, teatr tamaşaları da qoymaq istəyirsiniz, düzdümü?

Müslüm Maqomayev dərhal dillənir:

– Elə xahişim də bununla bağlıdır. Yanınıza teatr məsələsini danışmaq üçün gəlmişəm.

– Nə kömək göstərə bilərəm?

– Kənddə bəzi adamlar teatrın yaradılmasına imkan vermək istəmirlər. Mənə hədə-qorxu gəlirlər ki, bu işdən çəkinim, hətta kənddən çıxıb gedim. Əlbəttə, onlara izah edə bilərəm ki, yanlış düşünürlər. Teatr çox lazımlı işdir. Burada pis nə isə olsa, inkişaf edən xalqlar teatr yaratmaz, teatr binaları tikməzlər. Biz Lənkəranda da şagirdlərlə teatr yaratmışdıq, maraqlı tamaşalarımız olurdu. Şəhər əhli gəlib baxırdı. Amma burada çox çətindir, imkan verən yoxdur. Qoçuları az qala hər gün üstümə göndərirlər.

Bəşir bəy əsəbiləşir:

– Cahil ki, cahil! Onlar öz xeyirlərini bilməyən adamlardır. Binəvaların gözləri bağlıdır, ona görə də irəliyə baxa bilmirlər. Elə anlayırlar ki, teatr bunların çörəyini əlindən alacaq. Ona görə də belə hoqqalar



Sabunçuda Müslüm Maqomayevin yaratdığı teatrın binası

çıxarırlar. Amma səhv edirlər. Kimsə bundan sonra sizə bir söz deyə bilməz. Mən onlarla danışıb başa salaram. Rahat dərsinizi deyin, teatrı da yaradın. Tamaşalarınıza özüm gəlib baxacağam. Bundan sonra da kimsə sizə mane olmaq istəsə və yaxud bir köməyə ehtiyacınız yaransa, dərhal mənə bildirin.

Bəşir bəy verdiyi sözü tutur. İrəli çıxıb Sabunçuda teatrın yaradılmasında Müslüm Maqomayevə dəstək olur, lazımi köməyi göstərir. Bu işə mane olmaq istəyənləri isə tənbeh edir. Bildirir ki, bundan sonra kimsə müəllimə güldən ağır söz desə, hörmətsizlik göstərsə, həmin adamın cəzasını özü verəcək. Son sözü bu olur ki, yanıb işıq saça bilmirsinizsə, heç olmasa işığın qabağını kəsməyin.



“Bismillah” filminin (1925) çəkildiyi “Putovski dvor” ərazisi

Qaragüruhçular Bəşir bəyin nüfuzu qarşısında geri çəkilməli olurlar. Beləliklə, Sabunçuda ilk teatr yaradılır. Bəşir bəy paltarların tikilməsi və digər məsələlərdə də teatra köməyini əsirgəmir. Özü də vaxtaşırı tamaşalara gəlib baxır.

Bir maraqlı məqamı da diqqətə çatdıraq ki, 1925-ci ildə lentə alınmış ilk Azərbaycan filmlərindən birinin çəkilişləri də Bəşir bəyin 1915-ci ildə Sabunçu Vağzalı yaxınlığında yetim uşaqlar üçün tikdirdiyi və yerli əhali arasında “Putovski dvor” adlanan yerdə aparılıb. Sabunçuya ilk dəfə fotostudiyanı gətirən də Bəşir bəy Aşurbəyov olub. Nəvəsi Nəzakət xanımın ailə albomunda Bəşir bəyin anası Cəvahir xanımın şəkli var. Bu şəkil həmin studiyada çəkilib. Maraqlıdır ki, o dövrdə xanımların şəklini çəkmək üçün belə studiyalarda qadın fotoqraflar da çalışarmışlar.

Qeyd etdiyimiz kimi, Bəşir bəy Aşurbəyovun şairlik qabiliyyəti də vardı və gözəl şeirlər yazardı. Hətta şeirlərindən ibarət kiçik bir kitabı da çıxmışdı. Həmin kitab hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunur.



Bəşir bəyin anası Cəvahir xanım Aşurbəyova

O, MAKSİM QORKİNİ NECƏ XİLAS ETMİŞDİ?

"Bir tablo gördüm: rənglər bozdur, tutqundur, amma saxta deyil".
C.Fuller

"Bakının neft mədənləri mənim yaddaşımda zülmət cəhənnəmin dahiyanə mənzərəsi kimi qalıb. Bu mənzərə özünün çənlərdə qaynayan qırları, sönməz cəhənnəm alovu ilə dəhşətli şüurun bütün fantastik təxəyyüllərini, səbir və həlimlik carçılarının insanı qorxutmaq cəhdlərini kölgədə qoyurdu. Mən zarafat etmirəm. Təəssürat son dərəcə sarsıdıcı idi".

Bu cümlələrlə böyük yazıçı Maksim Qorki Bakıya ilk gəlişində – 1892-ci ildə gördüyü mənzərənin onun yaddaşında buraxdığı izi təsvir edir.


Maksim Qorki

24 yaşlı Maksim Qorkinin 1892-ci ildə Bakıya ilk gəlişinin səbəbi də qəribə görünə bilər – o, buraya neft mədənlərində fəhlə işləmək üçün gəlmişdi. Ancaq gördüyü mənzərədən, fəhlələrin ifrat ağır iş şəraitindən, hüquqsuzluğundan və işin təhlükəsindən dəhşətə gəlmişdi. "Mən və yoldaşım Fyodor Afanasyev neft hopmuş qumlu torpaqla irəliləyib Qara şəhərə yaxınlaşanda və buradan tüstüyə bürünmüş buruqların zirvəsini görəndə bu cür fikirləşdim: Yerin üstündə sanki ikinci mərtəbə

kimi başqa bir Yer əmələ gəlib. Və insanların yaşadığı bu ikinci Yer genişlənərək tezliklə səmanı əbədi zülmətə qərq edəcək", – yazan Maksim Qorki sanki Yer cəhənnəmini təsvir edirdi. Bakını iş yeri seçməkdən daşınan gələcək yazıçı buraları tərk etmiş və Rusiyaya dönmüşdü.[1]

Bakı Maksim Qorkini göz yaşlarına inanmayan qəddar ögey ana kimi qarşılayır...

1897-ci ildə Maksim Qorki yenidən, amma bu dəfə yazıçı-jurnalist kimi Bakıya gələrək neft mədənlərinə baş çəkir. Onu bu səfərində Həsən bəy Zərdabi müşayiət edir və maraqlıdır ki, bu dəfə tale onu Bəşir bəy Aşurbəyovla da rastlaşdırır.



Həsən bəy Zərdabi

Həsən bəyin qızı Qəribsoltan Məlikova öz xatirələrində yazıçının Bakıya gəlişini xatırlayaraq yazır: "Dəqiq yadımda deyil, 1896-cı, ya da 1897-ci il idi. Atam o zamanlar "Kaspi" qəzetində çalışırdı. Bir dəfə kuryeri evə göndərərək anama xəbər çatdırdı ki, Rusiyadan hörmətli qonaqlar gəlib və onları layiqincə qarşılamaq lazımdır... Biz təzə paltarlarımızı geyindik. Axşam atam qonaqlarla gəldi, anam onları eyvanda qarşıladı. Onlar gecələmək üçün qalmadılar, mehmanxanada yer tutduqlarını dedilər. Atam yalnız səhərisi gün bizə qonaqların yazıçı Maksim Qorki və musiqiçi Şalyapin olduğunu açıqladı..."

Özünün "Sovet İttifaqına səyahət" ("Путешествие по Советскому Союзу") kitabında Maksim Qorki bu səfəri zamanı baş çəkdiyi neft mədənlərindəki vəziyyətin qətiyyən yaxşılığa doğru dəyişmədiyini təsvir edərək yazır: "Mədənlərə mən "Kaspi" qəzetinin bir əməkdaşı ilə getdim; o, mənə hər şey haqqında müfəssəl danışacağını vəd etsə də, Suraxanıya çatdığımızda məni tanımadığım çox ucaboylu bir adama təqdim edərək özü çıxıb getdi.

– Baxın, – həmin adam qaşqabaq içində dilləndi, – Burada maraqlı heç nə yoxdur".

[1] История Баку и бакинцев // https://www.ourbaku.com/index.php

Oçerkin başqa bir yerində isə Maksim Qorki yazır: "Fəhlələr yarımsərxoş, əsəbi təəssürat bağışlayırdı, məqsədsiz və səbəbsiz yerə bir-birinə bağırırdılar və mənə elə gəlirdi ki, onların hərəkətləri yanlışdır. Gombul, çirkli birisi mənim üstümə şütüdü və xırıltılı səslə qışqırdı:

– Sən nə edirsən, şeytan, jelonkanı ver...

Ancaq görəndə ki, mən axtardığı adam deyiləm, söyərək uzaqlaşdı, mənim isə yaddaşımda naməlum "jelonka" *(jelonka - quyudan neft çıxarmaq üçün işlədilən uzunsov vedrə – **İ.Ə.**)* sözü qaldı..."

Qeyd edək ki, bu səfər zamanı Maksim Qorkinin öz oçerkinə daxil etmədiyi başqa hadisələr də baş verir. Əvvəlcə, Həsən bəy Zərdabinin onu mədənlərdə sona qədər müşayiət etməməsi ilə bağlı məqama aydınlıq gətirməyə çalışaq. O dövrdə Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Bəşir bəy Aşurbəyov kimi Bakı milyonçuları zəmanəsinin böyük maarifpərvəri olan Həsən bəy Zərdabinin xatirini əziz tuturdular. Onun gördüyü işlərə dəstək olmağa çalışırdılar. Amma Həsən bəy Zərdabiyə kin-küdurət bəsləyən qaragüruh düşüncəli imkanlılar da vardı. Çünki bu böyük maarifpərvər zənginlərin öz mənfəətləri üçün cəmiyyəti inkişafdan geri qoymalarına qarşı çıxırdı. Həsən bəy Zərdabi Dumanın fəal üzvü kimi dövlət orqanlarına təqdim etdiyi infrastruktur layihələri ilə onların qazancına müəyyən təhlükələr yaradırdı. Məsələn, o, Bakıda tramvay çəkilməsi üçün çalışırdı, bu isə konka sahiblərinin öz qazanclarını itirmələri demək idi. Bir başqa misal: Həsən bəy Zərdabi şəhərə içməli su xəttinin çəkilişi üçün gecə-gündüz yazıb pozurdu. Şəhər sakinlərinə içməli su satışından hər gün xeyli pul qazanan bir çox tacirə isə təbii ki, bu, sərf edə bilməzdi. Həsən bəy Zərdabi şəhər sənayeçilərinin, onlarla əlbir olan yerli hökumət məmurlarının yaratdıqları xoşagəlməz vəziyyətlə bağlı ali dövlət orqanlarına tez-tez şikayətlər yazır və bir çox problemlərin həllinə nail olurdu.

Görünür, Maksim Qorkini Bakının neft mədənlərində axıra qədər müşayiət etməməsi də bu böyük ziyalının vəziyyəti gərginləşdirməmək, mədən sahibləri ilə üz-göz olmamaq düşüncəsindən irəli gəlmişdi. Çünki Həsən bəy Zərdabi Maksim Qorkinin bu mədənlərlə bağlı tənqidi material hazırlamaq, gördüyü acınacaqlı durumu im-

periya rəhbərliyinin diqqətinə çatdırmaq üçün gəldiyindən xəbərdar idi. Onu da bilirdi ki, yazılar dərc olunduqdan sonra mədən sahibləri narazılıqlarını daha çox ona bildirəcəklər, məhz buna görə də Maksim Qorkinin yanında görünmək istəməmişdi.

Maksim Qorkinin mədənlərdə tək gəzintisi isə qoçularla gələcək yazıçı arasında anlaşılmazlıq yaradır. Digər tərəfdən, Maksim Qorki yazılarında hər dəfə çarın mürtəce siyasətini ifşa edirdi və qatı inqilabçı, bolşevizmin fəal tərəfdarlarından idi. İnqilabi ruhlu çıxışları çar məmurlarının, təbii ki, xoşuna gəlmirdi. Yazıçının fəhlələri üsyana, tətilə çağırış məzmunlu söhbətləri sahibkarların qəzəbinə səbəb olurdu, onları qorxudurdu. Buna görə də mətbuatın, jurnalist sənətinin mahiyyətini anlamayan silahlı qoçular Maksim Qorkinin üstünə hücum çəkirlər. Buralara təxribatçı agent kimi pis niyyətlə gəldiyini düşünüb onu cəzalandırmaq istəyirlər. Təsadüfən bundan xəbər tutan Bəşir bəy Aşurbəyov dərhal özünü yetirir. Maksim Qorkini qoçuların əlindən alır. Qonağa qarşı belə xoşagəlməz münasibətə görə onları tənbeh edib danlayır. Yazıçıya isə əsl azərbaycanlı qonaqpərvərliyi göstərir.



Nabat xanım Aşurbəyova

Maksim Qorki öz oçerkində neft mədənlərində çalışan fəhlələrin acınacaqlı güzəranından, fəhlə evlərinin pis vəziyyətindən yazırdı. Amma istisnaları da göstərirdi. Təbii ki, bəzi faktlar şişirdilir, mənfi ruhlu emosiyalar yaratmaq üçün istifadə olunurdu. Bu, dövrün, zəmanənin qayda-qanunlarından, tələblərindən irəli gəlirdi. Mənfi qeydlər Bəşir bəy Aşurbəyovun mədənlərində çalışan fəhlələrə bir o qədər də aid deyildi. O, öz işçilərinin normal fəaliyyəti və yaşayışı üçün dövrün şərtləri daxilində mümkün olan bütün tədbirləri görməyə çalışırdı. Xüsusilə mədənlərində işləyən yoxsul, kimsəsiz gənclər Bəşir bəyin himayəsində idilər. O, belə gənclərin ailə qurub ev-eşik sahibi olmalarına kömək göstərmək üçün indiki Sabunçu Vağzalının yaxınlığında ikimərtəbəli binalar tikdirmişdi. Ailə quran fəhlələrin o



Nabat xanımın inşa etdirdiyi Təzəpir məscidi

evlərdə yaşamalarına şərait yaradırdı. Bəşir bəy qohumu Nabat xanım Aşurbəyovanın tikdirdiyi xəstəxanada imkansız şəxslərin müalicəsinə dərman köməyi də göstərirdi.

Sonralar Maksim Qorki Bakı haqqında yazdığı xatirələrində xüsusi olaraq vurğulayırdı ki, bu kiçik şəhərlər, oradakı qayda-qanunlar çox ağıllı adamlar tərəfindən yaradılıb, onların xeyirxah, maarifpərvər əməllərindən minlər, milyonlarla gələcəyin alimi, yazıçısı, həkimi, müəllimi, mühəndisi, ictimai-siyasi xadimi, bir sözlə, ziyalısı faydalanmışdır.

Bu xeyirxah insanların açdıqları məktəblər, cəmiyyətlər, tikdirdikləri evlər, imarətlər, məscidlər, su xətlərinin çəkilməsi Bakının abadlığına, inkişafına xidmət edirdi. İndi həmin görülən işlər, inşa edilən nadir binalar tarixi abidələr kimi mədəni irsimizin siyahısında mühüm yer tutur.

Təbii ki, qadağalar dövründə bunları demək olmazdı. Sovet ideologiyası, sovet rejimi buna imkan vermirdi. Amma Bakı milyonçularının öz camaatı üçün gördükləri işləri danmaq da insafsızlıq olardı. Bəşir bəyin xeyriyyəçiliyi, Sabunçu əhalisinə göstərdiyi diqqət və qayğıdan



Bəşir bəy Aşurbəyovun Sabunçuda fəhlələr üçün tikdirdiyi evlər (restavrasiya edilmişdir)

indi də bakılılar ağızdolusu danışırlar. Hər dəfə onun tikdirdiyi məscidə gələnlər bu insanın ruhuna dualar oxuyur, onun gördüyü işlərdən danışır, tanımayanlar isə milyonçunu tanımağa can atırlar.

Bəşir bəy bayramlarda kasıb insanlara kömək edər, tez-tez ehsan məclisləri quraraq ac qarınları doyurar, kömək üçün ona üz tutanları heç vaxt naümid qaytarmazdı. Bu xeyirxahlıq Bəşir bəyə həm atasından, həm də anası Cəvahir xanımdan keçmişdi. Bəşir bəy Aşurbəyovun anası Cəvahir xanım Bakı əsilzadələrinin nəslindən idi. Onu hamı çox xanım-xatın, xeyirxah, üzügülər, səmimi insan kimi tanıyırdı. O dövrdə Cəvahir xanımın xeyirxahlığından, əliaçıqlığından, çörəkverən olmasından, mehriban münasibətindən ətrafdakı hər kəs faydalanmışdı. Onun ailənin, nəslin adamlarının, ümumiyyətlə, tanıdığı insanların ən kiçik sevincini, qəmini duyacaq qədər böyük qəlbi vardı. Tədbirli, qətiyyətli, ünsiyyətcil, həm də ədaləti hər zaman qorumağa çalışan xanım idi. Hər bayramda kasıb, imkansız insanların evlərinə xonçalarla pay göndərərdi. Bayram payının içərisində azuqədən



Bəşir bəy və Nəzakət xanım

tutmuş, müxtəlif biçimli pal-paltara, parçalara, ayaqqabılara qədər olardı. O, ailədə yaranan gərginliyi asanlıqla aradan qaldırmağı, ağır psixoloji şəraiti tez bir zamanda qaydasına qoymağı bacarırdı. Ailənin idarə edilməsində, uşaqların tərbiyəsində xüsusi rol oynayırdı. Cəvahir xanım təşəbbüskar bir xanım idi, qohum-əqrabanı öz ətrafında toplaya, bir araya gətirə bilirdi. Bəşir bəy də anası kimi hər şeyi öz rəngində, nizamında görmək istəyirdi. Həmişə haqq-ədalətin tərəfində dururdu. Haqsızlığı qətiyyən qəbul etmirdi.

Bəşir bəyin ailə qurduğu Nəzakət xanım da eyni mənəvi keyfiyyətlərin, dəyərlərin daşıyıcısı idi. Onlar Nəzakət xanımla çox xoşbəxt həyat yaşayırdılar. Bəşir bəy həyat yoldaşına böyük dəyər verirdi. Deyilənlərə görə, onlar ailə qurandan bir neçə il sonra Nəzakət xanımın səhhətində bəzi problemlər yaranır. Bəşir bəy nəqliyyat imkanlarının çox məhdud olduğu dövrlərdə onu özü ilə Avropaya aparır. Ən yaxşı həkimlərə göstərir və xanımı tezliklə şəfa tapır.

ERMƏNİLƏRLƏ ÜZ-ÜZƏ

"Erməni insanlığın düşmənidir".
S.Şirazi

XX əsrin əvvəllərində Bakıda Hacı Zeynalabdin Tağıyev, Ağa Musa Nağıyev, Murtuza Muxtarov, Bəşir bəy Aşurbəyov kimi iri azərbaycanlı sənayeçilərin sayı, əslində, çox az idi. Bakının neft sənayesi sahəsində mövcud olan 167 müəssisədən cəmi 49-u azərbaycanlı sahibkarın əlində idi. Ermənilərin isə 55 firması vardı. Qalan 21 firma rus, 10 firma avropalı, 17 firma yəhudi, 6 firma isə gürcü sahibkarlarına məxsus idi.[1] İnhisarçı kapitalın neft sənayesində hakim kəsildiyi illərdə Azərbaycan milli kapitalının mövqeyi çox zəif görünürdü.

Belə bir gərgin dövrdə Daşnaksütyun partiyası sosial-demokratlarla əlaqəyə girərək Bakıda sosial-demokrat və sosial-inqilabçı adı altında daşnaksütyun yönümlü fəhlə təşkilatları yaradırdı. Onların əsas məramı yerli türk-müsəlman əhaliyə qarşı iğtişaşlar, təxribatlar törətmək, qanlı aksiyalar həyata keçirmək idi. Daşnaklar öz planlarını yerinə yetirmək üçün bütün vasitələrə əl atırdılar, hətta öz ermənilərindən də külli miqdarda vəsait tələb edir, verməyənləri qətlə yetirirdilər.

1904-cü və 1905-ci illərin əvvəllərindən başlayaraq daşnaksütyun yönümlü təxribatçı-terrorçu təşkilatlar öz məqsədlərinə çatmaq üçün əhali arasında narazılıqlar, iğtişaşlar salmağa cəhd göstərirdilər. Bəşir bəy Aşurbəyov kimi nüfuzlu, sözükeçən insanlar bu cür təxribatların əsas məramını bilib onların qarşısını almaq üçün hər nə qədər çalışsalar da, erməni daşnaklarının mənfur cəhdləri bir çox hallarda öz məqsədinə çatırdı.

[1] Əliyeva İ. Cəzasız qalmış cinayətlər // "Azərbaycan" qəzeti, 30 mart 2011.

1904-cü ilin dekabrında Bakıda azərbaycanlıları ruslara qarşı birlikdə mübarizə aparmaq məqsədilə erməni terror təşkilatlarına qoşulmağa çağıran intibahnamələr yayılmağa başlamışdı. Bu təklif rədd ediləcəyi təqdirdə vərəqələrdə müsəlman əhalisinə qarşı hədə-qorxular da əksini tapmışdı: "Hazır olun ki, biz sizin torpağınızı elə öz al-qanınıza qəltan edəcək və meyitlərinizə od vuracağıq, bu od bütün dünyanı bürüyəcəkdir".

Belə təhdidlərin, XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqazda, xüsusən də indiki Ermənistan ərazisində Azərbaycan türklərinə qarşı törətdikləri qırğınların ssenarisi bu bədnam millətin XIX əsrin sonunda Şərqi Anadoluda əldə etdikləri təcrübəyə əsaslanırdı. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan "erməni məsələsi" sonralar Şərqi Anadoluda ermənilərə muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi. Belə bir muxtariyyətin əldə edilməsi üçün əvvəlcə Şərqi Anadolu vilayətlərində bu mənfur millətin say üstünlüyünə nail olmaq lazım gəlirdi. Lakin ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları həmin vilayətlərin heç birində say etibarilə üstünlük onların tərəfində olmamışdı. Bunu ermənilərin qəyyumu kimi çıxış edən Fransanın Xarici İşlər Nazirliyi 1897-ci ildə yaydığı sənəddə də etiraf etmişdi.

Həmin illərdə İngiltərə və Fransanın yardımı ilə Türkiyədə yaşayan erməniləri üsyanlara təhrik etmək üçün təbliğat aparılırdı. Bu işə rəhbərliyi "Armenakan", "Daşnaksütyun" və "Hnçak" siyasi partiyaları öz üzərlərinə götürmüşdülər. Ermənilər əvvəlcə türklərin və kürdlərin yaşadıqları kəndlərə basqınlar edirdilər ki, onlardan əks reaksiya gəlsin, sonra isə Avropanın kütləvi informasiya vasitələri ilə türklərin ermənilərə qırğınlara məruz qoyduqlarını dünyaya car çəkə bilsinlər. Bir çox hallarda isə erməni silahlı dəstələri türk əsgərlərinin paltarlarını geyinərək, gecələr erməni kəndlərinə hücumlar edir, sonra isə həmin hadisəni türklərin törətdikləri qırğınlar kimi qələmə verirdilər.

Ermənilərin 1894-1896-cı illərdə Şərqi Anadoluda törətdikləri iğtişaşlar yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və icraçılarının əksəriyyəti Cənubi Qafqazın müxtəlif regionlarına köçmüşdülər. Rus müəllifi N.Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi

Qafqazda 900.000, 1908-ci ildə bir milyondan çox erməni yaşamışdır. Təkcə bu illərdə Cənubi Qafqaza 400.000 erməni gəlib yerləşmişdi. 1908-ci ildə Rusiya Daxili İşlər Nazirliyi polis departamentinin sənədlərində göstərilirdi ki, "Türkiyədəki məlum hadisələrdən sonra Cənubi Qafqaza yarım milyon erməni gəlmişdir. Bu ermənilər dərhal öz qara əməllərini göstərmişdilər".[1]

Bundan sonra indiki Ermənistan ərazisində "Daşnaksütyun" və "Hnçak" partiyalarının sıraları daha da artmış, Cənubi Qafqazda antitürk təbliğatı xeyli güclənmişdi. "Novoye vremya" qəzetinin İrəvan üzrə müxbiri Qriqoryevin verdiyi məlumata görə, törədilən cinayətlərin 80 faizi Türkiyədən gəlmiş ermənilərin, muzdlu qatillərin payına düşürdü.

[1] Nazim Mustafa. Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında // "Xalq qəzeti", 31 mart 2009.

ERMƏNİ ŞOVİNİZMİ HAQQINDA: TARİXƏ BİR NƏZƏR

"Erməni harada varlanırdısa, harada kök atmağa imkan tapırdısa, onu özünə vətən hesab edirdi. Özü də erməni, sadəcə, bu fikrə gəlməklə qane olmur və onu reallaşdırmaq üçün praktiki fəaliyyətə başlayırdı...Vətən axtarışı ermənilik mənəviyyatıdır. Və bu yolda törədilən hər cürə vəhşiliyi də ermənilər doğru yol kimi qəbul edirlər".

V.Veliçko

Erməni təxribatçılarının toplaşdıqları əsas məkanlardan biri də Bakı idi və onlar burada öz mənfur niyyətlərini həyata keçirməkdən ötrü müxtəlif bədnam əməllər törədirdilər.

1905-ci il fevralın 6-da gündüz saat 12 radələrində Bakıda baş verən dəhşətli hadisə şovinist ruhlu erməni millətçilərinin etnik zəmində əvvəlcədən planlaşdırdıqları böyük qırğına yol açdı. Həmin gün şəhərin mərkəzində erməni kilsəsinin yanında "Parapet" deyilən yerdə varlı, nüfuzlu, çoxlu qohum-əqrabası olan karxana sahibi sabunçulu Ağarza Babayev ermənilər tərəfindən qətlə yetirildi. Müayinə edilərkən mərhumun bədənində həm odlu, həm də soyuq silahların izləri aşkar olundu. Ermənilər bu təxribatçı əməlin miqyasını böyütməkdən ötrü şəhərə belə bir şayiə də yaydılar ki, guya, mərhum Ağarzanın meyiti təhqir olunub, ona 200-ə yaxın zərbə vurulub.



Ermənilərin 1905-ci ildə Bakıda törətdikləri qırğınlardan

Əhvalatdan xəbər tutan Bakı əhli bu qətl hadisəsindən çox təsirlənmişdi. Ermənilər bundan əvvəl də bir sıra cinayətlər törətdiklərinə görə xalq arasında böyük narazılıqlar yaranmışdı, həmin hadisədən sonra isə iğtişaşlar artıq qaçılmaz oldu. M.S.Ordubadi özünün "Qanlı illər" əsərində yazırdı: "Nəhayət, süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladı və bütün Qafqaz aləmi bu bombanın təsir şiddətindən yanıb-yaxıldı... Bu bomba fevralın 6-da baş verən Bakı faciəsidir ki, bütün Qafqaza buradan atəş açıldı. Bu gün hər tərəfdə, yəni Bakının bütün yerlərində iğtişaş gözlənirdi. Babayev soyadlı bir müsəlmanın ölüm xəbəri yayılandan sonra müsəlmanlar da açıq-açığına hərbə qalxaraq ermənilərə yürüş etdilər... Ermənilər isə tam ciddiyyətlə işə başlamışdılar".[1]

Həmin gün Ağarza Babayevin qətlindən yarım saat sonra Voronsovski küçəsində konka konduktoru Artyom Şinkov öldürülür, Sisyanovski və Çadrovı küçələrində naməlum bir rus kimlər tərəfindənsə güllə ilə vurulur. Ermənilər realnı və texniki məktəblərin yeddinci sinif

[1] Məmməd Səid Ordubadi. "Qanlı illər", Bakı, Elm və təhsil, 2007, səh. 13.

şagirdləri Yakov Lebedevi və İvan Volkovu da öldürürlər. Bütün şəhərdə şiddətli atışma başlanır. Aramsız olaraq səhərə qədər hər iki tərəfdən güllə səsləri eşidilir. Gurultu, şaqqıltı, insanların tükürpədici qışqırıqları səngimək bilmir. Mixaylov xəstəxanasının sənədlərinə görə, qırğın başlanan gün erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter-Osipovun və başqa maqnatların havadarlığı ilə terror qrupu tərəfindən 18 adam öldürülür, 33 nəfər yaralanır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətin nümayəndələri idilər.

Fevralın 7-də vəziyyət daha da gərginləşir. Erməni terror təşkilatı bu dəfə yüzədək dinc vətəndaşın həyatına son qoyur və yaralayır. Damlardan, pəncərələrdən müsəlmanların və gəlib keçən "bütün tayfaların" üzərinə ardı-arası kəsilmədən atəşlər açılırdı. Krasilnikovun, Mayılovun, Korsakovun evlərindən, "Madrid" Mehmanxanasından yerli əhali – azərbaycanlılar qəfildən güllə yağışına tutulurdu. Camaat bir-birinə qarışıb silah işlətməkdə idi. Qocalar, yaşlılar, qadınlar uşaqlarının əllərindən tutub hara gəldi qaçır, ancaq heç bir tərəfdən aman tapmayıb sərgərdan olurdular. İğtişaş nəticəsində müsəlmanların bir çoxunun imarətləri və mağazaları dağıdılır və qarət edilirdi. Çünki azərbaycanlılar belə bir hadisənin baş verməsindən bixəbər idilər. Ermənilər isə silahlı dəstələrlə müsəlman məhəllələrini gəzir, günahsız insanları qanına qəltan edirdilər.

Fevralın 8-də Bakı əsl cəhənnəmə çevrilmişdi. Bir tərəfdən bombaların partlaması, digər tərəfdən isə uca və ali imarətlərin uçub dağılması, neft zavodlarının, budkaların yanğından səmaya qalxan alovları insanları çaşdırmışdı. Həmin gecə qarovul qoşun dəstələri olmadığı üçün şəhər mühafizəsiz qalmışdı. Ermənilər bir çox müəssisə və fabrikləri yandırıb dağıdır, hər tərəfdə qətl-qarət baş alıb gedirdi. "Atışma getdikcə daha da artdığından iki nəfər müsəlman məzlum surətdə qətl edildi. Həmin bu vaxtda pristavlar polismeyster tərəfindən məmur olub Dağıstan polkunun bir dəstəsi ilə yanğın komandasına köməkdə bulunacaq idilər. Yanğın dəstəsi təşəbbüsdə bir az təxir etdiyindən dördüncü sahənin pristavı bir dəstə qoşun götürüb Aslanovun evinin həyətinə daxil olur. Pristav və qoşun əhli evə daxil olar-olmaz, naməlum şəxslər tərəfindən ev şiddətlə atəşə



Azərbaycanlılara qarşı soyqırım törədən erməni terror dəstələrindən bir qrupu

tutulur. Pristav cənabları heç bir tədbir görmədən dəstəsini götürüb öz yerinə qayıtmağa məcbur olur... Bu gün Bakının halı elə təhlükəli, elə qarışıq idi ki, atışmanın, yanan imarətlərin, alovun şiddətli təsirindən öldürülmüşləri heç bir tərəfdən yığmaq, yaralıları azarxanaya aparmaq mümkün deyildi... Bakıda ayın 10-na qədər ardı-arası kəsilmədən cinayətlər baş verirdi. Balaxanıda neft zavodlarında iğtişaş hökmfərma olub yanğın əməli də şiddət tapmaqda idi", - deyə M.S.Ordubadi "Qanlı illər" əsərində yazırdı.

Erməni caniləri onda Bakının neft sənayesində əhəmiyyətli rol oynayan Sabunçu mədənlərini də yandırmaq, kənd sakinlərini qətlə yetirmək istəyirdilər. Həmin günlərdə Bəşir bəy Aşurbəyov Sabunçu kəndi sakinlərinin kütləvi qətllərdən qorunması üçün böyük qəhrəmanlıqlar göstərmişdi. O, Malbaş Yusif kimi tanınan qoçu xalası oğlu və digər qoçular, eləcə də kəndin əli silah tutan adamları ilə birgə Sabunçu dairəsi yaxınlığında müdafiə mövqeləri qurur. Ətraf kəndlərdən də qoçular köməyə gəlirlər. Burada güclü atışmalar baş verir. Daşnakların Sabunçuya girməsinin qarşısı alınır. Beləliklə, hökumət qüvvələri vəziyyət üzərində nəzarəti ələ alana qədər həm

kənd sakinlərinin, həm də ərazidəki neft mədənlərinin mühafizəsi təmin olunur.

Bəşir bəyin hadisələrə çevik, sərrast müdaxiləsi, kənd əhlini səfərbər etməsi sayəsində ermənilərin həmlələri dəf edilir və heç bir yanğın olayı, dağıntı baş vermir. Daşnakların çirkin, yırtıcı planları alt-üst olur.

Qatillər digər yerlərdə kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin - Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter-Osipovun, Akop Muradyanın, Qriqori Sarkisyantsın, Karen Saakyantsın evlərinə yığışıb növbəti günlər üçün təxribat planlarını müzakirə edirlər. Adları çəkilən erməni maqnatları ilə yanaşı, Mantaşev, Ter-Qukasov, Melikyants da öz proqramlarını həyata keçirməyə başlamış Daşnaksütyunun üzvləri və sponsorları idilər. Beləliklə, 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətliam" kimi daxil olmuşdur. Həmin günlərdə mal və əmlaka, mülklərə dəyən zərər milyonları keçmişdi. Bakı hadisələri haqqında qubernator knyaz M.A.Nakaşidze tərəfindən Qafqaz canişini və Rusiya Daxili İşlər Nazirliyi üçün hazırlanan geniş məruzədə qırğın zamanı 231 nəfərin öldüyü, 179 nəfərin yaralandığı göstərilir. Məruzədə həmçinin qeyd olunur ki, itki göstəriləndən daha çoxdur. Gizlədilən ölülərin çoxu müsəlmanlara aid idi. Çünki onlar meyitlərin yarılmasını şəriət qaydalarına zidd olan əməl kimi qəbul edirdilər.[1]

Qafqaz xalqları arasında dinc münasibətlərin qurulması mövqeyindən çıxış edən knyaz M.A.Nakaşidze və Q.Takayşvili də bu hadisələrdən az sonra - 1905-ci il mayın 11-də Bakıda erməni terrorçular tərəfindən qətlə yetirilir. Elə həmin gün ermənilər general Alixanovu da öldürürlər. Qətllərlə əlaqədar yayılmış intibahnamələrdə qeyd edilirdi ki, bunları Daşnaksütyun erməni terror təşkilatı törədib. Bəzi məlumatlara görə, qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında müxtəlif erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı əməliyyatlarda iştirak etmişdi. Bundan başqa, erməni terrorçuları tərəfindən qətlə yetirilənlərin arasında qəza rəisləri Pavlov, Neşşanski, Boquslavski, vitse-qubernator Andreyev, polkovnik Bıkov və başqaları da var idi. [2]

---

[1] Əliyeva İ. Bakı şəhərində qətliam // "Azərbaycan" qəzeti, 6 fevral 2015.

[2] Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər)", AMEA İnsan Hüquqları İnstitutu, Bakı, "Elm", 2003, səh. 33.

Fevral hadisələrindən sonra ermənilərin və azərbaycanlıların birbirilərinə olan nifrətləri, kinləri o qədər artmışdı ki, yeni-yeni toqquşmaları hər dəqiqə gözləmək olardı. Ən adi bir bəhanə qırğının başlanmasına gətirib çıxara bilərdi. 1905-ci il avqustun 20-də Bakıda qəflətən ikinci dəfə erməni-müsəlman davası başladı. Şahidlərin dediyinə görə, sentyabrın ortalarına qədər davam edən bu qırğın qəddarlığı, dəhşətləri və kütləviliyinə görə fevral hadisələrini kölgədə qoymuşdu. M.S.Ordubadi "Qanlı illər" əsərində iğtişaşın təfsilatını belə verirdi: "İkinci Bakı faciəsindən bir neçə gün qabaq konkalarda xidmət edən işçilər tətil etmişdilər. Bu tətilə səbəb işçilərin öz vəziyyətlərindən narazılıqları idi. Hökumət isə onlarla razılığa gəlmək əvəzinə, yerlərinə soldat qoyub konkaları işə salmış, onları, yəni tətil etmiş işçiləri daha da acışdırmışdılar.

Tətil etmiş işçilərin və onların kargüzarlarının çoxu erməni idi. Onlar hökumətin bu əməlindən narazı olub, şənbə günü konkanı gülləyə basırlar. Bu gülləbazlıq əsnasında konkada olan soldatlar və bir neçə müsəlman sərnişin həlak olur və yaralanırlar. Fürsətdən istifadə üçün intizarda olan erməni kilsəsində həzin-həzin zəng çalınır. Erməni cavanları dükanların qabağında əllərini bir-birinə vurmaqla erməni dükançılarına qarışıqlıq salmaq işarəsi verirlər. Dükançılar isə bunun ardınca müsəlmanları atəşə tutur, hər tərəfdə ələ keçən, yollarda kasıbkarlıq edib su daşıyan, arabaçılıq kimi işlərlə məşğul olan camaatı qırıb kəsməyə başlayırlar".

Yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan türk-müsəlman məhəllələrinə basqınlar edir, çox böyük sayda insanları vəhşicəsinə öldürürdülər. Kişilərin başını kəsir, hamilə qadınların qarnını yırtır, uşaqları tonqallarda yandırır, su quyularında boğurdular. Meyitlərin çoxu dənizə atılırdı. O zaman Bakı polismeysterinin general-qubernatora yazdığı raportunda deyilirdi ki, artıq çoxdandır Qafqazda erməni xalqının seperatçılıq hərəkəti məqsədi ilə Erməni İnqilab Komitəsi fəaliyyət göstərir və bu hərəkata, əsasən, millətin ziyalıları və fəhlələr rəhbərlik edirlər. Onlar müxtəlif məzmunlu bəyannamələr yayaraq Qafqazdakı bütün xalqları hökumətə qarşı mübarizədə birləşməyə çağırırlar. Bu komitə hökumətə qarşı nümayişlərin, tətillərin, habelə polis və orduya qarşı silahlı müqavi-

mətin əsas təşkilatçısı idi. Hərəkatın qurbanları yüksəkrütbəli inzibati idarə işçiləri, Bakı qubernatoru knyaz Nakaşidze, Yelizavetpol qubernatoru, mülki müşavir Andreyev və bir çox başqaları olmuşlar. Əslində isə, bu cür fəaliyyətləri ilə ermənilər müstəsna olaraq milli separatçılıq niyyətlərini güdürdülər. Göründüyü kimi, Bakı polismeysterinin raportunda 1905-ci ilin fevralında olduğu kimi, avqustunda da törədilən qırğınların səbəbkarlarının ermənilər olduğu açıq-aydın vurğulanır.

BƏD ƏMƏLLƏRİN KÖKÜ BƏD FİKİRLƏRDİR

"Bütün Şərqdə işğalçı siyasətin aparıcıları xain və satqın ermənilərdir".
Q.V.Çiçerin

"Rusiya arxivlərinin materiallarına görə 1905-1906-cı illərdə Daşnaksütyun erməni terror təşkilatı ikili oyun oynamışdır: əvvəla, qisasın heç olmasa bir qismi müsəlmanlardan alınmış, ikincisi isə, mətbuat və təbliğatın köməyi ilə bütün hadisələrə baiskar Rusiya hökuməti hesab edilmişdir, beləliklə, təkcə ermənilər deyil, Qafqazın digər sakinlərini də inqilabiləşdirmək üçün yeni güclü təşviqat materialı meydana gəlmişdir... Nəticədə ermənilərin xoşu gəlməyən çoxlu rus məmuru və mülki şəxsləri həlak olmuşlar".[1]

1905-ci il avqustun 23-25-də Bakının neft mədənlərində və zavodlarında baş verən yanğınlar bir çox fəhləni işsiz qoymuşdu. Ən böyük yanğın Balaxanı neft mədənlərində olmuşdu. Bir sözlə, avqustun 20-dən sentyabrın 10-dək davam edən qırğınlar zamanı Bakıda və onun ətrafında çoxlu cinayətlər baş vermişdi.

1905-ci il sentyabrın 10-da Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov azərbaycanlılarla ermənilər arasında sülh və barışıq yaratmaq üçün Bakıya gəlir. Onun rəhbərliyi altında sentyabrın 14-də saat 12 radələrində min nəfərdən çox müsəlman və erməni özlərinin qabaqcıl ziyalıları və din xadimləri ilə birlikdə barışıq üçün Duma meydanına

[1] Səlimbəyli Ş., Zamanov N., Əliyev R. Erməni terroru - Qarabağda müharibənin başlaması. Bakı, "Avropa" nəşriyyatı, 2008, səh. 31.



Ermənilərin 1905-ci ildə azərbaycanlılara qarşı törətdikləri qırğınlardan

toplaşırlar. Quberniyanın qazısı Mir Məhəmmədkərim ağa Mircəfərzadə camaatı sülhə çağırır. Sonra erməni keşişi və general-qubernator S.A.Fadeyev çıxış edir və barışığın zəruri olduğunu söyləyirlər. Danışıqlar aparmaq üçün hər iki tərəfdən nüfuzlu şəxslərdən ibarət xüsusi komissiya yaradılır. Azərbaycanlılar tərəfindən vəkil olunan şəxslər – İsmayıl bəy Səfərəliyev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Əsədulla Əhmədov, Əhməd bəy Ağayev, İsa bəy Hacinski, Hacı Aslan Aşurov, Məmmədhəsən Hacinski, Həsənağa Həsənov, Hacıbaba Aşurov, Mirzə Əsədullayev, Ağabala Quliyev sentyabrın 10-dan başlayaraq danışıqlar, yazışmalar aparmış və nəhayət, bu şəxslərin əksəriyyəti 1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişini və onun müavinlərinin rəhbərliyi altında keçən sülh danışıqlarında iştirak etmişlər.

1905-1906-cı illərdə Bakıda başlanan qırğınlar İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda və digər bölgələrdə də davam etmiş, erməni quldurları tərəfindən kütləvi şəkildə azərbaycanlılara divan tutulmuş, şəhər və kəndlər yandırılmış, uşaqlar, qocalar, qadınlar xüsusi qəddarlıq və vəhşiliklə öldürülmüşlər. Həmin

dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerləyeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında isə 200-dən artıq yaşayış məntəqəsi viran qoyulmuşdur. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalmışdı.

Faktlardan da göründüyü kimi, 1905-ci il fevralın 6-da Bakıda bir nəfər azərbaycanlının ermənilər tərəfindən öldürülməsi ilə başlanan erməni-müsəlman qırğınları, bəzi müəlliflərin iddia etdikləri kimi, bir təsadüf nəticəsində deyil, məhz bütün Cənubi Qafqazın varlı ermənilərinin zaman-zaman cəm olduqları şəhərdə planlı şəkildə baş vermişdi. Ermənilər Bakıda öz milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Cənubi Qafqazdan müsəlmanları silah gücünə qovub erməni dövləti yaradacaqlarına əmin idilər. Fevralın 6-dan 10-na qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı hər iki tərəfdən tələfat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşdular.

Amma bu mənfur, yırtıcı millət yenə də öz təxribatçı əməllərindən əl çəkmirdi, mövqelərini möhkəmləndirməkdən ötrü bütün üsullardan istifadə etməyə çalışırdı. Bu məsələlərdə Bakıdakı erməni neft sahibkarları da fəal rol oynayırdılar. 1906-cı ildə, azərbaycanlılara qarşı qırğınlardan az sonra onlar daha bir məkrli plana əl atdılar.

ŞƏRƏ QALİB GƏLƏN XEYİR

"Hadisələr çoxdur, həqiqət isə birdir... "
R.Taqor

Erməni mədən sahibləri qədim tarixə malik Sabunçu kəndinin, məscidin də olduğu aşağı məhəlləsinin ləğv edilməsi, oradan sakinlərin köçürülməsi və erməni sahibkarlara məxsus neft mədənlərinin salınması barədə dövlət orqanları qarşısında iddia qaldırırlar. Məqsəd ilk baxışdan iqtisadi məzmun daşısa da, əslində, həm də Bakının bu strateji regionunda möhkəmlənmək, üstəlik, neftlə zəngin Sabunçu torpaqlarını ələ keçirib bol sərvət qazanmaq idi. Erməni neftxudaları bununla həm də özlərinə ciddi təhlükə kimi gördükləri, Vətən, millət sevgisinə, igidliyinə bələd olduqları Bəşir bəy Aşurbəyovun mövqelərini sarsıtmaq istəyirdilər.

Bakı qubernatoru ermənilərin bu iddiasını təmin etməkdən ötrü öz nümayəndəsini Sabunçuya göndərir. Qubernatorun nümayəndəsi kəndə çatanda onu Bəşir bəy qarşılayır. Bəy onu tikdirdiyi məscidin həyətinə aparır. Su quyusunun qapağını məscid xidmətçilərinə açdırır və deyir:

– Bu gördüyün nədir?!

Qubernatorun nümayəndəsi diqqətlə quyuya baxıb cavab verir:

– Sudur.

– Bəli, sudur, – Bəşir bəy davam edir – Özü də şipşirin içməli su. Məscid tikiləndə bu quyunu da qazdırmışam ki, istifadə edilsin. İndi özün gördün ki, quyuda neftdən bir işarət yoxdur. Əgər buradan neft çıxsaydı, məscidi kəndin bu hissəsində tikdirməzdim, elə özüm mədən qurub neft çıxarardım...



Sabunçu məscidinin həyətindəki su quyusu

Qubernatorun nümayəndəsinin bu güclü arqument qarşısında susmaqdan başqa əlacı qalmır. Bəşir bəy isə əli ilə ətrafdakı evləri göstərir:

– Bax, bu evlərdə yaşayanların hamısı mənim qohum-əqrabalarımdır. Əgər buranı ermənilərə mədən yeri kimi versəniz, bu qədər adam evsiz-eşiksiz qalacaq. Onlara belə əziyyət vermək olmaz. Bununla insanlarda narazılıq yaratmış olarsınız. Vəziyyət yenicə sakitləşib, ermənilərin fitnəsinə uyub camaatı dava-qırğına çəkməyin.

Bunu deyərkən Bəşir bəy maraqlı fənd işlədir. Əslində, evləri köçürüləcək ailələrin heç birinin Bəşir bəyə qohumluğu çatmırdı. Amma o, mövcud vəziyyətdən, dövlət idarələri rəhbərlərinin yanındakı yüksək nüfuzundan istifadə edərək ermənilərı geri oturdur. Sabunçu kəndinin dağıdılmasına imkan vermir. "Həyat" qəzetinin 1906-cı il saylarından birində də bu barədə geniş təfsilatlar öz əksini tapmışdır.

MƏTBUATA YAXIN ADAM

"Yolu ağıl seçir, iradə hərəkətə gətirir,
inam isə işıq saçır".
Əbu Turxan

Bəşir bəy Aşurbəyov mətbuata yaxın adam idi. Milli burjuaziyanın nümayəndəsi kimi Azərbaycanda müstəqil mətbuatın təşəkkülü və inkişafına maliyyə dəstəyini əsirgəmirdi. Həmin mərhələdə mətbu fəaliyyətin genişlənməsi üçün münbit zəmin yaranmışdı. Çar Rusiyasının 1905-ci il 17 oktyabr tarixli manifesti ziyalılar, qələm adamları arasında ciddi fikir oyanışına səbəb olmuşdu. Xalqa vəd olunan "söz, mətbuat və vicdan azadlığı" ideyası yeni mətbu orqanların açılmasına təkan vermişdi.

1905-ci il dekabr ayının ortalarında Azərbaycan mətbuatı tarixində iki qəzet fəaliyyət göstərməyə başladı. Bunlardan birincisi proletar düşüncənin daşıyıcısı olan "İzvestiya Soveta raboçix deputatov" (Fəhlə Deputatları Şurasının Xəbərləri) qəzeti, ikincisi isə Əhməd bəy Ağaoğlunun redaktorluğu altında nəşr edilən "İrşad" qəzeti idi. Bəşir bəy Aşurbəyov digər Azərbaycan mesenatları ilə birgə bu qəzetin nəşrinə yaxından kömək göstərirdi.

"İrşad" qəzeti 1905-1908-ci illərdə Bakıda çıxırdı. Qəzetin müdiri və əsas imtiyaz sahibi Əhməd bəy Ağayev (Ağaoğlu) idi. 1908-ci ildə isə müvəqqəti redaktoru M.Ə.Rəsulzadə olmuşdu. Qəzetin ən fəal əməkdaşlarından biri də Üzeyir bəy Hacıbəyli sayılırdı. Burada işlədiyi müddətdə o, 100-ə yaxın publisistik məqalə, "Ordan-burdan" ümumi başlığı altında 200-dən çox felye-

ton və satirik miniatür yazmış, "İrşad"ın felyetonçusu kimi şöhrət tapmışdı.

"İrşad"ın nəşri iki dəfə dayandırılmışdı: 1907-ci ildə müvəqqəti, 1908-ci ildə isə həmişəlik. Maraqlıdır ki, bunların hər ikisinin "günahkarı" da elə Üzeyir bəy Hacıbəyli olmuşdu. Birinci dəfə "Stolıpinin xəyalı" felyetonuna, ikinci dəfə isə çar hökumətinin "İvan" obrazı ilə ciddi məsxərə olunduğu "Nağıl" felyetonuna görə...[1]



"İrşad" qəzeti

Mətbuat tarixi araşdırıcılarının apardıqları statistik təhlilə görə, "İrşad"ın dörd il ərzində 536 sayı çap olunmuşdu. Qəzetdə fəaliyyət göstərən görkəmli mütəfəkkirlər arasında Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə, F.Ağazadə, Ö.F.Nemanzadə, Q.Qarayev, A.Y.Talıbzadə, M.S.Axundov, A.Sur, S.M.Əfəndiyev, M.Hadi, N.Vəzirov, M.Ə.Sabir və başqaları vardı.

Gündəlik nəşr olunan bu mətbu orqan ədəbi, siyasi, elmi, iqtisadi və ictimai qəzet sayılırdı. Şərq əxlaqi-mənəvi dəyərlərinin qədimliyini önə çəkən "İrşad" İslamın elmi-fəlsəfi tərəflərinə diqqət yönəldir, insan azadlığının bu dini dəyərlərlə eyniyyət təşkil etdiyini vurğulayır və müsəlman həmrəyliyinin vacibliyini oxuculara çatdırırdı. Qəzet Kişmişov, Qaragözov kimi senzorların təzyiqlərinə baxmayaraq, o dövr üçün aktual olan məqalələr dərc edirdi. Bəşir bəy Aşurbəyov qəzetə davamlı maliyyə dəstəyi versə də, mövzu məsələlərinə qətiyyən müdaxilə etmir, dövrün qabaqcıl ziyalılarının xalq, cəmiyyət, dövlət üçün aktual problemlərlə bağlı öz fikirlərini azad şəkildə ifadə etmələrinə şərait yaradırdı.

---

[1] Vəliyev A.Ə. Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı, "Elm və Təhsil", 2009, səh. 70-76.



Bəşir bəy Aşurbəyov

Həmin zəmanənin görkəmli ədib, şair və publisistlərini ətrafına toplayan "İrşad" təkcə xalqın gedəcəyi yolu göstərmir, qarşıya çıxacaq çətinlikləri, məzhəb ixtilaflarını qələmə alır, cəmiyyəti birləşdirəcək dəyərləri təbliğ edirdi. "İrşad" irsini araşdıran professor Şamil Vəliyev qeyd edir ki, bu mətbu orqan qurulacaq dövlət, azadlığa çıxacaq Azərbaycan naminə çalışır, gündəlik işin, yaşanacaq ideyaların düsturunu müəyyənləşdirirdi. Bu düstur, yaşam və düşüncənin formatı "Tərcüman"ın redaktor və naşiri İsmayıl bəy Qaspralının "dildə, fikirdə, işdə birlik" ideyası idi. Az sonra bu ideya əsasında formalaşan və mahiyyət baxımından daha geniş olan, həmçinin Əli bəy Hüseynzadə tərəfindən formulə edilən "Türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası artıq "İrşad"ın ideologiya kimi formalaşdırdığı istiqamət və vətəndaşlıq yolu idi.



Əhməd bəy Ağaoğlu

Azərbaycanda bu yolun əsasını qoyan Əlibəy Hüseynzadə sonralar Əhməd bəy Ağaoğludan ayrılsa da, onun əqidə möhkəmliyinə inanır və "İrşad"ın ilk sayı barədə xoş fikirlər söyləyirdi.

Azərbaycanın ictimai-siyasi fikir tarixi ilə bağlı olan İsmayıl bəy Qaspralı Əli bəy Hüseynzadəyə yazdığı məktubda "İrşad"ın fəaliyyəti ilə bağlı maraqlı fikirlər irəli sürürdü: "Şükür Xudaya, maşallah zəmanəyə. İyirmi sənəlik bir həsrətimə qarşı "Həyat" görüldü, "İrşad" eşidildi. Ümidvaram ki, "Həyat" "İrşad"a, "İrşad" "Həyat"a xadim olub, məmati ta Qaf dağlarına qədər sürməyə cəhd və qeyrət edərlər".[1]

XX əsrin əvvəllərində çar Rusiyasında baş verən hadisələr, ictimai-siyasi gərginliklər, xalqların oyanış prosesi bu dönəm nəşr olunan mətbu orqanlarda ətraflı şəkildə əks etdirilir, mövcud durum analiz edilir, müxtəlif ideoloji baxışlar süzgəcdən keçirilir və elmi yeniliklər xalqa təqdim olunurdu. Bu fəaliyyət zamanı naşirlərin əsas güvənc yeri isə təbii ki, onların fəaliyyətinə dəstəyini əsirgəməyən Bəşir bəy Aşurbəyov kimi milli burjuaziya nümayəndələri idi.

[1] Sitat gətirilir: "İrşad" (qəzet) //https://az.wikipedia.org/wiki/İrşad_qəzet

Ə.Ağaoğlu çar Rusiyasının ictimai-siyasi durumunu təhlil edərkən onun tarixi mənzərəsinə nəzər salır, müstəmləkəçilik siyasətinin mahiyyətini açıqlayır və bu siyasəti həyata keçirənlərin imperiyapərəst xəyallarını kəskin tənqid edirdi. Siyasi plüralizmi önə çəkən Ə.Ağaoğlu Rusiyada fəaliyyət göstərən firqələrin fəaliyyətini də işıqlandırırdı.

Əli bəy Hüseynzadə, Əhməd Kamal və müəllim Midhət Cövdət öz yazılarında Şərq tarixinə və İslam elminə toxunur, Şərqin möhtəşəmliyini, mədəni zənginliyini təbliğ edirdilər. Lakin bu yazılarda Şərq Qərblə üz-üzə qoyulmur, iki fərqli dünyagörüşü kimi təqdim olunurdu. Xristian dünyası və İslam aləmi tarixində azadlıq anlayışına münasibət bildirən "İrşad"çılar dövlət və cəmiyyət münasibətlərinə aydınlıq gətirir, bu mənada ictimai institutları formalaşan Avropanın bu sahədə xeyli önə çıxdığını şərh edirdilər. Fransanın timsalında Avropaya münasibət meyarını müəyyənləşdirməyə çalışan Ə.Ağaoğlu "İrşad"da dövlətçilik tarixi və nəzəriyyəsindən danışarkən Azərbaycanda demokratik cümhuriyyət ideyasını ortaya qoyurdu.

XX əsrin əvvəllərindəki mətbuat nümunələri haqqında xatirələrində Abdulla Şaiq o dövrün nəşrlərini qaranlıq gecədə bir-birinin ardınca yanıb-sönən ulduzlara bənzədirdi. Bu dövrdə Azərbaycan mətbuatının ən parlaq nümunəsi olan "İrşad" yenilikçi mətbuat orqanı kimi öz missiyasını layiqincə davam etdirir, fikir və informasiya istehsalı ilə məşğul olurdu. "İrşad"ın göstərdiyi yol ümumxalq yolu olduğundan sonralar istər "Molla Nəsrəddin"çi mətbu orqanlar, istərsə də "Füyuzat"çı romantik-fəlsəfi nəşrlər onun prinsiplərini daha geniş miqyasda davam etdirdilər. "İrşad"dan sonra onun əsas aparıcı yazarları dövrün müxtəlif mətbu nəşrlərində çalışır, milli jurnalistikamızın inkişafına öz töhfələrini verirdilər.

Bütün bunlar "İrşad" qəzetinin yaradıcıları, redaktorları, yazarları qədər həm də davamlı dəstəyi ilə bu qəzetin mövcudluğunu təmin edən, onun nəşrinə kömək göstərən mesenatlarımızın, o cümlədən Bəşir bəy Aşurbəyovun xidmətləri idi.

O, QAN DAVALARINI YATIRIRDI

"Xeyirxahlıq təbiidir, bədxahlıq isə özünə sonradan yer tapıb...
Sənə ehtiyacı olanlara yardım et!"
L.Tolstoy

Kontorda gün yenicə başlamışdı. Bəşir bəy gündəlik məsələlərlə məşğul idi, iş icraçısına səhər tapşırıqlarını verirdi. Elə bu dəm mühafizəçi qapını döyüb icazə istəyərək içəri girdi:

– Bəy, bir nəfər gəlib, onu qəbul etmənizi istəyir. Yalvarır ki, qapıdan qaytarmayasınız. Çox həyəcanlıdır, lap əl-ayağı əsir...

Bəşir bəyi maraq bürüdü: görəsən, səhər tezdən bu kim ola?! İş icraçısına tapşırıqlarını artıq bitirmişdi. Ona çıxmaq göstərişi verdi, mühafizəçiyə də tapşırdı ki, gələni içəri buraxsın.

Mühafizəçi çıxandan bir neçə dəqiqə sonra, həqiqətən, həyəcandan tir-tir əsən bir bazburudlu adam qapıda göründü.

– Bəy, sizə pənah gətirmişəm. Məni çevirin balalarınızın başına. Köməyinizə ehtiyacım var. Əlinizi çəksəniz, məni öldürəcəklər.

Gələn Sabunçu kəndində yaşayan İslam adlı qəssab idi. O, kəndin ortabab imkanlı adamlarından sayılırdı. Kənddə qəssab dükanı vardı. Ət satıb, külfətini dolandırırdı.

- Ay İslam, sənsən?! Gəl içəri görək. Əyləş. Nə olub, nə baş verib? Səni kim öldürəcək, nəyə görə öldürəcək?! Neyləmisən belə?..

Qəssab İslam kətilin üstünə çöküb, əhvalatı danışmağa başladı. Məlum oldu ki, o, bir neçə gün əvvəl faytonla şəhərə tərəf gedəndə qarşısına Qoçu Qulamın faytonu çıxır. O, Bakının ən imkanlı, nüfuz-

lu və həm də qaniçən qoçularından imiş. Yazılmamış qanuna görə, qəssab dayanıb Qoçu Qulama yol verməliydi. Amma qəssab İslam buna fikir vermir, onun faytonunu ötüb keçir. Qoçu Qulam bundan bərk qəzəblənir. Onu öldürtdürəcəyini bildirir. Qoçunun bu hədəsini eşidəndə qəssabın canına vəlvələ düşür. Bilir ki, Qoçu Qulam dedisə, edəcək. Canını qurtarmaq üçün qaçıb bir neçə gün gizlənir. Amma görür ki, belə çox davam edə bilməyəcək.

– Bəşir bəy, göydə Allah, yerdə siz, qurtarın məni bu bəladan. Neçə gündür evdə yata bilmirəm. Dükan qalıb qıfıllı. Axı mən binəva hardan biləydim ki, o Qoçu Qulamın faytonuymuş. Bilsəm heç belə edərdim?! Mənə kömək etməsəniz, o zalım oğlu balalarımı yetim qoyacaq.

Bəşir bəyin əvvəl belə bazburudlu bir adamın qorxudan tir-tir əsməsinə gülməyi tutdu. Amma kişinin halından gördü ki, doğrudan da, məsələ çox ciddidir və o, Qoçu Qulamın hirs-hikkəsinin güdazına gedə bilər. Dedi:

– Sən belə elə, hələ bir-iki gün gözə görünmə. Mən bu gün çalışıb Qoçu Qulamla danışıb məsələni yoluna qoyaram. O, nahaq yerə səni öldürmək istəyir. Nə böyük qəbahət eləmisən ki, buna görə də öləsən?!

Qəssab İslam necə minnətdarlıq edəcəyini bilmədi, sağollaşıb getdi ki, bir neçə gün ortalarda görünməmək üçün etibarlı bir yer tapsın.

Bəşir bəy isə elə həmin gün Qoçu Qulamı yanına çağırtdırır. Onunla danışır. Deyir ki, qəssab İslam onun qohumudur, ona yaxın adamdır, faytonda onun olduğunu bilməyib, bilsəydi, belə hərəkət etməzdi. Bəşir bəy qoçuya qəssab İslama dəyib-dolaşmamağı tapşırır. İnsafən, Qoçu Qulam da onu eşidir, beləliklə, günahsız bir insan ölümdən qurtulur və yenə qəssab dükanında gündəlik alverini edib ailəsini dolandırmağa başlayır.

Bütün bu məziyyətlərinə, igidliyinə, cəsarətinə görə Bəşir bəyin Bakı əhli arasında çox böyük hörməti vardı. Amma sözünün hökmündən, insanların ondan çəkinmələrindən heç vaxt sui-istifadə etməzdi. Azğınlıq, harınlıq, zəifi incitmək bu ziyalı şəxsiyyətin xarakterinə yad idi. O, hər bir məsələdə haqqın tərəfini tutmağa, insanlar arasında barış yaratmağa çalışardı.

Bəşir bəy o illər üçün nəsillər, tayfalar arasında xarakterik olan bir çox qan davalarını yatırmışdı. Həmin vaxtlarda Sabunçuda qoçuların sayı xüsusilə çox idi. Bəşir bəysə qoçular arasında silahlı münaqişələrin qarşısını almaqdan ötrü bacardığını edirdi.

Onda Bakının əksər yerləri kimi, Sabunçu kəndində də yollar çox darısqal idi. Küçələr fayton və qazalaqların hərəkəti üçün nəzərdə tutulmuşdu. Bəzən iki fayton, yaxud qazalaq üz-üzə gələndə kimin bir-birinə yol verməsi mübahisələrə səbəb olurdu. Əksər hallarda da bir-birinə güzəştə getmək istəməyən qoçular, varlı-hallı adamlar silaha əl atar, nahaq qan tökülərdi. Bəşir bəy Aşurbəyov belə halların qarşısını almaqdan ötrü sözü çatan hər yerdə insanları şeytana uymamağa, bir-birinə güzəştə getməyə çağırırdı. Qayda yaratmağa cəhd göstərirdi. Hətta bir-biri ilə münaqişədə olduqlarını bildiyi qoçuların üz-üzə gəlməmələri üçün onların yollarını ayırırdı. Tapşırırdı ki, bir qoçunun getdiyi yoldan o birisi istifadə etməsin.

Bəşir bəyin Bakı qoçuları arasında böyük hörməti vardı. Hətta bəzi mənbələrdən oxuyuruq ki, şəhərdə hansısa bir mühüm tədbir olanda, mötəbər qonaqlar gələndə Hacı Zeynalabdin Tağıyev kimi nüfuzlu neftxudalar Bakıda sakitliyin təmin olunmasını, qoçular arasında heç bir silahlı münaqişəyə imkan verilməməsini məhz Bəşir bəydən xahiş edərmişlər. O da qoçulara ismarıclar göndərib onları kriminal əməllərdən çəkindirərmiş.

SƏS-KÜYLÜ CİNAYƏT

"Ölmək dəhşət deyil, dəhşət yaşamaqdır".
A.Barbüs

1908-ci il dekabrın sonunda baş verən bir hadisə Bakıda böyük səs-küyə səbəb olmuşdu. Xəbər yayılmışdı ki, şəhərin ən məşhur neftxudalarından Ağa Musa Nağıyevi oğurlayıblar.

Bu, Ağa Musa Nağıyevin başına gələn ikinci belə hadisə idi. O, qoçu saxlamazdı. Qoçulara verilən pulu artıq məsrəf sayardı. İndiki dillə desək, mühafizəçisiz gəzib-dolaşardı. Ona görə də bu imkanlı neftxudanı qaçırıb pul tələb etmək həmin illərin Bakısında sayları kifayət qədər çox olan kriminal ünsürlər üçün elə də çətinlik törətmirdi.

Birinci dəfə oğurlananda, deyilənə görə, ondan azad buraxılması müqabilində on min manat tələb etmişdilər. Ağa Musa isə özünü itirməyib demişdi: "Min manat verə bilərəm, bir qəpik də artıq yox". Ölümlə təhdid ediləndə də halını pozmamışdı: "Atam-atam, öldürün. Bir mini də ala bilməzsiz, o da əlinizdən çıxar". Quldurlar milyonçunu üç gün girov saxlayıb, yedirdib-içirdib boynuna min manatdan artıq qoya bilməmişdilər. Nəhayət, əlacsız qalıb Nağıyevi buraxmışdılar. O da kişi kimi sözünə əməl edərək işlər müdiri Fətulla bəy Rüstəmbəyova göstəriş vermişdi ki, oğrulara min manat pul göndərsin...



Ağa Musa Nağıyev

Ağa Musa Nağıyevin ikinci dəfə oğurlanması isə, qeyd etdiyimiz kimi, 1908-ci ilin dekabrında, yeni il ərəfəsində baş vermişdi. Manaf Süleymanov "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində yazdığına görə, özü sonradan hadisəni belə nəql edirmiş: "İkindi vaxtı Baba Səməndəroğlu ilə fayton tutub yollandıq Bağırov bağının qabağındakı evə. Faytondan düşüb girdik binaya. Baba qaldı faytonçunun haqqını verməyə. Pillələrlə qalxırdım ki, birdən heç bilmirəm hardan, dörd nəfər kişi əllərində tapança, ikisi yuxarıdan, ikisi də həyətdən paradnıya qalxan pilləkənlərdən mənə yaxınlaşdılar. Görünür, darvaza altından güdürmüşlər. Hökm elədilər ki, sus! Cınqırını çıxartsan, özüvü ölmüş bil. Düş qabağa, qayıt dala! Nə əl-qol açmaq, nə də dinmək mümkün idi. Dörd tapança mənə tuşlanıb, nitqim kəsilib, dilim lal olmuşdu. Düşdüm pilləkənin yarısından qabaqlarına. Baba faytonçu ilə hesabı çürüdüb gəldi içəri, onu da qatdılar mənə. Çıxdıq küçəyə, yaxından ötən faytonu saxlayıb bizi mindirdilər, iki nəfər də oturdu böyür tərəflərdə, tapança əllərində hazır, biz qaldıq ortada. Yerdəki iki nəfər də fayton tutub oturdular. Düşdük yola Bolşoy Morskoya (Bülbül küçəsinə) tərəf. Böyrümüzdə oturanlar əllərindəki tapança ilə bizi təhdid edib xəbərdar etdilər ki, səs-küy salıb adamları, polisi köməyə çağırsanız, özünüzü ölmüş bilin. Faytonumuz qabaqda, o birisi dalda, tələsmədən, aramla, elə bil seyr-səfaya, gəzməyə çıxmışıq. Bolşoy Morskoydan Tarqovı (Nizami) küçəsinə burulduq, gəlib Qolubyatinskiyə (Nigar Rəfibəyli) döndük və bu qayda ilə Vorontsov (Əzizbəyov) küçəsinə çatdıq. Yolboyu tanışlar səkilərdən mənə salam verirdilər, mən də başımı tərpədib gülə-gülə salamlaşırdım. Elə bil heç nə olmayıb, hər şey öz qaydasındadır. Şübhə oyadası heç bir hərəkət, söz ola bilməzdi. "Fantaziya" hamamının qabağında faytonlar dayandı. Dörd nəfər təzə, naməlum kişi də bizə qoşuldu. Öz aralarında xeyli danışandan sonra faytonları buraxıb yola saldılar. Bir qədər piyada getdik. Babanı buraxdılar və təhdidlə tapşırdılar ki, düz evə get. Xeyli piyada yeridik. Dayanıb təzədən fayton saxladılar. Mindik. Şamaxı yolunu (C.Cabbarlı küçəsi) dalda qoyub darısqal küçələrlə, dolaşıq dalanlarla hərlənə-hərlənə gəlib çıxdıq Balaxanı şosesinə. Keçdik Keşlənin yanındakı "İzvozçi" slabodkaya.

Belə dolanıb hərlənməkdə məqsəd izi itirmək idi; duyuq düşüb təqibə başlasalar, gəlib onları tapa bilməsinlər. Məni ikindi vaxtı qaçırmışdılar, divan-dərə isə iki saatdan sonra əhvalatdan xəbərdar olur. Babanı nə qədər dindirirlər, heç nə başa sala bilmir, çünki gəlmə adam idi, özü şəhər küçələrini, məhəllələrini tanımırdı. Polismeyster polis məmurlarını, məxfi polisi ayağa qaldırır. Xeyli kazak səfərbər edirlər. Əlli nəfər atlı qaradovoy da onlara qoşulur. Axtarışa polismeyster özü başçılıq edirdi. Çünki Hacı Zeynalabdin telefon etmişdi. Məni saldılar çayçıxanaya, oturtdular qaynayan iki samovarın dalında, başladılar çay içməyə, şorqoğal yeməyə, zarafat etməyə. Kim isə xəbər gətirdi ki, "İzvozçi" slabodkanı və Keşləni polislərlə kazaklar mühasirəyə alıblar. Həriflər bu xəbəri heç veclərinə də almadılar, çay içə-içə başladılar kart oynamağa. Qabağımda çay, bayıra baxıb görürəm ki, atlı kazaklar, girdovoylar bu yandan o yana at çapır, vurnuxurlar. Məni oğurlayanlar səkkiz nəfər idi. Üzüaçıq, niqab-zad geyməmişdilər. İkisi müsəlman, ikisi erməni, ikisi rus, ikisi də gürcü idi. Başçıları güdəboy gürcü balası qarabəniz, suyuşirin adam idi. Çox az danışırdı. Müsəlmanca bilirdi. Xoşrəftar, xoşməcaz... Amma köpəyoğlu çox zəhmli idi. Gözlərinə, üzünə dik baxmaq olmurdu. Mənə baxıb arabir eyhamla astadan gülə-gülə deyirdi: "Ağa Musa, yeyək, içək, kef eləyək, Allah bilir sabaha kim qala, kim ölə..."

Heç tələsmirdilər. Günün günortaçağı çapqınçılıq edir, heç kəsi saymırdılar. Birdən gürcü balası qalxdı: "Uşaqlar, – dedi, – durun gedək!" Çıxdıq həyətə, əyləşdik faytona. Bizimki qabaqda, gürcü balası oturan fayton dalda, düşdük yola. Kazaklar uzaqda idilər. Torpaq yoldan ötəndə bir okolodoçni ilə bir qaradovoy qabağımıza çıxdılar, ayaq saxladılar. Gürcü balası yanakı çevrilib baxdı, hər ikisi başlarını aşağı salıb getdilər. Qaranlıq düşürdü..."

Musa Nağıyev əhvalatı bura qədər danışırdı. Elə ki, soruşurdular: Ağa Musa, sonra nə oldu? Mənalı bir əda ilə deyirdi: "Sonra nə olduğunu sonra danışacağam". Ağızdan-ağıza gəzirdi ki, Musa Nağıyevi azad etmək üçün çapavulçularla Musanın baş işləri müdiri arasında xeyli danışıq gedib, hətta Hacı Zeynalabdin Tağıyev də miyançılıqda iştirak edib. Deyilənlərə görə, onu 100000 manat alandan sonra azad ediblər".[1]

[1] Süleymanov M. Azərbaycan milyonçuları. Ağa Musa Nağıyev. Bakı, Gənclik, 1994, səh. 13.

Bəzi ehtimallara görə, Ağa Musa Nağıyevi ikinci dəfə oğurlayanlar Stalinin adamları olub və bu cinayətdə Koba özü də şəxsən iştirak edib. Partiyanı pulla təmin etməkdən ötrü Stalin və adamları Bakıda, başqa-başqa şəhərlərdə belə quldurluq əməllərini tez-tez törədirdilər. Ağa Musa Nağıyevin qaçırılması da eyni məqsədə xidmət edirdi. Məhəmməd Əmin Rəsulzadə "Stalinlə ixtilal xatirələri" kitabında bu əhvalatdan danışaraq yazırdı: "...quldur dəstələri zənginləri təhdid edərək para çəkir, bəzilərini çalıb-çapır, aldıqları girov pulun müqabilində buraxır, çox zaman böyük firmalara göndərdikləri təhdid məktubları ilə bunları xəraca bağlayırdılar. Bakının məşhur milyonerlərindən Musa Nağıyev bir ara tutulmuş, verdiyi böyük miqdarda bir nicat puluna müqabil hürriyyətinə qovuşmuşdu. Hali-fəaliyyətdə bulunan bu quldur dəstələri arasında bolşevik partiyası hesabına çalışan bir dəstənin də mövcudiyyətindən bəhs olunurdu. Bu çetənin başında isə Erivan meydanının qəhrəmanı (bu hadisə məşhurdur) şəxsən Kobanın (Stalin nəzərdə tutulur) bulunduğu sonradan bilinmişdi".[1]



1903-cü ildə Bakı jandarmeriyasında Stalinə açılmış cinayət işindən

Həqiqətən, Ağa Musa Nağıyevin dəstənin rəhbəri kimi təsvir etdiyi şəxsin əlamətləri bu adamın Koba olduğuna dəlalət edirdi. Hələ 1903-cü ildə Bakı jandarmeriyasında İosif Cuqaşviliyə açılmış cinayət işində onun üzütüklü şəkli vardı: arıq cüssə, sıx qara saç, nazik bığ, çopur sifət və sol qulağında xal. Sürgünlər, türmə və sərgərdan həyat onun görkəmini çox az dəyişmişdi. Ağa Musa Nağıyevi oğurlamış quldur dəstəsinin müxtəlif millətlərə aid şəxslərdən formalaşması da (ikisi müsəlman, ikisi erməni, ikisi rus, ikisi də gürcü) bu adamların bolşevik-daşnaklar olması ehtimalını gücləndirir.

[1] Rəsulzadə M.Ə. "Stalinlə ixtilal xatirələri", Bakı, "Elm" nəşriyyatı, 1991.

Deyilənə görə, A.Nağıyev özü də bolşeviklər tərəfindən oğurlandığını sanır və bunu özünə qarşı şərəfsizlik hesab edirmiş. Ona görə də işlər müdiri Fətulla bəy Rüstəmbəyova dönə-dönə tapşırıbmış ki, Duma bu əhvalatdan xəbər tutmamalıdır. Amma bu barədə Bakıda, demək olar ki, eşitməyən qalmamış və hadisə ətrafındakı müəmmalar xeyli söz-söhbətlərin, fərziyyələrin ortaya çıxmasına səbəb olmuşdu. Bu mövzuya mətbuat da öz səhifələrində geniş yer ayırmışdı. Məsələn, "Bakinets" qəzetinin 1909-cu ilin aprelində çıxmış nömrələrindən birində yazılırdı ki, Bakı şəhər rəisinin keçmiş müavini, qəzet çıxan tarixdə isə Batum vilayətinin hərbi qubernatorunun müavini vəzifəsində işləyən polkovnik T.P.Şubinskinin də Ağa Musa Nağıyevin oğurlanmasında barmağı olub. Ona görə də Bakıdan tez köçüb Batumda işə düzəlib. Hətta iddia edirdilər ki, Musa Nağıyevdən alınmış məbləğdən Şubinskinin payına 26.000 manat düşüb.

Digər məqalə isə təxminən bu məzmunda idi: "Camaat arasında sabiq Bakı şəhər rəisinin müavini, hazırda Batum vilayətinin hərbi qubernatorunun müavini polkovnik T.P.Şubinskinin həbs edilib dustağa salınması barədə geniş şayiə yayılmaqdadır. Nəql edirlər ki, Qafqaz canişini polkovnik Şubinskini hüzuruna çağırıb, şəxsən onun ordenlərini çıxarıb, ötən il Musa Nağıyevin oğurlanmasında iştirak etdiyi barədə təqsirnamə əsasında qazamata saldırıb".

Beləliklə, anbaan genişlənən şayiələr şişib min bir rəngə boyanır, fantastik xarakter alır, hətta bu sensasiyalı hadisəni, guya, öz "gözlərilə görən" şəxslər də peyda olurdu. Onlar şübhə edənləri inandırmağa çalışırdılar. Saatbasaat böyüyən söhbət o yerə çatır ki, guya, Ağa Musa Nağıyevin qorodonaçalstvo (şəhər rəisliyi idarəsi) zirzəmisində gizlədildiyini söyləyənlər də tapılıb...

Sonralar Ağa Musa Nağıyev, həqiqətən, nəql edirmiş ki, doğrudan da, gecə vaxtı gözlərini bağlayıb faytonda şəhəri xeyli hərlədəndən sonra onu aparıb zirzəmiyə salıblar. "Bu zirzəmi xalça ilə döşənmiş üç-dörd otaqdan ibarət yer idi, mətbəxi, rahatxanası, əl-üz yuyulan yeri, avropa mebelləri... Tez-tez qramofon çaldırır, qumar oynayır, zarafat edirdilər. Növbənöv ləziz yemək-içmək xirtdəkdən idi".

Şayiələr belə bir nəticə ilə tamamlanırdı ki, 100000 manat alandan sonra Musa Nağıyevi günün günortaçağı gətirib salıblar Hacı Zeynalabdin Tağıyevin evinə.

Bu hadisənin Bəşir bəy Aşurbəyova heç bir aidiyyəti olmasa da, onun taleyində çox böyük iz buraxmışdı. Bəşir bəyin köməyindən, xeyirxahlığından, maarifə, mədəniyyətə dəstəyindən bəhrələnənlər qədər onun maddi imkanlarını, böyük sərvətini, getdikcə genişlənən işgüzar fəaliyyətini, cəmiyyətdəki yüksək nüfuzunu gözü götürməyənlər də çox idi. Belələri müxtəlif vasitələrdən istifadə edərək onun mövqelərini sarsıtmağa çalışırdılar. Bu vasitələrdən biri də yerli dövlət orqanlarına Bəşir bəy haqqında donosların göndərilməsi, ona qarşı müxtəlif böhtanların irəli sürülməsi idi.

O dövrün neft Bakısında, sərvət qazanmaq ehtirasının aşıb-daşdığı illərdə şəhər varlıları arasında belə hallar çox yayılmışdı. Əlbəttə, bu cür yaramazlıqları, namərdlikləri heç də hər kəs özünə rəva bilməzdi. Ad-sanına yaraşdırmazdı. Hətta düşmənçiliyi də mərd-mərdanə aparmağa üstünlük verərdi. Bununla belə, var-dövləti şəxsiyyətindən üstün tutan bəzi kəslər həmişə tapılırdı. Onlar başqasının torpaq sahələrini ələ keçirmək, rəqibi zəiflətmək, yaxud nəyinsə qisasını almaqdan ötrü ən ağlagəlməz üsullara əl atardılar. Bu zaman dövlət qurumlarının imkanlarından da istifadə etməyə cəhd göstərərdilər.

Bəşir bəyin də belə bədxahları, təbii ki, olmamış deyildi. Və Ağa Musa Nağıyevin oğurlanması hadisəsi, bununla bağlı şəhərdə dolaşan söz-söhbətlər belə bədxahların əlinə fürsət verdi. Bəşir bəy Aşurbəyovu gözü götürməyən kəslərin işinə yaradı.

HƏBS EDİLƏN ÜÇ AŞURBƏYOV

"Hər həqiqətin bir qapısı var".
Əbu Turxan

Həmin günlərdə bədxahları Bakıda məqsədli şəkildə belə bir şayiəni dövriyyəyə buraxmışdılar ki, guya, Ağa Musa Nağıyevin oğurlanmasını təşkil edənlərdən biri də Bəşir bəy Hacı Məhəmmədhəsən oğlu Aşurbəyov olub.

Onda Bəşir bəyin cəmi 32 yaşı vardı. Cavan yaşına rəğmən, artıq şəhərin yetərincə imkanlı neft sahibkarlarından biri kimi tanınmışdı. Onun Ağa Musa Nağıyevlə ciddi bir münaqişəsi olmamışdı. Ortada belə bir cinayətdə iştirakına işarə edən heç bir dəlil də yox idi. Amma bədxahları hökumət idarələrinə bununla bağlı donoslar yazmaqda davam edir, eyni zamanda məqsədli şayiələrlə Bəşir bəy Aşurbəyova qarşı mənfi rəy yaratmağa çalışırdılar. Hadisə ilə bağlı heç bir sübut olmasa da, 21 mart 1909-cu ildə onu həbs edirlər.

Maraqlıdır ki, Bəşir bəyin tutulması əmisi oğlanları, o dövrdə Bakının məşhur qoçuları kimi ad çıxarmış Nəcəfqulu bəy və Teymur bəy qardaşlarının həbsi ilə təxminən eyni vaxta düşmüşdü.

Bu şəxslərdən Nəcəfqulu bəyin adına ilk dəfə "Kaspi" qəzetinin 1901-ci il tarixli nömrələrindən birində rast gəlirik. Qəzet Nəcəfqulu bəy Aşurbəyovun martın 13-də evə qayıdarkən iki nəfər naməlum şəxsin ona 4 dəfə atəş açdığını, amma güllələrin Nəcəfqulu bəyə bir xətər toxundurmadığını yazır. Elə həmin ilin mayındakı nömrələrindən birində isə "Kaspi" qəzeti Nəcəfqulu bəyin qardaşı Teymur bəy Aşurbəyovun Kərbəlayı Səttar Məmməd oğlu adlı şəxslə haqq-he-

sab çəkmək üçün görüşməsi, onların mübahisəsinin davaya çevrilməsi, Kərbəlayı Səttarın Aşurbəyova tapançadan atəş açması, amma güllənin Teymur bəyə yox, onun faytonçusunun çiyninə dəyməsi, atəş açanın həbs edilərək polisə aparılması barədə xəbər yazır.[1]

Bu iki qeyddən belə nəticəyə gəlmək olur ki, Nəcəfqulu bəy və Teymur bəyin həmin vaxt Bakıda çoxsaylı düşmənləri mövcud imiş. Onların aralarında tez-tez münaqişələr baş verirdi.

Həmin ilin avqustunda baş verən belə silahlı münaqişələrdən biri düşmənlər üçün faciəvi sonluqla bitmişdi. Belə ki, Bakı uyezdinin Saray kənd sakini Rəcəbəli Hacıəhməd oğlu Əli bəy Ağabəy oğlunun sifarişi ilə Nəcəfqulu bəy Aşurbəyovu öldürməyə cəhd göstərir. Tapançadan atəş açaraq onu üzündən və çiynindən yaralayır. Rəcəbəli və Əli bəy tezliklə Saray kəndində tutulur. Bu hadisədən bir neçə gün sonra həmin işin istintaqını aparan müstəntiqin yanında Nəcəfqulu bəyin qardaşı Teymur bəy Aşurbəyov Rəcəbəlini güllə ilə vurub öldürür. Əli bəy Ağabəy oğlu yaralansa da, qarışıqlıqdan istifadə edərək qaçıb gizlənir. Teymur bəyi həbs edirlər, Əli bəy Ağabəy oğlunun axtarışı üçün də tədbirlər həyata keçirilir. Tezliklə məlum olur ki, hadisə yerindən yaralı halda qaçmış Əli bəy evində ağır vəziyyətdə yatır. O, polisə təslim olmaq barədə ismarıc göndərir və aldığı yaradan hadisənin üçüncü günü vəfat edir.



Teymur bəy Aşurbəyov

Teymur bəy Aşurbəyov isə necə olursa tezliklə həbsdən çıxır. Artıq noyabrda onun yenidən hücuma məruz qaldığını, sağ əlinin şəhadət barmağından və sağ budundan, ümumən, 10 yara aldığını qəzet xəbərlərindən oxuyuruq.

Ondan sonrakı illərdə Aşurbəyov qardaşlarının neçə atışmada iştirak etdikləri məlum deyil. Amma "Kaspi" qəzetinin 1907-ci il yanvar tarixli saylarının birində məlumat verilir ki, dekabrın 29-da Velikoknyajeskom prospektində baş vermiş atışma zamanı Teymur bəy Aşurbəyov və Əliheydər Axundov Məşə-

[1] Мамедов М. Ашурбековы – бакинские гочу // https://www.ourbaku.com/index.php.

di Hüseyn Bağır oğlunu öldürməkdə, Heydər Ələsgər oğlu adlı şəxsi isə yaralamaqda günahlandırılaraq həbs olunublar.

İstintaq nəticəsində həmin atışmanı Teymur bəy və Əliheydər Axundovun başlamadığı üzə çıxsa da, şəhərin polis rəisi onları bir ay qazamatda saxlamaq qərarına gəlir. Bir ay başa çatandan sonra isə həbs müddətləri əvvəlcə Qafqaz canişininin, daha sonra imperiyanın daxili işlər nazirinin əmri ilə uzadılır.

Aşurbəyov qardaşları ilə bağlı istintaq materiallarında onların qoçu olması barədə bir çox dəlillər toplanıb. Məsələn, bu faktlardan birində öyrənirik ki, Teymur bəy hansısa daşınmaz əmlak mübahisəsində iki malakanın müdafiəsində dayanıb. Malakanlar bu mübahisədə haqlı tərəf olublar. Teymur bəy isə onların haqqını yemək istəyən şəxsi tapança ilə hədələyibmiş.

Teymur bəyin həbsindən bir neçə ay sonra 1907-ci il mayın 4-də qardaşı Nəcəfqulu bəyi də tuturlar. Rəsmi ittihamlarda Nəcəfqulu bəyin qoçu kimi şəhər əhalisini vahimə içərisində saxladığı göstərilirdi. Aşurbəyov qardaşlarının azadlığa buraxılmaq üçün qaldırdıqları vəsatətlərin heç birinə məhəl qoyulmur və qısa müddətdən sonra onları Volqoqrad quberniyasına sürgün edirlər. Onda Nəcəfqulu bəyin 32, qardaşı Teymur bəyin isə 22 yaşı vardı.

Maraqlıdır ki, onlardan bir neçə ay sonra həbs olunan Bəşir bəy Aşurbəyova qarşı ittihamlarda da onun qoçuluq fəaliyyətinə xüsusi diqqət yönəldilir. Görünür, yerli hökumət orqanları onlarla birdəfəlik haqq-hesab çəkmək və Bakıdan uzaqlaşdırmaq qərarına gəlmişdi. Bu qərarlarında da fikirləri qəti idi.

"İSTƏNİLMƏDİYİM YERDƏN ÇIXIB GETMƏYİ ÖZÜMƏ ŞƏRƏF BİLƏRƏM"

"Ən güclü insan da mühitin təsirlərinə məruz qalır... Lakin böhtandan da qorxulu bir silah var: bu həqiqətdir".
Taleyran

Başir bəyin həbsxanada öz yaxınları ilə görüşünə icazə verilmişdi. Xüsusilə əmisi uşaqları onu tez-tez ziyarət edə bilirdilər. Hətta bir dəfə özünün həbsxana gözətçisinin nəzarəti altında evə gəlib xəstə anası Cəvahir xanımı ziyarət etməsinə də şərait yaradılmışdı. Amma çar hökumət orqanlarının "humanizmi" bura qədər idi. Onlar hər hansı cinayətdə iştirakı üçün heç bir dəlil tapa bilmədikləri Bəşir bəyi azadlığa buraxmaq fikrində də deyildilər. Əsas niyyət isə, nə yolla olursa-olsun onu Bakıdan kənarlaşdırmaq idi. Sadə bir səbəbə görə: bədxahları belə istəyirdilər. Martın 30-da Bəşir bəy Aşurbəyova elan edilir ki, o, Qafqaz hüdudlarından kənara sürgün ediləcək. Sürgün yeri və müddəti bəlli olana qədər isə həbsdə saxlanacaq.

Növbəti gün o, Bakı şəhər rəisi Martınova müraciət edir. Müraciətində günahsız olduğunu bildirir: "Mənə qarşı heç bir rəsmi ittiham irəli sürülməyib", – yazır Bəşir bəy, – "Bu halda insanı törətmədiyi



Bakı şəhər rəisi
Pyotr İvanoviç Martınov

cinayətdə günahlandırmaq olmaz. Bununla belə, bilirəm ki, mənim dostumdan çox düşmənim var. Bu dəfə onlar qalib gəldilər. Çoxdan arzuladıqları məqsədlərinə çatdılar. Mən başqalarının fitvası ilə həbs olunmuşam. Əgər Bakı müsəlmanlarının əksəriyyəti məni, həqiqətən, ziyanlı adam sayırsa, şübhəsiz ki, əksəriyyətin rəyinə tabe olub Bakını tərk etməliyəm. Buna görə zati-alinizdən xahiş edirəm ki, əgər işimə ədalətlə, müsbət baxılarsa, mənim nəinki Bakının, ümumilikdə, Rusiya İmperiyasının hüdudlarını tərk etmək qərarımda qəti olduğum nəzərə alınsın. Çünki istənilmədiyim yerdə qalıb yaşamağı heç mən də arzulamıram. Belə yerdən çıxıb getməyi özümə şərəf bilərəm. Bədxahlarımın əhatəsindən kənar, uzaq bir yerdə yaşamaqda tamamilə sərbəstəm".[1]

Bəşir bəy Aşurbəyov müraciətində son illər onun haqqında şəhər rəisliyinin dəftərxanasında bir qalaq donosun yığıldığına işarə edərək yazır: "İnanıram ki, haqqımdakı yeni iddialar son illər zati-alinizin dəftərxanasında toplanmış donos qalağına yenilərini əlavə edəcək. Bu donoslar daha bir neçə ay həbsxanada qalmağıma səbəb olacaq. Ona görə də zati-alinizdən ən əsas materiallarla qane olmanızı, məni istədiyiniz yerə göndərməyinizi, ya da öz hesabıma Bakını həmişəlik tərk etməyimə şərait yaratmağınızı xahiş edirəm".

Sonrakı günlərdə də Bəşir bəy sərbəst buraxılması xahişi ilə şəhər rəisinə dəfələrlə müraciətlər ünvanlamışdı. Bu müraciətlərdən birində o, etiraf edir: "Həqiqətən, müəyyən səhv hərəkətlərim olmamış deyil, bəzi davalara qarışmışam, amma buna baxmayaraq, şəxsən heç bir cinayət əməlində iştirak etməmişəm..."

Hökumət orqanları isə ona olan sərt münasibətdən, Bəşir bəy Aşurbəyova qarşı düşünülmüş məqsədli oyundan geri çəkilmək niyyətində deyildi. Donosların əksəriyyəti erməni sahibkarların sifarişi ilə yazılırdı. Bəşir bəy onlara əl-qol açmağa imkan vermirdi. Bunu

[1] Мамедов М. "Бакинские гочу Ашурбековы" //"Зеркало", 18.08.2012.

Sabunçu əhli də, qonşu kəndlərin camaatı da yaxşı bilirdi. Amma səslərini çıxara bilmirdilər. Əks təqdirdə Bəşir bəyin taleyini yaşamalı olacaqdılar...

Şəhər rəisi Martınov onun məsələsi ilə bağlı Peterburqa, Daxili İşlər İdarəsinin Polis departamentinə teleqram vurmuşdu. Teleqramda Bəşir bəy Aşurbəyov kimi xeyriyyəçi, xalqı, cəmiyyəti üçün faydalı bir adam ən qatı cinayətkar qismində qələmə verilirdi: "Səhih agentura məlumatları və şəhərin hörmətli adamlarının rəylərinə əsasən, Bəşir bəy Aşurbəyov son illər şəhər əhalisinə qarşı terror əməlləri törədən, çoxsaylı üzvləri olan ən təhlükəli quldur dəstəsinin başçısıdır. Bəşir bəy Aşurbəyovu heç bir halda azadlığa buraxmaq olmaz. Əgər azadlığa buraxılarsa, onu Bakı quldurlarının başçısı hesab edən şəhər əhalisinin nəzərində hakimiyyət nüfuzunu itirə bilər".

Əgər yaxın qohumları Teymur bəy və Nəcəfqulu bəyin istintaq prosesində hakimiyyət orqanlarını, əsasən, bu qardaşların qoçu kimi cinayət əməlləri maraqlandırırdısa, Bəşir bəyin işində isə onun sərvətlərinin tam miqyasını aşkarlamağa çalışır, bu böyük var-dövlət sahibinin öz varidatını, guya, qəsb və soyğunçuluq hesabına əldə etməsi barədə yalançı rəy yaratmağa cəhd göstərirdilər.

İstintaq prosesində onun mülkiyyətində olan əmlakların rəsmi qiymətləndirilməsi də aparılmışdı. Məlum olmuşdu ki, Bəşir bəy Aşurbəyovun Sabunçuda üç daş evi var, onlardan ikisi kirayə verilib. Bundan başqa, istintaq materiallarında onun qohumları ilə birgə istifadə etdiyi neft mədənləri haqqında da ətraflı məlumatlar əks olunmuşdu.



Bəşir bəy Aşurbəyov

FƏXRİ QƏYYUM

İstək ilə nəticə arasında keçilməz bir uçurum var: onu ancaq güclü insanlar keçə bilirlər".
C.Cabbarlı

Onun fəaliyyəti araşdırılan zaman istintaq orqanlarını tərəddüddə saxlayan maraqlı bir fakt da üzə çıxır. Məlum olur ki, Bəşir bəy Aşurbəyov Bakıdakı III Aleksandr adına Birinci Kişi Gimnaziyasının fəxri qəyyumu statusunu daşıyır.

Yəqin elə bir Bakı sakini tapılmaz ki, indiki Füzuli küçəsi, 61 ünvanında yerləşən və xalq arasında "Kəndçilər xəstəxanası" kimi tanınan 4 nömrəli Şəhər Xəstəxanasının binasını görməmiş olsun. Öz memarlıq görünüşü ilə şəhərə xüsusi gözəllik verən bu bina 1913-cü ildə məhz III Aleksandr adına Birinci kişi Gimnaziyası üçün tikilmişdi. Gimnaziya özü isə 1896-cı ildən fəaliyyətə başlamışdı. Bu, Azərbaycanda klassik gimnaziya tipində fəaliyyət göstərən ilk təhsil müəssisəsi idi. Bakıda Birinci Kişi Gimnaziyasının açılmasında görkəmli maarifçi Həsən bəy Zərdabinin çox böyük əməyi olmuşdu.

Gimnaziyada dərslər Azərbaycan dilində aparılırdı, eyni zamanda rus dilinə də böyük diqqət yetirilirdi. İlk tədris ilində bu maarif ocağına daxil olmaq üçün 600-dən çox şagird ərizə vermişdi. Gimnaziya şagirdlərinin sayına və təlim-tərbiyə işinin keyfiyyətinə görə qısa müddətdən sonra bütün Qafqazda adla tanınmağa başlamışdı. XIX əsrin son illərində burada 997 nəfər şagird təhsil alırdı. Gimnaziyada o dövrün ən tanınmış pedaqoqları, ictimai xadimləri dərs deyirdilər.

Göründüyü kimi, Bəşir bəy Aşurbəyovun belə bir təhsil ocağının fəxri qəyyumları sırasında olması, digər bir sıra maarif müəssisələri



III Aleksandr adına Birinci Kişi Gimnaziyasının binası

kimi, bu gimnaziyanın da fəaliyyətinə maddi dəstək verməsi, gənclərin oxuyub cəmiyyət üçün layiqli üzvlər kimi yetişmələrindən ötrü pulunu əsirgəməməsi, bir sözlə, maarif dostu olması hökumət orqanlarının ona vurmaq istədikləri "quldurbaşı" ləkəsi ilə qətiyyən bir araya sığmırdı. Üstəlik, Bəşir bəyin imperiyanın digər şəhərlərindəki müxtəlif məktəb və universitetlərin 29 tələbəsinin təhsil haqlarını ödəməsi barədə də faktlar vardı. Onlardan 5 nəfəri Bakıdakı gimnaziyalarda təhsil alırdılar. 6-sı Bakı Realni Məktəbinin, 4-ü "Səadət" məktəbinin, 2-si 2 nömrəli şəhər məktəbinin şagirdləri, 3-ü Politexnik məktəbinin tələbələri idi. Bu sırada Politexnik məktəbinin hazırlıq kursunun 3, mühasibat kurslarının 1 dinləyicisi də vardı. Bəşir bəy Aşurbəyovun xeyriyyə köməyi ilə təhsil alanlardan biri Petrovsk şəhərindəki müəllim kurslarının dinləyicisi Səməd Əli İsgəndərov, Varşava Texniki Məktəbinin tələbəsi Muxtar Qasımov, Xarkov Universitetinin tələbəsi Hüseynbala Vəliyev, Peterburq Mülki Mühəndislik İnstitutunun tələbəsi Mustafa Hacıqasımov və Xarkov Universitetinin Hüquq fakültəsinin tələbəsi Mir Hidayət Seyidov idi.

Amma hökumət orqanları özlərinə sərf edəndə bu cür faktları gözardı edə bilirdi və bu dəfə də belə oldu. Hər hansı cinayətdə iştirakını təsdiqləyən dəlillərin tapılmamasına, maarifçilik, mesenatlıq



Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Mir Hidayət Seyidov

fəaliyyətinə, ictimai nüfuzuna baxmayaraq, Bəşir bəy Aşurbəyova qondarma ittihamlarla 5 il ərzində Qafqaz bölgəsi ərazisində yaşamaq qadağan edildi.

Ona sürgün yerini seçmək imkanı verilmişdi, Bəşir bəy də dəniz yolu ilə Bakıya nisbətən yaxın olan Krasnovodskini (indiki Türkmənbaşı şəhəri) seçmiş və 1909-cu ilin 28 oktyabrında xüsusi polis müşayiəti altında bu şəhərə göndərilmişdi.

Sürgündə olanda da o, Bakıya qayıtmasına icazə verilməsi xahişi ilə dəfələrlə şəhər rəhbərliyinə müraciət ünvanlamış, amma hər dəfə rədd cavabı almışdı. Hətta cəza müddəti başa çatandan sonrakı bir neçə ildə də onun Vətəninə dönməsi qadağan edilmişdi. O, Bakıya bir də 1916-cı ilin əvvəlində qayıda bilmişdi. Üstəlik, Vətənə dönüş icazəsini də ona müvəqqəti, bir növ sınaq müddəti kimi vermişdilər ki, əgər lazım olsa, Bəşir bəyi yenə Bakıdan uzaqlaşdıra bilsinlər. Onda artıq Bəşir bəyin 41 yaşı vardı.

18 mart 2021-ci ildə tanınmış araşdırmaçı jurnalist, ssenarist, kino redaktoru Müsəllim Həsənovun "XX yüzillik. Faktlar, hadisələr və insanlar. 1909-cu il" televiziya proqramı nümayiş etdirilmişdi. Çox maraqlı faktlara toxunan müəllif Bəşir bəy Aşurbəyovun həmin dövrdə həbsi məsələlərinə də geniş açıqlama vermişdi. Həmin televiziya filminin B. Aşurbəyovla bağlı hissələrini oxuculara təqdim edirik:

"...Yanvarın ilk günləri. Şəhər hələ də ötən ilin sonlarında baş verən gurultulu cinayət işinin təsiri altındadır – milyonçu Ağa Musa Nağıyevin oğurlanması hadisəsi... Düzdür, cinayətkarlar tutulur, istintaq gedir. Amma şəhər sakitləşmir. Bakının imkanlı adamları bu kimi hallara son qoyulmasını tələb edirlər...

Quldurluğa son qoymaq üçün Bakıya yeni qradonaçalnik təyin edilir – qəddar, əzazil podpolkovnik Pyotr Martınov...

Martın 21-də Sabunçu kəndinin sakini Bəşir bəy Aşurbəyov həbs olunur. Onu dərhal Bayıl həbsxanasına yerləşdirirlər. Səbəb-filan göstərilmə-

dən. Sadəcə, ona görə ki, Bəşir bəy şəhərin tanınmış qoçusudur, Martınov da qoçuların qənimi. Bir neçə gün sonra şayiə yayılır ki, Bəşir bəy Musa Nağıyevin oğurlanması faktına görə tutulub. Amma bunu sübut edən dəlillər tapılmır. İyunun 5-də Martınovun göstərişi ilə daha bir məşhur qoçu Kərbəlayı Abdulla Zərbəliyev həbs olunur. Zərbəliyevin həbs xəbəri də şəhərdə sensasiya kimi yayılır. Onun polis bölməsinə aparılmasına tamaşa etmək üçün küçələr adamlarla dolur. Zərbəliyev Bakının pullu qoçularından idi. Martınov isə sərt tədbirləri davam etdirirdi. Bayıl həbsxanasında bu ilin ilk ölüm hökmləri icra olunurdu. Ardınca həmin həbsxanada qətl və qarət törədən bir neçə erməni asılır.

Bəşir bəy Aşurbəyov isə uzun müddət Bayılda saxlanılır. Martınov onun əmlakı barədə arayış tələb edir, yəni bu adam nə ilə dolanırdı. Məlum olur ki, Aşurbəyovun adına əmlak yoxdur. Yalnız Nobel qardaşları şirkətindən icarə pulu alır, notarius vasitəsilə. O da elə çox pul deyil. Amma özü həbs ediləndən iki ay sonra qradonaçalnikə yazdığı müraciətdə gəlirləri barədə məlumat verir. Yazır ki, ildə öz müəssisələrimdən 50 min rubldan çox pul qazanıram. Eyni zamanda Aşurbəyov Bakı məktəblərində oxuyan 23 şagirdin təhsil haqqını ödəyir. Təsəvvür edirsiniz, adamı həbs edirlər və sonra məlum olur ki, bu həm də xeyriyyəçi imiş. Özü də təhsil sahəsində xeyriyyəçi imiş. Ax, gözəl Bakı, təzadlı şəhər!

Faktlardan aydınlaşır ki, Bəşir bəy həm də III Aleksandr Məktəbinə himayədarlıq edir. İldə 750 rubl da bu məktəbə verir. Həmçinin bir neçə gəncin müxtəlif şəhərlərdə, o cümlədən sonralar Xalq Cümhuriyyətinin qurucularından olan Mir Hidayət Seyidovun Xarkov Universitetində təhsilini maliyyələşdirir. Onun tutulmasından narahat olan bir qrup nuxalı bu həbsin anlaşılmazlıq olduğu barədə Martınova teleqram vurur. Mərhum Həsən bəy Zərdabinin arvadı Hənifə xanım Məlikova onun azadlığa buraxılması xahişi ilə canişinə məktub yazır, cünki oğlunun təhsil haqqını da Aşurbəyov ödəyirdi. Bəşir bəyin qayınatası canişinin yanında xüsusi tapşırıqlar üzrə məmur və məşhur mülkədar Allahyar bəy Zülqədərov isə Rusiyanın daxili işlər nazirinə müraciət edir. Bütün ərizə və müraciətlər cavabsız qalır.

Bəşir bəy özü də Martınova dəfələrlə ərizə yazır ki, mən günahsız yatıram. Dostumdan çox düşmənim var, məni şərləyiblər. Hətta ərizə-





"Səni Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, ən xoş arzularımı yetirirəm.
Sənin Bəşirin"

Bəşir bəyin sürgündən həyat yoldaşına göndərdiyi açıqca

lərindən birində yazır ki, mən məğrur adamam, əgər günahım sübut olunsa, nəinki Bakını, hətta Rusiya imperiyasını tərk etməyə hazıram. 1909-cu ilin yayında Bəşir bəy Martınova yenə ərizə ilə müraciət edir ki, icazə verin evdə xəstə yatan anamla görüşüm. Amansız qradonaçalnik icazə verir. Bakı polismeysterinə tapşırılır ki, Aşurbəyov səhər tezdən kanvoyla ağır xəstə yatan anası ilə görüşə aparılsın və axşam həmin kanvoyla geri qaytarılsın. Növbəti gün polismeyster raport yazır: "Aşurbəyov iyulun 8-də səhər ağır xəstə yatan anasının yanına aparıldı və həmin gün axşam 7-də həbsxanaya qaytarıldı."

Dövrə bax, insanlara bax. Bununla belə, qradonaçalnik Aşurbəyovu bağışlamır. İyunun 19-da canişinə geniş hesabat göndərir. Qoçu kimi fəaliyyətini və törətdiyi cinayətləri xatırladır. Yazır ki, Aşurbəyov həbs olunandan bəri şəhərdə sakitlik yaranıb. Martınov canişindən xahiş edir ki, onu və onunla birlikdə həbs edilənləri 5 illiyə Yakutiya vilayətinə sürgün etməyə icazə versin. Oktyabrın 18-də Bəşir bəy Aşurbəyov Yakutiyaya yox, Krasnavodsk şəhərinə sürgün olunur".

(İctimai televiziya, 18.03.2021)

Sürgündə olanda Bəşir bəy Aşurbəyov həyat yoldaşı Nəzakət xanımla mütəmadi məktublaşırdı. Nəzakət xanım onun xeyriyyəçilik fəaliyyətini davam etdirirdi. Ömür-gün yoldaşı da onunla eyni dəyər-



Nəzakət xanım Aşurbəyova-Zülqədərova

lərin daşıyıcısı idi. Şahidlər nəql edirdilər ki, dövrün əsilzadə xanımlarının adəti üzrə Nəzakət xanım hər həftə qulluqçularının müşayiəti ilə şəhərə çıxanda, hamama gedəndə yol üstə gördüyü bütün imkansız insanlara pul verər, hədiyyələr bağışlayardı, onlara ərzaq və azuqələrlə köməklik göstərərdi. Hətta bu ənənədən xəbərdar olan bir çox imkansızlar konkret vaxtda, yol kənarında durub gözləyərmişlər ki, Nəzakət xanımın bəxşişlərindən onlara da pay düşsün.

Bu, Bəşir bəy Aşurbəyov ocağı qədər Nəzakət xanımın özünün də doğulub boya-başa çatdığı evdən, ailədən gələn mənəvi dəyər idi.

Allahyar bəy Zülqədərov kimi kişinin qızından başqa cür davranış gözləmək olmazdı...

QAFQAZ SƏRDARI

"İnsan var dərya kimidir, baş vurdunsa çıxmaq çətindir; insan var ki, divar kimidir, qarşında durur və heç nə görə bilmirsən; insan var ki, şüşə kimidir, dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır".
Əbu Turxan

Rusiya türklərinin tarixində möhtəşəm yer tutan məşhur "Tərcüman" qəzetinin naşiri İsmayıl bəy Qaspralının xatirələrində maraqlı bir məqam var: "1882-ci ildə Kazana səyahətim sırasında tatarlar üçün bir ədəbiyyat gecəsi düzənləmək istədim. Böyük zorluqlarla buna izin aldım. Şəhərin tatarlar yaşayan bölgəsinə afişlər yapışdırıldı, Voskresenk caddəsindəki birinci sinif bir hotelin (Volqa-Kama hoteli) böyük salonunu da kirələdim və salon çox sayda kreslolar və qonuşmaçılar üçün kürsü ilə də donatıldı (bəzədildi). Saat 9 oldu. Mən iki saat daha bəklədim (gözlədim).

Oraya gələn isə toplam üç kişi idi. Onlar da kazanlı deyil, dışarıdan (kənardan) gəlmə idilər. Bunlardan biri kafkasiyalı Allahyar bəydi. Digər ikisi isə Orenburqda yayımlanacaq "Vaxt" qəzetəsinin gələcəkdəki naşirləri Şakir və Zakir Rameyev qardaşları idi. Təbii ki, ədəbiyyat gecəsi gerçəkləşmədi. Fəqət Kazanda təsadüfən rastlaşdığım bu səyyahlarla aramızda çox yararlı bir alış-veriş oldu. Müsafirlər ev sahibini ağırladılar (qonaq etdilər), başarısız təşəbbüsün bütün məsrəflərini ödədilər. Gecənin çox gec saatlarında ilk tatar ədəbiyyatı gecəsinin bu üç qatılımcısı (iştirakçısı) vidalaşıb getdilər".

İsmayıl bəy Qaspralının burada adını çəkdiyi "kafkasiyalı Allahyar bəy" Azərbaycandan olan məşhur mülkədar Allahyar bəy Zülqədə-



Allahyar bəy Zülqədərov

rov idi. O, Peterburqda Meşəçilik Akademiyasını bitirmiş, Gəncə şəhər Dumasının üzvü, Gəncə Quberniyasının Şəmkir qəzasının rəisi olmuşdu. Dövrünün ictimai-siyasi xadimi idi.

Allahyar bəy Zülqədərov 1883-cü ildə valilik katibi idi, Qafqazda mülki hissə baş rəisinin Baş idarəsində qulluq edirdi (Кавказский календарь на 1883 г.); sonralar o, baş rəisin sərəncamına göndərilməklə Daxili İşlər Nazirliyində qulluqda sayılırdı (bax: Кавказский календарь на 1884–1890 гг.), Allahyar bəy 1909-cu ildə artıq mülki müşavir çinində və Qafqaz canişini yanında özəl tapşırıqlar üzrə məmur idi (Кавказский календарь на 1909 г.).

Allahyar bəy yenilikçi ideyalarla, xalqın mənafeyinə yönəlik ictimai fəaliyyətlə yaxından maraqlanan əsl zadəgan kimi tanınmışdı. 1905-ci il inqilabından sonra Rusiyada baş verən dəyişikliklər zəminində Ə.Topçubaşovun rəhbərliyi altında Qafqaz canişini İ.İ.Vorontsov-Daşkova Azərbaycan türklərinin istək və arzuları ilə bağlı tələbnamə təqdim edən, müzakirələr aparan 9 millət xadimindən biri də məhz Allahyar bəy Zülqədərov olmuşdu. Onun əsas malikanəsi o zaman Qazax qəzasına baxan Tovuzun Keşkənd kəndində (indiki Gədəbəy rayonunun Qoşabulaq kəndi) yerləşirdi.

Bu ləyaqətli bəyin adı Gəncəbasar bölgəsində indi də böyük hörmətlə xatırlanır. O, Azərbaycan türklərinin ən qədim və çoxşaxəli nəsillərindən biri olan Zülqədərovlar nəslinin davamçısı idi.

Bu böyük nəslin tarixinə qısaca nəzər salaq: məşhur əfşarlar boyundan olan Zülqədərlərin kökü Xorasandan gəlir. Onlar Xorasanın ən böyük tayfalarından biri kimi tanınmışdılar. Zülqədərlər nəslinin tarixi haqqında 1988-ci ildə İstanbulda çap olunmuş "İslam ensiklopediyası"nda, L.Lokkartın "Nadir şah" kitabında geniş və hərtərəfli məlumat verilir. XIV əsrə aid ərəb, fars və türk mənbələrində də bu türk sülaləsi barədə məlumatlara rast gəlmək olar. Xüsusilə XVII əsrdə Güney Azərbaycanın tarixi həyatında Zülqədərlər nəsli çox böyük rol oynamışdı.

Nadir şah Əfşarın ən çox etibar etdiyi tayfalardan biri də məhz Zülqədərlər idi. Ona görə də bu tayfanın nümayəndələrini şimal-qərbi Azərbaycan ərazilərinə köçürmüşdü ki, həmin torpaqlarda

möhkəmlənə bilsinlər. Qarabağ xanlığı ərazisindən, eləcə də Şəmkir, Zəyəm, Xınna dərəsi regionundan onlara böyük xəzinə torpaqları pay vermişdi. Rəvayətə görə, Xınna dərəsinin adı burada bitən təbii xına otunun adı ilə bağlıdır.

Nadir şah bu ərazilərdən keçərkən Xınna dərəsində Zülqədərlər tayfasının qonağı olmuşdu. Tayfa Nadir şahı böyük təmtəraqla qarşılamışdı. İnsanlar dağlarda bitən xına otu ilə əllərini xınalayaraq, Nadirin qarşısına çıxmışdılar. Hətta bildirilir ki, Nadir şah həmin dövrdə Xınna ərazisində yerləşən və Həzrət Əlinin adı ilə bağlı Haçaqaya ziyarətgahında da olmuşdur.

Zülqədərlilər bu torpaqlarda məskunlaşıb əkin-biçinlə, geniş təsərrüfatla məşğul olmağa başladılar, nəslin yeni nümayəndələri dünyaya gəlib böyüdü. Onlardan biri də Məmməd Rza bəy idi. Bu torpaqlarda onu daha çox Zülqədərli şəcərə adının qısa forması ilə - Məmməd Rza bəy Zilli kimi tanıyırdılar. O, çar ordusunda xidmət etmiş və şücaət göstərmişdir.

Məmməd Rza bəyin oğul övladının dünyaya gəlməsi ilə bağlı da maraqlı bir rəvayət var. Deyilənə görə, bir gün bəy at belində gedirmiş, Xınna dərəsində Canavarasılan adlı bir yer var, oradan keçəndə qarşısına bir yalquzaq çıxır. Yalquzağın bir ayağı yoxmuş, axsaya-axsaya hərəkət edirmiş. Bəy tüfəngi götürüb onu vurmaq istəyir, tüfəng açılmır. Amma yalquzaq da bəyə və atına bir xətər yetirmir, düz gözlərinin içinə baxa-baxa, saymazyana atın qarnının altından keçib yoluna davam edir. Yalquzağın əlisilahlı adamdan qorxub yolunu dəyişməməsi, saymazyana ötüb-keçməsi bəyin marağını çəkir, vəhşi heyvanın qorxmazlığına heyran qalır. Atdan enərək, əllərini göyə açıb Allaha yalvarır ki, ona da belə axsaq, amma ürəkli, igid bir oğul nəsib eləsin.

Allah Məmməd Rza bəyin bu duasını eşidir, bir müddətdən sonra onun oğul övladı dünyaya gəlir. Adını Allahyar qoyurlar. Uşaq ayaq açıb yeriməyə başlayanda onun bir ayağında anadangəlmə qüsur olduğu görünür. O, böyüyüb yaşa dolanda da ayağındakı qüsura görə azca axsayırdı.

Həmin uşaq sonralar Allahyar bəy Zülqədərov kimi öz ad-sanı, nəcib əməlləri ilə nəinki Qafqazda, az qala bütün imperiyada məşhurlaşacaqdı.



Xınna dərəsi, Haçaqaya



Xınna dərəsi

ŞÖHRƏT ÇOX AĞIR BİR YÜKDÜR

"İnsanın bütün həyatı böyük məqsədlərə yönəlməlidir".
Əbu Turxan

Allahyar bəy Zülqədərovun doğum tarixi təxminən 1850-ci il kimi göstərilir. O, Peterburqda Meşəçilik Akademiyasını bitirmişdi. Azərbaycanın həmin dövr üçün çox az sayda yüksək universitet təhsilli ziyalılarından, kənd təsərrüfatı mütəxəssislərindən idi. Meşə işini gözəl bilirdi, Xınna dərəsindəki ağacları göz bəbəyi kimi qoruyurdu. Ərazidə yeni meşələr, qoz bağları saldırmışdı. Yerli cinslərlə yanaşı, şam ağacları da əkdirmişdi ki, bu yerlərin təbiətinə bir fayda versin. Allahyar bəyin əkdirdiyi ağaclar, saldırdığı meşələr bu günə qədər Xınna dərəsinin təbiətini bəzəyir.

O, kənd təsərrüfatının da gözəl bilicisi idi. Universitetdə seleksiya işini ciddi şəkildə öyrənmişdi. Rusiyadan çoxlu erkək marallar gətirdib onların yerli südlük inəklərlə cütləşdirilməsi hesabına bol süd verən qızıl inək cinsləri əldə etmişdi.

Allahyar bəy çox səxavətli idi, imkansızlara əl tutmaqdan, ac qarınları doyurmaqdan, səxavət göstərməkdən böyük mənəvi zövq alardı. Sərkarı gəlib ona deyəndə ki, inəklərdən biri qayadan düşüb və yaralanıb, deyərdi, canınız sağ olsun, kəsib ətini kasıb-kusublara, nökər-naibə paylayın. Amma bu qədər alicənablığına, səxavətinə rəğmən, ağaclara ziyan vuranlara qarşı da çox zalım, amansız idi. Vay o gündən ki, kiminsə əlində sındırılmış ağac fidanı, yaş budaq görəydi. Kimliyindən asılı olmayaraq çubuq belində qırılana qədər



Allahyar bəy Zülqədərov

həmin adamı döydürərdi. Allahyar bəy bilirdi ki, meşələri yalnız bu cür sərt qaydalarla, güzəştsizliklə qorumaq olar. O, kənd əhalisinə həmişə deyirdi ki, ağaclara, meşələrə ziyan vurmayın. Sındırdığınız hər pöhrə gələcəyin qocaman ağacıdır, bu yerin insanlarının ruzisidir. Öz əllərinizlə ruzinizi kəsməyin.

Allahyar bəy qışda, qarlı-şaxtalı havalarda meşələrdəki vəhşi heyvanlar üçün belə yem qoydurardı ki, ac qalmasınlar. Çünki təbiətdə hər canlının öz yerinin, funksiyasının, faydalarının olduğunu peşəkar meşəçi kimi yaxşı bilirdi. Bunlar haqqında çox yazılıb, çox deyilib, kitablar, məqalələr qələmə alınıb.

Allahyar bəyin atlara sevgisi böyük idi. Azərbaycanın məşhur at cinslərindən olan Dilbazların[1] yetişdirilməsində onun xüsusi xidmətləri olmuşdur. Professor R.X.Səttarzadə və S.O.Həsənov "Qarabağ atı" kitabında qeyd edirlər ki, Allahyar bəy Zülqədərov, onun Şəmkir və Zəyəmdə mülkləri olan qardaşlarının ilxılarında 740 başdan çox müxtəlif cinsli atlar vardı. Bu atlara "Göydəmir" atları deyərdilər. "Göydəmir türk atları" müasir Dilbaz cinsinin o dövrdəki nümunələrindən idi. Allahyar bəy ilxısında yetişdirilən atları sınamaq üçün tez-tez at yürüşləri təşkil edər, ən yaxşı atlarını Rusiyada, eləcə də Avropada, xüsusilə Fransa və Almaniyada keçirilən cıdır yarışlarına göndərər, mükafat alan atlardan döllük üçün istifadə etdirərmiş. Allahyar bəy başqalarından fərqli olaraq ilxılarında damazlıq işlərini zavod səviyyəsində, peşəkar elmi metodlarla aparırdı.

Keşkənddən Qovlar kəndinə qədər məsafədə təşkil edilən cıdır yarışlarının birində Dilbazilər nəslindən olan Osman Dilbazi Allahyar bəylə yaxından tanış olur və onlar arasında sıx dostluq əlaqələri yaranır. Bir-birinə yaxşı seçmə atlar bağışlayırlar. Bu dostluq münasibətlərinin də Dilbaz at cinsinin formalaşmasına müsbət təsiri olur. Hazırda Gədəbəy, Tovuz və Şəmkirin böyük bir ərazisini əhatə edən Xınna dərəsinin kəndlərindəki əhalidə olan atların əksəriyyəti, o cümlədən yerli Dilbaz atları məhz Allahyar bəyin atlarının nəslindəndir.

---

[1] 1980-ci illərdə "Dilboz" yazılışına üstünlük verilirdi. Azərbaycan SSR Nazirlər Sovetinin 22 avqust 1990-cı il tarixli 392 saylı qərarı ilə cinsin adı rəsmi olaraq ilk dəfə, onu yetişdirən sülalənin adına uyğunlaşdırılaraq "Dilbaz"adlandırılmışdır.

O, vaxtaşırı öz ilxısından çar ordusuna çoxlu atlar bağışlayırdı. Buna görə də nüfuzlu Qafqaz zadəganının səsi-sədası imperator II Nikolaya qədər gedib çıxmışdı. Qafqaz regionunda bu cür nüfuz sahibləri ilə münasibətlərə həmişə önəm verən II Nikolay Allahyar bəylə bir neçə dəfə görüşmüşdü. Qafqaz kəndlərinin inkişafı, məktəblərin açılması, mülkiyyət münasibətlərinin nizama salınması, torpaq siyasəti və s. bu kimi məsələlərdə onun mövqeyi nəzərə alınırdı. El arasında Allahyar bəyə "Cəmi Qafqazın sərdarı" deyirdilər.

Bu, rəsmi sənədlərdə təsdiqini tapmasa da, deyilənə görə, guya, hətta II Nikolayın Allahyar bəy Zülqədərova öz yaveri statusu verməsi barədə əmri də olubmuş və bunun da maraqlı tarixçəsi varmış.

1914-1918-ci illərdə davam edən Birinci Dünya müharibəsi dövründə Qafqazın müsəlman əhalisindən ibarət süvari diviziyası yaradılmışdı. Amma məlum idi ki, çar Rusiyasında Qafqaz müsəlmanları kütləvi şəkildə hərbi xidmətə cəlb edilmirdilər. Müharibənin gedişində isə cəbhənin möhkəmləndirilməsi üçün Qafqaz müsəlmanlarının süvari qoşunda döyüşmək bacarıqlarını nəzərə alaraq, onlardan ibarət yeni atlı diviziyanın yaradılması qərara alınır. Bu diviziya qərb cəbhəsindəki 3-cü süvari korpusun tərkibində formalaşdırılır. "Vəhşi diviziya" ("Dikaya diviziya") adlanan hərbi birləşməyə bu ad həm şəxsi heyətin şücaətinə, həm də onların nizami döyüş hazırlığı keçməməsinə görə verilmişdi. Diviziya 6 kiçiktərkibli alaydan – Dağıstan, Kabarda, Tatar (Azərbaycan), Çeçen, İnquş və Çərkəz alaylarından ibarət idi. Diviziyanın tabeliyinə həmçinin Osetin piyada briqadası və 8-ci Don topçu divizionu verilmişdi. "Dikaya diviziya"nın komandiri general-leytenant, knyaz D.P.Baqration idi.[1]

Diviziyanın zabit heyətini, əsasən, rus qvardiya zabitləri, həmçinin yerli zadəgan nümayəndələri təşkil edirdilər. "Dikaya diviziya"nın şəxsi heyəti 1350 süvaridən ibarət idi. Xüsusi hərbi hazırlıq görmədiyinə və könüllülük əsasında yaradıldığına görə onun şəxsi heyətinə müəyyən güzəştlər verilmişdi. Onların hər biri ayda 25 rubl məvacib alırdı. Rusiyada çar hakimiyyəti devrildikdən və Müvəqqəti hökumət yaradıldıqdan sonra korpusun siyasiləşdirilməsinə cəhd göstərilməsi, bir tərəfdən bolşeviklərin, digər tərəfdən Müvəqqəti hökumətin ondan öz siyasi maraqları üçün istifadə etməyə çalışması bu hərbi

[1] Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, "Elm, 1999, səh. 151.

qurumun dağılmasına gətirib çıxardı. Nəticədə 1917-ci ilin sonlarında Qafqazın yerli əhalisindən təşkil edilmiş süvari korpus ləğv edildi.

"Dikaya diviziya"nı Azərbaycanla bağlayan onun tərkibindəki "Tatar süvari alayı" idi. Alayın əsgərləri, əsasən, Qarabağ və Gəncəbasar bölgələrindən toplanmışdı. Korpusun ləğvindən sonra alayın atlıları vətənə döndülər. Müsəlman korpusunun formalaşdırılmasına başlananda tatar alayında xidmət etmiş süvarilərin böyük hissəsi könüllü şəkildə Gəncəyə toplaşdı. Həmin süvarilərin əsasında yenidən "Tatar süvari alayı" təşkil olundu və Müsəlman korpusunun süvari briqadasının tərkibində müəyyən dəyişikliklərlə Cümhuriyyətin süqutuna qədər öz mövcudluğunu saxladı.



Allahyar bəyin yetişdirdiyi Dilbaz atı ilə bağlı 1993-cü ildə buraxılmış poçt markası

"Vəhşi diviziya"nın formalaşmasında Allahyar bəy Zülqədərovun böyük rolu olmuşdu. Bu diviziyanın, o cümlədən tərkibindəki "Tatar süvari alayı"nın istifadəsində olan atların xeyli hissəsi bəyin ilxılarından idi.

Bir dəfə yüksək hərbi rütbəli çar məmurlarından biri "Vəhşi diviziya" daxilindəki azərbaycanlı süvarilərin ünvanına təhqiramiz söz işlədir. Allahyar bəy buna əsəbiləşərək həmin məmura sillə vurur. O dövrdə bu cür vəziyyətlərdə zadəganların, hərbçilərin bir-birini duelə çağırması adət idi. Bu məsələ ilə bağlı qalmaqal yaranır, duel məsələsi ortaya çıxır, çara da kifayət qədər həssas bölgə olan Qafqazın nüfuzlu mülkədarı ilə çar məmuru arasında yaranmış bu durum barədə məruzə edirlər. II Nikolay Allahyar bəy Zülqədərovu düşmənlərin qəsdindən qorumaq üçün ona yaveri statusunu verir. Qaydaya görə, imperatorun yaverini duelə çağırmaq olmazdı, beləliklə, düşmənlər geri çəkilməli olurlar.

Allahyar bəy yenilikçi bir insan idi. Təhsilli zadəgan kimi dövrün yeni meyillərini diqqətlə izləyir, mütərəqqi olanlardan bəhrələnir, başqalarının da faydalanmasına çalışırdı. Məsələn, XIX əsrin sonu və

XX əsrin əvvəllərində Azərbaycanda bank fəaliyyəti yenicə təşəkkül tapıb inkişaf etməyə başlamışdı. 1911-ci ildən etibarən Gəncəbasar bölgəsində də bank bölmələri pambıqçılıq, taxılçılıq, üzümçülük, ipəkçilik sahələri sahibkarlarına həvəslə kredit ayırırdı. 1915-ci ildə Bankdan müasir dillə desək, biznes krediti götürən yerli mülkədarların sayı daha da artmışdı. Onlardan Böyük bəy Ağasıbəyov 32 min manat, Adil bəy Zülqədərov 5 min, Allahyar bəy Zülqədərov 14 min 100, Mehrəli bəy Zülqədərov 5 min, İbrahim bəy Sultanov 7 min, Süleyman bəy Sultanov 4 min, Musabəy Şıxzamanov 5 min manat, ümumilikdə, 200-dən çox mülkədar və bəy bankların birindən – Gəncə bölməsindən kredit almışdılar.[1]

Maraqlı bir faktı da qeyd edək ki, görkəmli həkim və ictimai xadim, "Difai" Partiyasının yaradıcılarından biri, "İttihad" Partiyasının və Azərbaycan Xalq Cümhuriyyətindəki "İttihad"çılar fraksiyasının rəhbəri olmuş Qarabəyov Qarabəy (1873 – 1953) Allahyar bəy Zülqədərovun bacısı oğlu idi. Bəşir bəy Aşurbəyovun bu partiya ilə əlaqələri və Qarabəy Qarabəyovla şəxsi münasibətləri barədə kitabın başqa bölmələrində ətraflı söhbət açıldığından burada təfərrüatlara varmırıq.



Allahyar bəyin bacısı nəvəsi Gülxar Həsənova

Digər maraqlı bir fakt isə Azərbaycanın görkəmli opera müğənnisi (soprano), Xalq artisti, Müslüm Maqomayevin "Şah İsmayıl" operasında yaratdığı Ərəbzəngi rolunun heyrətamizliyinə görə yaddaşlarda "səhnəmizin Ərəbzəngisi" kimi qalmış Gülxar Həsənovanın da Allahyar bəy Zülqədərovun bacısı Şeyda xanımın nəvəsi olmasıdır. Gülxar xanım Şəmkir rayonunun Bayramlı kəndinin mülkədarı İbrahim ağa Bayramlının qızı idi. Onun atasının da Xınna dərəsində torpaq sahəsi, Kürqırağı ormanlarda, Ceyrançöldə qoyun-quzu sürüləri,

[1] Baxşəliyev F.E. XIX əsrin sonu-XX əsrin əvvəlində Şimali Azərbaycanda sahibkar kəndində bank-kredit təşkilatlarının xidmətlərindən istifadə haqqında // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2012, № 1, səh. 83-91.



Allahyar bəy Zülqədərov

mal-qara ilxıları, kənddə dəyirmanı və s. var idi.

Allahyar bəy Zülqədərovun iki xanımı olub, 11 övladı dünyaya gəlib. Birinci həyat yoldaşı Qarabağ əsilzadələrindən Xırda xanım idi. Xırda xanım, əfsus ki, gənc yaşlarından əsəb xəstəliyinə mübtəla olduğundan həkimlərin tövsiyəsi ilə Qarabağa, atası Sarı bəyin malikanəsinə qayıtmışdı. Allahyar bəy tez-tez qayınatasıgilə qonaq gedər, xanımının sağlıq durumu ilə maraqlanardı. Onun Qarabağda da çoxlu mal-qoyun sürüləri, ilxıları vardı.

Allahyar bəyin Xırda xanımla evliliyindən bir övladı doğulmuşdu: 1918-ci ildə atası ilə birlikdə atışma zamanı həlak olan oğlu Məmməd bəy. İkinci həyat yoldaşı Seyid Nisə xanım isə İsaxan kəndindən idi. O, 1883-cü ildə anadan olmuşdu. Çox varlı Misir tacirinin qızı idi. Atası Seyid Abdulla kişi misirli sayılsa da, soy-kökü Tovuzun Ağdam kəndindən gəlmə idi. Deyirlər ki, anası Telli xanım yaşının ixtiyar çağlarında da gənclik gözəlliyini qoruyub saxlayırdı. Seyid Abdulla ilə Telli xanımın Seyid Nisədən başqa övladı olmamışdı. Seyid Nisə xanım hələ uşaq ikən atası Misirə qayıtmış və daha geri dönməmişdi. Telli xanım isə ikinci dəfə Hacı Ənnağı adlı şəxslə ailə qurmuş və bu izdivacdan da Hasan adlı bir oğlu olmuşdu. Telli xanım qızı Nisə xanımı çox ərköyün böyütmüşdü. Böyüdükcə ağlı, fərasəti ilə yaşıdlarından fərq-



Seyid Nisə xanım

lənmişdi. O, atası Seyid Abdullanın şəcərəsindən keçən mənəvi mirası da özündə yaşadırdı. Seyid Nisə böyüdükcə qənirsiz gözələ çevrilir, onunla ailə qurmaq istəyənlərin elçiləri qapıdan kəsilmirdi. Maraqlı bir təsadüf onu Allahyar bəylə rastlaşdırır və bəy onu qaçırıb Xınna dərəsindəki imarətinə gətirir. Allahyar bəylə Seyid Nisə xanımın dörd oğlu, altı qızı dünyaya gəlir.

Yerli camaat Seyid Nisə xanımın cəddinə böyük inam bəsləyirdi. İffətli, mömin, cəsarətli, öz ailəsinə böyük dəyər verən xeyirxah bir Azərbaycan xanımı kimi ona rəğbət göstərilirdi. Seyid Nisə xanımın insanpərvərliyi adla deyilirdi. Sadə adamlarla, nökər-naiblə, qulluqçularla mehriban dolanar, imkansızlara daim əl tutardı.

Əfsuslar olsun ki, Allahyar bəy Zülqədərov və Seyid Nisə xanım kimi şəxsiyyətlər də terrorizm üzərində bərqərar olmuş bolşevizmin qurbanına çevrildilər. Bəs necə oldu ki, el-obanın böyük hörmət bəslədiyi bu insanlar namərd qəsdinə tuş gəldilər?

DÖVRÜN SİYASİ MƏNZƏRƏSİNƏ BAXIŞ

"Yaşadığımız dünya ona görə fani və naqisdir ki, burada xalis heç nə yoxdur: işıq qaranlıqla, əql nadanlıqla, xeyir şərlə qarışıq haldadır".
Əbu Turxan

Birinci Dünya müharibəsi 1918-ci ilin 11 noyabrında Almaniyanın təslim olması ilə sona çatdı. Rusiyada 1917-ci ilin fevral ayında baş vermiş burjua-demokratik inqilabı nəticəsində monarxiya devrildi, müvəqqəti hökumət quruldu. Oktyabrda isə bolşeviklər dövlət çevrilişi edərək hakimiyyəti ələ aldılar və keçmiş imperiyanın hər yerində, o cümlədən Qafqaz regionunda da möhkəmlənmək üçün hərəkətə keçdilər.

1917-ci ilin Fevral inqilabından az sonra, martın 3-də Rusiya Dövlət Dumasının Cənubi Qafqazdan olan deputatlarının təşəbbüsü ilə Tiflisdə Zaqafqaziya İdarəsi üzrə Xüsusi Komitə yaradıldı. Bu komitə regionun əsas millətlərini Dövlət Dumasında təmsil edən deputatlardan ibarət idi. Komitəyə V.Xarlamov sədr, M.Papacanov, M.Cəfərov, K.Abaşidze və P.Pereverzev üzv təyin edildilər. Müvəqqəti hökumətin qərar və təlimatlarına uyğun olaraq, komitəyə Cənubi Qafqazda geniş hüquq və səlahiyyətlər verildi.[1] Yəni Zaqafqaziya İdarəsi üzrə Xüsusi Komitə müvəqqəti hökumətin idarə orqanı funksiyasını yerinə yetirməyə başladı. Xüsusi Zaqafqaziya Komitəsində Cənubi Qafqaz

[1] İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri // "Strateji təhlil" jurnalı, Bakı, 2018, sayı 1-2, səh. 23-24.

xalqları bərabər təmsil olunmadığı və aqrar məsələdə ardıcıl mövqe tutulmadığına görə əhali ona etimad göstərmədi və o, güclü dövlət orqanı funksiyasını yerinə yetirə bilmədi.

1917-ci il martın əvvəllərində Bakıda müvəqqəti hökumətin ali hakimiyyət orqanı kimi İctimai Təşkilatların İcraiyyə Komitəsi yaradıldı. Komitəyə azərbaycanlı əhalinin təmsilçiləri qismində M.H.Hacınski və M.Ə.Rəsulzadə daxil oldular.

Elə bu zaman Rusiyanın başqa sənaye mərkəzlərində olduğu kimi, Bakıda da fəhlə və əsgər deputatları sovetinin yaradılmasına başlandı. 1917-ci il martın 7-də 52 deputatdan ibarət Bakı Deputatları Soveti formalaşdı. Sovetin tərkibi qeyri-azərbaycanlılardan ibarət idi. Bakı Sovetinə qiyabi olaraq S.Şaumyan sədr seçildi.

Fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş Müsavat Partiyası Azərbaycanda siyasi qüvvələr arasında daha çox diqqəti cəlb edirdi. Müsavat Partiyası federativ Rusiyanın tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ideyasını irəli sürürdü. Gəncədə isə Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi Türk Ədəmi-Mərkəziyyət Partiyası, Əlimərdan bəy Topçubaşovun və Fətəli xan Xoyskinin başçılıq etdikləri Müstəqil Demokratik Qrup, RSDFP-nin yerli təşkilatı – "Hümmət", Gəncədəki İttihadi-İslam Partiyası ilə Bakıdakı Rusiya Müsəlman Partiyasının üzvlərindən yaranmış İttihad Partiyası fəaliyyətlərini genişləndirirdilər. Allahyar bəy Zülqədərovun bacısı oğlu, həkim Qarabəy Qarabəyovun rəhbərlik etdiyi İttihad Partiyası və Bəşir bəy Aşurbəyovun ölkənin ictimai-siyasi həyatına biganə qalmayan millət xadimi kimi bu partiyada iştirakı barədə kitabın növbəti bölmələrində söhbət açılacaq.

Hələlik isə XX əsrin ikinci onilliyinin sonlarına doğru irəliləyən tarixin o dönəmlərində Azərbaycanda yaranmış ümumi siyasi mənzərəyə qayıdaq.

Milli qüvvələrin Azərbaycanın gələcəyinə münasibəti 15-20 aprel 1917-ci il tarixlərində Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında açıqlanmışdı. Burada Qafqaz müsəlmanlarının müvəqqəti hökumətə, habelə müharibəyə və Rusiyanın digər xalqlarına münasibəti məsələləri müzakirə edildi. Qurultay Rusiya müsəlmanlarının siyasi həyatında mühüm rol oynadı. Müsavat və Türk Ədəmi-Mərkəziyyət partiyaları Rusiya-



Dövrün Azərbaycan ziyalıları:
Soldan: **Qarabəy Qarabəyov, Allahyar bəy Zülqədərov, Mirzə Mansur, Məşədi Hüseynqulu Ramazanov**
Arxada: **Rəhim bəy Xəlilbəyli, Məşədi Süleyman Mansurov**
1 mart 1908, Peterburq

nın demokratik federativ respublikaya çevrilməsi və Azərbaycana geniş ərazi – milli muxtariyyətin verilməsi haqqında qərar layihəsi ilə çıxış etdilər. Lakin islamçılar ("İttihad"çılar), sosialistlər, bolşeviklər və menşeviklər Rusiyanın ərazi bütövlüyünün qorunmasına tərəfdar çıxdılar.

Həmin il mayın 1-11-də Ümumrusiya müsəlmanlarının Moskvada keçirilən qurultayında "Rusiya daxilində millətlərə ərazi-milli muxtariyyət verilməsi" şüarı demokratik qüvvələr tərəfindən müdafiə olundu. 1917-ci ilin oktyabrında Bakıda Türk Ədəmi-Mərkəziyyət Partiyası ilə "Müsavat"ın birləşməsi prosesi başa çatdı. 1917-ci ilin payızına doğru siyasi nüfuza malik milli demokratik qüvvələr milli dövlət tələbi ilə çıxış edərək, digər qeyri-rus xalqları ilə bir sırada öz ümidlərini Müəssislər Məclisinə bağladılar.

Bolşeviklərin həyata keçirdiyi 1917-ci ilin oktyabr çevrilişi isə xalqların milli müstəqilliyə olan ümidlərini artırmışdı. Onların qəbul etdik-

ləri "Sülh haqqında dekret", "Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiya və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" müraciətnaməsi ilk addım kimi keçmiş imperiyaya daxil olan xalqların azad surətdə ayrılıb öz müstəqil dövlətlərini yaratması üçün hüquqi təminat verirdi. Lakin az sonra məlum oldu ki, bu sənədlər reallıqdan uzaq olub daha çox təbliğat xarakteri daşıyır.

Bakı Sovetinin İcraiyyə Komitəsi S.Şaumyanın planına uyğun olaraq, milli partiyaların cəmiyyətdə artan nüfuzunun qarşısını almaq, onların seçkilərdə iştirakını zəiflətmək məqsədilə axırıncı günə qədər seçkilərin keçirilməsi vaxtı haqqında heç bir məlumat vermədi. Bütün bu maneələrə baxmayaraq, oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə "Müsavat"çılar eserləri, menşevikləri, bolşevikləri və daşnakları geridə qoyaraq böyük üstünlüklə qələbə əldə edə bildilər. Bu seçkilərdən sonra Müsavat Partiyası Azərbaycanda hakimiyyət strukturlarının formalaşdırılması prosesinə ciddi təsir göstərməyə başladı.

1917-ci il noyabrın 11-də Tiflisdə Cənubi Qafqazın əsas siyasi qüvvələrini təmsil edən gürcü menşevikləri, "Müsavat", "Daşnaksütyun" və sağ eserlər Rusiyadakı bolşevik hökumətini tanımaqdan imtina etdilər. Yığıncaqda qərara alındı ki, Ümumrusiya Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Müstəqil Zaqafqaziya hökuməti (Zaqafqaziya Komissarlığı) yaradılsın. Noyabrın 15-də Tiflisdə yeni hökumətin tərkibi elan edildi. Noyabrın 26-da Müəssislər Məclisinə seçkilər keçirildi. Gedişatda aydın oldu ki, Azərbaycan əhalisinin böyük əksəriyyəti "Müsavat"ın irəli sürdüyü ərazi muxtariyyəti ideyasını müdafiə edir.

Zaqafqaziya Komissarlığının yaranması ilə Osmanlı və Rusiya qoşunları arasında gedən müharibədə anlaşılmaz bir vəziyyət əmələ gəldi. Çünki Komissarlığın özünü müdafiə edə bilən ordusu yox idi. Digər tərəfdən, Zaqafqaziya Komissarlığı fraksiyalarının Osmanlı dövlətinə münasibəti də birmənalı deyildi: müsəlman fraksiyası osmanlılara qarşı vuruşmağın əleyhinə idi. Gürcülər türklərlə sazişə girməyi məqbul sayırdılar. Ermənilər isə bu barədə qəti qərara gələ bilmirdilər.

Qafqazda hərbi əməliyyatların dayandırılmasında maraqlı olan və bu məqsədlə vasitəçilər axtaran Rusiya üçün əlverişli fürsət ya-

ranmışdı: nəhayət, 1917-ci il dekabrın 5-də Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Osmanlı dövləti arasında barışıq imzalandı. Dekabrın 19-da Zaqafqaziya Komissarlığı Qafqazdakı rus ordusunun tərxis olunması və bu əsasda milli qoşun hissələrinin təşkil edilməsi haqqında sərəncam imzaladı. İlk addım kimi üç piyada diviziyasından, atlı briqadadan və ərazi polklarından ibarət olan erməni ordusu yaradıldı.

Azərbaycanlılardan ibarət ordu hissələrinin yaradılması isə ciddi çətinliklərlə üzləşdi. Əvvəla, Qafqaz ordusunda azərbaycanlı əhali xidmət etmirdi. Köhnə rus ordusunda ayrıca müsəlman hissəsi yox idi. Rus ordusunun tərkibində müsəlman əsgərləri olmadığından milli ordunun yaradılması alınmırdı. Azərbaycanın ordu ilə bağlı problemlərini qabaqcadan görə bilən siyasi xadimlər fevral inqilabından sonra Rusiyanın müvəqqəti hökumətinə müraciət edərək milli ordunun yaradılmasına icazə istəmişdilər. Lakin bu müraciətə cavab verilməmişdi.

Zaqafqaziya Komissarlığının qərarından sonra isə Müsəlman Milli Şurasının təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Milli hissələrin yaradılması üçün radikal addımların atılması, cəbhədən qayıdan rus əsgərlərindən silahların alınması bir tərəfdən, Bakı Sovetinin rəhbərliyi, digər tərəfdən isə, Erməni Milli Şurası və gürcülərin müəyyən dairələri tərəfindən böyük hiddət və narazılıqla qarşılandı. Halbuki bunun üçün heç bir əsas yox idi: cəbhədən qayıdan rus əsgərlərinin tərksilah edilməsi haqqında qərarı Zaqafqaziya Komissarlığı qəbul etmişdi. Zaqafqaziya Komissarlığı nəzərdə tuturdu ki, rus ordusunun Azərbaycandan keçən hissəsi silahlarını Şəmkir və Dəllər stansiyasında könüllü surətdə Gəncədən gələn Müsəlman Milli Şurasının üzvlərinə təhvil verməlidir.

1917-ci il dekabrın axırında Gəncə quberniyasının Milli Komitəsi gürcü menşevik hakimi Kekeçkoridən teleqram almışdı ki, komitə Qafqaz cəbhəsindən tərxis olunub vətənlərinə qayıdan əsgərləri tərksilah etsin.[1] Milli komitə də könüllülərin komandirləri knyaz Maqalova və Hüseyn xan Naxçıvanskiyə təklif etmişdi ki, onlar özlərinin

[1] Sovet hakimiyyəti uğrunda // https://praksis01.files.wordpress.com/2018/12/sovet-hakimiyyc999ti-uc49frunda-1.pdf



Allahyar bəy Zülqədərov Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, İsmayıl xan Ziyadxanlı, Adil xan Ziyadxanlı və digər Azərbaycan ziyalıları ilə

"Vəhşi diviziyası" və silahlı qrupları ilə şimala gedən eşelonları Şəmkir stansiyasında dayandırıb əsgərləri tərksilah etsinlər. İlk vaxtlar tərksilah öz qaydası ilə gedirdi. Hərbçilər buna sakitliklə əməl edir, silahları təhvil verəndən sonra onlara Bakıya getmək üçün lazımi şərait yaradılırdı. Bu işə doktor Rəfibəyov və Səfikürdski rəhbərlik edirdi. Lakin yanvarın 9-dan sonra növbəti eşelonlar tərksilahdan imtina etməyə başladılar. İdarə olunmayan əsgərlər eşelonlardan açdıqları artilleriya atəşləri ilə yüzlərlə Azərbaycan kəndini yandırdılar və əhalisini məhv etdilər.

Üstəlik, 1917-ci ilin dekabrında Osmanlı dövləti ilə Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq, Qafqaz cəbhəsindən çıxarılmış rus ordusunu əvəz edən erməni ordu birləşmələri də cəzasızlıq şəraitindən istifadə edərək, yüzlərlə Azərbaycan kəndində yerli əhaliyə qarşı vəhşiliklər törətməyə başladılar. Nəticədə 1918-ci ilin martına qədər İrəvan quberniyasında azərbaycanlı əhalinin yaşadığı 199 kənd darmadağın edildi. Bu ərazidə ya-

şayan 135 min nəfər əhalinin bir qismi ermənilər tərəfindən öldürüldü. Bir qismi isə Osmanlı ordusunun nəzarəti altında olan torpaqlara pənah apardı. İrəvan quberniyasında bir il ərzində ermənilər 100 mindən çox türk-müsəlmanı məhv etmişdilər. Xüsusilə Azərbaycan muxtariyyətinə qarşı fəal mübarizə aparan S.Şaumyan Rusiya Xalq Komissarları tərəfindən Qafqaza fövqəladə komissar təyin edildikdən sonra bölgədə vəziyyət daha da ağırlaşmışdı. Azərbaycanın şərqində Sovet Rusiyasının yerli hökumətini qurmağa müvəffəq olan Şaumyan bütün Cənubi Qafqazı sovetləşdirmək adı altında,əslində, sərsəm "Böyük Ermənistan" ideyasını reallaşdırmağa çalışırdı.

Təbii ki, Azərbaycan xalqının düşünən insanları, nüfuz sahibləri də bolşeviklərin, daşnakların bu mənfur əməllərinə qarşı biganə qalmamışdılar. Onlar bu fitnələrdən qorunmaq üçün əvvəlcədən təşkilatlanmağa, həll yolları tapmağa çalışırdılar. Qeydlərimizdən də göründüyü kimi, bolşevik inqilabından sonra Gəncə şəhəri milli mübarizənin əsas dayaq yerinə çevrilmişdi. Müsavat və İttihad partiyaları Gəncəbasarın ən iri mülkiyyət sahiblərinin, bəylərin və xanların: Zülqədərovların, Sultanovların, Ziyadxanovların, Şamxorskilərin, Xasməmmədovların və başqalarının nümayəndələrindən, yerli tacirlərin – Rəfibəyovların, Həsən Tatoğluların nümayəndələrindən və bütün Gəncə qəzasının mülkədarlarının təmsilçilərindən ibarət milli komitəni də buna görə yaratmışdılar.

Bu komitə Gəncə şəhəri və rayonlarının milli müdafiə komitəsi adlanırdı. Komitə Qazax, Gəncə və Şəmkir qəzalarında bolşevik və daşnaklara qarşı vuruşmaq istəyən döyüş qabiliyyətli şəxslərə silah yardımı göstərirdi. Fevral inqilabından sonra Qatır Məmməd kimi ünsürlərin rəhbərliyi ilə "kəndli üsyanı", "aqrar hərəkat" adı altında alovlandırılan, əslində isə Şaumyanın göstərişi ilə regionun təsərrüfat həyatını pozmaq, vətənsevər xadimləri təhdid etmək məqsədilə həyata keçirilən təxribatların qarşısını almaqdan ötrü Gəncədə Milli Qvardiya təşkil etmişdi. Bu işlərin təşkilatçılarından biri də Allahyar bəy Zülqədərov idi.



Allahyar bəy Zülqədərov gənclik illərində

YALANÇI "KƏNDLİ ÜSYANI"

"Qanlı olayları təşkil edənlər yüzillər ötsə də, insanlıq düşməni kimi damğalanır, layiqli cəzalarını alırlar... Naqis niyyətlər bəd fikirlərə yol açır".
L. Tolstoy

1917-1918-ci illərin siyasi təlatümləri bölgədə vəziyyəti çox qarışdırmışdı. Şaumyan və onun rəhbərliyi altında hərəkət edən daşnaklar və bolşeviklər öz fitnələrini asanlıqla həyata keçirmək üçün kəndli, torpaq, mülk sahibliyi kimi həssas məsələlərdən istifadə etməyə can atırdılar. Kəndlilər arasında təbliğat aparırdılar ki, onlar mülkədarların torpaqlarını, var-dövlətlərini zor gücünə əllərindən almalıdırlar. Mülkədarlar isə hesab edirdilər ki, torpaq və meşə ancaq qanuni sahiblərinə məxsusdur. Kəndlilərdən kimsə özbaşına qaydada mülkədar torpağını tuta, pozuculuq sala bilməz. Əgər belə bir qanunsuzluq baş verərsə, milli komitə tərəfindən cəzalandırılacaq.

Bir dəfə Allahyar bəy Zülqədərov Zəyəm stansiyasından öz malikanəsinə qayıdarkən yolda, onun meşəsində ağacları kəsən bir nəfəri görür. Bolşeviklərin apardığı təbliğatın təsirinə düşmüş bu şəxs yaşıllıqlara qənim kəsilməsindən utanc hissi keçirmək əvəzinə bəyin üzünə qayıdır, əməlinə haqq qazandırmaq istəyir. Bundan qəzəblənən bəy onu döyür və Keşkənddəki malikanəsinə gələn kimi kəndlilərə elan edir ki, onun meşələrini, torpaqlarını qanunsuz zəbt etməsinlər. Özbaşınalıqdan, hərki-hərkilikdən çəkinsinlər, ziyanlı təbliğatın təsirinə düşməsinlər. Ərazinin böyük mülk sahiblərindən Qarabəyovlar,

Zəyəm və Dəllər nahiyələrinin mülkədarları, Tovuzda mülkədar Sultanovlar da öz rəiyyətlərini xəbərdar edirlər. Qaydaları möhkəmləndirməyə çalışırlar.

Düşmən təxribatı isə öz işini görür. Fitnə-fəsad daşıyıcıları kəndlilər arasında dolaşıb onları qızışdırırlar. Yanvarın 6-da hansısa qruplar kəndlilərin ümumi yığıncağı adı altında toplantı keçirib mülkədarların bütün malikanələrini darmadağın etməyi, onları öz torpaqlarından qovub çıxarmağı qərara alırlar. Müseyib Əliyev, Səlim Əliyev, Hacı Həsənov adlı şəxslər bu məsələdə xüsusi fəallıq göstərirlər.



Allahyar bəyin qardaşı Mehralı bəy, Mehralı bəyin qızı Bilqeyis xanım, kürəkəni Adil xan (ayaqüstə solda), oğlu Xanoğlan bəy

Yanvarın 7-də səhər silahlı kəndli kütləsi mülkədarlardan Zülqədərovların, Sultanovların, Qarabəyovların və Şamxorskilərin malikanələrinin qarşısına toplaşıb bütün var-dövlətlərini, mal-mülklərini onlara təhvil verməyi, özlərinin isə çıxıb getmələrini tələb edirlər. Həyasızlığın bu həddə çatması, yerli əhaliyə uzun illər ərzində böyük yaxşılıqlar etmiş, nəcib işlər görmüş Allahyar bəyə toxunur. Çünki gözlərini qan örtmüş, savadsız, qaragüruh təfəkkürlü iğtişaşçılardan fərqli olaraq yüksək təhsilli, təsərrüfatı, idarəetmə işlərini mükəmməl bilən Allahyar bəy Zülqədərov yaxşı anlayırdı ki, bu cür qarşıdurmalar ən çox kəndlilərin ziyanınadır. Çünki qaragüruhçuluqla, zorakılıqla iş getməz, təsərrüfat idarə olunmaz, iqtisadi fayda əldə edilməz, kəndlinin təknəsinə çörək gəlməz.

Ona görə də Allahyar bəy başıpozuq kütlədən dağılışıb getmələrini tələb edir. Onlara durumu anlatmağa, bu işin ziyanlı tərəflərini göstərməyə çalışır. Elə bu an qabaqcadan hazırlaşmış təxribatçılar-

dan kimsə qəfil atəş açır və atışma başlanır. Atışma zamanı Allahyar bəy özü, oğlu Məmməd, həyat yoldaşı Seyid Nisə xanım, kiçik qızı Şahbanu, qardaşları Mehralı bəy, Rəhim bəy, Səlim bəy də daxil olmaqla Zülqədərovlar nəslindən 27 nəfər qətlə yetirilir. Nəslin qalan üzvləri çox çətinliklə qaçıb canlarını qurtarırlar. Malikanə talan edilib yandırılır. Allahyar bəy və ailəsi ilə birgə həmin gün ətraf kəndlərdə də onlarca bəy öldürülür, evləri tar-mar edilir, Qarabəy Qarabəyovun Şəmkirdəki ata mülkü də yandırılır. Mülkədarlardan yalnız bir neçəsi menşevik Gürcüstanına qaçıb xilas ola bilir. İğtişaşçılar qocalara, qadınlara, uşaqlara belə rəhm etmirlər. Qəddarlıq o həddə çatır ki, qətlə yetirdiklərinin meyitlərini belə yandırırlar.

Tarixi materiallardan məlum olur ki, Zülqədərovların qətlində Keşkənd sakinlərindən heç kim iştirak etməyib. Çünki yerli sakinlərin bu nəslə ehtiramı çox böyük idi. Zülqədərovların qətliamını Tovuz rayonunun indiki Yanıqlı kəndinin hərbi xidmətdən yenicə qayıtmış və böyük ehtimalla bolşevik təxribatına uymuş sakini Məmmədəli Əhmədoğlunun başçılığı ilə başqa kəndlərdən gələn adamlar törədiblər. Cinayətdə 500-dən çox adam iştirak edib.[1] Yayılan digər xəbərlərdə isə dəstə başçısının elə A.Zülqədərovun bir vaxtlar çörək verib yardım etdiyi, qapısında çalışdırdığı öz meşəbəyinin olduğu bildirilir. Naqis, xain xislətli belə insanların çörəkləri həmişə dizlərinin üstündə olur.

Əfsus ki, Gəncədə yaradılmış Milli komitə bu amansızlığın qarşısını ala bilmir. Əsas ümid yeri olan Qafqaz İslam Ordusunun buralara gəlib çatmasına isə hələ bir neçə ay vardı. Bolşevik – daşnaklar 1918-ci ilin yanvar, fevral, mart aylarında da Azərbaycan kəndlərində sadə insanların önündə gedə biləcək nüfuzlu şəxslərə divan tuturlar.

Şaumyanın sifarişi ilə həyata keçirilən bu vəhşiliklərə sonradan kəndli üsyanı adını qoymuşdular. Halbuki bu hadisələrin Şaumyan tərəfindən təşkil edildiyi istintaq sənədlərində də öz təsdiqini tapmışdı. Məsələn, 7 mart 1918-ci il tarixli istintaq protokolunda yazılmışdı ki, Şaumyan qətllərdən əvvəl Gəncəbasar zonasındakı Azərbaycan kəndlərinə gəlib. Burada görüşlər keçirib. Bir müddətdən sonra öldürüləcək mülkədar ailələri haqqında ətraflı məlumatlar toplayıb.

---

[1] Tovuz bəyi Allahyar Zülqədərovun kəndindən reportaj // "Yeni Müsavat" qəzeti, 17 avqust, 2018.

№ 267

ТЕЛЕГРАММА ПОМЕЩИКА ЗЮЛЬГАДАРОВА В ЗАКАВКАЗСКИЙ КОМИССАРИАТ О КРЕСТЬЯНСКИХ ВОССТАНИЯХ В ЕЛИЗАВЕТПОЛЬСКОМ (ГЯНДЖИНСКОМ) УЕЗДЕ

14 (27) января 1918 г.

Аграрное движение приняло широкие размеры. Убита масса помещиков, подожжены трупы. Все имущество предано огню в Дзегаме, Ковляре.

Зюльгадаров

ЦГАОР Груз. ССР, ф. 1, оп. 1, д. 77, л. 38. Копия.

№ 318

ИЗ ПРОТОКОЛА ДОПРОСА БЕКА С. ШАМХОРСКОГО

7 марта 1918 г.

Большевик Шаумян проезжал через ст. Тауз в армянские села в целях пропаганды, где, по моему мнению, он безусловно виделся с Мусенбом Алиевым, т. к. только от него он мог узнать подробно имена перебитых помещиков, их жен и детей, каковые были напечатаны в большевистских газетах. Этому свиданию я придаю то значение, что, как мне передавали в Тифлисе разные лица, которых я сейчас не помню, Шаумян, желая предотвратить армяно-татарскую резню, натравливал через Алиева крестьян на помещиков.

Фонд Бакинского филиала Центрального музея В. И. Ленина, док. № 936. Подлинник.

№ 289

ДОНЕСЕНИЕ КОМИССАРА ЕЛИЗАВЕТПОЛЬСКОГО (ГЯНДЖИНСКОГО) УЕЗДА ПРОКУРОРУ ЕЛИЗАВЕТПОЛЬСКОГО ОКРУЖНОГО СУДА О РАСПРАВЕ ВОССТАВШИХ КРЕСТЬЯН КАЗАХСКОГО УЕЗДА С ПОМЕЩИКАМИ

21 января (3 февраля) 1918 г.

Доношу, что в ночь с 5 на 6 сего января в своих имениях в 4 участке вверенного мне уезда крестьянами селений Ковляр-Сарлы, Хилхина, Юхары-Айплы и др. убит двадцать один человек из фамилии помещиков Зюльгадаровых и четыре человека из фамилии Карабековых.

Убиты следующие лица:

1) Из дома Аллахяр-бека Зюльгадарова убиты он сам, жена его Ниса Сеид кызы, сын Мамед бек и дочери Дилляра и Шахназ.

2) Из дома Гамид-бека Зюльгадарова: Гамид-бек, жена его Гюлли и дочери Дюльгиша, Амиш, Козана, Маша и 2-летняя Джемиля.

3) Из дома Меграли-бека Зюльгадарова: сын его Сари-бек и дочь Телли.

4) Из дома Гусейн-бека Зюльгадарова убит сам Гусейн-бек и сыновья его Мамедрза-бек, Исмаил-бек, Шариф-бек и Халил-бек.

5) Из дома Гасан-бека Зюльгадарова убит только он сам.

6) Из дома Сулейман-бека Зюльгадарова тоже убит только он сам.

7) Из дома Карабековых убиты Беюк Ага Карабеков, сыновья его Гамид-бек, Джабраил-бек и дочь, по имени пока не известная. Кроме того, из всех почти семейств Зюльгадаровых и Карабековых имеется много раненых, которые частью находятся в Елизаветполе, частью же еще не привезены сюда из некоторых селений, где они скрывались.

Из сообщения некоторых спасшихся от поголовного избиения Зюльгадаровых и Карабековых усматривается, что главными зачинщиками истребления фамилии Зюльгадаровых были: житель селения Хилхина, оставивший месяц тому назад службу, бывший комиссар 4-го участка Мамедали Гаджи Ахмед оглы Гаджи Гасанов и все его братья, а также жители того же селения Мамед Касым Тоюхчи оглы, Рустам Клыч оглы, сел. Ковляр-Сарлы — Салим Алиев, Мамед Касум Алиев, Мешади Кадым, по отчеству не известный, и жители сел. Юхары-Айплы Кербалай Аскер, по отчеству не известный, Мешади Махмуд Алиев и Тамкриллыра.

В истреблении Зюльгадаровых принимало активное участие человек пятьсот или более из селений Хилхина, Алакел, Юхары-Айплы, Ковляр-Сарлы и др.

Было ли в данном случае истребление целых фамилий Зюльгадаровых и Карабековых общим движением крестьян против помещиков на почве земельных отношений или же личной местью, пока установить трудно.

Некоторые из спасавшихся членов фамилии Зюльгадаровых ныне находятся в гор. Елизаветполе в домах Беюк-бек Аскербекова, Микаил-бека, Исрафил-бека и др.

Об изложенном доношу на распоряжение, докладывая, что о таком выдающемся происшествии я своевременно не имел возможности донести, не имея никаких сведений по оному, так как в 4 участке комиссара нет и на эту должность никто поступать не соглашается.

Уездный комиссар (подпись)

ЦГАОР Азерб. ССР, ф. 6, оп. 1, д. 166-а, л. 10. Подлинник.

Yalnız Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan, milli hökumət formalaşaraq Gəncədə yerləşdikdən və Nuru paşanın rəhbərliyi ilə türk qoşunları gəldikdən sonra bu vəziyyətin qarşısını almaq mümkün oldu. Allahyar bəy də daxil olmaqla yerli mülkədarların qətliamında iştirak edən cinayətkarlara qarşı müəyyən cəza tədbirləri həyata keçirildi. Cinayətin onlarca rəhbəri həbs olundu. Yaranmış vəziyyəti fürsət bilib torpaqları mənimsəyənlərdən tələb edildi ki, mülkiyyət məsələləri qanunvericiliklə öz həllini tapana qədər mülkədarların əmlakını qaytarsınlar.

Keşkənd ağsaqqallarının məsləhəti ilə Allahyar bəy və ailə üzvlərini kül olmuş malikanələrinin qarşısında, Daşlı Aşırım deyilən yerdə dəfn etdilər. Bolşeviklərin qorxusundan dəfndə cəmi bir neçə adam, o cümlədən kəndin nüfuzlu simalarından Bala Hasan və Sarı Xəlil adlı şəxslər iştirak etmişdilər.

Allahyar bəyin ömür-gün yoldaşı Seyid Nisə xanımın qətlə yetirildiyi anla bağlı insanın qəlbini ağrıdan, amma eyni zamanda İlahi ədalətin varlığına inandıran bir məqam da var. Qeyd etdiyimiz kimi, Seyid Nisə xanım böyük bir seyid nəslinin övladı idi. İğtişaş başlayarkən əlindəki "Quran"ı sinəsinə sıxıb üzünü qatillərinə tutaraq demişdi ki, məni öldürsəniz də, cəddim ölməyəcək və bu haqsızlığınıza görə sizin cəzanızı verəcək. Həmin anda atılan güllə birinci sinəsinə sıxdığı "Quran"a, sonra ürəyinə dəymişdi. Bir müddət sonra, həqiqətən də, Zülqədərovların qatillərindən iki nəfər özünü güllələmişdi.

Yerli sakinlər Allahyar bəyə, onun ailəsinə o qədər böyük rəğbət bəsləyirdilər ki, hətta sonrakı onilliklərdə sovet hökumətinin sərt cəza maşını da bu rəğbətin, xalq sevgisinin qarşısını ala bilməmişdi. Xeyli müddət, yəni sovet totalitar rejiminin hökm sürdüyü vaxtlarda bu müqəddəs insanların qəbirləri kənd əhli tərəfindən qorunub gizlədilmiş, onların nəşlərinin basdırıldığı yerlərə xətər dəyməsin deyə təmtəraqlı başdaşılarının qoyulmasına belə bilərəkdən ehtiyac duyulmamışdı. O dövrün narahat sosial-sinfi prosesləri, rejimin əvvəlcədən ölçülüb-biçilən amansız siyasəti, baş verən olaylar, qanunsuz kütləvi repressiyaların qəddar mahiyyəti, siyasi hədəfləri anbaan bu insanları təqib edir, hətta həmin şəxslərin məzarlarının itirilməsinə, dağıdılmasına, adlarının yaddaşlardan silinməsinə yönəlmişdi. Bütün



Seyid Nisə xanım oğlu Rüxnəddin (Yapon) bəylə



Allahyar bəyin və Seyid Nisə xanımın məzarı

dəyərlər, əxlaqi amillər, insan haqları kimi ideyalar onlar üçün əhəmiyyətli deyildi. Ona görə də araşdırmalarda, oxuduğumuz yazılarda, xırda faktlarda belə həyəcanlı bir harayın gizləndiyini hiss edirik. Qohumlar, kənd camaatı dəfələrlə istəmişdilər ki, onlara başdaşıları qoyulsun, qəbirləri düzəlsin. Amma bu məsələ ciddiləşəndə böyük narahatlıq yaranmış, orqan işçilərinin təzyiqlərinə məruz qalmışdılar.

Müstəqillik illərində – 2000-ci ildə Allahyar bəyin Amerikada və Fransada yaşayan nəvələri Xosrov bəy, Elxan bəy və nəvəsi Rəbiyyə xanımın qızı Nəzakət xanım Aşurbəyova həm babalarının, həm də nənələri Seyid Nisə xanımın məzarlarını düzəltdirmişdilər. Xosrov bəy Allahyar bəyin qızı Dilarə xanımın, Elxan bəy isə digər qızı Şücaət xanımın oğludur. Nəvələr ömürlərinin axırlarınadək ildə bir dəfə Azərbaycana gəlib onların ruhları qarşısında ehtiramlarını bildirərdilər. İndi bu insanların qəbirləri ziyarətgaha çevrilmişdir.

Allahyar bəyin, Seyid Nisə xanımın, oğlu Məmməd bəyin və qızı Şahbanunun məzarları Keşkənddə and yeri kimi qorunur. Oradakı "Kupə" bulağı Seyid Nisə xanımın xatirəsinə hörmət əlaməti olaraq el

arasında "Xanım bulağı" kimi tanınır. Vaxtilə Allahyar bəyin yetişdirdiyi və indi də süfrələri bəzəyən "bəylik alması, bəylik armudu" sortları öz təravət və gözəlliyini qoruyub saxlayır. "Elə bil Allahyar bəydir" deyimi bu gün də el arasında bir məsəl kimi dolaşır. Onun əyilməzlik, məğrurluq simvoluna çevrilmiş şəxsiyyəti xalq qiymətinin ifadəsi kimi nəsillərdən-nəsillərə ötürülür.[1]

"Bu dünyada yaşamaq heçliklə varlıq arasında cərəyan edir. Ölüm bu həyata yekun vurur: kimlərisə heçliyə, kimlərisə varlığa qovuşdurur". Bu fikirlər Əbu Turxanın hikmət dünyasındandır.

Allahyar bəy Zülqədərov və Seyid Nisə xanım hər bir kəsin ürəyində əbədiyyət qazanmış insanlardır...

[1] Məsimoğlu R. Allahyar bəy Zülqədərov. Gəncə, "Qeyrət" nəşriyyatı, 2008.

İKİ YUXUSUZ GECƏ...

"Həyat balaca bir əbədiyyətdir".
Emerson

Bu sənədli hekayə Allahyar bəyin dördüncü qızı Dilarə Zülqədərin real hadisələrlə dolu xatirələri əsasında qələmə alınıb. Dilarə xanım sovetin ağrı-acılı illərində əvvəlcə 25 il İranda yaşayıb, ailə qurub, sonra Amerikada məskunlaşıb, uzun illər yaşayıb, dünyasını da orada dəyişib. Kitabda əks olunanlar tariximizin faciəvi dövrünə təsadüf edir. İki yuxusuz gecənin birincisi Dilarə xanımın həyat yoldaşı əslən Qərbi Azərbaycandan olan Əkbər ağa Sadehi ilə ilk görüşünə, ikincisi isə onun ölümü günü keçirdiyi yuxusuz gecəyə həsr olunub. Əkbər ağa Sadehi intihar edib.

Kübar nəslin övladı olan Əkbər ağa gözəl iqtisadçı, hüquqşünas idi, böyük bir şirkətdə çalışırdı. Taleyin bəd üzü Dilarə xanımın şəxsi həyatından da yan keçməyib... Acılar, ağrılar çox yormuşdu onu...

Dilarə Zülqədərin məşəqqətli həyatının xatirələrini ailə dostu Natali C.Parker qələmə alıb.

Xatirələrdə məşhur Allahyar bəy Zülqədərovla bağlı hissələri ixtisarla oxuculara təqdim edirik. Mətni ingilicədən tərcümə edən Allahyar bəy Zülqədərovun nəticəsi Nəzakət xanım Ələkbərova-Aşurbəyovanın qızı Günəş xanım Əliyevadır.

Dilarənin atası Allahyar bəy dövlət komissarı idi

O, general rütbəsi daşıyırdı. Qafqazda ən varlı və ən nüfuzlu mülkədarlardan sayılırdı. Çox böyük mülkü və özünün saldığı iri meyvə bağları vardı. Bu bağlardakı meyvə və giləmeyvələr həm dadına, ləzzətinə, həm də növünə görə məşhur idi. Bəyin xeyirxahlığından hamı danışırdı, zəmanəsinin şöhrətli, sayılıb-seçilən şəxsiyyəti idi. Meşələrində də nadir meyvə ağacları əkmişdi. Onda ağlına belə gəlməzdi



Allahyar bəyin qızı Dilarə və kürəkəni Əkbər Sadehi

ki, nə vaxtsa bütün sərvəti düşmənlərinin əlinə keçəcək, var-dövləti qarət ediləcək.

Yaşadığı yerlər müxtəlif ov quşları ilə çox zəngin idi. Oğulları və digər qohumları kimi, Allahyar bəy də əsl ovçu idi, sərrast güllə atırdı. Onun 700 baş yetişdirilən və 60 baş ingilis atı var idi. Hər il beş-altı atını yarışlar üçün hazırlayardılar. Çoxlu qoyun-quzusu, mal-qarası var idi.

Allahyar bəyin Qafqazda yay evində keçirdikləri günlər ilin ən gözəl vaxtına – yaz-yay fəslinə düşürdü. Bu aylar Dilarənin xatirəsində həyatının ən gözəl çağları kimi qalmışdı. Onların evi heyrətamiz gözəlliyə malik bir yerdə – hündür dağlar arasında, yamyaşıl meşəlikdə yerləşirdi. Görənlər buranı cənnətməkan adlandırırdılar. Əsl imarət idi – böyük və rahat. Oranın iqliminə və havasına söz ola bilməzdi. Ona görə də Allahyar bəyin qızları öz həyat yoldaşları və övladları ilə onlara gələndə, üç-dörd ay bu yerlərdə qonaq qalardılar. Hətta qulluqçularını və həyat yoldaşlarının yaxın qohumlarını da özləri ilə bu səfalı məkana istirahətə gətirərdilər.



Allahyar bəy qızları Dilarə (solda) və Nəzakətlə

Dilarənin anası qonaqları heç vaxt əliboş yola salmazdı, onlara quş əti, bal, yağ, müxtəlif meyvələrdən pay qoyardı. Meyvələr satılmırdı. Ancaq bütün ailəyə, qohum və dostlara paylanardı. Onların tabeliyindəki kəndlilər ürəkləri istədikləri vaxt meyvələrdən dada bilərdilər. Allahyar bəyin çox mehriban və səxavətli həyat yoldaşı vardı – Seyid Nisə xanım.

Ailə qonaq qarşılamağı çox sevərdi. Ali rütbəli, nüfuzlu qonaqlar üçün xüsusi gəzintilər, at yarışları keçirər, fəsillərə uyğun heyvan və quş ovları təşkil edərdilər. Qonaqlar bütün bu əyləncələrdən xüsusi zövq, həzz alardılar.

Yaddaşlarda yalnız şirin xatirələr qalacaq...

Yay aylarında Dilarənin əmiləri, xalaları ailələri ilə birlikdə hər cür şəraiti olan gözəl çadırlarda qalardılar. Gənclər hər gün Dilarənin atasıgildə nahar və şam yeməyinə yığışardılar. Hava yaxşı olanda meşədə, soyuq bulağın yaxınlığında şam edərdilər. Ən sevimli yeməkləri cavan quzu ətindən tikəkabab idi. Əmiuşaqlarının gözəl səsləri var idi, onlar Qafqaz gitarasında *(saz – **İ.Ə.**)* çalıb oxuyardılar. Tez-tez atlara minib qohum-əqrabaya baş çəkməyə gedərdilər. Onları 20-dən çox mühafizəçi müşayiət edərdi. Valideynlər övladlarına heç bir qadağa qoymurdular. Bəlkə də hiss edirdilər ki, onların bu xoş və gözəl həyatı çox çəkməyəcək... Günlərin birində hər şey yox olub gedəcək, yaddaşlarında yalnız şirin xatirələr qalacaq... Bu bir duyum, hiss idi...

Dilarə musiqi vurğunu idi və mükəmməl piano çalmaq arzusundaydı. Amma o, buna nail ola bilmədi, çünki hər dəfə piano çal-

maqda yaxşı nəticə əldə edəndən sonra onun təlimi hansısa bir xoşagəlməz olay, hətta fəlakət nəticəsində yarımçıq qalırdı... Sanki talesizlik onunla yanaşı addımlayırdı.

Belə xoş və gözəl həyatın ömrü qısa oldu. Xain, nankor insanlar hər şeyi məhv etdilər!

Yola hazırlıq

Şam yeməyi zamanı Allahyar bəy ailə üzvlərinə qardaşıqızı Mehrinin toyuna gedəcəklərini bildirdi: "Birigünə hazır olmalısınız. Əhməddən evində bizim üçün otaqları hazırlamasını istəmişəm. Onun evi əmigilə yaxındır, çünki toyda çox adam olacaq. Qərara gəldim ki, bir gün onlarda gecələyək, səhərisi əmigilə gedək". Dilarə və bacıları Şövkət və Şahbanu qohumlar və dostlarla birgə olacaqlarına çox sevindilər. Böyük həvəslə toya hazırlaşmağa başladılar. Ən gözəl libas və zinət əşyalarını topladılar. Əmiuşaqları arasında ən gözəl geyinən bu qızlar idi. Ailədə və dostlar arasında onları dağların "şahzadələri" çağırırdılar. Və bu ad düzgün qoyulmuşdu – Allahyar bəy əsl şahzadə kimi yaşayırdı. Qafqazın Rusiya tərəfindən fəthindən öncə onların babaları və əcdadları bu ərazilərə hakim idilər...

Qızlar on günə çatacaq kifayət qədər libas götürdülər. O vaxtlar Qafqazda varlı mülkədarların evlərində toy bir həftə, on gün davam edərdi. Səhər tezdən Dilarə və bacıları ata və anaları ilə səfərə çıxdılar. Qulluqçulardan bəziləri onlarla idi. Nahara Dilarənin bibisigilə çatdılar. Nahar edib bir az dincəldikdən sonra yollarına davam etdilər. Bibisi uşaqlarından bəziləri yola salmaq üçün onlara qoşuldular. Kəndi keçəndən sonra kəndxudalar müsafirləri qarşılamaq üçün yola çıxdılar.

Saat 7-də, nəhayət, toy evinə çatdılar. Əmiləri və onun yeddi gözəl qızı onları gözləyirdilər. Şam yeməyi hazır idi, bir az dincələndən sonra Əhmədin evinə yollandılar. O, çox varlı və bacarıqlı, həm də imkanlı bir sahibkar idi. Dilarənin əmisinin torpağında yaşayırdı. Gözəl və geniş evi xüsusi zövqlə bəzədilmişdi, əsl mülkədar həyatı sürürdü...

Əhməd Allahyar bəyin və ailəsinin onun evində qonaq olmasından məmnunluq duyurdu. Bu onun üçün böyük bir şərəf idi. Hər gün qonaqlar üçün gözəl səhər yeməyi hazırlanar, şam yeməyi nə

vaxt gəlsələr verilərdi, hətta toyda şam etsələr belə... Allahyar bəy və ailəsi, adətən, saat 10-da qardaşının qonaqlarla dolu olan evinə gedərdi. Ev böyük bağın tən ortasında idi – bu bağ müxtəlif növ meyvə ağacları və qızılgüllərlə dolu olardı.

Sentyabr ayı idi. Bəzi qohumlar vağzala yaxın yaşayırdılar və onlardan evə getmək istəyənlər gecə qatarı ilə gedər, səhər yenə də qayıdardılar. Varlı qafqazlı mülkədarın evində toy əsl təmtəraqlı mərasim idi. Toy ziyafəti, adətən, bir həftə, bəzən daha çox çəkərdi. Bu toy isə bir ay çəkdi, çünki qonaqlar uzaq şəhər və ölkələrdən gəlmişdilər. Onun İran və Türkiyədən çoxlu ailə qohumları və dostları var idi.

Bütün kəndlərdən və şəhərlərdən olan qohum-əqraba, dostlar, tanışlar toya dəvət edilmişdilər, eləcə də kəndlilər. Əgər kimsə dəvət almamışdısa, bu böyük təhqir hesab olunurdu. Ona görə də evin yiyəsi və bütün ailə heç kimi yaddan çıxarmamağa çalışırdı. Dəvətnamələr hamıya göndərilmişdi. Kəndlilər və digər kəndlərin sakinləri hər gün dəvət olunurdular – bir neçə kənd bir yerdə. Onlara mütləq ətli plov verilməli idi. Bu insanlar üçün ayrıca musiqiçilər çağrılardı. Kənd əhli milli Qafqaz rəqslərinin sədaları altında oynayar, yallı gedər və şənlənərdilər.

Şəhərdən və uzaq ölkələrdən gələn ali zümrənin nümayəndələri isə bəzən üç və ya dörd gün, hətta ziyafət bitənə qədər qalardılar. Hər toy üçün böyük məbləğdə pullar xərclənərdi. Mülkədarların öz ərzaq tədarükləri olardı. Yalnız şərab, şirniyyat, kofe və çay digər yerlərdən gətirilərdi. Hər gün yemək üçün bir cöngə, iki və ya üç qoyun və quzu, çoxlu toyuq kəsilərdi. Xörəkləri bişirmək üçün qəsəbədən aşbazlar gətirilərdi. Yuxarı zümrənin, elit təbəqənin adamları – cənablar və xanımlar üçün xüsusi olaraq qafqazlı musiqiçilər dəvət olunardı.

Toy 1916-cı ildə oldu

Bütün ailə bu toyda iştirak etmişdi. Kişilər qafqazlı libaslarında – qızıldan qılınc və xəncər, ağ, ya da qara çərkəzidə. Dilarə və onun əmiuşaqlarından bəziləri freylinalar (subay və ən hörmətli qızlar) idilər. Gün ərzində iki və ya üç dəfə əlbisələrini dəyişərdilər. Onlar qızıl

kəmərləri olan ağ ipəkdən Qafqaz geyimlərində olmağı, brilyant və mirvarilərdən boyunbağıları, qolbaqlar, üzüklər və sırğalar taxmağı xoşlayardılar. Dilarə isə bu qızların ən gözəli idi. O, özündən razı biri deyildi, amma heç kimə də xüsusi diqqət ayırmırdı. Dilarəni "qar qız"- deyə çağırardılar. Tünd mavi gözləri daim fikirli olardı. Onun uzun və ağır hörükləri, şirmayı barmaqları və gözəl əlləri var idi. Bu qızı görənlər onun qapalı olduğunu düşünürdülər, çünki yaşına görə çox ciddi idi. Toy yüksək səviyyədə keçirdi. Hamı musiqiçilərin oxumağından və çalmağından məmnun idi. Onlar həm Qafqaz, həm də Avropa rəqslərini gözəl ifa edirdilər. Ailələr və varlı kəndlilər yeni evlənənləri və freylinaları öz evlərinə nahar və şam yeməyinə çağırırdılar. Gəlinə hədiyyələr bağışlayırdılar. Qonaqlar və ailə üzvləri isə evlənənlərə gümüş qab-qacaq və ziynət əşyaları verirdilər. Yeddi gündən sonra gəlini ər evinə yola salırdılar. Ata evindən çıxmamışdan əvvəl ev qulluqçusundan ən yaşlısı yandırılmış kömür qabı otağa gətirirdi və gəlin onun ətrafında üç dövrə vururdu. Bu qədim bir ənənə idi və mənası da o idi ki, gəlin bu hərəkətilə ata ocağına öz minnətdarlığını bildirərək sağollaşır. Onun libası da qafqazlıların milli geyimində idi – naxışlı ətək, qızıl kəmər, brilyant və mirvarili boyunbağı, qolbaqlar, üzüklər, sırğa və başında isə bahalı daş-qaşlarla bəzədilmiş möhtəşəm bir tac. Bunların üstündən isə ağ və ya çəhrayı tüldən olan fata.

Gəlin hazır olan kimi böyük qardaşı və ya əmisi qədim adətə görə üç dəfə qızıl kəməri onun belinə bağlayıb açmalı idi. Kəmər belinə axırıncı dəfə bağlanandan sonra o, hamı ilə sağollaşaraq, arabaya (əgər ər evi çox da uzaq deyildisə) və ya maşına minərdi. Gəlinin anası, bacıları və ailəsi ağlayardı.

Burada milli mərasimlərə xüsusi diqqət vardı

O zamanlar əgər gəlini faytonla aparırdılarsa, fayton ipək parça və güllərlə bəzədilirdi. Atların boğazlarına rəngbərəng gözəl ipək parçalar bağlayırdılar, sonda bu ipəklər və yaylıqlar arabaçıya, onun köməkçilərinə hədiyyə edilirdi. Faytonun önündə gənclər atla gedirdilər. Oğlan evində də gəlinin qarşılanmasına xüsusi hazırlıq aparılırdı, hər yeri bəzəyirdilər. Gəlinin gəlişinə bir həftə qalmış zi-

yafət verilirdi. Faytonun qarşısında cöngə kəsilirdi. Əti kənddə olan bütün kasıblara paylanırdı. Faytondan gəlin otağına kimi ayaq altına ipək və ya məxmərdən bahalı qumaş parçalar döşənir və sonra onlar evdəki qulluqçulara paylanırdı. Bu, ruzi-bərəkət rəmzi hesab olunurdu. Gəlinin başı üstündən sikkə və şirniyyatlar tökərdilər. Onları ərə getmək arzusunda olan gənc qızlar yığardılar. Hamı inanırdı ki, bu sikkələr onlara uğur gətirəcək. Ziyafət iki gün çəkərdi. Sonra qonaqlar evlərinə qayıdardılar.

Bəylə gəlin bir neçə gündən sonra valideynlərinə baş çəkməyə gedərdilər. Toylarında iştirak etmiş yaxın dostları ilə görüşərdilər. Bütün bunlar Qafqazda həyatın normal və sakit olduğu bir dövrə təsadüf edirdi. Bu region ən varlı və gözəl yerlərdən biri idi, insanları dərd və kədərin nə olduğunu bilmirdilər, bütün qafqazlılar öz milli mərasimlərini yüksək səviyyədə keçirirdilər. Gözəl vaxtlar idi...

Toy bitəndən sonra Allahyar bəy yüksəkrütbəli şəxslərin gəlişini gözləyirdi

Bunlar kimlər idi? Əlahəzrət Nikolay Nikolayeviç, çarın əmisi və onun qardaşı Pyotr Nikolayeviç bəy tərəfindən şam yeməyinə dəvət olunmuşdular. Bu yüksəkrütbəli şəxslərin gəlişi üçün əməlli-başlı hazırlıqlar görülmüşdü. Evdə hamı məşğul idi, hətta bəzi qohumlar və qonşuluqdakı dostlar da. Şəhərdən ən yaxşı şərablar, fransız konyakı və digər içkilər sifariş edilmişdi. İki aşpaz və onların köməkçiləri Qafqaz və rus yeməkləri hazırlayırdılar. Ev başdan-başa qiymətli İran xalçaları və rus bayraqları ilə bəzədilmişdi. Qızıldan qədimi yemək və çay dəstləri, eləcə də qiymətli porselen qablar süfrəyə ayrıca gözəllik verirdi. Qızılı ornamentlərlə işlənən çərkəzi milli Qafqaz geyimində olan cavan və ortayaşlı kişilər at belində vağzalda qonaqları gözləyirdilər. Onların əlində Rusiya bayrağı, çar Nikolayın portreti və çoxlu gül var idi.

Əlahəzrət və digər nüfuzlu, yüksəkrütbəli qonaqlar qatardan düşəndə musiqiçilər imperiyanın marşını ifa etməyə başladılar. Yerlərdən hamı uca səslə və bir ağızdan "Allah çarı qorusun", deyərək qonaqları özlərinə layiq bir tərzdə, sevinclə qarşıladılar. Gələnlər bu cür qarşılanmadan məmnunluq duyurdular.



III Alesandrın Bakıya səfəri zamanı bayraqlarla bəzədilmiş dənizkənarı bulvar və qubernatorun evi

Ali rütbəli qonaqlar saat 3-də mənzil başına çatdılar. Bir az dincəldikdən sonra Allahyar bəyin Qafqazda, hətta Rusiyada belə məşhur olan atlarına baxmağa getdilər. Bu onlar üçün ən gözəl məşğuliyyət idi. Bəy öz gözəl cins atlarından ikisini qonaqlarına hədiyyə etdi. Şam yeməyindən sonra onlar Tiflisə yola düşdülər. Tiflis Gürcüstanın paytaxtı və gözəl şəhərlərdən biri idi. Allahyar bəyin bütün ailəsi və dostları da əlahəzrəti yola salmaq üçün vağzala yollanmışdılar. Bir neçə həftədən sonra Nikolay Nikolayeviç Allahyar bəyə məxsusi hədiyyə göndərdi – üzərində qızıl NN monoqramlı bir neçə gümüş saat... Bu saatları Nikolay ona xidmət edənlərə verərdi.

Allahyar bəy ilk vaxtlardan çar Nikolay və onun xanımı çariça Aleksandra Fyodorovna tərəfindən ailəyə qəbul edilmişdi. Hətta, Nikolayın atası çar III Aleksandr Qafqaza səfər edərkən Allahyar bəy ona 10 gözəl at bağışlamışdı. Hədiyyələr çarın çox xoşuna gəlmişdi. Allahyar bəy Petroqradda olanda tez-tez əlahəzrətin evinə şam yeməyinə dəvət olunardı. Çar II Nikolay və anası Mariya Fyodorovna



Allahyar bəy ailə üzvləri ilə

Allahyar bəylə çox lütfkar davranırdılar. Çar ailəsinin bu nüfuzlu bəyə qarşı xoş niyyəti və qayğıkeşliyi inqilaba qədər bir neçə il davam etmişdi. Şahzadələr və onların ali qonaqları Petroqraddan bəyin ölkəsinə tez-tez ovçuluq, yəni ov etmək məqsədilə gələrdilər.

Bəzi dostları, hətta ailə üzvlərindən onun bu ali, nüfuzlu şəxslərlə tanışlığına həsəd aparanlar, paxıllıq edənlər də var idi.

Allahyar bəyin üç qızı ərdə idi və onlar Bakıda yaşayırdılar. Kürəkənləri imkanlı, varlı-dövlətli idilər. Dilarə bacıları ilə bir yerdə olmağı çox xoşlayardı. Onlarla yaxşı vaxt keçirirdi. Tez-tez teatra gedər və ya dostlarının evində təşkil olunan ziyafətlərə qoşulardı.

Çarın öz səlahiyyətlərindən imtina etməsi və həbsi Allahyar bəyə böyük zərbə oldu

O, hələ çox gənc vaxtlarından çarın heyranı idi, xüsusi hörmət və ehtiramı vardı, onu həmişə geniş ürəkli bir insan kimi xatırlayırdı. Amma həmin dövrdə hiss edirdi ki, baş verən olaylar Rusiya üçün böyük fəlakətə çevriləcək...

Gərginliklərin yaşandığı ərəfədə Allahyar bəy və ailəsi Bakıda qızı Şücaətin evində qalırdılar. Müharibənin sonu idi. Qatarlar gec-gec işləyir və biletlərin alınması müşkül bir məsələyə çevrilmişdi. Vaqonlar cəbhədən məğlub qayıdan əsgərlər və digər sərnişinlərlə dolu olurdu. Allahyar bəy böyük çətinliklə özü və qızları üçün bilet tapa bildi. O, Dilarəni yanına çağırıb dedi: "Qatara bilet tapmaq çox çətindir. Mən bu səhər getməliyəm. Sən və üç bacın üçün may ayının 18-nə rezervasiya etmişəm. Bacıların içində ən etibarlı və çevik olduğun üçün biletləri sənə verirəm. Ümid edirəm ki, burada çox yubanmayacaqsınız. Əgər uzun müddət qalsanız, biletlərin vaxtı keçəcək və yenidən bilet almaq üçün bir ay, bəlkə də çox gözləməli olacaqsınız. Mən və anan sizi mayın 19-na gözləyəcəyik. Arxanızca maşın və bir neçə silahlı mühafizəçi göndərəcəyəm, indiki zamanda silahsız və keşikçisiz yola çıxmaq təhlükəlidir". Dilarə biletləri götürüb atasına vaxtında evə dönəcəklərinə söz verdi.

O, vaxtında qayıda bilmək üçün narahatlıq keçirirdi, bacıları isə bunun heç fərqində deyildilər, çünki onlar ərə getməyə hazırlaşır və



Dilarə xanım Zülqədərova



Əkbər bəy Sadehi

nişanlıları da Bakıda idilər, təbii ki, şəhərdə daha çox qalmağa can atırdılar.

Yola çıxan gün onlar saat 2-də naharlarını etdilər. Küçədə sürücülərin tətili başlamışdı və Dilarənin bacıları elə düşünürdülər ki, bu hadisə onların evə qayıtmamaları üçün əla fürsətdir. Bundan çox məmnun idilər və Bakıda yubanacaqlarını, qatara vaxtında çatmayacaqlarını fikirləşirdilər. Amma Dilarə öz qərarında qəti idi – nəyin bahasına olursa-olsun qatara minməli, yola düşməliydilər. Dilarə hamı ilə sağollaşaraq, qulluqçulara onun əl çantalarını və çamadanları götürmələrini və elektriçka ilə gedəcəklərini dedi. Xoşbəxtlikdən, yolda maşınla olan qardaşı oğluna rast gəldi və o, Dilarəni, bacılarını vağzala apardı. Əgər qardaşı oğlu olmasaydı, məcbur olub elektriçkaya minəcək və yəqin ki, qatara gecikəcəkdilər. Vaxtında çatdılar. Vağzaldan bir az uzaqda, qəşəng geyimli və əl çantası olan bir gənc oğlanı gördülər. Qatar artıq 10 dəqiqəyə tərpənməli idi. Vaqonlar əsgər və mülki şəxslərlə dolu idi, oturmağa da yer yox idi. Dilarə və bacıları vaqonun ortasında, sərnişinlərin gediş-gəlişi üçün olan yolda çamadanlarını yerə qoyub üstlərində əyləşmişdilər. Çox narahat idi və bütün gecəni belə keçirmək fikri heç də ürəkaçan deyildi. Amma Dilarə sevimli atasına verdiyi sözü tutacağı üçün və evlərinə vaxtında çatacaqlarından çox məmnun idi.

Ən ağır cinayət – Allahyar bəyin öldürülməsi

Bu dəhşətli hadisə bir qış gecəsi – 1918-ci il yanvarın 5-də baş vermişdi. İki qrupa bölünmüş anarxistlərin bir hissəsi əvvəlcə Al-

lahyar bəyin mülkünə, digəri isə onun qardaşlarının, əmilərinin və əmiuşaqlarının evlərinə hücum etdilər. Onlar Allahyar bəydən bütün varidatını, malını-dövlətini – evlərini, torpaqlarını, at ilxılarını və sürülərini istədilər. Bəy şərtlərin hamısı ilə razılaşaraq, həyat yoldaşına evi tərk etmək üçün hazırlaşmasını söylədi. Nökər-naiblərinə maşınını işə salmalarını əmr etdi.

Canilər bəyin belə asanlıqla təslim olub getməsini əvvəlcə təəccüblə qarşıladılar. Onlar basqının belə qurtaracağını nəzərdə tutmamışdılar. Ona görə də başçıları öz aralarında tez məsləhətləşmə aparır və bəyin ən dəyərli əşyaları özü ilə götürəcəyini düşünərək, onu və ailəsini bitirməyi qərar verirlər. "Qan tökülmədən olmaz... Ölüm, hamısına ölüm!" – qəddar başçının qərarı bu idi.

Allahyar bəy, ömür-gün yoldaşı və ailənin digər üzvləri – böyük oğlu və arvadı, subay qızı və iki oğlu həyətdə görünən kimi atəş səsləri aləmi bürüyür! Bir-birinin ardınca hamını güllələyirlər, cəsədlər qarla örtülmüş torpağa səpələnir... Artıq tam qaranlıq çökmüşdü, axşam saat 5 olardı (həmin yerlərdə qışda qaranlıq tez düşürdü). Bəyin iki oğlu və qızı canbəsər idi, ölməmişdilər. Böyük oğlu isə yanağından yaralanmışdı, huşsuz halda yerdə uzanmışdı. Kiçik oğlu və gəlini də yaşayırdı. Allahyar bəy, xanımı, ən böyük oğlu və qızı isə artıq keçinmişdilər.

Dəstənin başçısı kimin sağ qalıb-qalmadığını yoxlamaq üçün əvvəlcə həyəti dövrə vurur. Yaralı oğlanın yanına gələrkən onun sağ olduğunu görür. Uşağı öldürmək istəyəndə quldurlardan biri iki nəfərin puldolu sandığı götürüb qaçdığını söyləyir. Başçı xəbəri eşidib qarətçiləri dayandırmaq üçün cəld onların arxalarınca götürülür. Bəyin oğlu xeyli müddət yaralı vəziyyətdə yerdə qalır, bir kimsə də ona yaxınlaşa bilmir. Quldurlar əvvəlcə evi qarət edir, sonra isə imarətə od vurub uzaqlaşırlar. Malikanə külə dönür.

Tanış səs: "Əgər sağsansa, mənimlə gəl..."

Bəyin yaralı oğlu Qəzənfər özünə gələndə tanış bir səs eşidir: "Əgər sağsansa, mənimlə gəl. Ortancıl qardaşını və gəlininizi aparıb gizlətmişəm. Sakitcə gəl, vaxt itirmə...". Bu, evin ən sadiq xidmətçi-

sinin səsi idi. Sağ qalanları xilas etmək üçün həyatını təhlükəyə atan insan bir gün əvvəl Allahyar bəyin evi tərk etməsi üçün hətta ona yalvarmışdı... Amma yalvarışlar fayda verməmişdi. Bəy qaçmağı özünə yaraşdırmamışdı.



Qəzənfər bəy Zülqədərov

...O, Qəzənfəri paltaryuyan qadının evinə gətirir və qatillər gedənə kimi orada qalmasını söyləyir. Bəyin ortancıl oğlu və gəlini də həmin evdə idi. Gecəyarı onları gizlincə heç kəsin ağlına gəlməyən yerə – kənar kəndlərdən birinə aparırlar və bəyə sadiq ailənin evində üç ay saxlayırlar. Allahyar bəyin oğullarının yaşadığını eşidən anarxist-quldurbaşı onların arxasınca dəfələrlə gəlir, lakin heç kəs bəyin övladlarını ələ vermir və hətta onları qorumaq üçün silaha sarılacaqlarını deyirlər. Bu hərəkətin özü bəyin böyük hörmət və nüfuza malik olduğunu göstərirdi.

Allahyar bəyin evi qarət edildikdən, yandırıldıqdan və insanlar qətlə yetirildikdən sonra eyni faciə onun qardaşlarının, əmiuşaqlarının, qohum-əqrabalarının da başına gətirilir. Hamı eyni taleyi yaşayır. Dilarənin bir il əvvəl əmisinin evində gördüyü yuxu çin olmuşdu! Heç kim belə qorxulu olayların baş verəcəyini ağlına belə gətirə bilməzdi – bu, faciə və dəhşət dolu bir qətliam idi.

...Yerdə qardaşının, onun həyat yoldaşının və dörd gözəl qızının qanlı cəsədləri uzadılmışdı. Hamısı qəddarcasına öldürülmüşdü. Onlar hətta iki və dörd yaşlı iki gözəl körpə qıza da atəş açmışdılar. Həmin gecə – faciəvi 5 yanvar 1918-ci ildə 27 nəfərin həyatına son qoyulmuşdu. Bu, Qafqazda ən nüfuzlu mülkədarları öldürmək və məhv etmək məqsədilə aparılan təbliğatın nəticəsi olan birinci hadisə idi!

Ailəsinin qətliamı haqqında qorxunc xəbər Dilarəyə və bacılarına tez çatdı. Faciədən bir neçə gün sonra qəzetdə qara çərçivədə bir məlumat verilmişdi. Qrafada yazılmışdı: "Yanvarın 5-də Allahyar bəyin bütün ailəsi bir qrup anarxist tərəfindən qətlə yetirilmişdir, onların evi qarət edilmiş, tam yandırılmış və ailəsindən 27 nəfər öldürülmüşdür".



Yuxarıda: **Qəzənfər, Leyla**
Aşağıda: **Pərviz, Dilarə, Şücaət, Orxan, Allahyar bəyin qızları və nəvələri**

İki gün davam edən bu qətliamdan sonra ailə üzvlərinin bəziləri qonşu şəhərlərə qaça bilmişdi. Onun vağzala yaxın yaşayan iki bacısı övladları ilə birgə paytaxta üz tutmuşdular. Nə Dilarə, nə də onun qardaş və bacıları bir dəfə də olsun əzizlərinin qəbirlərini ziyarət edə bilməmişdilər. Dağıdılmış mülklərini, doğmalarının öldürüldüyü yeri görmək belə onlara qismət olmamışdı. Neçə illər onların qəbirlərini yalnız yabanı güllər bəzəmişdi. Kənd əhli öldürülənləri Allahyar bəyin bir zamanlar axşam çağlarında oturmağı sevdiyi və uca dağların arxasında qürub edən günəşə baxdığı təpənin başında dəfn etmişdilər. O, həyat yoldaşı və uşaqlarını həmişə bura çağırardı və deyərdi: "Niyə bura gəzməyə gəlmirsiniz? Bura ən gözəl yerdir – İsveçrəyə oxşayır". Və indi həmin təpə Allahyar bəyin əbədiyyət evinə çevrilib. Dəfələrlə olub ki, o, mülklərini satıb İrana, ya da Türkiyəyə getmək barədə fikirləşib. Həmin ölkələrdə onun çox varlı və nüfuzlu qohumları var idi. Amma son məqamda qardaşları onu fikrindən döndəriblər və bu istəyini reallaşdıra bilməyib.

Dilarənin yuxuları...

Dilarə sıxıntısız və qayğısız bir dünyada ailəsi ilə birgə olduğu üçün çox xoşbəxt idi. Haradan biləydi ki, sevimli atası, anası, bacıları və qardaşları ilə keçirdiyi son yaydır. Ona elə gəlirdi ki, həyat həmişə belə sakit və zövqverici olacaq. Ailədə 10 nəfər idilər. Və onların yaxında yaşayan çoxlu əmiuşaqları – əmiqızıları, əmioğluları var idi. Atası hündürboy, göygöz, yaraşıqlı bir kişi idi. Anasının gözləri qəhvəyiyə çalırdı, uzun qara saçları vardı. Gözəl və xeyirxah bir insan idi. Dilarənin otağı mülkün ikinci mərtəbəsində, terrasa çıxan yerdə idi. Bura onun üçün yay dövrü otağı sayılırdı. Mülkün arxa peyzajını sıx meşə ilə örtülmüş hündür dağlar əhatə edirdi.

Həmin il yay yavaş-yavaş sona çatırdı. İsti, günəşli günlər arxada qalırdı. Dumanlı, soyuq ruzigar başlamışdı. Ağacların yaşıl yarpaqları saralır və qızarırdı, tez-tez yağış yağır və ailənin əhvali-ruhiyyəsi dəyişirdi. Xüsusilə Dilarə çox qəmgin və narahat idi. Yuxusunda tez-tez silahlı adam kütləsinin onların evinə gəlib malikanəni yerlə-yeksan etmələrini görürdü. O, yuxuları barədə doğmalarına və yaxınlarına heç bir söz söyləmirdi, çünki anası dəfələrlə deyərdi: "Mən Dilarənin yuxularından qorxuram, onun əksər yuxuları çin olur". Əslində, Dilarə özü də yuxularından diksinir, qorxurdu.

O zaman Sibirdən qaçan bir çox quldur və qatil anarxistlər kəndlilər, xüsusilə də varlı və nüfuzlu mülkədarların tabeliyində olan insanlar arasında böyük təşviqat işləri aparırdılar. Onlar öz casusları vasitəsilə təxribatçı ideyalar yaymağa və rayon əhalisi içərisində böyük nüfuz qazanmağa çalışırdılar. Mülkədarların, varlı təbəqədən olanların əleyhinə söhbətlər aparır, şər-böhtanlar atır, şayiələr yayır, illərlə qulluq etdikləri, çörəyini yedikləri dolanışıq sahiblərinin üzlərinə dururdular. Kasıb və sadəlövh kəndlilərə gözəl günlər vəd edirdilər. Təbii ki, Allahyar bəyin bu olaylardan xəbəri var idi, kəndli başçılarını yanına çağırıb onlarla dostcasına söhbətlər edirdi. Deyirdi: "Bir vaxtlar sizin sahibiniz olmuşam, indi isə sizin atanız və dostunuzam. Sizə nə lazımdırsa verməyə hazıram". Kəndlilər bu sözləri, bu fikirləri böyük şövqlə və sevinclə qarşılayırdılar. Əhali Allahyar bəyi sevir və ona hörmət, ehtiram edirdilər. O, əmin idi ki, ən pis məqamda belə qorxmasına lüzum yoxdur. Amma...

Həyat xüsusilə təhlükəli, vəziyyət gərgin idi

Bu danışıqlardan sonra payız ayında Allahyar bəy ailəsini də götürüb ərdə olan qızıgilə getmişdi. Onun kiçik oğlanları və qızları hələ məktəbli idilər. Trans-Qafqazın bütün şəhər və rayonları təsvir edilməyəcək dərəcədə çətin, ağır iğtişaş vəziyyətində idi. Xırda kəndlərdə isə həyat xüsusilə təhlükəli idi, çünki anarxistlərin təşviqatı əhali arasında geniş vüsət alır və tərəfdarlarının sıraları artırdı. Allahyar bəyin dostları və qohumları ondan şəhərdə qalmasını və mülkünə geri dönməməsini rica edirdilər. Onun fikrincə isə, şəhərdəki həyat daha təhlükəli idi. Sonrakı hadisələr bəyin yanıldığını sübut etdi. O, inamını itirmir və kəndlilərinin sədaqətinə bir an belə şübhə etmək istəmirdi.

Bir ay sonra Allahyar bəy həyat yoldaşı, qızı, on bir və on dörd yaşlı oğlanları ilə evlərinə geri döndülər. Bu arada anarxistlər artıq bəyin ərazilərində dolaşır, təsərrüfata rəhbərlik edir və işçilərə göstərişlər verirdilər. Özlərini sanki ata-babalarının yurdundakı kimi hiss edirdilər. Hər gün görüşlər keçirir, bütün mülkədarlara, xüsusilə sözükeçən, nüfuzu ilə seçilən Allahyar bəyin ailəsinə qarşı ittihamlar irəli sürür, onun əleyhinə çağırışlar səsləndirirdilər. Çağırışlar günbəgün artırdı və təsirini də göstərirdi. Məqsəd onu və digər torpaq sahibi olan mülkədarları öldürmək, oğru və qatillərdən ibarət dəstə yığıb varlı evlərə hücum etmək, onların sərvətlərinə və var-dövlətlərinə sahib çıxmaq, imarətlərinə od vurub yandırmaq idi. Bu qəzəbin, nifrətin kökü haradan gəlirdi?.. Məlum deyildi.

Onun qüruru və ləyaqəti təhlükələrdən qaçmağa imkan vermədi

Allahyar bəyə təhlükəsizlik məqsədilə ailəsini də götürüb köhnə dostunun evində, qonşu kənddə müvəqqəti qalmağı təklif edirlər. Bəy qətiyyətlə bundan imtina edir. Onun qüruru və ləyaqəti təhlükələrdən qaçmağa imkan verməzdi. Bəy evində qalacağını söyləyir. "Mən öz insanlarıma qarşı heç bir cinayət işlətməmişəm. Həmişə onlara atalıq etmişəm. Evimi tərk etməyəcəm",- deyir. Həyat yoldaşına uşaqları da götürüb qardaşıgilə getməsini söyləyir. Lakin xanımı da

bu təklifi rədd edir. "Sən burada qalırsansa, mənim və uşaqlarımın yeri sənin yanındadır və birlikdə qalacağıq", – cavabını verir. O, çox cəsarətli və sədaqətli bir həyat yoldaşı idi.

Səhərisi gün qaçılmaz faciəvi hadisə baş verir. Allahyar bəyin öz kəndlisinin başçılığı altında anarxistlər dəstəsi bəyin evini tarı-mar edir, özlərini də güllələyirlər.

Bəyin evinə soxulan dəstə başçısı əvvəllər iki dəfə adam öldürmüş və ömürlük məcburi işlərə məhkum olunaraq Sibirə sürgün edilmişdi. Lakin o, evin böyük oğlu olduğundan dul qalan anası nə evi, nə də ailəni dolandıra bilirdi. Allahyar bəyin böyük oğlu atasının adından dövlət orqanlarına müraciət edir və onun möhlət almasına nail olur. Beləliklə, zatıqırıq, nəcabətsiz bu cani azad edilir və evinə qayıdır. Allahyar bəy onun həyatında yeni bir səhifə açacağına ümid edərək əvvəlcə ehtiyaclarını ödəyir, ailəyə bir at, bir inək verir, işsiz qalmasın deyə, onu özünə meşəbəyi edir, yaxşı da maaş verir. Ona həmçinin ov tüfənglərindən birini də hədiyyə edir.

Dilarənin bu adamdan və onun qardaşlarından xoşu gəlmirdi, nədənsə onda ikrah hissi doğururdu. Onlar Allahyar bəyə hesabat vermək üçün həyətə gələndə Dilarə həmişə onları geri qaytarardı. Allahyar bəyin ərazilərində bəlalar başladığı vaxt bu nankor adam anarxist dəstəsinin başçısı olur.

İndi Dilarəyə aydın idi ki, niyə həmişə o adamdan və onun qardaşlarından zəhləsi gedirdi... Onlar qatil idilər. Allahyar bəy bu adamlara qarşı çox xeyirxah olmuş, hətta bu xainə öz silahını vermişdi. Anasına həmişə deyərdi: "Ana, atam bu adama qarşı niyə belə xeyirxahdır? Mənim nə ondan, nə də qardaşlarından xoşum gəlmir, onlar qatilə bənzəyirlər. Qorxuram ki, elə o silahla bizim hamımızı öldürsünlər". Və ağlayardı... Anasına elə gəlirdi ki, Dilarə həddən artıq duyğusal, çox kövrək olduğu üçün fikirləri onu yanlışlığa aparır. Amma yenə də qızını inandırmağa çalışardı ki, bu qardaşlar onun düşündüyü kimi deyillər. Heç kim Dilarənin bu uzaqgörənliyinə inanmırdı, bacıları isə ona gülürdülər. Dilarə çox hissiyyatlı idi. Amma artıq gec idi. Bəlkə də Dilarəyə inansaydılar və atalarını şəhərə köçməyə yola gətirsəydilər, bu faciənin qarşısı alınmış olardı.

QƏRİB TALELƏR

"Ömür qismətin ancaq bir qismidir...
Hər insan yalnız öz boyuna biçilmiş
bir həyat yaşayanda xoşbəxt ola bilər".
Əbu Turxan

Allahyar bəy Zülqədərovun övladlarından sağ qalanları sonradan yaşamaq üçün dünyanın müxtəlif şəhərlərində məskunlaşırlar. Həmin vaxt Allahyar bəyin qızı Nəzakət xanım Bəşir bəy Aşurbəyovla ailə qurandan sonra, ikinci qızı Şövkət xanım da Bakının məşhur memarı Zivər bəy Əhmədbəyovla evlənir. Firəngiz adlı yeganə övladları dünyaya gələndən sonra isə onlar ayrılırlar. Şövkət xanım ikinci dəfə bibisi, yəni Allahyar bəyin doğmaca bacısı Nilufər xanımın oğlu Zilli bəy Şamxorskiyə ərə gedir. Onların Elxan və Mələk adlı iki övladı dünyaya gəlir. Allahyar bəyin üçüncü qızı Sücaət xanım isə Bakıda Nobel şirkətində İran nefti üzrə rəis vəzifəsində çalışan Rəhim Xəlili ilə ailə qurur. Ənvər, Orxan və Pərviz adlı üç oğlan övladının dünyaya gəldiyi bu ailə əvvəlcə Tehranda, sonra isə Fransada yaşayır.

Azərbaycanda bolşeviklər hakimiyyətə gələndən sonra Allahyar bəyin övladlarının çoxu Türkiyəyə, oradan da İrana köçürlər. Jurnalist Müsəllim Həsənovun 2016-cı ildə Heydər Əliyev Fondunun və Bakı Media Mərkəzinin dəstəyi ilə çapdan çıxmış "Qərib məzarlar" kitab-albomunda Allahyar bəy Zülqədərovun övladlarının mühacirətdəki həyatı haqqında xeyli materiallar öz əksini tapıb.

Bu kitab-albomdan öyrənirik ki, Allahyar bəyin dördüncü qızı Dilarə xanım ixtisasca hüquqşünas-mühasib olan Əkbər Sadehi ilə ailə qurub. Onlar 25 il İranda yaşayıblar. Əkbər ağanın vəfatın-



Sücaət xanım Zülqədərova



Şövkət xanım Zülqədərova



Zilli Şamxorski, Şövkət Zülqədərova və övladları Elxan



Şövkət Zülqədərovanın qızı Mələk xanım Zilli

dan sonra Dilarə xanım iki oğlu – Xosrov bəy və Sirus bəylə birlikdə ABŞ-ın Kaliforniya ştatına köçüb. Xosrov bəy ilk dəfə 1993-cü ildə Azərbaycana gələrək qohumları ilə görüşüb. Dilarə xanım və Xosrov bəy Amerikada dünyalarını dəyişiblər.[1] Hazırda Xosrov bəyin iki oğlu və bir qızı Kaliforniyada, Sirus bəy isə Minnesota ştatında yaşayır və bir oğlu var.

Allahyar bəyin ixtisasca rəssam olan Leyla adlı beşinci qızı Almaniya vətəndaşı ilə ailə qurub. Uzun illər həmin ölkədə yaşayıb. 2000-ci illərin əvvəllərində vəfat edib, Diter adlı bir oğlu var.

Allahyar bəyin ən kiçik qızı Şahbanu xanım isə bildiyimiz kimi, 1918-ci ildə atası ilə birlikdə qətlə yetirilib. A. Zülqədərovun dörd oğlu da 1920-ci ildən sonra Türkiyədə və İranda məskunlaşıblar. Sonralar onlardan ikisi – Əli bəy və Nuşu bəy (Ənuşirəvan Zülqədərov) Fransaya köçüblər. Üçüncü oğlu Qəzənfər bəy Almaniyada tibb təhsili aldıqdan sonra İranda həkim kimi fəaliyyət göstərib. Əfsus ki, çox cavan yaşlarında xəstəlikdən vəfat edib. Oğlanlarının ən balacası olan Rüxnəddin bəy də (Rus-Yapon müharibəsi illərində doğulduğu üçün ona "Yapon" deyiblər) kiçik yaşlarında dünyasını dəyişib.

Akademik Misir Mərdanovun və tanınmış tədqiqatçı Ədalət Tahirzadənin araşdırmalarına görə, Allahyar bəyin oğul övladlarından 1884-cü ildə doğulan Əli bəy Zülqədərov Tiflisdəki 1-ci gimnaziyada, 1903-1906-cı illərdə Novorossiysk Universitetinin Hüquq fakültəsində, 1906-1908-ci illərdə isə Peterburq Universitetinin Hüquq fakültəsində təhsil alıb. Azərbaycanda bolşevik hakimiyyəti qurulduqdan sonra İrana, oradan da Fransaya köçüb.[2] Sonrakı taleyi barədə məlumat azdır. Lakin ölkəmizin qərb bölgəsində onun barəsində bu günə qədər müxtəlif əfsanə və həqiqətlər dolaşır. Deyilənə görə, İkinci Dünya müharibəsi illərində Azərbaycan legionunun tərkibində vuruşmuş döyüşçülərdən biri çox sonralar Əli bəyi gördüyünü söyləyib. Onun sözlərinə görə, Əli bəy Zülqədərov öz xanımı ilə müharibə illərində Fransanın Lodz şəhərində olan legionerlərin görüşünə gəlib. Orada məşhur Allahyar bəyin oğlu olduğunu bildirib və legionerlərə xüsusi qayğı göstərib.

---

1 Həsənov M. "Qərib məzarlar". Bakı, 2016.

2 Tahirzadə Ə. Ukraynada bir ay // "Azərbaycan müəllimi" qəzeti, 10 oktyabr 2012.



Allahyar bəyin oğlu Əli bəy oğlu Rəşid bəylə

Novruz bayramı ərəfəsinə təsadüf edən bu görüş zamanı Əli bəy bir neçə gün legionerlərə qonaqlıq verib. Onlar üçün Novruz şirniyyatları hazırlatdırıb. Onun legionerlərlə Vətən və torpaq haqqında maraqlı söhbətlər apardığı, onlara mənəvi dayaq durmaq istəyi barədə çoxlu xatirələr gəzir. Hətta deyilənə görə, həmin legionerlərdən biri vaxtilə Allahyar bəyin malikanəsinə hücum etmiş şəxsin övladlarından olub. Amma Əli bəy comərdlik göstərərək o şəxsdən də qayğısını əsirgəməyib. Bütün bunların həqiqətə nə dərəcədə uyğun olub-olmadığını demək çətin olsa da, Əli bəy Zülqədərovun həyat yoldaşı Mahrux xanımın Fransada yaşadığı və orada dəfn edildiyi dəqiqdir. Bu barədə Müsəllim Həsənovun "Qərib məzarlar" kitabında da yazılıb.

Mahrux xanım 1949-cu ildə vəfat edib və Bobinyi qəbiristanlığında dəfn olunub. Onun qəbrinin üstündə bu barədə müvafiq qeyd var: "Mahrux xanım Zülqədər: 1884-1949". Mahrux xanımdan başqa, onun bacısı Xavər xanım da Parisdə yaşayıb. Qızlıq soyadları İbrahimbəyov olan bu bacılar əslən Cənubi Azərbaycandan imişlər. Dağlılar Respublikasının Paris Sülh Konfransındakı rəhbərlərindən olan Əbdülməcid Çermoyevlə ailə qurmuş Xavər xanım 1953-cü ildə Lozannada vəfat etsə də, öz vəsiyyətinə əsasən, Bobinyi qəbiristanlığında dəfn edilib. Başdaşı üzərinə bu qeyd həkk olunub: "Xavər xanım İbrahimbəyova-Çermoyeva: 1886-1953".[1]

Əli bəy və Mahrux xanım Zülqədərlərin izdivacından "Zorka" kimi tanınan Sürəyya adlı qızları dünyaya gəlib. Sürəyya Əbdülməcid Çermoyevin yaxın qohumlarından olan Səid Tukayevlə ailə qurub, onlar sonradan ayrılıblar. Sürəyya (Zorka Tukayeva), eləcə də Əli bəyin ikinci arvadı Yuliya Zülqədər (qızlıq soyadı Brandt) və onun bacısı, general Hüseyn xan Naxçıvanskinin nəvəsi Nikita Naxçıvanskinin arvadı Nadejda Brandt da Paris yaxınlığındakı rus qəbiristanlığında dəfn olunublar. Zülqədərovlardan biri – Sücaət xanım isə uzun illər Ceyhun bəy Hacıbəylinin Parisdəki evində yaşayıb, ötən əsrin 60-cı illərində övladları ilə birlikdə ABŞ-a köçüb...

Allahyar bəyin oğlu – Nuşu bəy kimi tanınan Ənuşirəvan bəy də Paris yaxınlığındakı Bobinyi məzarlığında uyuyur. Qəbrinin üstündəki çətin oxunan yazı belədir: "Ənuşirəvan bəy Zülqədər". Doğum tarixi

[1] Həsənov M. "Qərib məzarlar", Bakı, 2016.



Əlimərdan bəy Topçubaşov

oxunmasa da, vəfat etdiyi tarix aydın görünür – 1952. Ənuşirəvan bəy ailə qurmayıb. Onun Fransadakı fəaliyyəti barədə məlumat da azdır. Lakin o da dəqiqdir ki, Ənuşirəvan bəy Fransada yaşadığı illərdə Əlimərdan bəy Topçubaşov ilə mehriban münasibətlər saxlayıb. Bu münasibəti Əlimərdan bəyin Parisdəki arxivində saxlanılan bir məktub da təsdiq edir. Arxiv sənədlərindən görünür ki, 1929-cu il iyulun 18-də Ənuşirəvan bəy Əlimərdan bəyə məktub yazıb:

"Çox hörmətli Əlimərdan əmi! Məndən asılı olmayan səbəblər ucbatından qəflətən Parisdən müvəqqəti xidmət yerimə getdim. Bu səbəbdən getməzdən əvvəl Sizə gəlmək və sağollaşmaq imkanım olmadı. Ona görə də Sizdən və Pəri xaladan üzr istəyirəm. Sizə dərin hörmət və ehtiramımı qəbul edin. Qohumunuz Ənuşirəvan".

Parisdə müvəqqəti xidmət yeri deyərkən onun haranı nəzərdə tutduğu məlum deyil...

Arxivdə Əlimərdan bəyin cavab məktubu da qorunur:

"Hörmətli Ənuşirəvan. Bizim böyüklərə ənənəvi hörmət və ehtiram hissinin səndə qaldığını sübut edən məktubunu almaq mənə çox xoş oldu. Bu çox qiymətli keyfiyyətdir və Azərbaycanın bütün gənc nəsli bu ruhda böyüməlidir. Çünki belə tərbiyə atalar və oğullar arasında daha yaxşı münasibətlərin formalaşması üçün möhkəm baza yaradır.

Mən çox şadam ki, bu mənəvi keyfiyyətləri səndə – xatirəsi mənim üçün unudulmaz olan dostum Allahyar bəyin ləyaqətli oğlunda tapıram. Məni rəhmətlik Allahyar bəylə dostluq, qarşılıqlı sədaqət telləri və xalqımızın ümumi xeyrinə gördüyümüz bir sıra müştərək işlər bağlayırdı. Rəhmətlik mənim atamı yaxşı tanıyır və mənə "əmioğlu" deyirdi, rəhmətlik Həmid bəy (Allahyar bəyin qardaşı) isə məni "bizim başçı" və "böyük qardaş" adlandırırdı. Sənin, qohumumun mənə belə məhrəm münasibətindən məmnunluq duyuram və arzu edirəm ki, oğlum Ələkbərlə sənin qardaşlıq səviyyəsində olan dostluğun bu hörmət və ehtiramı daha da möhkəmləndirsin. Məktuba görə yoldaşımın adından və öz adımdan

çox sağ ol deyirəm. Hərdən özün barədə yazsan, çox razı qalaram. Sənə ürəkdən cansağlığı, hər cür rahatlıq və işlərində uğurlar arzulayıram.

Səni sevən əmin.

24 iyul 1929". [1]

Ənuşirəvan bəyin taleyi ilə bağlı Fransanın müvafiq polis idarəsindən verilmiş sorğunun cavabı da maraqlıdır: "Polis bölməsinin arxivində vətənindən didərgin düşmüş əcnəbilər haqqında "Xaricilərə nəzarət və onların axtarışı" yarımbaşlığı ilə Er və Luarda 1936-cı ildə bölgə məmurları tərəfindən açılan araşdırmanın nəticələri qorunub saxlanılır. Zülqədərovun adına Ver-en-Druedə dükanda işlədiyini təsdiq edən bir kart var. Həmçinin o, bir müddət at sahibkarı cənab Verdye-Düfurun yanında təlimçi-mehtər işləmişdir.

...1935-ci il qışın əvvəlində cənab Zülqədərov yerli hakimiyyət orqanına xəbər vermədən Ver-en-Drueni tərk etmişdir. 1932-ci ildə (4 MP558) tərtib olunmuş bölgə qaçqınları siyahısında onun adı qeyd olunmamış və 1936-cı ilə qədər heç bir sənəddə onun haqqında məlumat yoxdur..."

Parisdəki rus qaçqınları ofisinin verdiyi arayışda isə təsdiq edilir ki, "Ənuşirəvan Zülqədərov rus qaçqınıdır. 1897-ci il aprelin 11-də Yelizavetpol quberniyasında doğulmuşdur. Atası Allahyar Zülqədərov olmuşdur".

Göründüyü kimi, bizə məlum olan arxiv sənədlərinə əsasən, onun nə işlə məşğul olduğunu söyləmək çətindir. Amma tanınmış tədqiqatçı və rejissor Aydın Dadaşov "Qarabəy Qarabəyov" adlı monoqrafiyasında Ənuşirəvan bəyin İkinci Dünya müharibəsi illərində Azərbaycan legionerlərinin Paris filialına rəhbərlik etdiyini yazıb.[2]

Biz isə qeydlərimizin bu yerində Qarabəy Qarabəyov adının izi ilə yenidən Bəşir bəy Aşurbəyovun ömür yoluna dönürük. Bu dəfə gözlərimiz önündə onun ictimai-siyasi hadisələr burulğanındakı obrazı boylanır.

---

1 Həsənov M. "Qərib məzarlar", Bakı, 2016.

2 Dadaşov A. Qarabəy Qarabəyov. Bakı, "Letterpress", 2012.



18го іюля 1929.

Многоуважаемый Али-Марданъ
ами!

По независящимъ отъ меня обстоятель-
ствамъ, я неожиданно выѣхалъ изъ
Парижа на мѣсто моей временной
службы. Благодаря этому не смогъ
передъ отъѣздомъ заѣхать къ Вамъ
и попрощаться. Поэтому приношу
передъ Вами и передъ Пари-хала
свои извиненія.
Примите увѣренія въ совершенномъ
почтеніи и глубокомъ уваженіи
къ Вамъ. Вашъ племянникъ
Анушированъ

Ənuşirəvan bəy Zülqədərin Əlimərdan bəyə yazdığı məktub. 18 iyul 1929-cu il



24. VII. 29
St Cloud

Дорогой Ануширaван,

Мнѣ было очень пріятно получить твое письмо, доказывающее на сколько живы в тебѣ наши традиціонныя чувства уваженія и почитанія старших. Это-весьма цѣнныя качества, коими должно быть украшено все азербайджанское молодое поколѣніе, как ~~наилучшая~~ твердая базой его воспитанія и установленія ~~вз~~ наилучших взаимоотношеній между отцами и дѣтьми"...

Я очень рад, что нахожу эти моральныя качества у тебя, у достойнаго сына незабвенной памяти Аллах-Яр-бека, с которым я был связан узами дружбы, взаимной преданности и ~~совмѣ~~ ряда совмѣстных дѣйствій на общую пользу нашего народа.

Покойный хорошо знал моего отца и называл меня „Ами-оглу", а покойный Гамид-бек называл меня „~~руководителем~~ «наш башчи и старшим братом".

Əlimərdan bəy Topçubaşovun Ənuşirəvan bəyə cavab məktubu. 24 iyul 1929-cu il

İTTİHADÇI BƏŞİR BƏY

"İdeya iradə ilə birləşəndə gücə çevrilir...
ideya əbədi, iradə isə sonludur".
Əbu Turxan

Bəşir bəy Aşurbəyovun ömür yolunun ən maraqlı səhifələrindən birini də onun ictimai-siyasi fəaliyyəti təşkil edir. Millət sevdalısı Bəşir bəy haqqında kitab üzərində işləyərkən 30-dan çox tarixi tədqiqata müraciət etdim, hadisələrin təhlilinə ətraflı yer ayırmağa çalışdım, dövrün həm də siyasi mənzərəsini əks etdirən faktlardan geniş istifadə etməyi lazım bildim.

XX əsrin ilk onillikləri, məlum olduğu kimi, Azərbaycan tarixinin ən qızğın çağlarındandır. Xalqın taleyi, gələcəyi ilə bağlı bir çox məsələlər bu onilliklərdə müəyyənləşirdi. Cəmiyyətin önündə gedən insanlar bu prosesdə fəal iştirak edir, millətin istiqbalına hansısa şəkildə fayda verməyə çalışırdılar. Azərbaycan xalqının dəyərli övladlarından, yenicə formalaşmaqda olan milli burjuaziyanın parlaq təmsilçilərindən biri kimi, Bəşir bəy Aşurbəyov da təbii ki, bu prosesdən kənarda qala bilməzdi.

O dövrdə dünyada, onun ayrı-ayrı qütblərində yaşayan xalqlar, cəmiyyətlər özünüaxtarış mərhələsində idilər. Hər kəs bir ideoloji cərəyanı, siyasi xətti gələcək inkişaf üçün daha məqbul bilirdi. Azərbaycanın ictimai-siyasi mühiti də bu cəhətdən xeyli zəngin idi. XIX əsrin ortalarından etibarən geniş vüsət alan maarifçilik hərəkatı, təhsilli insanların sayının artması, mətbuatın, mədəniyyətin müxtəlif sahələrinin inkişafı, beynəlxalq aləmdəki inkişaf proseslərindən irəli gələn mütərəqqi təsirlər, ən mühümü isə Bakının dünyanın əsas enerji mərkəzlərindən birinə çevrilməsi burada çox fəal düşüncə mühiti yaratmışdı.



Bəşir bəy Məhəmmədhəsən bəy oğlu Aşurbəyov

Ziyalılar, iri sənayeçilər, milli burjuaziya təmsilçiləri cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak etməyi özlərinə mənəvi borc bilirdilər. Bakıda və Azərbaycanın müxtəlif mərkəzi şəhərlərində ayrı-ayrı ideoloji baxışların tərəfdarı kimi çıxış edən qruplar formalaşmışdı.

Bəşir bəy Aşurbəyov isə 1917-1920-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş Qafqaz İttihad Firqəsinin yaradıcılarından idi.

Neft Bakısının bir çox nüfuzlu sənayeçiləri kimi, o da mömin insanlardan sayılırdı. Dini dəyərlərin uca tutulduğu bir ailədə doğulub böyümüşdü. İslam inancına münasibətinin formalaşmasında Sabunçu kəndinin ruhani mühitinin böyük rolu olmuşdu. Bəşir bəyin yaxşı təhsil alması, dərin mütaliəsi və Bakının ziyalı elitasını təşkil edən insanlarla sıx ünsiyyəti onun İslamı öz mahiyyətində anlamasına kömək göstərirdi. O, qaragüruhçuluqdan, xurafatdan uzaq dururdu. Ən düzgün etiqadı müqəddəs Qurani-Kərimdə də buyurulduğu kimi, insanlara təmənnasız kömək göstərməkdə, elmə, maarifə dəstək verməkdə, el üçün faydalı olmaqda görürdü. Elə İslama bu cür düzgün münasibətindən irəli gələrək Bəşir bəy Aşurbəyov düşünürdü ki, İslami dəyərlərin dürüst anlaşılması və onun tələqinlərinə doğru əməl edilməsi cəmiyyəti inkişafa apara bilər. İdeoloji baxış kimi o dövrdə çox populyar olan ittihadi-islam, islam modernizmi, islam reformizmi nəzəriyyələri bir çox məsləkdaşları kimi Bəşir bəy üçün də çox doğma və inandırıcı görünürdü.

Elə bu baxışla da B.Aşurbəyov XX əsrin əvvəllərində Azərbaycandakı aparıcı siyasi cərəyanlardan olan ittihadçılığın əsas nümayəndələrindən, ideya liderlərindən, eyni zamanda bu ideyanın özünə daha çox tərəfdar toplaması, cəmiyyətdə nüfuz qazanması üçün çox zəruri sayılan maliyyə təminatçılarından biri kimi tanınmışdı. Bu firqənin formalaşdığı dövr Bəşir bəy Aşurbəyovun Həştərxandakı sürgün həyatından sonra Bakıya yenicə qayıtdığı vaxtlar idi. Azərbaycanın və ümumən, müsəlman dünyasının gələcəyi ilə bağlı bir çox məsələlərdə onun ittihadçılıq ideyasını bölüşən digər ziyalılarla fikirləri üst-üstə düşürdü. Elə bu ideyanın özü də eyni mövqeyi bölüşən bir çox millət xadimlərinin həmfikirliyi işığında ortaya çıxmışdı. Ölkənin müxtəlif yerlərində, xüsusilə Bakıda ittihadçılıq çoxsaylı insanların güclü dəstək verdiyi populyar ideya-siyasi cərəyana çevrilmişdi.

Əvvəlcə belə bir suala cavab tapmağa çalışaq ki, ittihadçılıq nədir? Bu ideya ətrafında bir araya gəlmiş ziyalılar Azərbaycanın, xalqımızın taleyi ilə bağlı hansı baxışları bölüşürdülər? "İttihadçı"ların, o cümlədən bu sırada təmsil olunan Bəşir bəy Aşurbəyovun məramı, məqsədi nə idi?

XIX əsrin əvvəllərindən etibarən müstəmləkə zülmünə qarşı mübarizə dünyadakı əksər müsəlman xalqlarının qarşısında duran əsas məsələyə çevrilmişdi. Amma bu mübarizə təkcə siyasi xarakter daşımırdı. Məqsəd müstəmləkə istilaları ilə daha da dərinləşən ümumislam tənəzzülünün qarşısını almaq, onun tərəqqisini təmin etmək idi.

Tədqiqatçılar yazırlar ki, yarandığı ilk vaxtlardan etibarən Şərqin siyasi təfəkküründə təkamülündə əsas amil rolunu oynayan İslam xalqın zehnində hakim mövqe tuturdu. Əli bəy Hüseynzadə deyirdi ki, İslam meydana gəldiyi gündən özünün tam birliyi qayğısına qalmışdır: "Bütün atributları ilə İslamı qəbul etmək – birliyi qəbul etmək deməkdir".

Bəşir bəy Aşurbəyovun da daxil olduğu qabaqcıl zümrə isə İslamın düşdüyü ağır vəziyyəti onun bütün sahələrdə məruz qaldığı parçalanma və pərakəndəliyi ilə izah edirdi. Onlar İslam ümməti arasında birliyin əldə olunmasına can atırdılar. Bununla yanaşı, müsəlmanların demək olar ki, eyni siyasi, iqtisadi, mədəni inkişaf səviyyəsi, ən əsası isə onların əksər hissəsinin Qərb istilası ilə üzləşməsi də birlik meyillərini gücləndirirdi. Bütün bunlar birlik üçün ilkin şərt rolunu oynayırdı.

Bəşir bəyin qızğın tərəfdarlarından olduğu birlik ideyası öz növbəsində İslamın təməlindən – tövhiddən, Allahın birliyinə inamdan doğurdu. Deməli, bir tərəfdən, ilkin vəhdət, digər tərəfdən, vahid aqibət bütün müsəlman dünyası üçün ümumi çıxış yolunun axtarılmasına, nəticədə bu aləmi birləşdirən dini nəzəriyyəyə, yəni İslama müraciətə səbəb olurdu.

İslamın cəlbedici xarakterik cəhətlərindən biri də onun həmin dövrdə öz bayrağı altına aldığı müxtəlif millətlərə inkişaf bəxş etməsi idi.

Eyni zamanda Qərbin öz mədəniyyətini, adət-ənənələrini bütün yaxşı və pis cəhətləri ilə olduğu kimi Şərqə aşılamaq siyasətinə qarşı

ən güclü müqavimət vasitəsi məhz İslam idi. İslam o dövrdə Qərbin mənfi təsirlərinə qarşı mühüm rol oynayırdı və bu, təbii ki, dövrün Bəşir bəy Aşurbəyov kimi qabaqcıl simalarının nəzərindən yayına bilməzdi.

Nəhayət, müsəlman ziyalılarını İslama bağlayan tellərdən biri də "məzhəbimizdə ümumbəşəri mənəvi dəyərlərin hər hansı dindəkindən daha yüksək səviyyədə olması, onun ictimai ədalət idealına daha artıq uyğunluğu idi".[1]

Beləliklə, İslamın bütün yuxarıda göstərilən cəlbedici cəhətləri müsəlman ümmətini, bu ümmətin Bəşir bəy Aşurbəyov kimi mütərəqqi düşüncəli təmsilçilərini istiqlal mübarizəsinin nəzəri dayağını və tərəqqi yolunu kənarda deyil, məhz bu dini-siyasi, iqtisadi, hüquqi təlimin əsasında axtarmağa sövq edirdi.

Lakin İslam sosial-siyasi strukturu müsəlman tarixinin ilkin dövrlərində inkişafı stimullaşdıran amil kimi qiymətləndirilirsə, son 2-3 əsr ərzində Şərq aləminin tənəzzülü də bu dini-siyasi doktrina ilə əlaqələndirilirdi.

Avropa ilə XVIII əsr Qərb istilası şəraitində başlamış birbaşa üzləşmə və müqayisə Şərqin, doğrudan da, acınacaqlı vəziyyətdə olmasını sübut edirdi. Avropa həm iqtisadi, həm siyasi, həm də mədəni inkişaf səviyyəsinə görə müsəlman Şərqini qat-qat üstələmişdi. Bəşir bəy Aşurbəyov kimi insanlar, təbii ki, bu reallığı görürdülər. Əgər İslam bir tərəfdən, adıçəkilən üstünlükləri ilə əvəzolunmaz, digər tərəfdən, tənəzzülün səbəbi idisə, bu uyğunsuzluq onun nədən törəndiyi barədə düşünməyə vadar edirdi.

Müsəlman ideoloqlar öz yaşadıqları mühitin geriliyini İslam birliyinin olmamasında, mütləqiyyət üsuli-idarəsində, məzhəb ayrılığının düşmənçilik səviyyəsinə qaldırılmasında, xurafat və mövhumatın hakimliyində görürdülər. Müsəlman həyatı zəminində meydana gəlmiş çatışmazlıqlar İslamın mütərəqqi xarakteri ilə əsla uyuşmurdu. İslam təhriflərə məruz qalmış, mənfəətpərəst din xadimləri Quran və şəriət müddəalarını qeyri-düzgün islah edib öz mənafelərinə uyğunlaşdırmışdılar. 1917-ci ildə Bəşir bəy Aşurbəyovun da maliyyə dəstəyi gös-

[1] Kamaloğlu R. Türk dünyasının böyük ideoloqu // "Azərbaycan" qəzeti, 23 mart 1991.

tərdiyi "Müsəlmanlıq" qəzeti yazırdı ki, müsəlmanlığın ehkami-nəzəriyyəsi, məna və ruhu büsbütün dəyişdirilib, zülm və qara cəbriyyə hökmfərma olmuşdur, dini-islamiyyətin nə günahı vardır?

İttihadçılıq ideologiyasının əsas müəlliflərindən olan Cəmaləddin Əfqani isə israr edirdi ki, "Aləmi-İslamın tənəzzülünün səbəbi nə İslam dini, nə Quran, nə də şəriətdir". Günahkar İslamı eybəcər hala salanlar - üləmalar, şəriəti yaramaz edənlər – qazılar və müsəlman dövlətlərinin müstəbid başçılarıdır. İslam maarif, mədəniyyət, demokratiya, azadlıq və bərabərlik kimi keyfiyyətlərlə əlaqədardır. İslam dövrün ruhuna zidd deyildir.

İslamı dünyanın ən dinamik nəzəriyyəsi hesab edən mütərəqqi qüvvələrsə xurafatla baş aldadan mollaların "İctihadın qapıları bağlıdır" tezisi ilə heç cür razılaşa bilməzdilər. Onlar İslamın yeni dövrə uyğun prinsiplərinin açıqlanması ilə bir tərəfdən müasirləşdirilməsini, digər tərəfdən, mövhumat və xurafatdan təmizləməklə onun ilkin mənəvi ruhunun dirçəldilməsini tərəqqinin yolu elan edirdilər. Bu cür İslam ideologiyası rolunu isə Bəşir bəy Aşurbəyov və silahdaşlarının mövqeyinə görə, məhz ittihadçılıq oynayacaqdı.

RUSİYA MÜSƏLMANLARI FİRQƏSİ

"İnsan müəyyən zaman və məkanda dünyaya gəlir. Bu onun qismətidir. İnsan ya öz taleyi, qismət ilə barışmalı və mühitə uyğunlaşmalı, ya da mühiti dəyişdirmək kimi çətin bir yola qədəm qoymalıdır... bu yol isə ancaq daxildən gələn işıqla aydınlaşa bilər".
Səlahəddin Xəlilov

İttihad hər şeydən əvvəl İslama əsaslanan bir konsepsiya idi. Bəşir bəy Aşurbəyov və digər həmfikirləri İslamı yalnız din kimi deyil, siyasi, iqtisadi, hüquqi, mənəvi və s. norma olaraq qiymətləndirirdilər, onu müsəlman həyatının fundamenti, bu həyatın strukturu hesab edirdilər. İttihadçıların fikrincə, İslam çox təhrifə məruz qalmışdı, indi isə mövhumat və xurafatdan təmizlənməli, yeni ictihad vasitəsilə əsl İslamın tələqin etdiyi qanunlar, qaydalar, həyat tərzi açıqlanmalı və bərpa olunmalıdır. Bəşir bəy Aşurbəyovun bir vaxtlar maliyyələşdirdiyi "İttihad" qəzetində qeyd edilirdi ki, "elmi bizdən əxz edən avropalılar bizə müstəbidlik edirlər". Buna görə də bizim çağdaş Avropa elminə yiyələnməklə özümüzü inkişaf etdirməyimiz zəruridir.[1]

Beləliklə, ötən əsrin əvvəllərində Azərbaycanda ittihadçılıq ideyası o qədər geniş yayılmışdı ki, 1917-ci il fevral inqilabından sonra Azərbaycanda ittihad məsləkli siyasi təşkilatın yaranacağına kimsə-

[1] Göyüşov A. Milli hərəkatımız haradan başladı: ideya-fəlsəfi əsasları // https://islam.az/az/mezhaleler/i-slam-tarikhi/item/238-milli-haeraekat-m-z-haradan-bashlad-i-deya-faelsaefi-aesaslar

nin şübhəsi qalmamışdı. Çünki islamçılıq, milliyyətçilik və sosializm cərəyanları ilə yanaşı, Rusiya türklərinin azadlıq mübarizəsi dövründə onlar arasında aparıcı mövqeyə malik üç ictimai-siyasi axından biri məhz bu idi və ittihad bayrağı altında təbliğ edilirdi. Lakin milliyyətçilik "Müsavat" kimi mütəşəkkil siyasi qüvvə ilə, sosial-demokratlar başda "Hümmət" olmaqla çeşidli təşkilatlarla təmsil olunduqları halda, islamçılıq meyillərini əsas tutan heç bir siyasi qüvvə ortada yox idi. "Müsavat"ın ideologiyasında türkçülüyün ön mövqeyə keçməsini geniş ictimaiyyət yenicə sezməyə başlayırdı. Digər tərəfdən, inqilabdan sonrakı ilk vaxtlarda türkçülərlə islamçılar arasındakı ziddiyyətlər hələ o qədər də kəskinləşməmişdi. Yalnız 1917-ci ilin mayında keçirilən Rusiya Müsəlmanları Qurultayı ilə bu proses güclənmişdi. Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin fəaliyyəti ilə daha da dərinləşmişdi.

Müsəlman siyasi həyatının mərkəzinə çevrilən bu komitə cəmiyyətin qabaqcıl, fəal, lakin müxtəlif məsləkli üzvlərindən ibarət idi. Komitədə təmsil olunan qüvvələr arasında fikir ixtilaflarının kəskinləşməsi 1917-ci ilin yayı üçün ölkənin milli-azadlıq hərəkatında liderlik uğrunda mübarizə aparan üç siyasi axının – sosialist, milli-demokrat və panislamist cərəyanların artıq qəti şəkildə bir-birindən ayrılması ilə nəticələnmişdi.

İnqilabdan dərhal sonra Azərbaycanın müxtəlif yerlərində bu və ya digər dərəcədə ittihad ideyalarını daşıyan leqal təşkilatlar yaranmağa başladı. Onlardan İrəvandakı və Şuşadakı "İttihad" cəmiyyətləri, Gəncədəki "İttihadi-İslam" və "Firqeye Məhəmmədiyyə" partiyası xüsusilə böyük nüfuza malik idilər. Lakin bu lokal əhəmiyyətli qurumları ümumi amal ətrafında birləşdirən mərkəz ölkənin ictimai-siyasi-mədəni həyatının dayağı olan Bakıda təşəkkül tapacaqdı və onun təşkilinə bilavasitə komitədə baş verən hadisələr təkan vermişdi. Belə ki, burada aparıcı mövqeyə malik "Müsavatçı"ların türkçülük ideyalarının daha aydın şəkildə nəzərə çarpması komitənin ittihad məsləkli üzvlərini sıx birləşməyə sövq etmişdi. Bu prosesdə fəal rol oynayan nüfuzlu insanlardan biri də məhz Bəşir bəy Aşurbəyov idi.

Nəhayət, partiyanın Mərkəzi Komitə üzvlərindən birinin – Heybətqulu Məhəmmədbəyovun xatırlatdığı kimi, 1917-ci ilin yayında

Bakıda bir neçə şəxs Rusiya müsəlmanlarının sosial, siyasi, mədəni, vətəndaş hüquqlarının bərpası uğrunda mübarizədə onların səylərini birləşdirmək, müsəlman demokratiyasının mövcud siyasi firqələr arasında parçalanmasının qarşısını almaq və ölkənin gələcək üsuli-idarəsini demokratik respublika şəklində görən bütün təşkilat və cəmiyyətlərlə birgə inqilabın əldə etdiyi nailiyyətləri qorumaq məqsədilə Rusiyada Müsəlmanlıq Firqəsinin Təşkilat Komitəsini yaratdılar.



Sultan Məcid Qənizadə

Rusiyada Müsəlmanlıq Partiyasının təşkilində əsas təşəbbüskar ədəbi əsərlərində həmin o fanatizmə, dini dözülməzliyə, xürafata, mövhumata qarşı mübarizəsi ilə şöhrət qazanmış ədib və görkəmli pedaqoq Sultan Məcid Qənizadə olmuşdu. Zatən tərəqqipərvər bir şəxs kimi Sultan Məcid Qənizadə bu firqənin yaradıcılarından biri olarkən heç də orta əsr qaydalarının bərpası uğrunda deyil, istiqlaliyyət vuruşunda müsəlman həmrəyliyinin əldə edilməsi naminə çarpışırdı.[1]



Mir Yaqub Mehdiyev

Partiyanın təşkilində xüsusi əmək sərf etmiş şəxslərdən biri də cavan olmasına baxmayaraq, Azərbaycan ictimaiyyətinin yaxşı tanıdığı Mir Yaqub Mehdiyev idi. Petroqrad Politexnik İnstitutunu bitirmiş bu gənc Rusiyada Müsəlmanlıq Firqəsinə qədər də ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirdi. M.Y.Mehdiyevin Kəndlilər İttifaqının və Bakı Müsəlman İctimai Təşkilatlar Şurasının sədr müavini vəzifələrində fəaliyyəti ona qabiliyyətli təşkilatçı kimi şöhrət gətirmişdi.[2]

[1] Göyüşov A. Azərbaycanda ittihadçılıq. Bakı, "İrşad" Mərkəzi, 1997, səh. 45-47, 61. ru.wikipedia.org/wiki/Ганизаде Султан Меджид Муртуза- Али оглы.

[2] Əliyev Ə. Fədakar istiqlalçı Miryaqub Mehdiyev və onun fransızca əsərləri haqqında qeydlər // "525-ci qəzet", 2 fevral 2018-ci il.

Bunlardan əlavə, firqənin təşkilat komitəsində ona qədər hamının Bakının əsas zəngin sahibkarlarından biri, görkəmli xeyriyyəçi, "İrşad" qəzetinin naşiri kimi təqdim olunan Bəşir bəy Aşurbəyov, iqtisad elmləri namizədi Mahmud Quliyev, həkim Kərim ağa Sultanov, tacir Hacı Hüseyn Tağıyev, vəkil Qasım Cəfərov, məşhur xeyriyyəçi və sahibkar Hacı Zeynalabdin Tağıyevin nəvəsi Ağa Zeynal Tağıyev, din xadimlərindən Axund Molla Ələkbər Abbasquluzadə, Axund Molla Hənifə və bəzi mənbələrə görə, Hacı Mir Mövsüm Mir Əbdülqasımzadə, tatar əhalisindən Cəmaləddin Yukayev də vardı. Göründüyü kimi, təşəbbüs qrupu heç də yalnız ruhanilərdən ibarət deyildi.



Şeyxülislam Məhəmmədəli Pişnamazzadə

Firqənin özəyini təşkil edən qurumlardan biri də Gəncədə təşəkkül tapmış "İttihad" cəmiyyəti idi. Cəmiyyətin Rəyasət Heyətinin başında Şeyxülislam Molla Məhəmməd Pişnamazzadə dururdu. Bu görkəmli Azərbaycan üləması hələ əsrin əvvəllərində maarifçilik fəaliyyəti ilə geniş şöhrət tapmışdı. Mütərəqqi fikirləri, o cümlədən üsuli-cədidin tətbiqi, təhsil sistemində dünyəvi biliklərə üstünlük verilməsi, qızların təhsilə cəlb olunması, dərslərin ana dilində keçirilməsi kimi tələbləri ilə mühafizəkar deyil, tərəqqipərvər bir şəxs olan Şeyx onlarca təhsil ocağı yaratmışdı. İctimai fəaliyyətinə, maarifçilik işlərinə görə çar üsuli-idarəsinin qəzəbinə tuş gəlmiş Molla Məhəmməd iki dəfə sürgün edilmişdi. Hətta onun 6 il müddətində müsəlman ictimai həyatında iştirakı qadağan olunmuşdu.[1]

1917-ci ilin yayında tarixi şəraitin labüd şərti kimi yaranmış Rusiyada Müsəlmanlıq Firqəsi çox keçmədən siyasi həyatın fəal üzvünə çevrildi. Həmin ilin oktyabr ayında partiyanın ilk rəsmi orqanı olan "Müsəlmanlıq" qəzeti öz nəşrinə başladı. Qəzetin nəşrini maliyyələşdirən əsas şəxslərdən biri, qeyd etdiyimiz kimi, Bəşir bəy Aşurbəyov idi.

---

[1] Nəbi C. Axund Molla Məhəmməd Pişnamazzadə Azərbaycan mübarizəsində // http://ganca.org/index.php?option=com_content&view=article&id=343:eyxueislam-axund-mhmmd-pinamazzad-&catid=4:axsiyyatlar&Itemid=3

"Yaşasın İttihadi-İslam, var olsun Hürriyyəti-ənam" epiqrafı ilə nəşr olunan "Müsəlmanlıq" qəzetinin ilk məqaləsi "Firqə ibarət olacaq o adamlardan ki, İslamiyyətin əsasını hər şeydən əziz və mötəbər tutsun və ona əməl etsin və şəriətimizin ehkamının hürriyyətlə gözəl imtizac (uyğunlaşma) etdiyinə qail olub bu ahəngi ixlal etməsin və hər ikisi canla və malla müdafiə olunsun" sözləri ilə başlayırdı.

Firqənin S.M.Qənizadə, H.B.Mahmudbəyov kimi üzvlərinin, Bəşir bəy Aşurbəyov kimi mesenat təmsilçilərinin Azərbaycanda dünyəvi təhsilin tətbiqindəki əvəzolunmaz xidmətlərini bilirik. Lakin firqə sıralarında mədrəsələrin yaradılması, dini tədrisin vacibliyi, yalnız bu cür mədrəsələrdə yetişən ruhanilər hesabına Avropanı məğlub etməyin mümkünlüyü kimi utopik fikirlər irəli sürən şəxslər də vardı.

Firqə bu dövrdə federal demokratik Rusiyanın tərkibində Qafqaz müsəlmanları üçün ayrıca ərazi muxtariyyəti tələb edirdi.

İttihadi-İslam Partiyası hələ keçən əsrin sonlarından, yəni tanınmağa başladığı vaxtdan bizi maraqlandıran dövrə kimi uzun təkamül prosesi keçmiş və kifayət qədər yetkinləşmişdi. Rusiyada Müsəlmanlıq Firqəsinin ideologiyası isə hələ ittihadi-islamı tam yetkinliyi ilə əks etdirmirdi. Mərkəzi Komitənin üzvü H.Məmmədbəyov xatirələrində bunu belə izah edirdi ki, firqənin ilk proqramı taktiki məqsədlər naminə partiyadan uzaqlaşdırılması hələ məsləhət bilinməyən bir neçə şəxsin – Bakı üləmalarının müəyyən qədər mühafizəkar hissəsinin iştirakı ilə tərtib olunmuşdu. Məhz həmin səbəb üzündən proqramda utopik müddəalar da özünə yer tapa bilmişdi. Lakin bu hal, həqiqətən, müvəqqəti xarakter daşıyırdı.

Rusiyada Müsəlmanlıq Partiyasının təşəbbüs komitəsi firqə proqramını tərtib etməklə yanaşı, təşkilatlanma işi ilə də məşğul olurdu. Bu məqsədlə Azərbaycanın digər quberniya və qəzalarında yaradılmış ittihad məsləkli qurumlarla danışıqlar aparılırdı. Ən çeşidli mətbuat orqanlarının səhifələrində firqə bəyannamələri çap olunur, onun məqsəd və məramları izah edilirdi.

TƏZƏPİR MƏSCİDİNDƏ MÜBAHİSƏ

"Böyük ideya axınları sel kimidir; qarşısına çıxan bütün ufaq, zəif, yeni cücərən pöhrələri yuyub aparır".
Əbu Turxan

Firqə məramı ilə tanışlıq xarakteri daşıyan belə yığıncaqlardan biri 1917-ci ilin 20 oktyabrında Təzəpir məscidində 200 nəfərin iştirakı ilə keçirilmişdi. Yığıncaqda S.M.Qənizadə və Bəşir bəy Aşurbəyov çıxış etmiş, partiyanın məqsəd və amalları barədə iştirakçılara geniş məlumat vermişdilər. Lakin bu iclas daha çox başqa bir hadisə ilə - toplantıya sədrlik edən Axund Şeyx Əbdül-Qəni ilə "Müsavat"ın lideri M.Ə.Rəsulzadə arasında olan mübahisə ilə məşhurlaşmışdı.[1]

Elə həmin mübahisənin nəticəsi idi ki, cəmi bir neçə gün sonra başlanmış Müsavat Partiyasının qurultayı ruhani çevrələrdə Şeyx Əbdül-Qəni Badkubeyi, el arasında isə qısaca Şeyx Qəni adı ilə məşhur olan bu şəxsin fəaliyyətini pisləyən xüsusi qərar qəbul etmişdi. Ümumiyyətlə, ruhanilər qarşısında siyasi mübarizəyə qoşulmamaq tövsiyəsini irəli sürmüşdü. Tədqiqatçıların yazdığına görə, bilavasitə firqə üzvü olmasa da, Şeyx Qəni Müsəlmanlıq Partiyasına rəğbət bəsləyən din xadimlərindən idi. Şəhərdə keçirilən bələdiyyə seçkiləri zamanı da firqəyə xeyli köməyi dəymişdi.

O, öz dövrünün çox savadlı və nüfuzlu din xadimlərindən idi. Nəcəfdə təhsil almışdı. Ali ruhani rütbəsinə, ayətullah mənsəbinə

[1] Yaqublu N. M.Ə.Rəsulzadə ensiklopediyası. Bakı, 2013, səh. 124.

sahib idi. Din xadimləri arasında çox böyük nüfuz göstəricisi sayılan ictihad dərəcəsi və əməliyyə risaləsi vardı. Bəşir bəy Aşurbəyovla da yaxın dost idilər. Çox da cəsur, sözünü deyən adam kimi ad çıxarmışdı.



Axund Şeyx Əbdül-Qəni

Bolşeviklər hakimiyyətə gələndə Şeyx Əbdül-Qəni Badkubeyini təhdid edirmişlər ki, minbərə qalxıb Leninin Peyğəmbərdən (s) daha ağıllı və üstün olduğunu desin, yoxsa onu öldürəcəklərini söyləmişdilər. Şeyx isə söhbətlərində deyirmiş: "O ki deyirlər Lenin ağıllı adamdır, düz deyirlər. Çünki ağıllı olmasaydı, bu boyda dövlət qura bilməzdi. Ancaq nə qədər ağıllı olsa da, Peyğəmbərin (s) ayaqqabısının bağı qədər ağıllı ola bilməz".

O, bu cür mövqeyinə görə dəfələrlə bolşeviklərin təqiblərinə məruz qalmışdı. Sonuncu dəfə isə onu 1930-cu ildə Bəşir bəy Aşurbəyovla eyni ildə həbs edərək İçərişəhər Cümə məscidinin önündə, xalqın gözü qarşısında vəhşicəsinə güllələmişdilər.[1] Başqa bir versiyada isə onun elə həbsxanada öldüyü yazılır.

Partiyanın bürosu İsmailiyyə binasında yerləşirdi. Burada eyni zamanda təşəbbüs qrupu üzvlərinin, yəni M.Mehdiyevin, Bəşir bəy Aşurbəyovun, Qasım Cəfərovun, Cəmaləddin Yukayevin, Ağa Zeynal Tağıyevin, Axund Molla Ələkbər Abbasquluzadənin, Axund Molla Hənifənin yaşadığı evlərdə hər gün firqənin məramnaməsi xüsusunda maraqlananlara məlumat verilir, yeni üzvlər qəbul olunurdu. Firqə rəhbərləri tez-tez Bəşir bəy Aşurbəyovun Bakının mərkəzindəki və Sabunçudakı imarətində də toplaşır, iclaslar keçirir və müzakirələr aparırdılar.

Oktyabrdan etibarən tədricən yerlərdəki ittihad məramı daşıyan cəmiyyət və təşkilatlarla birləşmə prosesi başlanır. Lakin bu proses ilk baxışda göründüyü qədər də rahat getmirdi. Hətta Bakının özündə

[1] Rəhimov N. Azərbaycan din alimləri. Bakı, "Nurlar", 2014, https://az.m.wikipedia.org/wiki/%C5%9Eeyx_Q%C9%99ni_Axund_Badkubeyi

də Rusiyada Müsəlmanlıq Firqəsinə qoşulmayan xeyli sayda ittihad məsləkli ziyalı vardı. Bunun səbəbi isə partiyanın siyasi üzünün bir çoxları üçün hələ də qaranlıq qalması ilə bağlı idi. Çünki firqənin tərkibi yekcins deyildi. Ona görə də gözləmə mövqeyi tutan və bu firqə ilə birləşməyən həmin ittihad məsləkli ziyalılar çox keçmədən başda Ceyhun bəy Hacıbəyli olmaqla müstəqil "İttihad" qəzetinin nəşrinə başlayırlar.

QARABƏY QARABƏYOVUN "İTTİHAD"A GƏLİŞİ

"Hər bir dövrün müvafiq düşüncəli insanlara ehtiyacı olur. Tarix üçün yaşamaq isə böyük şücaət tələb edir".
P.Kapitsa

1918-ci ilin yanvarında Bakıda fəaliyyət göstərən Rusiyada Müsəlmanlıq Partiyası ilə Gəncədəki "İttihadi-İslam" cəmiyyətinin qovuşması ittihad məsləkli qurumların birləşməsi prosesini başa çatdırır. Firqə "İttihadi İslam – Rusiyada Müsəlmanlıq" adlandırılır.

Burada mübahisəli bir məqamı da aydınlaşdırmaq yerinə düşərdi. Sovet tarixşünaslığı "İttihad"ın lideri, görkəmli ictimai xadim, təbib Qarabəy Qarabəyovu eyni zamanda firqənin təşkilatçısı kimi qələmə verir. Bu isə həqiqətə uyğun deyil. Doğrudur, onu partiyanın yaradılması işinə cəlb etməkdən ötrü təşəbbüs göstərilmişdi. Lakin Qarabəyov da Rusiyada Müsəlmanlıq Firqəsinin tərkibində qeyri-demokratik ünsürlərin mövcudluğunu bəhanə edərək, əvvəlcə bu xahişi rədd etmişdi. O, yalnız 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu Bakını aldıqdan sonra həmin firqəyə daxil olmuşdu. Çox keçmədən də firqənin əsas ideya rəhbərlərindən birinə çevrilmişdi.

Bu partiyanın yaradıcıları isə ilkin təşkilat komitəsində təmsil olunan Bəşir bəy Aşurbəyov və digər həmfikirləri idi. Ola bilər ki, Qa-



Qarabəy Qarabəyov

rabəy Qarabəyovun sonradan bu firqəyə gəlməsində onun partiyanın əsas yaradıcılarından və ideya rəhbərlərindən biri olan Bəşir bəy Aşurbəyovla qohumluq əlaqələri də mühüm rol oynamışdı.

Qeyd etdiyimiz kimi, Qarabəy Qarabəyov Bəşir bəy Aşurbəyovun həyat yoldaşı Nəzakət xanımın doğma bibisi oğlu idi. Qarabəy Qarabəyov başqa bir xətlə də Bəşir bəy Aşurbəyova qohum düşürdü. Belə ki, o, 1901-ci ildə Bəşir bəyin yaxın qohumlarından olan məşhur xeyriyyəçi Nabat xanım Aşurbəyovanın nəvəsi Məsumə xanımla ailə həyatı qurmuşdu. Onların Tamara, Reyhanat və Arfa adlı üç qız övladı dünyaya gəlmişdi. Bəşir bəy Aşurbəyovla təxminən həmyaşıd olan Qarabəy onun şəxsiyyətinə böyük hörmət bəsləyirdi. Etiraf edək ki, tarixi ənənələrdən irəli gələrək bu cür amillər, qohumluq əlaqələri siyasi tariximizdə müxtəlif hadisə və proseslərə həmişə özünəməxsus şəkildə təsir göstərib. Bu baxımdan Qarabəy Qarabəyovun 1918-ci ildə sözügedən firqəyə daxil olaraq quruma rəhbərlik missiyasını üzərinə götürməsində Bəşir bəy Aşurbəyovun təsiri, onunla apardığı danışıqlar, təbii ki, istisna sayılmamalıdır.

Qarabəy Qarabəyov 1873-cü ildə Gəncə quberniyasının Yuxarı Ayıblı (indiki Şəmkir rayonunun Şiştəpə kəndi) kəndində anadan olmuşdu. Şəmkir Alman-Rus Liseyini, daha sonra Tiflis Klassik Gimnaziyasını bitirmişdi. 1892-ci ildə Moskva Universitetinin Tibb fakültəsinə daxil olmuş, 1896-cı ildə siyasi fəaliyyətinə görə bir il həbs çəkmiş, sonra təhsilini Yuryev (Tartu) Universitetinin Tibb fakültəsində davam etdirmişdi. 1899-cu ildə universiteti bitirdikdən sonra iki il Moskvada işləmiş, 1901-ci ildə Bakıya qayıtmış, şəhərdə ilk dəfə olaraq zöhrəvi xəstəliklərin müalicəsi üzrə kabinet açmışdı. Qarabəy ictimai-siyasi fəaliyyətə 1905-ci ildə baş vermiş inqilabdan sonra başlamışdı. O, Rusiya müsəlmanlarının ilk qurultayında iştirak etmiş, "İttifaqül-müslimin" təşkilatının üzvlərindən Ə.Ağayevin yaratdığı "Difai"nin rəhbərlərindən olmuşdu. Bəzi mənbələrdə Qarabəyin hətta "Hümmət"

təşkilatının yaradılmasında da fəallıq göstərdiyi bildirilir. O, publisist kimi "Həyat", "Kaspi" və İsa bəy Aşurbəyovun naşiri olduğu, habelə-Bəşir bəy Aşurbəyovun bir vaxtlar maliyyələşdirdiyi "İrşad" qəzeti ilə fəal əməkdaşlıq etmişdir.

1906-cı ildə Qarabəy İrana gedərək inqilabi fəaliyyətini orada davam etdirir. 1908-ci ildə isə İstanbula gəlib "Səadət" adlı təşkilat yaradır. Həmin il hakimiyyətdə olan "Gənc türklər" Qarabəy Qarabəyova vəzifə təklif etsələr də, bundan imtina edir. 1911-ci ildə Bakıya gəlib həkimlik və publisistik fəaliyyətini davam etdirməyə başlayır. 1911-1912-ci illərdə "Haqq yolu" adlı jurnal buraxır. Müsəlman ictimai həyatının liderlərindən biri kimi 1908-ci ildə o, Ə.Ağayev və Ə.Hüseynzadə ilə birlikdə şeyxülislamı seçmək hüququnun müsəlman əhalisinə verilməsi tələbi ilə Qafqaz canişinliyinə göndərilən məşhur nümayəndə heyətinin tərkibinə daxil olur, İstanbuldan Tiflisə gələrək canişinlə görüşdə iştirak edir.[1]

Zəngin biliklərə malik olan bu adam Azərbaycanda ilk ikicildlik türk-rus lüğətini nəşr etdirmişdi. Sonra "Dikaya diviziya"nın əsas həkimi olur və bir çox hərbi əməliyyatlarda iştirak edir. O, görkəmli klassiklərimizdən Məhəmməd Hadi ilə çox yaxın dost idi. Kasıblıqdan küçələrdə sərgərdan həyat sürən, şeirlərini satıb dolanmaq məcburiyyətində qalan şairin aclıqdan, baxımsızlıqdan tələf olmaması üçün onun da molla kimi "Dikaya diviziya"nın tərkibində xidmət etməsinə imkan yaradır.

Fevral inqilabından sonra Bakıya qayıdan Qarabəyov "Kaspi" və "Yeni həyat" qəzetlərinin baş redaktoru olur. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri mart soyqırımından sonra Bakını tərk edərək bir müddət Dağıstanda yaşayır. 1918-ci ilin sentyabrında yenidən Bakıya qayıdaraq Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə keçirilən əlavə seçkilərdə parlament üzvü olur. 1919-cu ilin aprelində isə İttihad Partiyasının sədri seçilir və parlamentdə "İttihad"çılar fraksiyasına rəhbərlik edir.

Qarabəyov hələ firqə rəhbərliyinə gətirilənə qədər də "İttihad"da əsaslı dəyişikliklər baş vermişdi. Partiyanın yarandığı gündən onun da-

---

[1] Dadaşov A. Qarabəy Qarabəyov. Bakı, "Letterpress", nəşriyyatı, 2012, səh. 68-69 ru.wikipedia.org/wiki/İttihad Partiyası

xilində mühafizəkarlarla radikallar arasında gedən mübarizə sonuncuların qələbəsi ilə başa çatmışdı. Bunun nəticəsində və eyni zamanda mövcud ictimai-siyasi cərəyanların şaxələnməsi prosesinin güclənməsi ilə, xüsusən də "Müsavat"ın I qurultayından sonra ittihad məsləkli bir sıra şəxslərin "Müsavat"dan uzaqlaşaraq kütləvi şəkildə Rusiyada Müsəlmanlıq Firqəsi sıralarına gəlməsi baş vermişdi. Tarixçilər yazırlar ki, firqə daxilində baş verən ideoloji qütbləşmə bir neçə mühafizəkar düşüncəli şəxsin Müvəqqəti Mərkəzi Komitədən uzaqlaşması ilə nəticələnmişdi. Bu da firqənin təşkilati qabiliyyətinin müəyyən qədər zəifləməsinə səbəb olmuşdu. Digər tərəfdən, partiyanın əsas təşəbbüsçülərindən biri olan Bəşir bəy Aşurbəyovun şəxsi səbəblərlə bağlı 1918-ci ilin fevralında İrana müvəqqəti mühacirət etməyə məcbur olması da partiyanın gücünü müəyyən qədər itirməsinə gətirib çıxarmışdı.

Ermənilərin törətdikləri mart soyqırımı partiyanın təşkilatlanması işinə xüsusilə böyük ziyan vurmuşdu. Bakıda çıxan digər türk qəzetləri kimi, "İttihad"ın nəşri də mart soyqırımından sonra dayandırılmışdı. Tədqiqatçılar yazırlar ki, İttihadi-İslam Rusiyada Müsəlmanlıq Firqəsinin S.M.Qənizadə, M.Y.Mehdiyev və H.Q.Məhəmmədbəyovdan ibarət seym fraksiyasının Tiflisdə fəaliyyəti onun mövcudluğunun yeganə nişanəsinə çevrilir.

Lakin 28 may 1918-ci ildə Azərbaycanın öz istiqlalını elan etməsindən sonra hadisələrin təbii inkişafının nəticəsi kimi partiyanın həyatında hərtərəfli canlanma baş verir. Tezliklə Bəşir bəy Aşurbəyov da İrandan qayıdır və yenidən təşkilatlanma işlərinə dəstək olmağa başlayır. "İttihad" qəzetinin nəşrini bərpa edir.

Doktor Qarabəyovun firqəyə gəlişi də burada böyük canlanma yaradır. Onun bilavasitə rəhbərliyi ilə partiya proqramına bir sıra radikal müddəalar əlavə edilir. Bir müddət durğunluq keçirən "İttihad"ın təşkilati fəaliyyəti xeyli güclənir. Bəşir bəy Aşurbəyov, Qarabəy Qarabəyov və digər həmfikirləri öz tükənməz enerjiləri ilə İttihad Firqəsini Azərbaycan Xalq Cümhuriyyəti dövründə çox qısa müddətdə "Müsavat"dan sonra ən güclü siyasi təşkilata, müasir dillə desək, ana müxalifət partiyasına çevirə bilirlər.

İttihad Partiyasının tarixinin mühüm bir mərhələsi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aiddir. "İttihad"ın parlamentdəki fəaliy-

yətinə doktor Qarabəyov firqə adından elan etdiyi bəyannamə ilə başlamışdı. Partiyanın amal və məramlarını açıqlayan və formalaşmış proqram şəklində olan bu bəyannamə kifayət qədər demokratik prinsiplər üzərində qurulmuşdu. Bəzi müddəaları isə dövrünə görə yetərincə cəsarətliliyi və radikallığı ilə fərqlənirdi. Ona görə də sənədlə tanışlıq "İttihad"a orta əsr qaydalarına əsaslanan mürtəce təşkilat damğası vuranların bütün təbliğat aparatının yalnız böhtana və təxribata əsaslandığını ortaya qoyur.

Bəşir bəy Aşurbəyovun yaradıcılarından olduğu bu firqə Azərbaycanın müstəqilliyinin qızğın tərəfdarı kimi çıxış edirdi. Rusiyaya münasibətə gəldikdə isə, qeyd edilməlidir ki, Bəşir bəy Aşurbəyov və partiyadaşları bu məsələdə mümkün qədər ehtiyatlı mövqe tutmağa çalışırdılar.

Proqramda bizim üçün ən maraqlı cəhət Bəşir bəy Aşurbəyov və partiyadaşlarının burada Azərbaycan ziyalılarına verdikləri aparıcı roldur.

1919-cu ilin aprel ayının 10-da partiyanın I qurultayı çağırıldı. Bakı Bələdiyyə Dairəsinin binasında (indiki Bakı Şəhər İcra Hakimiyyətinin binası) keçirilən bu məclisdə hər 20 nəfərdən bir nümayəndə seçilməklə firqənin Bakı, Qazax, Ağdam, Ağdaş, Göyçay, Quba bölgələrində yerləşən bütün şöbələrindən gəlmiş 300 "İttihad"çı iştirak edirdi. Gündəlikdə aşağıdakı məsələlər qoyulmuşdu: 1) Mərkəzi Komitənin üzvlərinin seçilməsi; 2) Proqram məsələsi; 3) Cari məsələlər.

İki gün davam edən iclasa hüquqşünas Şirin bəy Səfərəliyev sədrlik edirdi. Katibliyə isə Əbdül Qafur bəy seçilmişdi. Məclis Qarabəy Qarabəyovun partiyanın fəaliyyəti barədə hesabatı ilə başlandı.

"İttihad" qəzeti yazırdı ki, natiqlərin müasir nitqləri hazırın (iştirakçıların) üzərində böyük təsirlər yapmış, məmləkət və millətimizdə ruhi-siyasiyyənin təclisinə və bu surətlə övladi-vətənin tərəqqi və təkamülünə bir peki yol açmışdır. İclasın ikinci günü proqram müzakirələrinə həsr edilmişdir. Qarabəyov bu barədə nitqini "müsəlman dünyasında islamsız mədəniyyət, maarif, vətəndaşlıq sahəsində inkişafın mümkün olmadığı kimi, İslamın siyasi kodeksi kimi də bizə verdiyi hazır təşkilat formulunu kənara ata bilmərik" sözləri ilə başlayaraq, əslində, məramnamədə firqə ideallarının toxunulmaz

qalacağına işarə vurmuşdur. Bununla belə, proqramda bir sıra ciddi dəyişikliklər də edilmişdi. Əsas mübahisələr isə torpaq məsələsinin müzakirəsi zamanı baş vermişdi.

Sonda qurultayın qərarı ilə partiyanın adı dəyişdirilmiş və Qafqaz İttihad Firqəsi adlandırılmışdır. Məclis Mərkəzi Komitəyə seçkilər keçirmiş, bu orqan 22 nəfərdən ibarət olmaqla bir il müddətinə seçilmişdir. Komitəyə aşağıdakı şəxslər daxil olmuşlar:

Qarabəy Qarabəyov, Sultan Məcid Qənizadə, Heybətqulu Məhəmmədbəyov, Mir Yaqub Mehdiyev, Qazı Əhməd bəy (Xanbaba) Məhəmmədbəyov, Ağa Zeynal Tağıyev, Həmidulla Əfəndi Əfəndizadə, Bəhram bəy Vəzirov, Hacağa Babayev, Əsəd bəy Əmirbəyov, Ağa bəy Səfərəliyev, Bəşir bəy Aşurbəyov, Əlibəy Zizikski, Qara bəy Əlverdilər, Əşrəf Tağıyev, Ağalar bəy Səfikürdlü, Mahmud Quliyev, Şirin bəy Səfərəliyev, Zeynal bəy Vəzirov, Əbdül Qafur Əfəndi, Həmid bəy Cavanşir, Camal Əfəndi Nakaşidze.

Axırda Məclisi Müəssisana seçkilər məsələsi və partiyanın hökumətə qarşı tutacağı siyasi mövqe müzakirə edilmiş, yeni şöbələrin açılması ilə əlaqədar fikir mübadiləsi aparılmışdır. Bundan sonra sədr gündəlikdə olan bütün məsələlərin müzakirə edildiyini bildirmiş və axundun duası ilə məclis qapanmışdı.[1]

Aprelin 14-də yeni təşkil olunmuş Mərkəzi Komitənin plenar iclası keçirilmiş, burada firqənin 11 nəfərdən ibarət İcraiyyə komitəsi yaradılmışdır.

Birinci qurultaydan sonra partiya yetərincə siyasi nüfuz toplayaraq Azərbaycanın ikinci böyük siyasi partiyasına, ictimai-siyasi həyatın əsas ifaçısı və qurucularından birinə çevrilmişdi. Quba, Göyçay, Gəncə, Zəngəzur, Qarabağ, Zaqatala, Şəki, Qax, Kürdəmir bölgələrində quruculuq işləri daha sürətlə aparılırdı. Cavanşir, Ağdam, Şuşa, Cəbrayıl qəzalarında firqənin şöbələrinin sayının çoxalması və eyni zamanda Qarabağda böyük nüfuza malik Şuşa Xeyriyyə Cəmiyyətinin "İttihad"a daxil olmaq haqqında qərarı 1919-cu il sentyabrın 2-də bu şəhərdə mərkəzləşdirilmiş Qarabağ Quberniya Komitəsinin yaradılmasına gətirib çıxarır.

İslam amilinin ənənəvi şəkildə böyük dayağa malik olduğu Bakı kəndlərində də firqənin təşkilatlarının sayı get-gedə artırdı. 1919-cu

[1] "İttihad" qəzeti, 24 aprel 1919.

ilin iyul-sentyabr aylarında belə qurumlar Balaxanı, Suraxanı, Bibiheybət, Ramana, Sabunçu kəndlərində, Benkendorf Mədən Dairələrində yaradılmışdı. Əmircan, Bülbülə və bir sıra başqa kəndlərdə isə şöbələr hələ 1917-ci ildən fəaliyyət göstərirdi. Bakı və Bakıətrafı bölgələrdə İttihad Partiyasının geniş dəstək qazanmasında əhali arasında yüksək nüfuza malik olan Bəşir bəy Aşurbəyov kimi funksionerlərin rolu, şübhəsiz ki, böyük idi. Partiyanın yerlərdəki şöbələrinin sayı 600-ü ötmüşdü. Ölkənin iri yaşayış məntəqələrində isə qəza və quberniya miqyasında firqəyə rəhbərliyi mərkəzləşdirən 30 iri komitə yaradılmışdı.

Partiyanın intensiv təşkilati fəaliyyəti ilə yanaşı, keçirdiyi siyasi aksiyalar, mitinqlər və xeyriyyə gecələri də bu qurum haqda müsbət ictimai fikrin formalaşmasını stimullaşdırır, beləliklə, möhkəmlənməsinə, şaxələnməsinə imkan yaradırdı. Məsələn, Mərkəzi Komitənin 18 may 1919-cu il tarixli iclasında Azərbaycanı daşnak-bolşevik terrorundan xilas edən Nuru paşanın müttəfiqlər tərəfindən Batumda və Ə.Ağayevin Parisə gedərkən İstanbulda həbsləri ilə əlaqədar xüsusi etiraz tədbirlərinin keçirilməsi planı tərtib olunmuşdu. İyun ayında isə İttihad Firqəsi tərəfindən Gəncədə Nuru paşanın həbsdən azad edilməsi tələbi ilə iri bir etiraz mitinqi keçirilmişdi. Tezliklə mitinqlər dalğası Qazax, Nuxa, Şuşa, Ağdama da yayılmışdı.

"BİR PİYALƏ ÇAY"

"Cəmiyyət o zaman çiçəklənir ki, onun zənginləri maarifpərvər və xeyriyyəçi olurlar".
Əbu Turxan

Başir bəy Aşurbəyov kimi "İttihad"çı liderlərin təşəbbüsü, təşkilatçılığı və maliyyə dəstəyi ilə hazırlanan kütləvi tədbirlər sırasında "Bir piyalə çay" adlı xeyriyyə məclisləri xüsusi maraq kəsb edirdi. Bu məclisləri Bakı ziyalıları böyük sevinclə qarşılayardılar. Məşhur incəsənət xadimlərinin iştirakı ilə təşkil olunan bu cür ziyafətlərdə qabaqcıl ictimaiyyət nümayəndələri yığışar, xeyriyyə məqsədilə ianələr toplanar, fikir mübadiləsi aparılar, tamaşalar göstərilər və sərgilər nümayiş etdirilərdi.

"Bir piyalə çay" məclisləri haqqında ümumi təsəvvür yaratmaqdan ötrü onlardan ikisi – 1919-cu ilin aprelində və 1920-ci ilin yanvarında keçirilən məclislər barədə məlumat vermək istərdik.

1919-cu il aprelin 24-də Bakı İctimai Məclisinin yay salonunda (indiki Filarmoniya) verilmiş ziyafətdə rus opera artistləri də iştirak edirdilər. "İttihad" qəzeti yazırdı ki, hətta gecəyə dəvət olunmayanlar tərəfindən də iri məbləğlərdə ianələrin təqdimi cəmiyyətin bütün təbəqələri arasında partiyaya böyük rəğbət bəslənildiyini göstərirdi. Qəzet ziyafətin uğurla yola verilməsi üçün Pəri xanım Topçubaşova, L.Muxtarova, S.Səlimxanova, Q.Mahmudbəyova xanımlarına, Bakı zənginlərindən Bəşir bəy Aşurbəyova, İsa bəy Aşurbəyova, Ağa Axundova, Ağalar bəy Mahmudbəyova firqənin təşəkkürünü bildirirdi.

1920-ci il yanvarın 10-da keçirilən ikinci "Bir piyalə çay" xeyriyyə ziyafəti də xüsusi təntənə ilə təşkil olunmuşdu. Məclis barədə ve-

rilmiş elanda bildirilirdi ki, gecə 3 hissədən - 1) Azərbaycan; 2) Türk (türk qadın və kişi artistlərinin iştirakı ilə); 3) Avropa hissələrindən ibarət olacaq. Məşhur rəssam Əzim Əzimzadə tərəfindən tərtib edilən dekorasiya və şərait firqə ideyalarını rəmzləşdirəcəkdir. Məhz bu gecə üçün Qarabağdan aşıqlar dəvət olunacaqdır. Yenə də həmin yerdə, yəni Bakı İctimai Məclisinin yay salonunda keçən bu gecə barədə hətta daim "İttihad"a müxalif münasibət bəsləyən "Azərbaycan" qəzeti də xüsusi məlumat verərək yazırdı: "İttihad Firqəsinin yay klubunda güşad etdiyi "Bir piyalə çay"a bir çox camaat və hökumət adamları təşrif etmişlərdi. Türkiyədən paytaxtımıza gəlmiş türk müəllim və müəllimələri də bu məclisdə iştirak etmişlər. Bəzi xanım əfəndilər piano çalaraq hazırın təqdir və alqışlarına məzhur olmuşlar. Azərbaycan milli təamlarından, milli rəqslərindən göstərilmiş və ziyafət müvəffəqiyyətlə keçmişdir. Məclisin ortasında Bakıda bulunan İran rəsmi nümayəndə heyəti dəxi təşrif gətirmişdi. Gürcüstan səfiri dəxi bulunuyordu. Məclisdə İran heyəti ezamiyyəsinə böyük alqışlar edilmiş və hörmətlə qarşılanmışdır...

Kiçik bir səhv bulunmuş isə də, ümumən, dünən gecəki "Bir piyalə çay" məclisi İttihad Firqəsinə olduqca hasilat buraxmış və bütün tamaşa müvəffəqiyyətlə qurtarıb gecə gec vaxta qədər davam etmişdir". [1]

Adıçəkilən kiçik bir səhv isə "Azərbaycan"ın yazdığı kimi "teatr tamaşası zamanı aktyorların İran haqqında bir qədər bəyənilməyən sözlər işlətməsi" imiş ki, bunun da nəticəsində, guya, İranın nümayəndə heyəti məclisi tərk etmişdi. Qəzet irad tutaraq yazır ki, "öylə məclisləri tərtib edən zəvvat nəzakəti-siyasiyyəyə riayət etməlidir". Hər halda xırda iradla da olsa, "İttihad"a heç də müsbət münasibət bəsləməyən "Azərbaycan" qəzetinin ziyafətin yüksək səviyyədə keçdiyini xüsusi qeyd etməsi, sözsüz ki, firqənin artan nüfuzunu əyani şəkildə sübut edirdi.

"İttihad"ın keçirdiyi kütləvi tədbirlər içərisində onun ayrı-ayrı şöbələri tərəfindən təşkil edilən xeyriyyə məqsədli teatr tamaşalarını da misal çəkmək olar. Məsələn, belə tamaşalardan biri firqənin Balaxanı şöbəsi tərəfindən 1919-cu ilin dekabrında keçirilmiş və xeyli səmərə vermişdi. Yığılan vəsait isə qaçqınlara paylanmışdır.

[1] "Azərbaycan" qəzeti, 12 yanvar 1920.

MƏTBUAT TARİXİMİZİN "İTTİHAD"I

"Hər dövr deyə bildiyini deyir, edə bildiyini edir".
Jil Delez

Nəhayət, firqə həyatında xüsusi yer tutan, onun tanınmasında əvəzsiz əhəmiyyəti olmuş rus və Azərbaycan dillərində çıxan İttihad qəzetləri haqqında...

H.Q. Məhəmmədbəyov xatirələrində yazır ki, bu qəzetlər "hökumətin siyasətindəki səhv cəhətləri və fəaliyyətində yol verdiyi qanunsuzluqları ifşa etmək bacarığı ilə firqəyə geniş kütlə arasında böyük rəğbət qazandıra bilmişdilər".

"İttihad" qəzeti 1917-ci ilin dekabr ayının 4-dən etibarən çıxmağa başlamışdı. Sovet tarixşünaslığında Rusiyada Müsəlmanlıq Firqəsinin orqanı kimi qələmə verilən bu qəzet, əslində 2 ay, yəni 1917-ci ilin dekabr ayının 4-dən 1918-ci ilin yanvarın sonu, fevralın əvvəlinədək Ceyhun bəy Hacıbəylinin redaktəsi ilə müstəqil şəkildə fəaliyyət göstərir. 1918-ci ilin fevralından etibarən rəsmi qəzet kimi "Azərbaycan"ın çapına başlanır. Ceyhun bəy qəzetə redaktor vəzifəsinə dəvət edilir. O, həm də "İttihad"ın naşiri olduğundan onun getməsi ilə bu qəzetin bağlanma təhlükəsi yaranır. Belə bir şəraitdə Rusiyada Müsəlmanlıq Firqəsi və "İttihad" qəzetinin əməkdaşları arasındakı danışıqların nəticəsinə əsasən qəzet firqənin rəsmi orqanına çevrilir. Beləliklə,"İttihad" qəzeti 59-cu nömrəsindən etibarən Rusiyada Müsəlmanlıq Fırqəsinin rəsmi orqanı kimi çıxır. Partiyanın orqanı kimi fəaliyyətdə olduğu dövrlərdə Bəşir bəy Aşurbəyov bu qəzetin nəşrinə də fəal şəkildə maliyyə köməyi göstərirdi. O, bundan əvvəl – 1917-ci ilin 22

№ 1. Понедѣльникъ 4 декабря 1917 г. Изданія годъ 1-й.

برنجی سنه دوامیسی

نمره ۱ دوشنبه ربیع‌الاول ۲ ۱۳۳۵

Ежедневная общественно- политическая и литературная газета

„ИТТИХАДЪ.

Journal quotidien social et politique

„ITTIHAD"

á Bacou.

Рукописи присланныя безъ обозначенія условій считаются безъ платежными

اتحاد

سیاسی، اجتماعی، وادیی گوندەلك غزتەدر

عزتەمزك مسلكنه موافق مقالەلرە همه وقت برويريلير. مقاله يك مجانی ويا غيری مجانی اولماسنی مقاله ساحبی گوستەرمەليدر. قبول ايدلمين مقالەلر اعادە اولنمازلر.

ادارەيه عائيد ايشلردن اوتری هرهانكی آيتەدكه آدرسه رجوع ايديلمه ليدر: قوينسكی كوچه، نمره ۵۱، تلفون ۴۷-۴۲ آخشام ساعت ۵دن ۹يه‌دك.

آبونه و اعلان ايچون «سيمی» عزتەسی كاتورنه رجوع ايديلمه ليدر. عنوان دكشه بهاسی ۱ مناط.

يك نسخه‌سی ۲۰ قپك

وكيللر لازمدر

غزته مزی الده ساتدرماق ايچون باشقه شهرلرده و برلرده وكيللرلازمدر. خواهش ايدنلراداره‌ميزه رجوح‌ايتمه ليدرلر. نيچه‌نسخه آپارتدرلمالی اولدقلرينی قباقچه گوندرمه‌ليدرلر.

وكيللره نسخه‌سنی ۱۶ قپك حساب اولنماجاق؛ پوسته مخاجی‌اداره‌يه عائددر.

اداره‌دن اخطار:

مقاله ساحبلرندن و مخبرلرمزدن چوخ چوخ توقع اولنور كه بەقدرامكان جماعت‌ايچون آگلاشمالی آچيق و آيدين تركآذربايجان لهجه‌سنده يازوب، چوخده عباره ايشاته‌سونلر؛ و همچنين صحيفه‌نك بر يوزنده يازسونلر و سيخ سيخ يازماسونلر؛ دەدك ايچون قويسونلار.

„اتحاد"

تورك آذربايجان دائده جمعه وبايرام گونلری‌ايرته‌سندن ماعدا هر گون چيقاجاق. سياسی، اجتماعی‌وادبی «اتحاد» غزته‌سنه آبونه دفتری آچيلدی. ايندیكه بعرائلی زندە هيچ بر شيئ قيمتی مدام‌بر درجه قالماسنه اميد اولمادغنا كوره ايلك آبونه قيمتی تعين ايتمك دوغرو دكلدر. اونا گوره «اتحاده»ه‌ايلك بويله قيمت قويولمشدر، غيرشهرلرايچون ۳ آيلغی ۱۲ مناط، ۲ آيلغی ۸ مناط، ۱ آيلغی ۴ مناط ياريم.

باكوايچون: ۳ آيلغی ۱۱ مناط، ۲ آيلغی ۷ مناط، ۱ آيلغی ۴ مناط.

اعلان قيمتی خولاصه‌ده‌يروخوالاباكوايچون‌بردر: صحيفه‌دن‌فياق طلری‌برمناط‌ياريم، صوك دەدكی، ۱ مناط دائمی ودفعاتيله درج ايديلەجك اعلانلارايچون گذشت اولنور.

Подписная плата: 3 мѣсяца — 2 руб., 2 м. — 8р., 1 м. 4р 50к. для ино городнихъ Для городскихъ: 3 м. — 11 р., 2 м. — 7 р., 1 м. — 4 р. Плата за объявленія: за строку впереди текста (1 р.), позади текста — 1р; для многократныхъ объявленій значительная скидка. Пописка и объявленія принимаются временно въ конторѣ газ. «Каспій» на Николаевской ул. отъ 4 до 6 ч. вечера. Письма и деньги редакція временно проситъ присылать по Кубинской ул., 15 кв. 10 отъ 5 до 6 ч. вечера, тел. 47 - 42

۱ ربیع‌الاول

مراسم

آوروپاده محاربهٔ كبيرينك نتيجه‌سی اولاراق بتون دنيا و ازانجمله روسيه مملكتی سقطی بر حالده قحط و غلا قارشوسنده گذران ايدەيور. بو گونله صباحه‌اميد باغلامالی دكلدر. ايش او يره يتمشدر كه انسانلار قورقوجه چورگه محتاج قالوب بر قارنی توخ برقارنی آج دولانيرلار.

باشقه اوقات هربر يرده چوخ چوخ اولان شيئلر غيب اولمش كيبی‌درلر. نه‌ايسه ماكولات، نه اينكه‌بر چورك هربر شيئی بوخ اولوب گيتمشدر و تاپيلدقدادا قانی قيمتله اله كچورمك ممكن‌در.

يوخ اولمش كيبی شيئلردن بريده غزته كاغذيدر.

بيچه كه معلومدر، محاربه‌دن اقدم ۵قپكه ساتيلان غزته‌نسخه‌سی ۵ ايمدی ۲۰قپكه قالخمشدر، بلكه بوندان دها بوخاری قالخاجسدر. بوراسی تعجب آميز برشئی دكلدر. چونكه محاربه‌دن اقدم يوطی۵-۴ مناط اولان كاغذك يوطی بندی ۹۰-۱۰۰مناطه چاتمشدر و بوقيمته دها كاغذ اله گئورمك غير ممكن در، گرك خصوصی اجازه وريله، پتروغراددە كی وياژی- كاغذی قوميته‌سندن، اذن آلناه‌بودا كچوخ چينلگيه و تاخيريله باشه كه‌سی شئی‌در.

بعده، محاربه‌دن اقدم يده ۵۰-۶۰ مناط قازانان غزته وتبی ايمدی ۳۰۰-۳۵۰ مناط مباجب آليرء چونكه‌الته‌اونگه گيرانی كيچيور، هر بر شئی بره‌اوزدەسه بهالانمشدر.

همچنين چاپ خرجی، اداره خرجی، كاتور و الخ - قباقگيار نسبتا بهالانمشدر. و غزته فلان نشر ايلمك ايمدی خيلی چتين امرلردن بری اولمشدر، بلكه‌ده‌ناممكن‌در.

پس زمانه‌نك بويله بر چتين بويله‌بر هر بر چندن‌بحرانلی‌وتحنده خيلی بر مشكلاتيله بزم «اتحاد» غزته‌سنی چيخارتمافه‌زه گور وتور، كه يولك و اهميتلی سيبل واردر.

بلی، دوغريسی همان سيبلريزی وادار ايتديكه هيچ بر چتينلكه باخمياراق، بو غزته‌نی چخاردوب مسلمانلارك خدمتلرينه پيشنهاديدك كه اونلار گوزلرينی آچوب گورسونلر كه‌ايش نه‌يره‌دەدر، زمانه نه زمانه‌در و بوئی يولوبده اوز حركتلرنده، اوز سياستلرنده‌قلی، دوز گون اولسونلار.

همان سيبلرك الصدەسی - زمانه‌نك بويله بر سم وقتنده بز مسلمانلار آراسنده گورونن تفرقه‌لردن، بر بيرلرينه قارشی چيخمالردن، بر بيرلرينی بوغماقدن، بر بيرلرينی يوتماقدن، بر بيرلرينی ياقماقدن، بر بيرلرينی ياقماقدن، بر بيرلرينی ياق

oktyabrından Rusiyada Müsəlmanlıq Partiyasının "Müsəlmanlıq"qəzetinin də nəşrini maliyyələşdirmişdi.

"İttihad" qəzeti "Güc ittihaddadır!" şüarı ilə nəşr olunurdu. Daşnakların azərbaycanlılara qarşı törətdikləri mart soyqırımı nəticəsində nəşri müvəqqəti olaraq dayandırılan bu qəzet 1919-cu ilin fevralından partiya orqanı kimi yenidən çap olunmağa başlamışdı.

"İttihad"ın 1918-ci və 1919-cu ilin aprelinə qədərki nömrələri redaksiya heyətinin (heyəti-təhririyyə) rəhbərliyi ilə çıxırdı. 1919-cu ilin aprelində isə qəzetə "Acaralı Camal" təxəllüsü ilə Qafqaz İttihad Firqəsi Mərkəzi Komitəsinin üzvü Camal əfəndi Nakaşidze baş mühərrir təyin olunur. Lakin Camal əfəndi Nakaşidzenin fikir ixtilafları üzündən partiyanı tərk etməsi onun qəzetin mühərrirliyindən də getməsi ilə nəticələnir.[1]

1920-ci ilin yanvarından qəzetə Qarabəy Qarabəyov rəhbərlik etməyə başlayır. İlk vaxtlar gündəlik çıxan "İttihad"qəzeti 1919-1920-ci illərdə ayda yalnız bir-iki dəfə çap olunurdu. "İttihad"ın əsas müəllifləri Ceyhun bəy Hacıbəyli, Qarabəy Qarabəyli, Axund Molla Ələkbər Abbasquluzadə, Ceyhun bəy Tağızadə, Ə.H.Cabbarlı, Məhəmməd Hadi, Mirzə Bala Məmmədzadə, Hacı Mir Mövsün Qasımzadə, Bəhlul Behcət, Məhəmməd ağa Şahtaxtlı və başqaları idi. "İttihad" qəzeti geniş proqramla fəaliyyət göstərirdi. Səhifələrində firqənin siyasi mövqeyinə, Qafqaz, Rusiya və İranda baş verən siyasi proseslərə aid məqalələr, sosial problemlərə dair yazılar, ictimai qüsurları tənqid edən felyetonlar, azadlığı tərənnüm edən şeirlər, Bakı və qəzaların həyatına dair məlumatlar dərc olunurdu.[2]

Rus dilində çıxan "İttihad" qəzeti isə 1919-cu ilin fevralından nəşr olunurdu. Həmin ilin iyul ayına kimi redaksiya heyəti tərəfindən çapa hazırlanırdı. İyul ayından etibarən qəzetin redaktoru vəzifəsi MK-nın sədr müavini Qazı Əhməd bəy Məhəmmədbəyova həvalə edilmişdi. İttihad Partiyasının 1920-ci ilin yanvarında keçirilən qurultayında hər iki qəzetin nəşrinin təkmilləşdirilməsinə dair xüsusi bir qərar qəbul olunmuşdu. Doktor Qarabəyov həmin qərarı şərh edərək yazırdı: "İttihad" qəzetəsini camaatımızın hər qism dərdlərinə, şikayətlərinə

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II. Bakı: "Lider", 2005, səh. 68.
[2] Yenə orada.

açıq qapı halına salmaqdan ötrü firqəmiz bir çox səylər etmişdir. Qəzetədə məmləkətimizin ümumi ehtiyaclarından yazmaq üçün xüsusi yazıçılar çağırılmış və yeni İdarə Heyəti düzəldilmişdir. Gözəl və aydın hal ilə çap edilmək üçün yeni hərflər sifariş edilmişdir. Binən aliyə "İttihad" qəzetəsi yaxın günlərdə olduqca asan dil ilə yazılmaqla Azərbaycanın, xüsusən aləmi-İslamın, ümumən, siyasi, ictimai, tarixi, iqtisadi həyatından bəhs etmək üzrə həftədə üç dəfə olaraq çıxmağa başlayacaqdır... Qəzetə bütün vətən övladına və aləmi-İslamın qələm sahiblərinə açıqdır. Məsləkimizə müvafiq yazılar məmnuniyyətlə qəbul edilib qəzetəmizdə yazılacaqdır".

Bəşir bəy Aşurbəyov kimi fəal liderlərin iştirakı ilə "İttihad"ın ideoloji sahədə də təkmilləşdirilməsi işi ara vermədən davam etdirilirdi.

"İttihad" qəzeti yazırdı: "Müsəlman aləmində azadlığa çağırış siyasi-hüquqi təlim kimi İslamdan ilham alır və bu çağırış eyni zamanda daim mənəvi başlanğıc, elm, adət, ənənə rolunu oynayan İslam ilə müşayiət olunur. Elə Şərq xalqlarının zəngin tarix və mədəniyyətini yaratmış İslamın bütün gücü və məftunetmə bacarığı da onun universallığındadır".

Türk ruhu, İslam inancı, Avropa inkişaf modeli: Bu dövrdə İttihad Partiyasının ideologiyasında diqqəti cəlb edən əsas cəhətlərdən biri də firqə ideoloqlarının iqtisadi problemlərə xüsusi diqqətidir. Onlar Avropanı örnək seçərək Qərbin inkişaf modelinə üstünlük verirdilər.

Beləliklə, I qurultaydan sonrakı dövr İttihad Partiyası üçün kifayət qədər səmərəli keçmişdi. Firqənin sıraları xeyli genişlənmiş və həm təşkilati, həm də ideoloji cəhətdən möhkəmlənmişdi. Partiyanın ölkənin ictimai həyatında fəal iştirakı, düşünülmüş yetkin taktikası əhali arasında onun nüfuzunun yüksəlməsini təmin etmişdi. II qurultay ərəfəsində İttihad Partiyası məşhurluğunun ən yüksək zirvəsinə çatmışdı.

Qurultayda xüsusi diqqətlə nəzərdən keçirilən məsələlərdən biri də erməni hökumətinin Zəngəzura göz dikməsi nəticəsində bölgədə hadisələrin kəskinləşməsi olmuşdu. Bu məsələ nümayəndələr tərəfindən daha geniş müzakirə edilmişdir. Zəngəzur məsələsinin həllini və daşnaklar tərəfindən müsəlman cəmiyyətinə edilən zülmlərin təxirsiz önünün alınması üçün qəti çarə və tədbirlər görülməsini höku-

mətdən tələb etmişlər. Həmin dövrdə Zaqafqaziya Seymi bölgənin ali hakimiyyət orqanı sayılsa da, Bakı onun nüfuz dairəsindən kənarda qalmışdı. Faktiki olaraq burada hakimiyyət şəhər sovetinin əlində cəmlənmişdi. Bakı əhalisi arasında ciddi bir nüfuza malik olmasalar belə, əllərindəki hakimiyyəti heç bir vəchlə itirmək istəməyən bolşeviklər imkanlarında olan yeganə və ən iyrənc variantdan, yəni erməni-müsəlman qarşıdurmasından öz mənafeləri naminə istifadə edərək azərbaycanlılara qarşı mart soyqırımını törətdilər. Bu hadisələr ərəfəsində Bəşir bəy Aşurbəyov və onun "İttihad"dakı digər silahdaşları bolşeviklərin qəsdini başa düşmüşdülər. Qırğının qarşısını almaqdan ötrü müxtəlif tədbirlər görülmüşdü.

Lakin bütün müsəlman firqələrinin birgə səylərinə baxmayaraq, qırğının qarşısını almaq mümkün olmamışdı.

...1920-ci ilin 28 aprelində zirehli qatarla ölkəmizə daxil olan "qırmızı ordu" yenicə qazandığımız istiqlalımızı əlimizdən aldı. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı. Cümhuriyyət qurucuları da, yenicə formalaşaraq cəmiyyətə böyük faydalar verən milli burjuaziyanın Bəşir bəy Aşurbəyov kimi vətənsevər təmsilçiləri də bolşeviklərin qanlı caynaqlarına keçdilər və ağlasığmaz təqiblərə məruz qaldılar.

ÖLÜMÜN BİR ADDIMLIĞINDA

"Günəş qüruba endikcə kölgə böyüyür".
Əbu Turxan

İnsan bu fani dünyada daim yol gedir. Gedir ki, onun cazibəsindən kənara çıxa bilsin. Amma bu, ona yalnız ömrün sonunda müyəssər olur. Ömrün gecəsi isə demə, özü ilə öz çırağını gətirir.

XX əsrin əvvəllərində yenicə təşəkkül tapmaqda olan Azərbaycan milli burjuaziyasının bir çox təmsilçiləri kimi Bəşir bəy Aşurbəyov da sovet hakimiyyəti qurulandan sonra çox çətin tale ilə üzləşdi. Bolşeviklər imkanlı insanların bütün malına, mülkünə, var-dövlətinə əl qoydular, quldur kimi qarət etdilər, acımadan, azğıncasına... Çoxunun ürəyi dayandı oturduğu yerdə, nəfəsi kəsildi duyduqlarından, şər-böhtan, saxta dəlil-sübutlarla minlərlə insana hökmlər oxundu...

Bəşir bəyin əksər qohumları Azərbaycanın sovetləşdirilməsinin elə ilk illərində təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə, İrana köçüb bu ölkələrdə məskunlaşdılar. Ona da vaxtında ailə üzvlərini götürüb ölkəni tərk etmək məsləhət olunurdu. Amma Bəşir bəy bütün var-dövlətini yeni hökumətə bağışladığından, bolşeviklərin bir quruca canı ona çox görməyəcəklərini düşünürdü. "Nəyim var təhvil vermişəm, qalan bir quru canımdır, istəyirlər, gəlib onu da alsınlar",- deyirdi. Həştərxanda keçən bir neçə illik sürgün həyatından sonra anlayırdı ki, daha uzun müddət Bakısız yaşaya bilməz.

Bəşir bəy Aşurbəyovun yeni hakimiyyətin Nəriman Nərimanov kimi milli ruhlu təmsilçiləri ilə çox yaxın münasibətləri vardı. Vaxtında ona çox maddi kömək göstərmişdi, bir dost kimi arxa durmuşdu. Nərimanov kiminsə ona toxunmasına imkan verməyəcəyini bildirirdi. Onda Bakıda qalmaq üçün əminliyi yaradan həm də bu idi.

Nəriman Nərimanovun Moskvada vəfatına qədər, həqiqətən, kimsə Bəşir bəyə dəyib dolaşmır. O, Sabunçu kəndində, bir vaxtlar xidmətçilərinin yaşadığı sadə bir komada ailəsi ilə birgə həyatına davam edir. Nə qədər çətin olsa da, dəyişən tarixi reallıqlara dözümlə yanaşmağı öyrənir. Mənəvi ruhunun gücü ilə səbrini, təmkinini itirmir.

Günlərin birində ailənin Sabunçudakı imarətini sovet hökuməti onlardan alıb Qadın Klubuna çevirir. Kluba ayaq açan erməni, rus qadınları qısa müddətdə evin bütün mükəlləfiyyatını talan edirlər. Bahalı atlas pərdələri söküb özlərinə paltar tikir, parçaların qalıqlarını ilə ayaqqabılarını təmizləyir, evdəki qədim, bahalı fortepianonun üzərinə dırmaşıb min cür hoqqa çıxarırlar. Bütün bunları, təbii ki, Bəşir bəy də eşidir, amma hər şeyə rəğmən vəziyyətlə barışmağa, vardövlət əldən çıxandan sonra quru canını da olsa qorumağa çalışırdı. Amma tezliklə bunu da Bəşir bəyə çox görürlər. Nəriman Nərimanovun ölümündən cəmi bir neçə il sonra,1930-cu ilin iyununda o, həbs edilir və növbəti ay Nargin adasında güllələnir. Yaxınları onun maddi imkanlarına, yəni o dövrün ifadəsi ilə desək, qolçomaq olduğuna görə güllələndiyini düşünürlər. Amma "qırmızı terror"un onu hədəf götürməsində Bəşir bəy Aşurbəyovun Qafqaz İttihad Firqəsindəki siyasi fəaliyyətinin çox böyük rolu olmuşdu...

20201 NÖMRƏLİ CİNAYƏT İŞİ

"Sahil ümiddir: gözdən itəndə dənizdə ancaq vahimə qalır".
Əbu Turxan

Yaşlı arxiv işçisi ağır addımlarla qovluqların səliqə ilə yan-yana düzüldüyü qəfəsələrə yaxınlaşır. Bu qəfəsələrin müxtəlif mərtəbələrində illərdir ki, dərin sükuta dalmış sənədlərin içində on minlərlə insanın taleyi uyuyur.

Bu insanların çoxunun heç məzarı da yoxdur. Sümükləri kim bilir torpağın, ya suyun hansı dərinliklərindədir. Qalanlarının da son mənzilləri dünyanın müxtəlif səmtlərinə səpələnib. Gümanlar çox, həqiqəti bilənlər isə yox idi...Onları birləşdirən, nə vaxtsa bu adda, bu ömürdə insanların mövcud olmasına şəhadət gətirən yeganə məkan buradır. Ağrılı tarixdən keçən taleləridir. Bu arxivin qəfəsələrində bir-birinə sığınmış qovluqlardakı həmin insanların sənədləri, şəkilləri, verdikləri ifadələr, imzalarıdır.

Yaşlı arxiv işçisi bura demək olar ki, hər gün gəlir, rəflərin arasında dolaşır, əlindəki kiçik kağız parçasına yazılmış hansısa nömrə ilə qovluqlardan birinə yaxınlaşır, üstünün tozunu silir, qaytanını açaraq içindəkiləri vərəqləyir, özünə lazım olanı tapıb, həmin məlumatdan istifadə edəndən sonra qovluğu yenidən əbədi yerinə qaytarır.

Kənardan baxanda bu qəfəsələr böyük bir məzarlığa, yaşlı arxiv işçisi isə yan-yana düzülmüş sarımtıl qovluqları, əzablı taleləri tamamlanmış insanları kimsəsiz qoymayan qayğıkeş ziyarətçiyə bənzəyir...

...O, yenə qəfəsələrdən birinə yaxınlaşdı. Əlindəki kağız parçasına yazılmış qeydə baxıb ona gərək olan qovluğu götürdü. Çox böyük sənədlər toplusu idi. Üzərindəki "Tam məxfi" qrifi və nömrə aydın oxunurdu: № 20201.

Bu, XI Ordunun Xüsusi Şöbəsinin 1920-ci ildə İttihad Partiyası əleyhinə qaldırdığı 20201 nömrəli cinayət işi üzrə toplanmış materialların nəhəng qovluğudur: düz 900 vərəq, 1800 səhifə.

Partiyanın öncülləri olan doktor Qarabəy Qarabəyov, Bəşir bəy Aşurbəyov, doktor Cəmil Lənbəranski, Əlibəy Aşurbəyov, Məmməd Həsən Həsənov və bir çox digər üzvlərinin (iş üzrə 155 nəfərin mühakimə olunduğu göstərilir) ifadələri bu qovluqda saxlanılır və tədqiqatçılar üçün zəngin material verir.

İttihad Partiyasının işi ilə bir neçə ay XI Ordunun Xüsusi Şöbəsi və onun rəisi, Azərbaycan xalqının cəlladlarından olan Pankratov məşğul olmuşdu. Məlum olduğu kimi, Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk gündən hökumət orqanlarının rəhbərləri indiki Bakı Sovetinin binasında hələ sovet dövründən xeyli qabaq mövcud olan və fəaliyyət göstərən bütün partiyalarla centlmen (əməkdaşlıq) müqaviləsi bağlamışdılar. Guya, bolşeviklər onlarla əməkdaşlıq edəcək, yeni həyat, yeni cəmiyyət quruculuğu, inkişaf prosesləri birlikdə həyata keçiriləcəkdi.

Lakin yeni hakimiyyətin cəza orqanları (XI Ordunun Xüsusi Şöbəsi, FK, DSİ) öz vədlərini pozaraq qısa müddətdən sonra bütün partiyalara qarşı qırmızı terror elan etdilər. Tezliklə ucdantutma həbslər, repressiyalar, qətllər başlandı.

İşlərə Semyon Pankratov adlı cəllad rəhbərlik edirdi. Bu keçmiş matros oktyabr çevrilişinə qədər Odessada çar ordusunun hərbi əks-kəşfiyyat xidmətində işləmişdi. Mənşəcə rus kazakı idi. Sonradan bolşeviklərin xidmətinə keçmişdi. Onların peşəkar terror batalyonunun komandiri kimi Həştərxan üsyanında 4 minə qədər adam öldürmüşdü. 1920-ci ilin aprel ayının 27-də Azərbaycanı işğal etmək məqsədilə şimal sərhədlərindən ölkə ərazisinə daxil olan Rusiyanın XI Qırmızı Ordusunun Xüsusi hərbi əks-kəşfiyyat şöbəsinin rəisi, bolşevik istilasının ilk günlərindən 1920-ci ilin iyun ayına qədər isə Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdu. Ona həvalə edilən

vəzifə qeyri-rəsmi olsa da, çox amansız idi. Həştərxandan XI Ordunun zirehli qatarında Bakıya gələndə S.Pankratova konkret siyahı verilmişdi. Ona siyahıdakı azərbaycanlı siyasi, hərbi, polis, dini və ziyalı xadimləri güllələmək tapşırılmışdı. Pankratov bu işi aprel-iyun ayları ərzində öz batalyonu ilə icra etmişdi. Məhz o, Azərbaycanda ilk kütləvi qırğınların, milli hökumət üzvlərinə sui-qəsdlərin və repressiyaların əsas təşkilatçılarından biri sayılırdı.

Nəriman Nərimanov qısa müddətdən sonra Bakıya qayıdıb bu cəlladı rəsmən Baba Əliyevlə əvəz etməyə nail olsa da, ÇK-da və bütün Azərbaycanda real siyasi hakimiyyətin mandatı yenə S.Pankratov kimi qaniçənlərdə idi. Repressiya prosesləri Moskvadan idarə olunurdu. N.Nərimanovun real hakimiyyəti yox idi, üstəlik, bütün güllələnmələrə sonradan imza atmalı olurdu. Bir mübahisə zamanı N.Nərimanova demişdi ki, mən insanları güllələyəndə S.Orcokinidze və A.Mikoyanın göstərişini icra etmişəm.

S.Pankratov Azərbaycandan sonra Gürcüstanın sovetləşməsində də öz terror batalyonu ilə iştirak etmişdi. 1922-ci ildə Zaqfederasiya yarananda ÇK (FK) sədrinin müavini vəzifəsinə təyin olunmuşdu. Həmin vəzifədə də "Müsavat"çıların izlənməsi və qətli əməliyyatlarını həyata keçirmişdi. Peşəkar likvidator (partiya sənədlərində ÇK-nın ştatında olan siyasi ölüm icraçılarını belə adlandırırdılar) olduğu üçün bu insanın sovet və rus hərbi mənbələrində heç yerdə adı və şəkli getmir.

Belə cəlladların əli ilə İttihad Partiyası üzvlərinə də "Müsavat"çılar kimi divan tutdular. "Sonradan heç bir amnistiya hüququ verilmədən" onlar müxtəlif həbs düşərgələrinə göndərildilər. Bu isə həmin adamların məhvə məhkum edilməsi demək idi. XI Ordunun Xüsusi Şöbəsinin İttihad Partiyasının ləğvinə yönəldilmiş agentura və istintaq işi metodları haqqında akademik Ziya Bünyadovun müəllifi olduğu "Qırmızı terror" kitabında ətraflı məlumatlar verilir. XI Ordunun Xüsusi Şöbəsinin istintaq qrupunun 1920-ci il dekabrın 14-də qəbul etdiyi qərar, Paris konfransında Azərbaycan nümayəndəliyinin üzvü Mir Yaqub Mehdinin doktor Qarabəy Qarabəyova məktubu, AKP MK-nın Siyasi Bürosunun 1921-ci il yanvarın 23-də keçirilən bağlı iclasının protokolundan çıxarış və XI Qızıl Ordunun Xüsusi Şöbəsi üçlüyünün 1921-ci il yanvarın 23-dəki qərarı diqqətə çatdırılır.

Kitabda yazılır: "Sənədlər hələ "təzə ikən", yəni Xüsusi Şöbənin işçiləri hələ Azərbaycan xalqı ilə tanış olmamış, öz ağalıqlarının iki ayından sonra vədlərinə xilaf çıxaraq heç bir davranış normaları ilə hesablaşmadan siyasi qanqster kimi hərəkət etmiş, Azərbaycan xalqının ən parlaq ziyalılarını, öndə gedən insanlarını aradan götürmüşlər".

XI Ordunun hərbi müstəntiqlərinin "İttihad"çılar haqqında verdikləri qərarın mətninə diqqət edək:

Q Ə R A R

(Materiallar akademik Ziya Bünyadovun "Qırmızı terror" kitabından götürülüb. Bakı, 1993)

1920-ci il dekabrın 14-də biz, XI Ordunun hərbi müstəntiqləri – Babayev, Flyaqolts, Koribut və fəal hissənin katibi Petrosyan Azərbaycanda sovet hakimiyyətinin silahlı üsyan yolu ilə devrilməsində ittiham olunan İttihad Partiyasının 155 üzvünün və tərəfdarının istintaq işini icraatımızdan keçirib müəyyən etdik ki, 1917-ci ildən Rusiyada Müsəlmanlıq Firqəsi adı ilə mövcud olmuş İttihad (Birlik) Partiyası 1920-ci ilin aprel ayında Qırmızı Ordunun Azərbaycana gəlməsi ilə bağlı fəaliyyətini dayandırmışdır. Səbəb, guya, onların sovet hakimiyyəti ilə elə bir prinsipial fikir ayrılıqlarının olmaması idi. Partiyanın buraxılması haqqındakı aktda iddia olunurdu: burjua "azadlığı" çərçivəsində "Müsavat"la açıq mübarizə aparan "İttihad" hesab edir ki, qırmızı sovet hissələrinin Azərbaycana gəlməsi "Müsavat"çılarla mübarizədə öz müsbət həllini tapır. Və öz məqsədinə çatmış "İttihad" səhnədən gedir. Hər hansı bir ciddi, müəyyən siniflər içərisində özünə kök salmış siyasi partiya mövqelərini döyüşsüz vermir, eləcə də "İttihad". Orta və xırda burjuaziyanın ümidlərinin ifadəçisi olaraq, əlbəttə, o, özünüburaxma aktı ilə demək istəmirdi ki, "İttihad" ölüb və daha həyata qayıtmayacaq: göstərilən aktla partiyanın bütün üzvlərinə və ona rəğbət bəsləyən burjuaziyaya "cəbhəni döndərmək" Azərbaycan üfüqlərində yeni təhlükəli bolşevik gücünü nəzərə almaq və başı kəsilmiş rus burjuaziyasının, fəhlə sinfi tərəfindən məhv edilmiş eserlərin və menşeviklərin son metodları ilə mübarizəyə hazırlaşmaq siqnalı verilirdi. İş öz dibsiz ciblərinin mənafeyinə çatanda vəziyyəti gözəl başa düşən burjuaziya

şəraiti nəzərə alaraq bütün Yaxın Şərqdə tanınan avantürist doktor Qarabəy Qarabəyovun rəhbərliyi ilə fəhlə sinfinin nailiyyətlərini boğmağa, öz itirilmiş hüquqlarını bərpa etməyə yönəldilmiş fəaliyyətinə başladı. Qarabəyova təqdim olunmuş ittihamı sübut edən faktik material Paris konfransına Azərbaycan nümayəndəliyinin üzvü Mir Yaqub Mehdinin məktubudur. Göstərilən sənəddə deyilir ki, Qırmızı Ordunun Azərbaycana girməsilə onlar – "İttihad"çılar ondan rəhbər göstərişlər gözləyirlər və Azərbaycanın milli dirçəliş ümidləri onun adı ilə bağlıdır. Qarabəyov Mir Yaqubdan məktub aldığını inkar etsə də, bu, ona verilən ittihamla sübut olunur".

İttiham qərarının mətnində göstərilirdi ki, "İttihad"ın hər üç qrupu – "Vətən və ya ölüm", "Mərkəzi İttihad", "Quranın əmin-amanlığı" sovet hakimiyyətinə nifrət bəsləyir və onu yıxmaq təşəbbüsündə idi.

Materiallarda partiyanın təbliğat və təşviqat aparatı, cəlbetmə aparatı, məlumatçılar şəbəkəsi, silah və maliyyə vəsaiti ilə təchizatı, üsyana hazırlıq və onun planı haqqında geniş məlumat verilir. Və silahlı üsyana hazırlıqla bağlı İttihad Partiyasının işində iştirak edən şəxslərin adları göstərilir. Eyni zamanda qərarın bir bəndində yazılır:

"ə) İttihad Partiyası və Mərkəzi Komitəsinin üzvləri Cəmil bəy Ləmbəranski və Bəşir bəy Aşurbəyovun işinə fəhlə və kəndlilərin nailiyyətlərinə qəsd etmiş İttihad Partiyasının tam ləğvi məsələsilə birlikdə baxılmalıdır.

Qərara alınır ki, işə baxılmaq üçün materiallar XI Ordunun Xüsusi Şöbəsi üçlüyünün sərəncamına verilsin. Hərbi müstəntiqlər: Babayev, Flyaqolts, Petrosyan, Koribut".

Qovluqda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, AXC-nin Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin üzvü, İttihad Partiyasının qurucularından olan Mir Yaqub Mehdinin doktor Qarabəy Qarabəyova məktubunun əsli də saxlanılır.

XI Ordunun Xüsusi Şöbəsində AKP MK-nın Siyasi Bürosunun 1921-ci il yanvarın 23-də keçirdiyi iclasın protokolundan olan çıxarışında göstərilirdi ki, həmin yığıncaqda Pankratovun İttihad Partiyasının sui-qəsdi ilə bağlı məruzəsi dinlənilmiş, partiyaya qarşı açıq mübarizənin zəruri olduğu bildirilmişdir. Repressiya tədbirlərindən

başqa, partiyanı parçalamaq üçün ciddi işlərin aparılması və ən nüfuzlu ziyalı qüvvələrinin oradan uzaqlaşdırılması tapşırığı verilmişdir.

Qərarın digər bəndlərində yazılırdı:

"Qarabəyovu, Həsən Həsənovu və Əli bəy Aşurbəyovu – partiyanın rəhbərlərini Azərbaycandan kənara sürgün etmək: Moskvaya. Onlar Butırski həbsxanasına salınmışdılar.

Siyahı üzrə N.Nərimanov tərəfindən təsdiq edilən ən fəal və qatı üzvləri həbs düşərgələrinə göndərmək.

Qalanlarından isə bir daha İttihad Partiyasında iştirak etməyəcəkləri barədə dillərindən iltizam alıb azad etmək".

Səkkizinci bənddə deyilirdi: *"Bəşir bəy Aşurbəyov azad edilsin, belə ki, yoldaş Nərimanov onun bizə sadiq olduğunu bildirir və zaminə götürür".*

Üçlüyün qərarı isə 1921-ci il yanvarın 25-də XI Ordunun Xüsusi Şöbəsinin rəisi Pankratov, fəal hissənin rəisi Aşukin və baş hərbi müstəntiq Qubin tərəfindən qəbul edilmişdir. Qərarda yazılırdı:

"Silahlı üsyan yolu ilə Azərbaycanda sovet hakimiyyətinin devrilməsi və başda İttihad Partiyası olmaqla dar milli burjua hakimiyyəti yaratmaq məqsədini qarşısına qoyan "Vətən və ya ölüm" əks-inqilabi təşkilatının 155 üzvünün və əməkdaşının işi üzrə qərara alınır: Qarabəy İsmayıl oğlu Qarabəyov, Məmməd Həsən Həsənov, Cəmil bəy Lənbəranski, Əlibəy Teymurbəy oğlu Aşurbəyovu Hərbi FK-nın Xüsusi Şöbəsinə göndərmək".

"Partiyanın 21 üzvü 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Xolmoqor şəhərindəki həbs düşərgəsinə göndərilmiş, 13 nəfəri 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Ryazan şəhərindəki həbs düşərgəsinə, 10 nəfər 5 il müddətinə sonradan amnistiya hüququ verilmədən Nijni Novqorod şəhərindəki həbs düşərgəsinə, 72 nəfər həm də Bəşir bəy Aşurbəyov – dustaqlıqdan azad edilsin, güllələnmək qorxusu altında bir daha antisovet təşkilatlarında və qruplarında iştirak etməyəcəkləri barədə dillərindən iltizam alınsın".[1]

Beləliklə, saxta ittihamlar, saxta dəlillər əsasında bir gündə 155 insana hökm oxundu.

---

[1] Bünyadov Z. "Qırmızı terror", Bakı, "Azərnəşr", 1993, səh. 20.

İnsan cəmiyyətini sarsıdıb silkələyən, onun tarixi yaddaşında qanlı bir iz qoyan, bir tərəfdən, şəxsiyyətə hədsiz pərəstişi təbliğ edən, digər tərəfdən, şəxsiyyətlərin alçaldılmasını adi həyat norması bilən sovet totalitarizminin bu illərdə həqiqi siyasi mahiyyəti belə qanlı idi. XI Qırmızı Ordunun İnqlabi Hərbi Şurası və Azərbaycanın yeni sovet hökuməti öz fəaliyyətinin ikinci günündən Müsavat və İttihad partiyalarının rəhbərləri ilə əməkdaşlıq ruhunda rəsmi müqavilə bağlasalar da, bu müqavilələr tezliklə XI Ordunun Xüsusi Şöbəsi tərəfindən pozuldu, kütləvi həbslər başlandı. Lenin və Trotski tərəfindən yaradılan islah-əmək düşərgələri qısa vaxtda azərbaycanlıların hesabına doldurulduldu. Repressiyanın güclü dalğası minlərlə Azərbaycan ziyalısının, qabaqcıl nümayəndələrinin ölümünə bais oldu.

Bax, sovet hökuməti 1920-ci ilin aprelində Azərbaycanı işğal etdiyi dəqiqədən öz işinə belə başlamışdı – qan-qada, təqiblər, həbslər, sürgünlər və ölüm hökmləri ilə...

TƏQİBLƏR DAVAM EDİR

"Bəzən uzaqlaşmaq lazım gəlir, yaxınlaşmaq üçün; bəzən xatırlamaq lazım gəlir, xatırlanmaq üçün; bəzən ağlamaq lazım gəlir, açılmaq üçün; bəzən anmaq lazım gəlir, anılmaq üçün; bəzən də susmaq lazım gəlir, duymaq üçün".
Əbu Turxan

Qız nəvəsi Nəzakət xanım Aşurbəyova deyir ki, Bəşir bəy Bayıl həbsxanasında olanda Nəzakət nənəsi tez-tez görüşünə gedər, yemək apararmış. Bir dəfə həbsxananın qarşısında olanda ona Bəşir bəyin artıq güllələnməsi xəbərini verirlər.

Nənəsi ondan sonra heç bir il də yaşamır. Vəfat edəndə o, 42 yaşındaydı...

Nəzakət xanım qovluqdan bir sənəd çıxarıb bizə göstərir. Bu sənəd onun sorğusu əsasında Dövlət Təhlükəsizlik Komitəsinin arxivindən təqdim olunub.

Burada 1875-ci ildə Bakı şəhərində anadan olmuş, İttihadi-İslam Partiyasının fəal üzvü Aşurbəyov Bəşir bəy Məhəmmədhəsən bəy oğlunun 08.06.1930-cu ildə Azərbaycan SSR Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən həbs edildiyi göstərilir və həbsi zamanı onun ailə tərkibinin bu şəxslərdən ibarət olduğu qeyd edilir:

- Həyat yoldaşı Nəzakət, 42 yaşında;
- Oğlu Məmmədtağı *(Məhəmmədhəsən- **İ.Ə.**)*, 18 yaşında;
- Oğlu Midhət, 16 yaşında;
- Qızı Rəbiyyə, 11 yaşında;
- Oğlu Kazım, 9 yaşında.

Sənəddə o da göstərilir ki, Azərbaycan SSR DSİ-nin Məhkəmə İclasının Kollegiyasının 09 iyul 1930-cu il tarixli protokoluna əsasən, B.Aşurbəyov Azərbaycan SSR CM-nin 72-ci (antisovet təbliğatı) maddəsi ilə təqsirli bilinərək güllələnmə cəzasına məhkum edilib.

Bəşir bəy güllələnəndən sonra ardınca Nəzakət xanım dərd-ələmdən dünyasını dəyişir. Baxımsız qalan uşaqlar çox böyük sarsıntılar keçirir, çətinliklərlə qarşılaşırlar. Ailənin əsas ağırlığı 18 yaşlı Məmmədhəsənin və 16 yaşlı Midhətin üzərinə düşür. Zənginlik içində böyümüş bəy övladlarının aclıq çəkdikləri günlər də olur, maddi sıxıntılar qarşısında naçar qaldıqları vaxtlar da...

Uşaqların çox böyük acılar içində olduğunu görən qohumlar onların hər birini öz himayələrinə götürürlər. Beləliklə, ata-ana məhəbbətindən məhrum olan bacı-qardaşlar bir-birindən ayrı düşür, ayrı yaşamalı olurlar. Bir vaxtlar hamının başına yığıldığı ailə pərən-pərən olur. Amma ağır günlər bununla da bitmir. Sovet rejimi, "qırmızı terror" bu dəfə qanlı caynaqlarını Bəşir bəyin övladlarına tərəf uzadır.



УТВЕРЖДАЮ
Прокурор Азербайджанской ССР
гос.советник юстиции 2 класса
И.А.Исмаилов
30 ноября 1989 года

ЗАКЛЮЧЕНИЕ

в отношении Ашурбекова Баширбека Мамед
(ф., и., о.)
по материалам уголовного дела (арх. № ПС-12452
Фамилия, имя, отчество Ашурбеков Баширбек Ма
Дата и год рождения 1875
Место рождения г.Баку
Сведения о партийности (в том числе № партийного би
Место работы и должность до ареста не раб
Место жительства до ареста г.Баку, с.Саб
Данные о родственниках жена - Назакет,
1912г.р., сын - Митат, 1914г.р.
дочь - Гатиба, 1919г.р., прожи
Дата ареста, предъявлявшееся обвинение,
сено решение по делу арестован 8.0
ст. 72 ч.2 УК Азерб.ССР, по
АзГПУ от 9.07.1930г. расстр
Ашурбеков Баширбек
под действия ст. 1 Указа Президиум
«О дополнительных мерах по восста
сий, имевших место в период 30—40-
Прокурор отдела по надзо
следствием в органах гос
советник юстиции
Зам. Начальник отдела КГБ
Азербайджанской ССР
подполковник

Азербайджанское Государственное Политическое Управление.
АНКЕТА № 840
(На арестованных и задержанных с зачислением за ГПУ).
Лица, давшие неверные показания в анкете, будут подвергнуты строжайшей ответственности.
ВОПРОСЫ: ОТВЕТЫ:
1ая часть (заполняется заключенным)
1. Фамилия
2. Имя и отчество
3. Гражданство какого государства
4. Национальность
5. Место приписки
6. Возраст (год рождения)
7. Образование: а) грамотный ли?
б) какую школу окончил?
в) если не окончил, ск... прош...
губ
вол. уезд
55 лет родился в
месяц 1 год
а) окончил
б) прошел ... школу
Состав семьи: Степень родства, Фамилия, имя и отчество, Возраст, Занятие или место работы и должность или профессия, Место жительства и место работы членов семьи
1. Жена
2. Сын
3. "
4. "
5. Дочь
9. Партийная принадлежность?
а) в какой партии состоит?
б) с какого времени?
10. Профессия
Название предприятия или учреждения
11. Место работы (службы):
а) с начала войны до III 1917 г.
б) с VIII 1917 г.
Профессия или должность

А. С. С. Р.
Азербайджанское Государственное Политическое Управление
ОРДЕР № 147
Сотруднику АзГПУ тов.
Предлагается Вам с получением сего произвести арест и обыск
у гр. Ашурбекова Баширбека
проживающего
192 г.
гбр. Баку.
Председатель АзГПУ
Секретарь

ССРИ ПРОКУРОРЛУҒУ

Азәрбајчан Совет Сосиалист Республикасы

ПРОКУРОРЛУҒУ

_____ шө'бәси

370601, Бакы, Н. Рәфибәјли күчәси, 7.

ПРОКУРАТУРА СССР

ПРОКУРАТУРА

Азербайджанской Советской Социалистической Республики

Отдел _____

370601, Баку, улица Н. Рафибейли, № 7.

20.03.92г. № 13/1651

На № _____ от _____

город Баку, ул. Мамед Рагима
дом № 20, кв. 4

гр. Ашурбековой Назакет
Солтан кызы

Уважаемая Назакет-Ханум!

В ответ на Ваше заявление, направляю справку о реабилитации Вашего деда – Ашурбекова Раширбека Мамедгасанбек оглы.

С уважением,

Прокурор отдела по надзору за
следствием в органах национальной
безопасности
советник юстиции К.Мурадов

ССРИ ПРОКУРОРЛУҒУ

Азәрбајҹан Совет Сосиалист Республикасы

ПРОКУРОРЛУҒУ

шө'бәси

370601, Бакы, Н. Рәфибәјли күчәси, 7.

ПРОКУРАТУРА СССР

ПРОКУРАТУРА

Азербайджанской Советской Социалистической Республики

Отдел

370601, Баку, улица Н. Рафибейли, № 7.

20.03.92г. № 13/1651

На № _____ от _____

Справка
о реабилитации

Постановление Судебного заседания АзГПУ от 9.07.30 г., которым Ашурбеков Баширбек Мамедгасанбек оглы, 1875 г.рождения, уроженец с.Сабунчи города Баку, по ст. 72 ч.II УК АзССР подвергнут расстрелу-пересмотрено.

В соответствии со ст.I Указа Президиума Верховного Совета СССР от 16 января 1989 г. "О дополнительных мерах по восстановлению справедливости в отношении жертв репрессий,имевших место в период 30-40-х начала 50-х годов" постановление внесудебного органа признано незаконным и по данному делу Ашурбеков Баширбек Мамедгасанбек оглы считается реабилитированным.

Основание: арх. дело № ПС-12452

Прокурор отдела по надзору за следствием в органах национальной безопасности
советник юстиции К.Мурадов

NƏSLİN DAVAMÇILARI, YAXUD QIRILAN ÖMÜRLƏR

"Həyatın alovu görünməyən aydınlığını göstərmək üçün özünü öz dumanı ilə pərdələyir".
Məhəmməd İqbal

Arzular həyata məna verir. Bir zamanlar varlıq-bolluq içində yaşayan bu insanlar birdən-birə yoxluq və heçliklə üz-üzə qalmışdılar. Çırpınırdılar, amma istənilən hər cəhd heç bir nəticə vermirdi. Bəşir bəyin ölümü övladları üçün zamanın qırıldığı bir məqam olmuşdu. Onların həyatı əzab-əziyyətlə, ağrılar və qorxularla keçirdi. Hər sözdən hürkür, hər əməldən diksinirdilər. Hamı deyirdi ki, səbir edin. Səbir insana ömrü boyu dözmək üçün verilir. Dözürdülər, səbir də edirdilər. Amma bir şərdən qaçırdılarsa, başqa bir şərə düşürdülər, çıraqlar sönürdü, ömürlər qırılırdı... Həyatları işgəncəyə çevrilmişdi. Tale istəyəni aparır, istəməyəni isə sürüyürdü. Onlar üçün yaşamağın mənası itmişdi. Amma susurdular, gözləyirdilər və bəlkələrlə ümidlənirdilər.

"İnsanın həyatı böyük məqsədlərə yönəlməlidir". Bu, Bəşir bəyin övladlarına nəsihəti idi. Lakin bunu həyata keçirmək, reallaşdırmaq onlar üçün hər dəfə mümkünsüz olurdu. Dövrün, zamanın azğınlığı, insanların qəzəbi, nifrəti Bəşir bəyin uşaqlarının yollarını bağlayır, gözlərinə kölgə salırdı.Təhsildən yayınmış, gözükölgəli olmuşdular, cəmiyyətdə qəbul olunmayan insanlara çevrilmişdilər... "Vətən xai-

ni"nin övladları damğası daim üzərlərində idi. Onlar ağır bir hökmü çiyinlərində gəzdirirdilər.

***

Məhəmmədhəsən. O, ailənin böyük oğlu idi. 1912-ci ildə anadan olmuşdu. Bəşir bəy güllələnəndə 18 yaşı vardı. Qohumlar valideynlərini itirən 4 uşağı öz himayələrinə götürməyə məcbur olmuşdular. Məhəmmədhəsən bibisinin – Bəşir bəyin bacısının himayəsində yaşayırdı. Midhət digər bibisigildə, Rəbiyyə xalasıgildə, kiçik qardaşları Kazım isə bibisi gəlininin yanında qalırdı. Böyük çətinlikləri vardı, istədikləri kimi yeyib-içmir, geyinmir, gəzib dolanmırdılar...

Məhəmmədhəsən haqqında məlumat çox deyil. Ali təhsil almağa qadağaları olduğundan hansısa peşəyə sahib olmaq haqqından məhrum edilmişdi. Xasiyyətcə həlim, səmimi və üzüyola bir insan idi. Böyük Vətən müharibəsində iştirak etmişdi. 7 il əsgərlik çəkmiş və Leninqradın mühasirəsində 4 il zülmlər görmüşdü... Nəzakət xanım deyir ki, danışanda həmişə gözləri yaşarardı.

Söylədiyinə görə, o zaman Valya adında bir qoca qadın onu ölümdən xilas edir. Məhəmmədhəsəni acından ölmüş adamların meyitlərinin içindən tapıb çıxarır və evinə gətirir. Müharibə qurtarandan bir il sonra o, vətənə dönür və bacısı Rəbiyyə xanımın yanında yaşayır. Səkinə adlı güzdəkli bir qadınla evlənir. Bir qızı – Sevil dünyaya gəlir. Məhəmmədhəsən ehtiyac içində yaşasa da (müharibədən çıxmış ölkədə dolanışığın ağırlığı o zaman təəccüblü deyildi), qızına ali təhsil vermək arzusunda idi. Sevil Tibb İnstitutunun Müalicə fakültəsinə daxil olur və oranı bitirir.

Nəzakət xanımın söylədikləri: *"Məhəmmədhəsən dayım hündürboylu, çatmaqaş və çox yaraşıqlı bir kişi idi. Görkəmindən ziyalı mühitinin adamı olduğu aydın hiss edilirdi. Əlindən hər iş gələrdi. Qohum-qardaşın bütün xahişlərini canla-başla yerinə yetirərdi. İstiqanlı idi.Sağlam görünsə də, keçirdiyi ağır həyat tərzi ürəyini xəstə salmışdı. 1971-ci ildə infarktdan rəhmətə getdi. Anamı onun ölümü çox sarsıtdı. Xatirəsi bütün qohumlar üçün əzizdir"*.

Kazım. Valideynlərini itirəndə Kazımın 9 yaşı olub. 1921-ci ildə doğulub. Ailənin sonbeşiyi ən çox atası Bəşir bəyə oxşayırmış. Ona görə də hamının sevimlisi olub. Lakin bu, çox az müddət çəkib. 9



Məhəmmədhəsən Bəşir bəy oğlu Aşurbəyov

yaşlı Kazım Gədəbəydən Bakıya gələn Balaxanımın himayəsində qalıb. Bu qadın bütün nəslin ən hörmətli ağbirçəyi olub. Nəzakət xanım danışır ki, hamımız ona "nənə" deyərdik. Nəzakət nənə Bakıya gəlin köçənə qədər Allahyar baba və Nisə nənə onu Nəzakət nənəm darıxmasın deyə Bakıya göndərirlər. O da sağ olsun, valideynlərini itirən 3 oğul və bir qıza böyüklük edir.

Daha sonra Nəzakət xanım davam edir: "Kazım dayı oxumağa meyilli idi. Ali məktəbə imtahan verəndə müəllimlərdən biri onun bəy oğlu olduğunu bilir və instituta daxil olmasına mane olur. Bir neçə vaxtdan sonra Kazım dayı soyadını Aşurbəyov yox, Bəşirov yazdırır və yalnız bundan sonra təhsilini davam etdirə bilir. Kazım çox bacarıqlı bir insan idi. Gözəl hafizəsi, məntiqi, hərtərəfli biliyi, müşahidə qabiliyyəti onu həm tanınmış, həm də imkanlı bir şəxsə çevirmişdi.

Bakıdakı "Əlvan metallar" Kombinatında Əmək nəzarəti şöbəsində nəzarətçi işləyirdi. SSRİ-nin bütün bölgələri ilə əlaqə yaradırdı. Rusca gözəl danışırdı. Çox ciddi və bir qədər də xasiyyətcə sərt adam idi. Bir qızı vardı, adı Şücaət (xalasının adını qoymuşdu) idi. Bakıda imkanlı adamlardan sayılardı. Atamla həmyaşıd olduğu üçün ona belə deyərdi: "Ay Kazım, bir az dilin şirin olsaydı, sənə çatan olmazdı." O da deyərdi ki, bəs bəy nəslindən olmağımı necə bildirəydim.

Çox yaşamadı, xəstəlik bu dayımı da tez apardı. Bircə arzusu vardı: Nəzakət nənəm rəhmətə gedəndə qonşular yığışıb onu Şüvəlanda Mir Mövsüm Ağanın qəbiristanlığında basdırsınlar. Qohum-qardaş qorxudan bu dəfndə iştirak etməmişdi. Beləcə, nənəmin qəbri itib batmışdı. Kazım dayım deyərdi ki, kaş anamın qəbri olaydı, gedib ziyarət edərdim. Atamı Nargində qətlə yetirdilər, anamın da qəbri itdi".

Ailənin ikinci övladı **Midhət** də bu rejimin haqsızlıqlarının qurbanı olur. Gənclik ömrünün bir neçə ilini həbsxana divarları arasında keçirir. Sonra da müharibə və aldığı ağır yaralar ömrünə qənim kəsilir. Cavanlıqdan canı xəstəlik tapır, həyatı boyu onun əziyyətini çəkir.

Bunları bizə Midhət bəyin qızı İradə Aşurbəyova danışır.

İ.Aşurbəyova 1956-cı il yanvarın 2-də Bakı şəhərində anadan olub. "Böyüyüb boya-başa çatdığım ev Təzəpir məscidinin yuxarı qapısında, Mustafa Sübhi küçəsində yerləşirdi. Orta təhsilimi 1963-1973-cü



Məhəmmədhəsən Bəşir bəy oğlu Aşurbəyov

illərdə 190 saylı məktəbdə almışam. 1981-ci ildə Bakı Dövlət Universitetinin (ozamankı ADU) Filologiya fakültəsini bitirmişəm", – deyir İradə xanım. "Atam Aşurbəyov Midhət Bəşir bəy oğlu isə 1914-cü ildə Bakıda doğulmuşdu. Atam yadımda belə qalıb: ağırtəbiətli, eyni zamanda mehriban, qayğıkeş, qohumcanlı, xeyirxah, dostluqda möhkəm, olduqca ağıllı və savadlı, böyük dünyagörüşünə malik bir insan kimi. Son dərəcə mədəni idi. Bu, görünür, bəyzadəliyindən, aldığı tərbiyədən irəli gəlirdi. Heç vaxt səsinin tonunu qaldırmazdı. Bir dəfə də olsun dilindən kobud söz eşitməzdik. Anamla da, bizimlə də mehriban davranırdı. Buna baxmayaraq, biz ondan çəkinirdik. Heç vaxt qardaşlarımın onunla açıq söhbət etdiklərini, yaxud nəsə istədiklərini görməmişdim. Sözümüzü atama həmişə anam çatdırardı.

Mütaliə etməyi çox sevərdi. Evimizdə böyük kitabxanası vardı. Bütün mövzularda kitablar oxuyardı. Bizə də çox oxumağı tövsiyə edərdi. Deyərdi ki, maraqsız kitab yoxdur. İnsan oxuduğu hər bir kitabdan, qəzetdən çox şey öyrənir. Hər gün Sahil bağına 3-4 saatlıq gəzib-dolaşmağa gedirdi. Qayıdanda mütləq təzə kitab alardı. Aldığı kitabları – klassiklərin əsərlərini, roman, povest, hekayə və şeirləri mən də oxuyardım. Atam, əsasən, rus dilində mütaliə edərdi. O, tez-tez uşaqlığından danışardı, biz də maraqla qulaq asardıq.

Babam Bəşir bəy həbs olunana qədər atam, əmilərim və bibim qayğısız zəngin bir həyat yaşamışdılar. Onların tərbiyəsi ilə alman, fransız və rus millətindən olan dayələr, mürəbbiyələr məşğul olurmuşlar. Babam Nəriman Nərimanovla çox yaxın dost imiş, böyüklərimiz deyərdi ki, hətta ona qohumluğumuz da çatır. Sovet hakimiyyəti 1920-ci ildə qurulanda artıq repressiyalar başlamışdı. Atam danışırdı ki, Nərimanov babama söz verib ki, nə qədər canım sağdır, sənə heç kim toxuna bilməz. Elə də olmuşdu. Atamın xalaları ailələri ilə birgə xarici ölkələrə köçüb gedirlər. Bacılardan təkcə Nəzakət nənəm babamla, uşaqları ilə qalır. Bəşir bəy heç bir yerə köçmək istəmir. Deyir ki, hökumət mənim malımı, mülkümü, var-dövlətimi əlimdən alıb. Daha nə edəcəklər ki, mənə?!

1925-ci ildə Nəriman Nərimanov vəfat edir. Ondan sonra Bəşir bəy Aşurbəyov da təqiblərə məruz qalır, nəhayət, həbs olunur. 1930-cu ildə güllələnir. Nənəmin, uşaqlarının ən ağır, məşəqqətli günləri bun-



Yuxarıda sağdan: **Bəşir bəyin oğlanları Midhət bəy, Məmmədhəsən bəy, Kazım bəy**
Ortada: **Balaxanım nənə, solda qızı Gülüzar və qohum uşaqlar**

dan sonra başlanır, çox əziyyət çəkirlər. Nənəm 42 yaşında vəfat edir, atam, əmilərim, bibim bir-birindən ayrı düşürlər. Hərəsi bir qohumun evində yaşayır. Atam ali təhsil ala bilmir. Bəy oğlu olduğu üçün bütün qapılar üzünə bağlanır. Çox çətinliklə texnikum təhsili almağı bacarır. Ən məşəqqətli, üzücü həyatını isə 18 yaşında ikən yaşayır".

İradə xanım böyük ürəkağrısı, üzüntü ilə sözlərinə davam edir: "Bunlar şəxsən atamın öz dilindən eşitdiklərimdir: Bəşir babamın evində uzun zaman çalışanlardan biri sovet hakimiyyətinin ilk illərində bir mağaza işlədirmiş. Ailəmizdən gördüyü yaxşılıqların müqabilində atamı yanında işə düzəldir. Bir müddət sonra həmin adam artıqtamahlıq edir, mağazanı başqalarına oğurlatdırır. Atamın heç nədən xəbəri olmur. Onu malları daşımaqdan ötrü fayton gətirməyə yollayırlar. Tezliklə işin üstü açılır. Atam da bu cinayət əməlinin iştirakçılarından biri kimi həbs edilir.

Babam Bəşir bəy həbs olunduğu vaxt atam, əmilərim soyadlarını dəyişiblərmiş, Bəşirov kimi tanınırmışlar. Çünki başqa cür yaşamaq

mümkünsüz idi. Amma məhkəmə günü prokuror atamı dərhal tanıyır və ona əsl soyadı qaytarılır.

Atamın bu hadisədə ciddi bir günahı olmasa da, prokuror ona ölüm hökmü tələb edir. Nisbətən "insaflı" olan hakim isə onun cavanlığını nəzərə alaraq atama, guya, rəhm edir və 10 il həbs cəzası kəsir. Cəza müddəti bitən kimi o, Böyük Vətən müharibəsində iştirak etmək üçün ön cəbhəyə göndərilir. Ukrayna və başqa bölgələrdə vuruşur, ağır yaralanır. Müharibədən qayıdanda yaşı 30-dan çox idi. 39 yaşında ailə qurur. Anam ondan 20 yaş kiçik idi.

Midhət bəy çox bilikli, möhkəm hafizəli bir insan idi. Mən ali məktəbə qəbul imtahanlarına hazırlaşanda tarix fənnindən mənə atam kömək edirdi. Biletlər üzrə bütün sualların cavablarını bilirdi və həvəslə öyrədirdi. Müharibə mövzusuna o vaxt suallarda geniş yer ayrılmışdı. "Stalinqrad ətrafında döyüş", "Leninqradın blokadası", "Kursk döyüşü" və s. mövzulara aid bütün sualların cavablarını dəqiqliyi ilə danışırdı.

Anamın bibisi qızı Güllü Əbilova Ali Sovetin katibi vəzifəsində çalışırdı, tarix elmləri namizədi idi. Atama böyük hörmət bəsləyirdi. Onun biliyinə, savadına heyran idi. Bir dəfə dedi ki, Midhət qardaş, mən tarixçi olsam da, tarixi məndən yaxşı bilirsən.

Atam, ümumən, hər sahədə savadlı idi, geniş dünyagörüşünə malik idi. Uzun müddət mühasib kimi çalışmışdı. Çox gec evləndiyi və dünyasını tez dəyişdiyi üçün övladlarından heç birinin xeyir işini görə bilməmişdi. 1977-ci ildə həyatdan köçəndə cəmi 63 yaşı vardı".

Midhət bəyin iki oğlu, iki qızı olub. Atası böyük övladına babasının adını qoyubmuş. Bəşir 42, kiçik oğlu Zahid isə 51 yaşında ağır xəstəlikdən vəfat ediblər.

"Fikirləşirəm ki, kaş atam sağ olaydı, ondan daha çox şey öyrənərdik, nəslimiz, soy-kökümüz haqqında daha zəngin məlumat toplayardıq. Ona veriləcək o qədər suallarım vardı ki..." – deyir İradə xanım və təəssüflə əlavə edir ki, əfsus, zamanı geri qaytarmaq mümkün deyil.

İradə xanımın kiçik bacısı Aida xanım evin sonbeşiyi olduğundan böyük bacı və qardaşlarına nisbətən atasını daha az görüb: "Mən məktəbi bitirən il atam rəhmətə getdi. O gün indiki kimi xatirimdədir.



Midhət bəy Aşurbəyov



Midhət bəyin oğlu Bəşir bəy



Midhət bəyin oğlu Zahid bəy



Midhət bəyin qızı İradə xanım



Midhət bəyin qızı Aida xanım

Ağlım kəsəni, ömrüm boyu heç bir yas mərasimində belə izdiham görməmişdim. Qardaşlarımın, sinif yoldaşlarımın dediyinə görə, atamın tabutunu daşıyanlar cənazəni Təzəpir məscidindən çiyinlərində İnşaatçılar prospektinə qədər aparıblar. İzdihamın bir hissəsi İnşaatçılar prospektində idi, bir hissəsi isə Təzəpir məscidi ilə üzbəüz yerləşən evimizdən çıxırdı. Bakı kəndlərindən Aşurbəyovları tanıyanlar dəfn mərasiminə gəlmişdilər. İndi siz izdihamın böyüklüyünü təsəvvürünüzə gətirin. Bu, atama, xüsusilə Bəşir babama olan hörmətin, ehtiramın təzahürü idi. Biz atamızı çox sevirdik. Eyni zamanda ondan çox da çəkinirdik. Bizimlə həmişə pərdəli davranardı. Heç vaxt istədiklərimizi ona birbaşa bildirməzdik. Bu işdə anam Hökumə xanım bizimlə atam arasında elçi rolunu oynayırdı.

Atam Midhət bəy Aşurbəyov olduqca savadlı adam idi. Yaddaşı çox mükəmməl idi. Müharibə iştirakçısı olan atam cəbhədə feldşer işlədiyinə görə tibb sahəsində də çox məlumatlı idi.

O, bizə həyatı, ata-anası haqqında ara-sıra danışardı. Rəhmətə getdiyi günə qədər biz onu sırf Aşurbəyov olaraq tanımışıq. Ölümündən sonra isə ana tərəfinin də məşhur zadəganlar nəslindən olan Zülqədərlər şəcərəsinə bağlılığını bilmişik. Məktəbdə oxuduğumuz vaxtlardan atam bizə sovet hakimiyyətinin əliqanlı olduğunu söyləyərdi, deyərdi ki, onlar sizin babalarınızın qatilidirlər. Gözümüzü açandan evimizdə kişi sözü, kişi zabitəsi görmüşdük. Həbsxana mühiti atamın səhhətinə çox pis təsir göstərmişdi. Ağlımız kəsəndən onu canı ağrıyan görmüşdük.

Atam Midhət bəy çox zəngin daxili mədəniyyətə malik bir insan idi. O, bizə daim qayğı ilə yanaşardı. Sözün əsl mənasında, əsilzadə idi. Əfsuslar olsun ki, atamı çox tez itirdik", – deyə Aida xanım nəmli gözlərini silir.

"Həqiqətin alovu onu aparanın əlini tez-tez yandırır...İnsan həqiqətə qovuşanda isə mənən saflaşır". Bu fikirlər Əbu Turxanın hikmət dünyasındandır.

BƏY QIZI

"Əsilzadəlik ali bir dəyərdir... Əsilzadəlik kübar davranışlardır, başqalarına örnək olan həyat tərzidir, nəciblikdir, alicənablıqdır, yüksək zövqdür, nümunəvi ailə modelidir".

Qədim yunan filosofu Aristotel bu təbəqəyə aid insanların cəmiyyətdə əsas söz sahibi olmalarını kamil həyat tərzinin formalaşdırılmasından ötrü mühüm vasitə sayırdı. Çünki uşaqlıqdan əhatə olunduqları mühit, aldıqları tərbiyə və təhsil onlara bir çox sahələrdə başqaları üçün də nümunə yaratmağa, ictimai həyatda ali dəyərlərin rolunu yüksəltməyə, insanları öz şəxsi örnəkləri ilə bu dəyərlər ətrafında bir araya gətirməyə şərait yaradır.

Cəmiyyətin imtiyazlı təbəqələri, tanınmış nəslin nümayəndələri – Romada patrisilər, İngiltərədə perlər, Rusiyada boyarlar, zadəganlar, Polşada panlar, Azərbaycanda xanlar, bəylər, ağalar və digərləri tarixboyu cəmiyyətdə elitar mühit formalaşdırıblar. Dünya ədəbiyyatının, akademik musiqinin, rəngkarlıq sənətinin, teatrın bir çox parlaq nümunələri yaranma səbəblərinə görə məhz bu mühitə borcludur. Bu şedevrləri ərsəyə gətirən əksər hallarda əsilzadələrin mənəvi ehtiyacları, tələbatları olub. Müasir dünyamızın ən rəğbət doğuran insan davranışlarından biri kimi xeyriyyəçiliyin yayılmasında da tarixboyu başqalarına fayda verməyə çalışan əsilzadələrin rolu böyük olmuşdur. Kübarlıq, əsilzadəlik anlayışı çağdaş dövrdə də intellektual və mənəvi üstünlüyü əsaslandıran elitist konsepsiya kimi qəbul olunmaqdadır.

...O da dünyaya gəldiyi ailədə, mənsub olduğu nəslin böyüklərinin davranışlarında məhz belə görmüşdü...



Bəşir bəyin qızı Rəbiyyə (Roza) xanım



Rəbiyyə (Roza) xanım



Bəşir bəy Aşurbəyovdan yadigar qalmış imzalı əşyalar

Sovet rejiminin "qırmızı terror"u əsilzadələri qəddarcasına məhv edib cəmiyyətdə əsilzadəlik institutunu, demək olar ki, tam sıradan çıxarsa da, bu dəyərləri insanların ruhundan silib ata bilməmişdi və nə qədər qadağalar olsa belə, onların daşıyıcıları özlərini hər yerdə büruzə verirdilər...

DƏNİZƏ OXUNAN DUA

"Həyat iki əbədiyyət arasında yarğan, iki qara bulud arasında çaxan şimşəkdir".
Əmin ər-Reyhani

Ailə albomlarını vərəqləyib buradakı şəkillərə baxmağı çox sevərdi. Səliqəli, şıq geyimli, kübar görkəmli bir kişinin şəklini ilk dəfə görüb anasından onun kim olduğunu soruşmuşdu. "Babandır, mənim atam – Bəşir bəy Aşurbəyov",- demişdi.

Anası "bəy" kəlməsini nə qədər sevgi ilə dilə gətirsə də, bu söz onun uşaq dünyasında ildırım kimi çaxmışdı. Bu, təbii bir münasibət idi... O zaman sovetin özünün spesifik prinsipləri hökm sürürdü. İdeoloji baxışlar, düşüncə tərzi sosializmin qanunlarına tabe idi. Sovet məktəbində müəllimlər kübar nəsilləri, əsilzadə bəyləri düşmən kimi qələmə verirdilər.

Ana bütün bu qarışıq düşüncələri qızının tərəddüdlü gözlərindən anlamışdı. Fikrini bircə cümlə ilə bitirmişdi: "Böyüyüncə babanla qürur duyacaqsan".

O, bundan artıq bir kəlmə də söyləməmişdi. Görünür, övladının uşaq dünyasında yaranan ziddiyyəti daha da böyütməkdən ehtiyatlanmışdı. Digər tərəfdən, qorxurdu ki, qız evdə eşitdiklərini sinif yoldaşlarına, müəllimlərinə də danışar. Beləliklə, söz-söhbət yayılar və onlar növbəti dəfə sovet sisteminin qəzəbinə gələrlər. Dövr, zəmanə ağır idi...

Qızın isə xəyalı başqa yerlərdə idi. O, qarşısındakı şəklə baxa-baxa soruşmuşdu:

– Bəs indi babam haradadır?



Rəbiyyə (Roza) xanım qızı Nəzakətlə

Ana övladının bu sualını da cavabsız qoymuşdu. Onun dolan gözlərindən anlamışdı ki, Bəşir bəy Aşurbəyov indi onların yaşadıqları dünyadan çox-çox uzaqlardadır. Vaxt, zaman yetişincə, həqiqətlər ortaya çıxınca anasının həmin anlarda çəkdiyi acıların ağırlığını dərinliklərinə qədər duyub hiss etmişdi. Anlamışdı ki, bir atanın hərdən təsəlli kimi ziyarətinə getməkdən ötrü kiçicik bir məzar daşının da olmaması övlad üçün nə deməkdir. Duymuşdu ki, anası – bu xanım-xatın bəy qızı atasının yoxluğuna görə ürəyində nə qədər böyük bir dərd gəzdirmişdir.

Bəli, azğın bolşeviklər bütün varını-yoxunu, onillərlə toplanmış sərvətlərini, Bakının müxtəlif yerlərində ucaltdığı mülkləri içindəki bütün əmlakları ilə əlindən alandan sonra Bəşir bəyin quruca canını da ona çox görmüş, üstəlik, Nargin adasında güllələdikdən sonra cəsədini dənizə ataraq balaca bir məzar yerinin olmasına da imkan verməmişdilər.

Anasının hər dəfə Xəzərə baxınca doluxsunmasının, dodağının altında dualar zikr etməsinin səbəbini onda başa düşmüşdü.

Yaşa dolduqca ona Bəşir bəy Aşurbəyov haqqında daha çox danışırdılar. Bu söhbətlərdən sonra babasını yaxından tanıdı, tanıdıqca da belə bir kişinin şəcərəsindən olması ilə qürur duydu.

Bəşir bəy Aşurbəyov həbs edilib güllələnərkən cəmi 11 yaşında olan Rəbiyyə xanım bu kitabın nəşrinin əsas təşəbbüskarı olan Nəzakət xanım Aşurbəyovanın (Ələkbərova) anası idi. Ömrün davamında çoxları Rəbiyyə xanımı Roza kimi tanıyacaqdı. O, atası Bəşir bəyin maarifçilik missiyasını davam etdirərək müəllim ixtisasına yiyələnəcəkdi. Yüksək savadı, sənətinə sevgisi, əsl zadəgan nəcibliyi ilə insanların böyük hörmətini qazanacaqdı. Həyatının hər bir anında atası Bəşir bəyin, anası Nəzakət xanımın adını uca tutacaqdı. Dünyaya gətirdiyi yeganə övladına da anasının xatirəsini yaşatmaq üçün Nəzakət adını verəcəkdi. Nənəsindən yadigar qalmış ad timsalında iki əsilzadə soyundan Bəşir bəy Aşurbəyovdan və Allahyar bəy Zülqədərovdan gələn işığı davam etdirmək Rəbiyyə xanımın övladı Nəzakət xanım Aşurbəyova-Ələkbərovanın qismətinə yazıldı. Daşıdığı Nəzakət adının, Aşurbəyov soyadının mənəvi dəyəri onun üçün bir ömürlük məsuliyyətə çevrildi.

Bu soyadın yaratdığı çətinliklər də çox olmuşdu. Bəşir bəyin – 1930-cu ildə "xalq düşməni" ləkəsi ilə güllələnmiş ailəsinə mənsub olmaları həyatın müxtəlif dönəmlərində qarşılarına əngəllər çıxarmışdı. Bunu bəhanə gətirərək irəliləyişlərinə mane olanlar tapılmışdı. Amma vaxt gələcək zaman onları Bəşir bəy Aşurbəyov adını sevgi ilə çəkən, bu ada görə onlara böyük hörmətlə yanaşan insanlarla da rastlaşdıracaqdı. Atasının günahsız yerə həbsi və güllələnməsi Rəbiyyə xanım üçün böyük bir dərd idi. O inanırdı ki, nə vaxtsa Bəşir bəyin günahsızlığını sübuta yetirə, bəraət almasına nail olaraq adını təmizə çıxara biləcək. Bütün varlığı ilə buna can atırdı, atasının narahat ruhu qarşısında özünə ən böyük mənəvi borc bilirdi. Amma hələlik belə bir imkan yox idi. Bəşir bəy Aşurbəyov kimi millət xadimlərinə qənim kəsilmiş sovet rejimi taxtından düşməmişdi.

Bəşir bəyin qızı Rəbiyyə xanım müəllimə idi. İkinci Dünya müharibəsi illərində Güzdək kəndində məktəb direktoru işləmişdi. Bacarığına, savadına, insanpərvərliyinə görə ən yüksək vəzifələrdə çalışmağa layiq bir insan idi. Amma Bəşir bəy Aşurbəyovun qızının

ancaq kənd məktəbinin direktoru vəzifəsinə qədər irəli getməsinə imkan vermişdilər.

Onda çox çətin illər idi. Doyunca çörək tapılmırdı. İnsanlar sıxıntı çəkirdilər. Aclıq, xüsusən, uşaqlara əziyyət verirdi. Həmin ağır illərdə Rəbiyyə xanım şagirdləri pulsuz yeməklə təmin etməkdən ötrü min bir çətinliklə məktəbdə bufetin açılmasına nail olmuşdu. Güzdəkdəki ilk bağçanın təməlini də Rəbiyyə xanım Aşurbəyova qoymuşdu.

Göründüyü kimi, missiya davam edirdi. Bir zamanlar Bəşir bəyin el-oba üçün gördüyü işləri indi qızı imkanı çatan qədər yerinə yetirməyə çalışırdı. İnsanlara hansısa şəkildə fayda vermək istəyirdi. Bu, hər hansı vəzifə öhdəliyi yox, soy-kökdən gələn bir keyfiyyət idi. Rəbiyyə xanımın bu xeyirxah əməlləri həm də onu göstərirdi ki, mənəviyyatlı insan istənilən şəraitdə, mühitdə, ən məhdud imkanlar daxilində belə öz nəcabətini büruzə verəcək.

ƏSL MÜƏLLİM

" ...Müəllimlərin ruhu təhsil məbədində əbədi həyata qovuşur. Öyrədənin olmadığı yerdə isə böyüklük yoxdur".
Mahmud Şəbüstəri

Rəbiyyə xanımın sevib-seçdiyi, taleyini birləşdirdiyi insan – Sultan Kərəmoğlu da onunla eyni dəyərləri paylaşan əsl ziyalı idi. El arasında adı böyük sevgi ilə "Sultan müəllim" kimi çəkilən bu insan dövrünün tanınmış riyaziyyat müəllimlərindən sayılırdı.

Cəfakeş pedaqoqun şərəfli ömür dastanını qısaca vərəqləmək yetər ki, onun necə böyük qəlbə və mənəviyyata, saf amallara sahib olduğunu görəsən. Sultan Kərəmoğlu Güzdək camaatı üçün həm də nüfuzlu el ağsaqqalı, zəngin mənəviyyat adamı idi.

...Özünəməxsus ənənələri, qədim tarixi olan bir məkanda – Abşeron rayonunun Güzdək kəndində fasiləsiz olaraq 65 ilə yaxın sinif müəllimi işləmişdi. O, hələ gənclik dövründən onu əhatə etmiş mühitin enişli-yoxuşlu, keşməkeşli maneələri, haqsızlıqları ilə üzləşsə də, bənzərsiz və maraqlı pedaqoji aləmə qovuşmaq, müəllim peşəsinin incə sirlərinə vaqif olmaq, mənimsədiyi zəngin bilikləri tədris etmək kimi müqəddəs arzudan sapınmamışdı. Yuxusuz gecələrinin, gərgin zəhmətinin bəhrəsi kimi 1941-ci ildə təhsil aldığı Müəllimlər İnstitutunun Tarix və Coğrafiya fakültəsini bitirərək doğma kəndinə qayıtmışdı. Gənc Sultanı cəmi bir ay sonra taleyin hökmü ilə vətənin müdafiəsi uğrunda döyüşlərdə iştirak etmək üçün ön cəbhəyə aparırlar. Əfsanəvi 416-cı diviziyanın tərkibində Şimali Qafqaz cəbhəsində gedən şiddətli döyüşlərdə böyük şücaət göstərən S.Kərəmoğlu "Döyüş



Sultan Kərəmoğlu



Sultan Kərəmoğlu və Rəbiyyə (Roza) xanım. Odessa

xidmətlərinə görə", "İgidliyə görə" medallarla, habelə "Böyük Vətən müharibəsi uğrunda I dərəcəli orden"lə təltif edilir. 1943-cü ildə ağır yaralanaraq II qrup əlil kimi ordu sıralarından tərxis olunur. Doğma kəndi Güzdəyə üz tutaraq burada yaranmış müəllim çatışmazlığı ilə bağlı orta məktəbdə əmək fəaliyyətinə başlayır.

Arzularının gerçəkləşdiyi bu müqəddəs məkanda işə sonsuz məhəbbət və həvəs göstərir. Azərbaycanın sabahı kimi yetişən uşaqlara yüksək təhsil vermək əzmi ilə yorulmadan vicdanla çalışır. Daxilindən gələn tükənməz enerji ilə pedaqoji fəaliyyətini davam etdirən Sultan Kərəmoğlu peşəsinə hədsiz vurğunluğu, səmimiliyi, işgüzarlığı və tələbkarlığı ilə qısa zamanda məktəb kollektivinin dərin hörmətini qazanır. Tədris prosesinə bir sıra yeniliklər tətbiq edir. Dərslərini daha səmərəli metodlar əsasında qurur. Gənc pedaqoqun bu novatorluğu tez bir zamanda onu çoxlarından fərqləndirir: Sultan müəllim respublikanın təhsil işinə səmərə gətirən təqdirəlayiq iş təcrübəsinin müəllifinə çevrilir. İlk növbədə, valideynlə məktəb arasında sıx ünsiyyət yaradır. Az sonra sinifdəki bütün şagirdlər yaxşı və əla qiymətlərlə oxumağa başlayırlar.



Sultan Kərəmoğlu, Rəbiyyə xanım və qohumları Qabil

Pedaqoji fəaliyyətdə ilkin uğurlara imza ataraq böyük nüfuz qazanan Sultan Kərəmoğlunun özünəməxsus daha bir yeniliyi elmlərin şahı olan riyaziyyat fənni üzrə tədrisin daha səmərəli təşkilindən ibarət olur. Onun riyaziyyata dair 50-yə qədər elmi məqaləsi Moskvada nəşr olunan "Naçalnaya şkola" jurnalında işıq üzü görür.

Ayrı-ayrı illərdə gərgin əmək və zəngin təcrübə əsasında hazırladığı 95 adda əyani riyazi vəsait bu günün özündə də aktuallığını qoruyub saxlayır.

Dəyərli ziyalının milli məqsədlərə, xalqın maariflənməsinə hesablanmış əzmkar pedaqoji fəaliyyəti daim yüksək dəyərləndirilmiş, Sul-

tan Kərəmoğluna ayrı-ayrı illərdə dövlətin yüksək orden və medalları verilmişdir. 1972-ci ildə "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunmuşdu. 1976-cı ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Şərəf nişanı"na layiq görülməsini isə Sultan müəllim həyatının böyük uğuru, taleyin xoş müjdəsi, unudulmaz hadisəsi sayırdı.

1981-ci ildə Heydər Əliyevin daha bir fərmanı ilə o, "Qırmızı əmək bayrağı" ordeni ilə təltif olundu. 1987-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görüldü.

Pedaqoqluğu ilə yanaşı, o, həm də əsl el kişilərindən idi. Yurdunun, obasının hansısa probleminin həllində qabağa düşüb yüksək təşkilatçılıq bacarığı göstərərdi. Sultan müəllim Lökbatan-Bakı yolunda bulağın yaradılmasında böyük rol oynamışdı.

Sultan Kərəmoğlunun xarakterində əsl Azərbaycan kişisinə xas mərdanəlik, qorxmazlıq, əhdinə və sevgisinə sadiqlik vardı. O, Rəbiyyə xanıma könül verərkən ailə qurmaq istədiyi xanımın kimin övladı olduğunu bilirdi. Üstəlik, Rəbiyyə xanım Sultan Kərəmoğludan 4 yaş böyük idi. Sovet rejiminin "xalq düşməni" sayılan insanların ailə üzvləri qədər onlarla doğma münasibət quran şəxslərə də sərt münasibətini yaxşı anlayırdı.

Hələ ötən əsrin 40-cı illəri idi, repressiya dalğası səngiməmişdi, düşmən axtarışları davam edir, pusquda durmuş "qırmızı terror" yeni ömürləri qoparıb aparırdı. Belə bir vaxtda Sultan Kərəmoğlu Bəşir bəy Aşurbəyovun qızı ilə ailə qurmağa qərar vermişdi. Əlbəttə, bu addımın yarada biləcəyi gələcək çətinlikləri, təzyiq və maneələri nəzərə alaraq onu öz sevdasından çəkindirmək istəyənlər də tapılırdı. Amma gənc Sultanın qərarı qəti idi. Nə olursa-olsun, əhdinə sadiq qalacaq, sevib-seçdiyi qızla – Rəbiyyə xanım Aşurbəyova ilə bu izdivaca girəcəkdi. Bütün çətinliklərə baxmayaraq, onlar 1941-ci ildə ailə qurdular və 47 il birgə ömür yaşadılar. Rəbiyyə xanım 1988-ci ildə 69 yaşında dünyasını dəyişdi, S.Kərəmoğlu isə 2008-ci ildə 87 yaşında rəhmətə getdi.

Bu izdivacdan Tanrı 78 il əvvəl – 1943-cü ilin 9 yanvarında Aşurbəyovlar nəslinin davamçısı Nəzakət xanımı ailəyə hədiyyə göndərdi.

GÜZDƏKDƏN BAŞLANAN DÜNYA, YAXUD MİLLƏTPƏRƏST KİŞİNİN NƏVƏSİ

"Dünya bir evdirsə, övlad işıqdır".
Səməd Vurğun

O, körpəlikdən ziyalı mühiti ilə əhatə olunmuşdu. Bu da Nəzakət Aşurbəyovanın (Ələkbərovanın) gələcəkdə müəllim sənətini seçməsində çox mühüm rol oynamışdı. Evlərindəki kitabxanada A.S.Makarenkonun "Pedaqoji poema"sı vardı. Yazıb oxumağı öyrənib müxtəlif bədii ədəbiyyat nümunələri ilə mütaliə dünyasına daxil olandan sonra bu əsəri də çox sevmişdi. Kitab ona bir həqiqəti aşılamışdı ki, öz sənətinə bütün varlığı ilə bağlı olan müəllim ətrafındakı böyük toplumu işığa, inkişafa, parlaq gələcəyə qovuşdura bilər.

Əksər Bakıətrafı bölgələr kimi, təbiət onun doğulub boya-başa çatdığı Güzdəkdən də yaşıllıq səxavətini bir qədər əsirgəmişdi: hara baxırdın, göz işlədikcə bozumtul dağlar, çılpaq təpəliklər uzanıb gedirdi. Bu torpaqlara təbiət öz hədiyyəsini elə bil ki, yerin üstündə deyil, altında qismət etmişdi. Yaxınlıqdakı bir çox ərazilərlə yanaşı, Güzdəkdə də çoxlu daş karxanaları vardı. Dağların sinəsini doğrayıb mişar daşları hazırlayırdılar. Möhkəm külək əsəndə karxanalar tərəfdən ətraf toz-dumana bürünərdi. Bununla belə, doğulduğu qəsəbəni çox



Nəzakət xanım Aşurbəyova – Ələkbərova



Sultan Kərəmoğlu, Rəbiyyə (Roza) xanım və yaxınları

sevirdi. Həyat onun üçün Güzdəkdən başlamışdı. Elə bilirdi ki, bura dünyanın ən füsunkar guşəsidir. Uşaqlıq həm də öz xatirələri, atalı-analı günləri ilə gözəldir. O da Güzdəkdə keçən uşaqlığını indinin özündə də ömrünün ən gözəl günləri sayır.

Hələ orta məktəb şagirdi ikən bilirdi ki, onun doğulduğu qəsəbə Abşeronun qədim yaşayış məntəqələrindən biridir. Güzdəyin tarixi təxminən 800 il hesablanır. Qəsəbədə 500 yaşı olan daş tapılıb. O, Güzdək toponiminin mənşəyini də hələ uşaqlıqdan öyrənmişdi. Bəzi mənbələrə görə, "Güzdək" – "türk məskəni", digər mənbələrə görə isə "payız otlağı", "payız binəsi", "kölgəli yer" deməkdir. Eyni zamanda "Güzdək" quzu saxlanılan yer mənasını da daşıyır.

Bu cür bilgilər hələ ömrün erkən illərindən onu özünə cəlb edirdi. Müxtəlif mənbələrə müraciət edib öyrəndiklərini başqaları ilə də bölüşməyə həvəs göstərirdi.

Bütün sovet uşaqları kimi, o da oktyabryat nişanı, pioner qalstuku daşımış, yuxarı siniflərdə əksər həmyaşıdları kimi komsomola keçmişdi. Amma yaşa dolduqca böyüklərin evdə pıçıltı ilə etdikləri



Nəzakət xanm kitabın müəllifi İradə Əliyeva ilə

söhbətlərdən anlamağa başlamışdı ki, bütün bunlar onların həyatına çox böyük faciələr gətirmiş amansız bir rejimin saxta atributlarıdır. Ona görə də belə bir rejimdən öz gələcəyi üçün o qədər də yüksək nələrsə gözləmirdi.

Orta təhsilini 1950-1960-cı illərdə Güzdək kənd orta məktəbində almışdı. Sonuncu sinfin axırıncı günlərinə doğru ən böyük arzusu Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin tələbəsi olmaq idi. Ədəbiyyat sevgisi artıq ruhuna hakim kəsilmişdi. Yazı qabiliyyəti də çox yaxşı idi. İnşalarını oxuyan dil-ədəbiyyat müəllimləri onun filoloji istedadını yüksək qiymətləndirir, bu işin ardınca getməyi tövsiyə edirdilər.

1961-ci ilin isti yay günü arzularının ardınca Azərbaycan (indiki Bakı) Dövlət Universitetinə gəldi. Artıq qəbul kampaniyası başlamışdı. Həyətdə, dəhlizlərdə, qəbul komissiyasının çalışdığı zalda həyəcanlı abituriyentlər, valideynlər dolaşırdılar. Əlləri titrəyə-titrəyə sənədlərini üzərində "Filologiya fakültəsi" yazılmış masanın arxasındakı universitet əməkdaşına uzadanda özünü bir anlıq səmada hiss etdi. Ona elə gəldi ki, illərlə qəlbində gəzdirdiyi ülvi arzuya toxunur. Heç zaman arzusuna bu qədər yaxın olmamışdı. Amma qarşıda hələ qəbul imtahanları vardı, onlardan müvəffəqiyyətlə keçməli idi. Bununla belə, öz hazırlığından da əmin idi. Bilirdi ki, obyektivlik prinsipləri qorunsa, bütün imtahanları müvəffəqiyyətlə verəcək.

Orta məktəbdə müəllimlərdən öyrəndikləri, hazırlıq prosesində çəkdiyi ardıcıl zəhmət, yazı qabiliyyəti, həqiqətən, imtahanlarda öz sözünü dedi. 1961-ci ildə adını Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olunmuş abituriyentlər siyahısında görəndə uçmağa qanadı yox idi.

Ömrünün böyük bir hissəsini uşaqların, gənclərin təhsilinə, millətin tərəqqisinə həsr etmiş mesenatın nəvəsi universitet tələbəsi olmuşdu. Elə bilirdi ki, babaları Bəşir bəy Aşurbəyovun, Allahyar bəy Zülqədərovun, nənələri Seyid Nisə xanımın, adını daşıdığı Nəzakət xanımın ruhları da səmadan onun bu uğuruna baxıb şadman olur.

Ötən əsrin 60-cı illərində Azərbaycan Dövlət Universiteti, xüsusilə, Filologiya fakültəsi özünün qızıl dövrünü yaşayırdı. 1960-cı illərə xas milli intibah bu təhsil məbədində çox hiss olunurdu. Belə bir

mühiti yaradanlarsa həmin dövrdə ADU-nun Filologiya fakültəsində dərs deyən məşhur alimlər, pedaqoqlar idilər.

Nəzakət xanım Aşurbəyovanın universitetdə təhsil aldığı illərdə burada Mir Cəlal Paşayev, Hadi Mirzəzadə, Muxtar Hüseynzadə, Zinyət Əlizadə, Fəridə Vəzirova, Ağamusa Axundov, əruzşünas alim Əli Fəhmi, Cəlal Abdullayev, Bəxtiyar Vahabzadə, Təhsin Mütəllibov, Əliyar Qarabağlı, İnayət Bəktaşi, Pənah Xəlilov, Cəfər Xəndan, Vaqif Vəliyev, Ələvsət Abdullayev və başqa elm xadimləri dərs deyirdilər. Onların mühazirələrini dinləməyi Nəzakət xanım taleyinin gözəl bir bəxşişi sanırdı. Müəllimləri də bu bacarıqlı, elmə-biliyə həssas bəy nəvəsinin çalışqanlığını yüksək qiymətləndirir, gələcəyinə böyük ümidlər bəsləyirdilər.

Unudulmaz tələbəlik illərindən onun yaddaşına çox maraqlı əhvalatlar, xatirələr həkk olunub. İndi də xatırladıqca həmin illərə qayıdır, gənclik şövqü ilə işıqlanan çöhrəsinə xoş təbəssüm qonur. Bir hadisəni isə xüsusilə tez-tez yada salır. Çünki bu hadisənin həyatında xüsusi yeri var, burada müəllimlik taleyinin ən uğurlu başlanğıclarından biri, ona özgüvən qazandıran maraqlı bir an əks olunub.

IV kursda oxuyanda qruplarındakı tələbələrlə birgə tədris təcrübəsinə getmişdilər. Nəzakət xanım təcrübəni Bakıdakı məşhur 132 nömrəli məktəbdə keçəcəkdi. Təcrübə günlərinin birində ona sınaq dərsi həvalə olundu. Özü də həmin sınaq dərsini 132 nömrəli orta məktəbin müəllimi, təcrübəsi və müəllimlik fəaliyyəti ilə adı dillər əzbəri olan Bilqeyis Təhmasibin sinfində tədris etməli idi. Üstəlik, pedaqogika və metodikanı dərindən bilən sevimli müəllimi Əliyar Qarabağlı da Nəzakət Aşurbəyovanın dərsini dinləyəcəkdi.

Gənc tələbə sınaq dərsinə çox ciddi hazırlaşmış, şagirdlər üçün görkəmli yazıçı Mirzə İbrahimovun "Gələcək gün" romanından "Fərda" hekayəsini hazırlamışdı. Sınaq dərsi başa çatdı... çox həyəcanlı idi... Əliyar Qarabağlı və Bilqeyis Təhmasib isə bu gənc müəllimənin dərsinə heyran qalmışdılar. Bu, onun müəllimlik karyerasının ilk yüksək qiyməti idi.

Nəzakət Aşurbəyova Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini başa vurduqdan sonra bir vaxtlar oxuduğu Güzdək kənd orta məktəbinə həm Azərbaycan dili və ədəbiyyat, həm də fars dili müəllimi kimi təyinat aldı. Bir neçə ildən sonra isə məktəbdə tədris hissə müdiri vəzifəsində də çalışmağa başladı.



Nəzakət xanım, Ramiz Abutalıbov və Mələk xanım Zilli

Ailənin yeganə övladı olduğundan Nəzakət müəllimə valideynlərinə mənəvi dayaq idi. Zəhməti ilə qazandığı ilk əməkhaqqını gətirib atasına verəndə onun gözlərindəki fərəhi, halal müəllim maaşı ilə böyüdüb boya-başa çatdırdığı zəhmətkeş övladının əlinin halal çörəyə çatmasından İlahi şükranlıq duyğusunu indiyə qədər unuda bilməyib. Həmin anı həyatının ən şirin xatirələrindən biri kimi hafizəsində gəzdirir.

Güzdək məktəbində Nəzakət müəllimə IX-X sinif şagirdlərinə dərs keçməklə yanaşı, axşam kursunda da böyüklərə savad öyrədirdi. Onun dərs dediyi şagirdlərin hərəsi sonradan bir sahədə uğur qazandı. Mühəndis, müəllim, rəssam, alim, cərrah, ictimai xadim, müğənni, xeyriyyəçi kimi yetişdirdiyi şagirdləri ona həmişə başucalığı gətirdilər. Onlar Nəzakət xanım Aşurbəyovanın şagirdləri olduqlarını, bu əsilzadə xanımdan dərs aldıqlarını indi də söz düşəndə böyük qürur hissi ilə vurğulayırlar.

***

Deyirlər ki, keçmiş həm də müəyyən əxlaqi dəyərlərin tarixidir. Zor dünyanı darmadağın edir, zaman isə böyük işlər görür, gec-tez əsl həqiqətləri ortaya çıxarır. Ötən əsrin 80-ci illərinin sonlarına doğru vəziyyət dəyişməyə başladı. On illərlə öz mövcudluğunu qorxu, xof, zorakılıq hesabına qoruyub saxlamış SSRİ-nin dayaqları yavaş-yavaş laxladı. İllərlə qaranlıq zindanlara qapadılmış tarixi həqiqətlər gün işığına çıxdı. Minlərlə repressiya qurbanının günahsızlığının isbatı üçün yollar göründü. Onda Nəzakət xanım babası Bəşir bəyin, anası Rəbiyyə xanımın narahat ruhları qarşısında ən müqəddəs mənəvi borcunu yerinə yetirmək üçün Bəşir bəy Aşurbəyovla bağlı məsələyə yenidən baxılması ilə əlaqədar dövlət orqanlarına müraciət etdi.

Nəzakət xanım deyir: "Respublika Prokurorluğunda olanda məni yaşlı bir prokuror qəbul etdi. Sən demə, babamı yaxşı tanıyırmış, o, nə vaxtsa Bəşir bəy Aşurbəyovla yaxın ünsiyyətdə olubmuş. Mənə babamla bağlı xatirələrini danışmağa başladı. Onu böyük rəğbətlə yada saldı, xeyriyyəçi kimi gördüyü işlərdən söhbət açdı. Hətta dedi ki, Bakıya ilk avtomobili gətirən də babanız Bəşir bəy Aşurbəyov olub".

Nəzakət xanımın dövlət qurumlarına müraciətləri nəticəsiz qalmır. Azərbaycan Respublikası Prokurorluğunun 30 noyabr 1992-ci il tarixli rəyinə əsasən, Bəşir bəy Aşurbəyova bəraət verilir. Beləliklə, yeganə "günahı" öz xalqına fayda verməkdən, camaatının xeyrinə çalışmaqdan ibarət olan Bəşir bəyin təqsirsizliyi sübuta yetirilir. Onillərlə qara ləkə kimi nəslin oğul-qızlarının, nəvələrinin həyat və karyerasına mane olan "xalq düşməninin övladları" adı üzərlərindən götürülür.

Tarix həmişə hər şeyi öz yerinə qoyur...

Əbu Turxan deyir: "Keçmişin izlərini tarixin qaranlıqlarında deyil, bu günümüzün iç qatında axtarmalıyıq". Həqiqət işığında isə görünməyən, oxunmayan heç nə qalmır...

BİRLƏŞƏN ÖMÜR YOLLARI

"Bütün mənəvi-əxlaqi dəyərlərin kökü ailədən başlayır".
Nəsirəddin Tusi

Azərbaycan Dövlət Universiteti Nəzakət xanıma təkcə zəngin bilik və bacarıqlar qazandırmamışdı. O, taleyinin ikinci yarısı, ömür-gün yoldaşı, Azərbaycanın Əməkdar jurnalisti Rafiq Ələkbərovla da elə doğma universitetində tanış olmuşdu. Gələcək həyat yoldaşı onunla eyni vaxtda universitetin Jurnalistika fakültəsində təhsil alırdı. Onlar 1967-ci ildə xoşbəxt bir ailənin təməlini qoymuşdular.

Dövrünün böyük mütəfəkkiri Nəsirəddin Tusi özünün məşhur "Əxlaqi-Nasiri"əsərində yazırdı ki, "...Bütün mənəvi-əxlaqi dəyərlərin kökü ailədən başlayır". Həqiqətən də, ailə tarixən insan zəkasının əzəmətindən, saf və ülvi duyğuların hüdudsuzluğundan, kövrək, həssas ruhundan rişələnən məhəbbət və anlaşma ittifaqı sayılıb. Bəşəriyyətin ali varlığı, əşrəfi sayılan insan həyatın mənasını, ilk növbədə, bu müqəddəs, saf izdivacda tapıb.

Nəzakət xanım ömür-gün yoldaşının xarakterində öz atası Sultan Kərəmoğluna xas bir çox mənəvi keyfiyyətləri görürdü. Mərdlik, dəyərlərə sadiqlik, insanpərvərlik hələ tələbəlik illərindən onun da şəxsiyyətinin əsas cizgiləri kimi nəzərə çarpırdı. 17 may 1939-cu ildə Qəbələdə ziyalı ailəsində doğulmuş Rafiq Abdulla oğlu Ələkbərov da fitrətən ziyalı bir insan idi. Qəbələ şəhər orta məktəbində oxumuş, 1963-cü ildə isə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirmişdi.



Əməkdar jurnalist Rafiq Abdulla oğlu Ələkbərov



Rafiq Ələkbərov və Nəzakət xanım

O, əmək fəaliyyətinə 1956-cı ildən başlamışdı. Qəbələnin rayon qəzetində ədəbi işçi, 1963-1965-ci illərdə "Sovet kəndi" qəzeti redaksiyasında korrektor, ədəbi işçi vəzifəsindən xüsusi müxbir, məsul katib və şöbə müdirliyinədək pillə-pillə irəliləmişdi.

Azərbaycan sovet mətbuatının tanınmış simalarından, perspektivli, peşəkar gənc kadrlardan biri kimi Rafiq Ələkbərov da gələcək karyerasını partiya işində görürdü. Amma bu ona bəy nəvəsi ilə ailə qurmağa mane ola bilməmişdi. Bunun gələcək siyasi fəaliyyətində ona müəyyən problemlər yarada biləcəyini fərq etsə də, sevgisinə sadiqliyindən, mərdliyindən irəli gələrək bütün çətinlikləri gözə almış, Nəzakət xanım Aşurbəyova ilə ailə həyatı qurmuşdu.

Artıq dövr dəyişirdi. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə ölkə rəhbərliyinə gəlişindən sonra cəmiyyətdə milli şüurun oyanışı baş verir, insanların peşəkarlığı, mənəvi-əxlaqi keyfiyyətləri əsas meyara çevrilməyə başlayır, kadr seçimində bu meyarlar nəzərə alınırdı. Bir sıra üstün keyfiyyətlərinə görə Rafiq Ələkbərov da 1977-1979-cu illərdə Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasında təhsil almaq üçün Moskvaya göndərilmişdi.



Rafiq Ələkbərovun 60 illik yubileyində

Bakıya qayıtdıqdan dərhal sonra isə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə o, Azərbaycan KP MK-da təlimatçı kimi işə qəbul edilmiş, 1979-1986-cı illərdə həmin vəzifədə çalışmışdı. 1986-1992-ci illər arasında o, Mərkəzi Komitənin orqanı olan "Təşviqatçı", sonradan "Dialoq" jurnalında baş redaktor işləmiş, 1989-cu ildə "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdü. 1992-2000-ci illərdə Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətində, sonra Vergilər Nazirliyində çalışmışdır.

Harada çalışmasından asılı olmayaraq Rafiq müəllim başqaları üçün vicdanlılıq, sadəlik, səmimilik, əqidəsinə sadiqlik mücəssəməsi idi.

Tanrı bu ailəyə iki oğul, üç qız övladı – Asiman, Abdulla, Kəmanə, Səma və Günəşi bəxş etmişdi. Rafiq müəllimlə Nəzakət xanım övladlarını da özləri kimi yüksək mənəviyyatlı, pak və əxlaqlı böyüdüb tərbiyələndirirdilər. Çoxları bu xoşbəxt ailəyə kənardan baxıb qibtə də edirdi. Əfsuslar olsun ki, vaxtsız ölüm Rafiq Ələkbərovu bu dünyadan çox tez apardı. O, 2001-ci ilin 21 iyununda vəfat etdi. Hazırda Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində Rafiq müəllimlə bağlı sənədlərin, onun şəxsi əşyalarının qorunduğu ayrıca güşə yaradılıb.



Allahyar bəy Zülqədərovun xaricdə yaşayan nəvələri Xosrov Sadehi və Elxan Zillinin Bakı səfərindən

Ölümündən sonra jurnalist Akif Cabbarlının onun haqqında qələmə aldığı "Cənnətdə nə var, nə yox, Rafiq müəllim" adlı kitabı da Rafiq Ələkbərovdan bu dünyanın insanlarına qalmış bir söz xatirəsidir.

Həyat yoldaşının vəfatından sonra Nəzakət xanımın xoşbəxt dünyası alt-üst olsa da, özünü tez toplamağa çalışdı. Anladı ki, övladlarına görə, mərhum ömür-gün yoldaşının xatirəsi üçün bundan sonra daha güclü olmalı, Rafiq müəllimin onlarla bağlı arzularının göyərməsindən ötrü üzərinə daha ağır yük götürməlidir.

Müəllimlik peşəsi, sevdiyi iş həyatının ən ağır anlarında Nəzakət xanımın böyük köməyi oldu. Bu mənəvi gücə sarılaraq özünü əyilməkdən, yıxılmaqdan qorudu, müvazinətini düzəldərək irəliyə doğru addımladı.

Onun Güzdək orta məktəbindəki müəllimlik həyatı 70-ci illərdə başa çatmışdı. Ailə qurduğu ildən pedaqoji fəaliyyətini Yasamal rayonundakı 21 nömrəli orta məktəbdə davam etdirməyə başlamışdı. Qısa zamanda o, qabaqcıl təhsil işçisi kimi parlaq ad qazanmışdı. Bakıdakı orta təhsil müəssisələri arasında xüsusi yeri olan bu məktəbdə



Allahyar bəy Zülqədərovun xaricdə yaşayan nəvələri Xosrov Sadehi və Elxan Zillinin Bakı səfərindən

Nəzakət xanım yorulmadan çalışır, rayon və şəhər üzrə keçirilən elmi-pedaqoji konfranslarda maraqlı məruzələri olurdu.

Bəy nəvəsi olması sovet dövründə Nəzakət Aşurbəyovaya karyera irəliləyişlərində ciddi maneələr törətsə də, müstəqillik dövründə peşəkar pedaqoq kimi layiq görüldüyü mükafatları çox olub. Fəxri fərmanlar, Təhsil Nazirliyinin I dərəcəli diplomu Nəzakət müəllimənin bu sənətin çətin yollarında çəkdiyi əziyyətlərə verilmiş qiymətdir. 2009-cu ildə isə təhsil sahəsində qazandığı uğurlara görə "Xan qızı Natəvan" mükafatına layiq görülüb.

Mərhum Rafiq Ələkbərovla qurduğu xoşbəxt ailənin gələcək davamçıları, şirin-şəkər nəvələr Nəzrin, anasının adını daşıyan Rəbiyyə, Rafiq, Toğrul, Tural, İradə, Səccad, Hüseyn, Banu, Nəbi də Tanrıdan Nəzakət xanıma ən gözəl paydır.

Nəzakət xanımın həyatında xüsusi yeri olan insanlardan biri də ağıllı məsləhətləri, nəsihətləri, yardımları ilə ona yol göstərən, istiqamət verən Sona nənə idi. O, sadə, mələksima bir qadın idi. Güzdək

məktəbində çalışırdı. Yüksək insani keyfiyyətləri ilə seçilirdi. Mehribandı, xeyirxahdı, ürəyiyumşaq, qəlbikövrəkdi. Yaxın münasibət, sıx əlaqələr bu istiqanlı, nəcib insanı ailəyə doğmalaşdırmışdı və uşaqlar onu əziz adamı kimi qəbul edirdilər. Ən əsası zəngin mənəviyyata malik olan Sona nənə sanki ailəni şər qüvvələrdən qoruyurdu: duaları, alqışları, xeyirli işlərə yozulan sözləri-söhbətləri ilə... Nəzakət xanım deyir ki, neçə-neçə insan bu dünyada həyat sürüb, çoxları ilə ünsiyyətdə olub, tanınıb, yaxın dosta, sidaşa çevrilib. Amma Sona nənə kimi xatırlanmayıb. Onun xatirəsi bizim üçün olduqca əzizdir.



Sona nənə

***

"Yaşın ixtiyar çağlarında daha dərindən anlayıram ki, bir insanın öz övladlarına, nəvə-nəticələrinə miras qoya biləcəyi ən böyük sərvət hər yerdə hörmətlə çəkilən təmiz adıdır", – deyir Nəzakət xanım.

Bolşevizmin taleyini qaraltdığı doğmalarının ömürlüyündən kədərli epizodları xatırladıqca Nəzakət xanımın gözləri dolur.

Bizsə bu kədərli gözlərin ardında sovet repressiyasının min bir əzab-əziyyətə düçar etdiyi milyonlarla insanın faciəsini, bütöv nəsillərin taleyinə vurduğu sağalmaz yaraları, amma eyni zamanda bu zərbələrə, ağrı-acılara duruş gətirən, sərt ruzigardan sınmayıb yaşayan, ucalan, insanlarımızı da özü ilə birgə ucaldan mənəvi dəyərlərimizi görürük. Bu dəyərlər xalqımızın ruhudur.

"Babam Bəşir bəy Aşurbəyovun aşıb-daşan var-dövlətindən onun övladlarına maddi olaraq heç nə qalmadı. Amma onun vaxtilə maddi imkanlarından istifadə edib el-oba üçün gördüyü işlər, insanlara etdiyi yaxşılıqlar, bu gün də sevgi ilə xatırlanan şərəfli adı hər şeyə dəyər", – deyə Nəzakət xanım qürurla gülümsünür. "Mən də bütün ömrüm boyu belə bir kişinin nəvəsi kimi Bəşir bəy Aşurbəyov adına layiq olmağa çalışmışam. Çox istərdim ki, bu ad övladlarım, nəvə-nəticələrim üçün də həyat bələdçisi olsun", – söyləyib sözünü bitirir.

SON SÖZ YERİNƏ

"Ömür çoxölçülüdür və hər ölçüdə
fərqli bir həyat yaşanır".
Əbu Turxan

Hər ömür bir hekayədir... Əgər kiminsə ömrünün bütün məqamlarını qələmə almağı bacarsaq, dünyanın indiyə qədər yazılmış, nəql edilmiş ən maraqlı hekayəsi alınar. Amma insan nəinki başqalarının, heç öz ömrünün bütün önəmli məqamlarını yazıya çevirmək gücündə deyil...

Buna görə də, kitablardakı, filmlərdəki zaman da, ömürlər də reallıqlardakından xeyli fərqlənir, şərti xarakter daşıyır. Barələrində hətta material sarıdan heç bir kasadlıq çəkmədiyin kəslər haqqında yazanda da istər-istəməz nələrisə ixtisar etməli olursan. Hansısa məqamları ötəri təsvir etmək lazım gəlir.

Bəşir bəy Aşurbəyovun ömür hekayəsində isə belə olmadı. Əlimizdə olan materialları mümkün qədər təfsilatlı şəkildə təqdim etməyə çalışdıq. Onun haqqında arxivlərin bağlı qapıları arxasında saxlanan və vaxtilə qadağa altında olan materialların hamısına əlimiz yetmədiyindən olsun ki, bu kitabdan kənarda qalan məqamlar da oldu. Ümid edirik ki, Bəşir bəy Aşurbəyov irsinin gələcək tədqiqatçıları bizim bilmədiyimiz mənbələrə də gedib çıxa biləcəklər.

Bu kitab isə üzərinə götürdüyü mənəvi missiyanı əvvəldən sona qədər layiqincə yerinə yetirməyə çalışır. Bizim niyyətimiz Bəşir bəy Aşurbəyov şəxsiyyətinə həyatı, mühiti, fəaliyyəti ilə birgə nəzər salmaq idi. Kitab Bəşir bəy Aşurbəyov şəxsiyyətini göz önündə canlandırır və onu diqqətlə oxuyan hər kəsə bu ömrün işığında bir həyat dərsi keçir.

Kitabda yazılanlar dünyanın fani, bizim iradəmizdən kənar, dəyişkən, hər cür gözlənilməzliklərlə dolu bir məkan olması həqiqətini növbəti dəfə anladır. Belə bir dünyada insanın malik olduğu ən böyük maddi sərvətin, malın-mülkün, düzənli həyatın bir anın içində əldən çıxa biləcəyini göstərir.

Amma bütün bunlara rəğmən, onu da öyrədir ki, insanın mənəvi keyfiyyətlərinin ona qazandırdıqlarını əlindən heç kim, heç nə ala bilməz. İnsanın öz saleh əməlləri ilə əldə etdiyi xalq rəğbəti həmişə onunladır, daim insanların uca tutduqları, sevgi ilə dilə gətirdikləri kübarlıq, əsilzadəlik adındadır. Bu adsa var-dövlətlə, vəzifə kürsüsü ilə, hökm sahibliyi ilə qazanılmır. Bu rəğbəti formalaşdıran başqalarına etdiyin yaxşılıqlardır. Cəmiyyətə verdiyin faydalardır. Dünyada nə isə gərəkli bir iz, xeyirli bir əməl, gözəl bir nişanə qoyub getməkdir. Onda adam başqalarının qəlbində həmişə minnətdarlıq duyğuları ilə xatırlanacaq. Bütün bunlar onu zamanın fövqünə ucaldacaq, ruhunu ölməyə, unudulub yox olmağa qoymayacaq.

Bəşir bəy Aşurbəyov da ömrünü belə yaşamış kişilərdən idi. Ona görə də adı bu gün insanların qəlbindədir. Bolşeviklərdən olsaydı, Nargində güllələyib ilim-ilim itirdikləri vücudu kimi Bəşir bəyin və minlərlə onun kimi repressiya qurbanlarının yaddaşlardakı izlərini də yox edərdilər. Amma xatirələrə atəş açmaq olmur. Elin yaddaşını qətlə yetirmək mümkün deyil. Başqalarının yaddaşı bir insanın təmiz adı, ali şəxsiyyəti üçün ən təhlükəsiz yerdir və Bəşir bəy də həmin yerdədir. Onun haqqında xatirələr əsasında qələmə aldığımız kitabın anlatdığı əsas həqiqətlərdən biri də budur.

Bu kitabı yaza-yaza maraqlı bir məqam da diqqətimi çəkdi. Adətən, insan həyatda olanda onun yol verdiyi yanlışlıqlara daha çox diqqət yönəlir. Fəaliyyətinin, davranışlarının hər məqamı az qala zərrəbinlə təftiş edilir. Köçünü sürüb dünyadan gedəndən sonra isə əsas xatırlanan yaxşı əməlləri olur, xırdalıqlarsa çox tez unudulur.

Bəşir bəy Aşurbəyovu idealizə etmək fikrindən uzağam. Materiallar üzərində çalışan zaman da bu meyildən mümkün qədər kənarda durmağa çalışdım. Heç kim, təbii ki, ideal deyil. Bəşir bəy Aşurbəyov da öz zəmanəsinin övladı, iri neft sənayeçisi, sahibkar, cəsarəti, qorxmazlığı ilə Bakının adı dillərdə dolaşan igidlərindən sayılırdı. Dostla-

rı kimi xeyli sayda düşmənləri də vardı. Şübhəsiz ki, Bəşir bəyin də kimlərləsə yolları kəsişmişdi, kimlərinsə xətrinə dəymişdi, kimlərisə haqq-nahaq incitdiyi vaxtlar olmuşdu. Amma aradan onilliklər keçəndən sonra bunlar heç kimin yadına düşmür daha. İndi insanların Bəşir bəy Aşurbəyov haqqında əsas xatırladıqları onun el-obaya gün ağlamasıdır. Camaat üçün tikdirdiyi məsciddir, məktəbdir, evlərdir, xalqın övladlarının təhsil almasından ötrü yaratdığı imkanlardır, nəşr etdirdiyi qəzetlərdir.

Və nəhayət, İttihad Partiyasındakı fəaliyyətidir.

Bəşir bəy Aşurbəyov bu yurdun insanları üçün gördüyü saysız-hesabsız xeyirli işlərlə yanaşı, həm də məhz ideya adamı idi.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin XIX əsrin ortalarından etibarən həyata keçirdikləri maarifçilik xəttinin XX əsrin sonlarına doğru öz hədəfinə çatmasına, bu gün tarixinin ən qüdrətli çağlarını yaşayan müstəqil Azərbaycan dövlətinə sahib olduğumuza görə Bəşir bəy Aşurbəyov kimi ideya adamlarına, millət xadimlərinə əbədi minnətdarlıq borcumuz var. Bu kitabın hər sətri də o minnətdarlıq duyğusunun diktəsi ilə qələmə alınıb.

Yeni ömürlərdə görüşənədək, əziz oxucu...

FOTOQALEREYA

Azərbaycan Respublikası

ƏSİLZADƏLƏR MƏCLİSİ

ŞƏHADƏTNAMƏ № 657

Bu sənəd

NƏZAKƏT SULTAN QIZI ƏLƏKBƏROVA - AŞURBƏYOVANIN

Əsilzadələr Məclisinin üzvü olduğunu təsdiq edir.
Bundan belə bu sənəd sahibinin bütün nəsli
Azərbaycanın Əsilzadələri cərgəsində hesab olunur.

Əsilzadələr Məclisinin sədri
M.M. İbrahimbəyov

Azərbaycan Respublikası Əsilzadələr Məclisi
semper ante

Katib

Bakı 7 İyul 2008-ci il

Danışan şəkillər...



Bəşir bəyin oğulları:
Məhəmmədhəsən bəy, Midhət bəy, Kazım bəy



Bəşir bəyin qızı Rəbiyyə xanım



Midhət bəy Aşurbəyov



Midhət bəyin həyat yoldaşı Hökumə xanım



Bəşir bəyin qızı Rəbiyyə xanım



Nəzakət xanım tələbəlik illərində



Əyləşənlər (soldan sağa): Sultan Kərəmoğlu, Rəbiyyə xanım, Sara xanım Aşurbəyli, Zəhra xanım Qazıyeva
Ayaq üstə: Bəşir bəyin oğlu Kazım bəy və Sara xanımın bacısı Nəzimə Aşurbəyli





Allahyar bəyin qızları Şövkət xanım (solda) və Dilarə xanım



Allahyar bəyin nəvəsi Elxan Zilli (soldan ikinci) yaxınları ilə



Allahyar bəyin qızı Leyla xanım bacısı oğlu Xosrov bəylə



Leyla xanım Zülqədərova Bavariyada



Dilarə xanım Zülqədərovanın övladları Xosrov və Sirus



Dilarə xanımın 1961-ci ildə ABŞ-dan Bakıdakı qohumlarına göndərdiyi foto



Şücaət xanım Zülqədərovanın həyat yoldaşı, Nobel şirkətinin İran nefti üzrə rəisi Rəhim bəy Xəlili övladları ilə



Xosrov bəy və Elxan Zilli M.Füzuli adına Əlyazmalar İnstitutunda



Dilarə xanım övladları Xosrov və Sirusla



Xosrov bəy qızı Darien və xalası qızı Mələk xanımla

Bitən həsrət...



Nəzakət xanım və qızı Səma Parisdə qohumları ilə



Xosrov bəy Nəzakət xanım və qızı Səma ilə



Xosrov bəy Bakıda



Elxan bəy və Xosrov bəy Bakıda Rafiq Ələkbərovun evində



Xosrov Sadehinin Bakı səfərindən



Xosrov Sadehi və Elxan Zilli Bakıda qohumlarının əhatəsində



Xosrov Sadehinin Qəbələyə səfəri, Nohurgöl



Leyla xanımın Nəzakət xanıma məktubları

Nəslin davamçıları...



Nəzakət xanım və həyat yoldaşı Rafiq Ələkbərov



Nəzakət xanımın qızı Səma həyat yoldaşı Rəsul və övladları Nəbi və Banu ilə



Nəzakət xanımın oğlu Asiman həyat yoldaşı Nərgiz və övladları Rafiq, Nəzrin və Rəbiyyə ilə



Nəzakət xanımın nəvəsi Nəzrin həyat yoldaşı ilə



Nəzakət xanımın oğlu Abdulla həyat yoldaşı Nigar və övladları Səccad və Hüseynlə



Nəzakət xanımın oğlu Abdulla və nəvəsi Toğrul



Nəzakət xanımın qızı Günəş həyat yoldaşı Anarla



Nəzakət xanımın qızları Günəş, Səma və nəvələri (soldan) Tural, Banu, İradə və Nəbi



İradə Əliyeva gəlini Günəşlə



Nəvə İradə Əliyeva



Nəzakət xanım nəvələri ilə



Midhət bəyin nəvələri və qızı İradə xanım



İradə xanımın qızı Nigar və nəvəsi Leyli



İradə xanımın qızı Nərgiz və nəvəsi Cavanşir



Midhət bəyin qızı Aida xanım və nəvələri Leyla, Bəxtiyar, nəticəsi Ülvi



Aida xanımın oğlu Elvin övladları Ülvi və Aydanla



İradə xanımın oğlu Fariz



Nəzakət xanım dayıqızları İradə və Aida ilə



Nəzakət xanım Qoşabulaqdan olan qohumlarla



Nəzakət xanım Aşurbəyovlar nəslinin nümayəndələri ilə



İşıqlı missiya yeni ömürlərdə davam edir...

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1 "Azərbaycan" qəzeti, 12 yanvar 1920.
2 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II. Bakı,"Lider", 2005.
3 Bakıxanov A.A. "Gülüstani-İrəm". Bakı, 2010.
4 Baxşəliyev F.E. XIX əsrin sonu – XX əsrin əvvəlində Şimali Azərbaycanda sahibkar kəndində bank-kredit təşkilatlarının xidmətlərindən istifadə haqqında // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2012, № 1.
5 Bünyadov Z. Qırmızı terror. Bakı, "Azərnəşr", 1993.
6 Rəsulzadə M.Ə. "Stalinlə ixtilal xatirələri", Bakı, "Elm" nəşriyyatı, 1991,
7 Dadaşov A. Qarabəy Qarabəyov. Bakı, "Letterpress", 2012.
8 Cabbarlı C. "Ədirnə fəthi", Bakı, 1996.
9 Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Bakı, "Elm", 2003.
10 Əliyev Ə. Fədakar istiqlalçı Miryaqub Mehdiyev və onun fransızca əsərləri haqqında qeydlər //"525-ci qəzet", 2 fevral 2018-ci il.
11 Əliyeva İ. Bakı şəhərində qətliam // "Azərbaycan" qəzeti, 6 fevral 2015.
12 Əliyeva İ. Cəzasız qalmış cinayətlər // "Azərbaycan" qəzeti, 30 mart 2011.
13 Göyüşov A. Azərbaycanda ittihadçılıq. Bakı, "İrşad" Mərkəzi, 1997.
14 Göyüşov A. Milli hərəkatımız haradan başladı: ideya-fəlsəfi əsasları // https://islam.az/az/mezhaleler/i-slam-tarikhi/item/238-milli-hae-raekat-m-z-haradan-bashlad-i-deya-faelsaefi-aesaslar
15 Hacıyev S.T. Müasir Türkiyədə terror. Bakı, "Adiloğlu", 2005.
16 Hacıyev S.T. Türkiyə tarixində ermənilər və Rusiya (XIX əsrin sonundan 1920-ci ilədək). Bakı, "Çaşıoğlu", 2012.
17 Həsənov M. Qərib məzarlar. Fransa. Bakı, Heydər Əliyev Fondunun

nəşri, 2016.
18 Hüseynzadə Ə.A. Sabunçu toponiminin mənşəyi // Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin "Elmi əsərləri", tarix və fəlsəfə ser., № 7, 1975.
19 Hüseynoğlu T. Ədəbiyyatla yaşayıram. Bakı, "Azərnəşr", 1993.
20 İmaməliyev L. Məcidqızı. Yusif Vəzir Çəmənzəminli. Gündəliklər, Özüm üçün dəqiqələr ... Bakı, "Azərnəşr", 2001.
21 "İrşad" (qəzet) //https://az.wikipedia.org/wiki/İrşad_qəzet
22 İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri // "Strateji təhlil" jurnalı, Bakı, 2018, № 1-2.
23 "İttihad" qəzeti, 24 aprel 1919.
24 Kamaloğlu R. Türk dünyasının böyük ideoloqu // "Azərbaycan" qəzeti, 23 mart 1991.
25 Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi, Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları 1639-1828. Dörd cilddə. Birinci cild, Bakı, 2009.
26 Ordubadi M.S. Qanlı illər. Bakı, "Elm və təhsil", 2007.
27 Hüseynli R. (Xınnalı). Xınna dərəsində Keşişkənd – Qoşabulaq elləri. Bakı. SkyE. 2019.
28 Məsimoğlu R. Allahyar bəy Zülqədərov. Gəncə, "Qeyrət" nəşriyyatı, 2008.
29 Nazim Mustafa. Mənbələr azərbaycanlıların 1905-1906-cı illər soyqırımı haqqında // "Xalq qəzeti", 31 mart 2009.
30 Qılman İlkin. "Bakı qoçularının bilmədiyimiz tərəfləri" məqaləsi, 3 aprel 2018. Femida.az
31 Nəbi C. Axund Molla Məhəmməd Pişnamazzadə Azərbaycan mübarizəsində // http://ganca.org/index.php?option=com_content&view=article&id=343:eyxuelislam-axund-mhmmd-pinamazzad-&catid=4:axsiyyatlar&Itemid=3
32 Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, "Elm", 1999.
33 Aslan Kənan. XX əsrdə repressiyaya məruz qalanlar. Bakı, "Azərnəşr", 2011.
34 Aslan Kənan. 30-cu illərin günahsız qurbanları. Bakı, "Azərnəşr", 2015.
35 Aslan Kənan. Arxivlərdən gələn səslər. Bakı, "Elm və təhsil", 2020.
36 Rəhimov N. Azərbaycan din alimləri. Bakı, "Nurlar", 2014.
37 Rüstəmli A. Cəfər Cabbarlı və milli istiqlal hərəkatı. Bakı, "Gənclik", 2018.
38 Rüstəmova-Tohidi S. Azərbaycan dövrü mətbuatı. Bakı, "Azərnəşr", 1993.

39 Əliyeva İ. Repressiya burulğanı. "Letterpres" Nəşriyyat Evi. Bakı, 2015.
40 Səlimbəyli Ş., Zamanov N., Əliyev R. Erməni terroru - Qarabağda müharibənin başlaması. Bakı, "Avropa" nəşriyyatı, 2008.
41 Sovet hakimiyyəti uğrunda // https://praksis01.files.wordpress.com/2018/12/sovet-hakimiyyc999ti-uc49frunda-1.pdf
42 Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, "Azərnəşr", 1987.
43 "Tazə həyat" qəzeti, 8 aprel 1907, sayı 7.
44 Tahirzadə Ə. Ukraynada bir ay // "Azərbaycan müəllimi" qəzeti, 10 oktyabr 2012.
45 "Tərəqqi" qəzeti, 29 sentyabr 1908, sayı 64.
46 Tovuz bəyi Allahyar Zülqədərovun kəndindən reportaj // "Yeni Müsavat" qəzeti, 17 avqust, 2018.
47 Vəliyev A.A. Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı, "Elm və Təhsil", 2009.
48 Əbu Turxanın hikmət dünyası. Bakı, 2012.
49 Aforizmlər. Seçilmişlərdən seçilmişlər. Bakı, Çaşıoğlu, 2012.
50 Yaqublu N. M.Ə.Rəsulzadə ensiklopediyası. Bakı, 2013.

Rus dilində

51 История Баку и бакинцев // https://www.ourbaku.com/index.php
52 Мамедов М. Ашурбековы – бакинские гочу // https://www.ourbaku.com/index.php
53 Мамедов М. "Бакинские гочу Ашурбековы" //"Зеркало", 18.08.2012.

MÜNDƏRİCAT

Müəllifdən 5
Redaktordan 8
"Qırmızı terror"un qurbanlarından biri. 13
Keçmiş gələcəyə işıq salır 17
Zəmanə adamı 20
Bir məktubun izi ilə... 22
Məşhur Aşurbəyovlardan biri 26
Sabunçulu bəy oğlu 30
Xeyir əməllər sahibi 36
Sabunçu kəndində müqəddəs ocaq 41
Ağlın çırağı 45
Bitməyən kitab: mədəniyyət inkişafdır 47
O, Maksim Qorkini necə xilas etmişdi? 53
Ermənilərlə üz-üzə 60
Erməni şovinizmi haqqında: tarİxə bir nəzər. 63
Bəd əməllərin kökü bəd fikirlərdir 70
Şərə qalib gələn xeyir. 73
Mətbuata yaxın adam 75
O, qan davalarını yatırırdı 80
Səs-küylü cinayət 83
Həbs edilən üç Aşurbəyov 89
"İstənilmədiyim yerdən çıxıb getməyi özümə şərəf bilərəm" 92
Fəxri qəyyum. 96
Qafqaz sərdarı 103
Şöhrət çox ağır bir yükdür. 108
Dövrün siyasi mənzərəsinə baxış 116
Yalançı "kəndli üsyanı" 124
İki yuxusuz gecə.... 134
Qərib talelər 151
İttihadçı Bəşir bəy 163

Rusiya Müsəlmanları Firqəsi 169
Təzəpir məscidində mübahisə 174
Qarabəy Qarabəyovun "İttihad"a gəlişi 177
"Bir piyalə çay" 184
Mətbuat tariximizin "İttihad"ı 186
Ölümün bir addımlığında 191
20201 nömrəli cinayət işi 193
Təqiblər davam edir 200
Nəslin davamçıları, yaxud qırılan ömürlər 205
Bəy qızı 216
Dənizə oxunan dua 220
Əsl müəllim 224
Güzdəkdən başlanan dünya, yaxud millətpərəst kişinin nəvəsi 229
Birləşən ömür yolları 237
Son söz yerinə 244
Fotoqalereya 247
Danışan şəkillər... . . . . . *250*
Bitən həsrət... . . . . . *262*
Nəslin davamçıları... . . . . . *268*
İstifadə olunmuş ədəbiyyat siyahısı 282

İRADƏ ƏLIYEVA

BƏŞİR BƏY AŞURBƏYOV VƏ ZƏMANƏSİ



Texniki redaktor: Seyid Əliəsgər Behbudlu
Dizayn: Anar Mustafayev
Korrektor: Günay Behbudova
Fotoqraf: Ağəli Məmmədov